# KRİMİNOLOGİYA

Ali məktəblərin hüquq fakültələri
üçün dərslik

Daxili İşlər Nazirliyinin əməkdar işçisi, daxili
xidmət polkovniki, Azərbaycan Respublikasının
müharibə veteranı

**Ə.S.Piriyevin**

Bakı -1999



downloaded from KitabYurdu.az

# *Ümumi hissə*

## Fəsil 1. Kriminologiya elmi və onun predmeti.

**Kriminologiya bir elm kimi.**
**Kriminologiyanın başqa elmlər sistemində yeri.**
**Kriminologiyanın predmeti və məzmunu.**
**Kriminologiyanın metodologiyası və metodikası.**
**Kriminoloji tədqiqatların metodikası.**

## Fəsil 2.Cinayətkarlığın əsas göstəriciləri.

**Cinayətkarlıq.**
**Cinayətkarlığın keyfiyyət göstəriciləri.**
**Cinayətkarlığın kəmiyyət xarakterizəsi.**
**Cinayətkarlığın dinamikası.**
**Cinayətkarlığın digər göstəriciləri.**
**Latent cinayətkarlığın aşkar edilməsi metodikası.**

## Fəsil 3. Cinayətkarlığın səbəbləri.

**Cinayətkarlığın səbəblərinin anlayışı.**
**Cinayətkarlığın səbəblərinin təsnifi.**
**Cinayətkarlığın baş verməsinə kömək edən hallar (şərait).**
**İqtisadi münasibətlər və cinayətkarlıq.**
**Sosial münasibətlər və cinayətkarlıq.**
**Siyasət və cinayətkarlıq.**
**Cəmiyyətin mənəvi vəziyyəti və cinayətkarlıq.**

## Fəsil 4. Cinayətkarın şəxsiyyəti və kriminal davranışının səbəbləri.

**Cinayətkarın şəxsiyyət anlayışı.**
**Cinayətkarın şəxsiyyətinin öyrənilməsində sosial və psixoloji amillərin yeri.**
**Cinayətkarın şəxsiyyətinin öyrənilməsi həddi.**
**Cinayətkarın şəxsiyyətinin kriminogen xüsusiyyətlərinin öyrənilməsi.**
**Cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik xüsusiyyətləri; sosial- mövqe və sosial rollar.**
**Cinayətkarın şəxsiyyətlərinin təsnifi.**
**Fərdi kriminal davranışın mexanizmi.**
**Kriminogen motiv.**
**Kriminoloji viktimologiya - zərərçəkən və onun davranışı haqqında təlim.**

## Fəsil 5. Cinayətkarlığın qarşısının alınmasının ümumi problemləri.

**Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin yaranması.**
**Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin predmeti və quruluşu.**



downloaded from KitabYurdu.az

**Cinayətkarlığın qarşısının alınması sistemi və profilaktikanın subyektləri.**
**Cinayətlərin bilavasitə profilaktikasının subyektləri.**
**Hüquq mühafizə funksiyasının həyata keçirilməsində cinayətlərin profilaktikasının subyektləri.**
**Nəzarət funksiyasının icrasında cinayətlərin profilaktikasını həyata keçirən subyektlər.**
**Cinayətlərin profilaktikasına rəhbərliyi həyata keçirən subyektlər. Cinayətkarlığın qarşısının alınmasının sosial-iqtisadi və təşkilati əsasları.**
**Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsasları.**

## Fəsil 6. Qərb kriminologiyasında cinayətkarlığın səbəblərinə dair təlimlər.

**Qərbdə kriminologiyanın inkişafı tarixi.**
**Cinayətkarlığın səbəblərinə dair regional təlim.**
**Cinayətkarlığın səbəblərinə dair sosioloji təlim.**
**Müasir xarici kriminologiyanın əsas istiqamətləri.**
**Cinayətkarlıqla mübarizənin nəzəriyyəsində və təcrübəsində kriminoloji və sosioloji irsdən müsbət və yaradıcı istifadənin imkanları.**

# Xüsusi hissə.

## Fəsil 7. Mülkiyyət əleyhinə edilən cinayətlər və onların qarşısının alınması.

**Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətlərin kriminoloji xarakterizəsi.**
**Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətləri doğuran hallar.**
**Mülkiyyət əleyhinə edilən cinayətlərin qarşısının alınmasının ümumi sosial və xüsusi kriminoloji tədbirləri.**

## Fəsil 8. Zorakılıqla bağlı cinayətlər və onların xarakterizəsi.

**Zorakılıqla bağlı ağır cinayətlərin quruluşu, dinamikası və s. kriminoloji xarakterizəsi.**
**Zorakılıqla bağlı ağır cinayət törədənlərin şəxsiyyətinin kriminoloji xarakterizəsi.**
**Zorakılıqla bağlı ağır cinayətlərin səbəbləri, bu cinayətlərin baş verməsinə kömək edən hallar.**
**Zorakılıqla bağlı ağır cinayətlərin qarşısının alınmasına yönələn tədbirlər sistemi.**

## Fəsil 9. İqtisadiyyat sahəsində cinayətkarlıq və onun qarşısının alınması.

**İqtisadiyyatda baş verən cinayətlərin kriminoloji xarakterizəsi.**
**İqtisadiyyatda baş verən cinayətlərin səbəbləri və belə cinayətlərin baş verməsinə kömək edən şərait.**
**İqtisadiyyatda baş verən cinayətlərin qarşısının alınması.**

## Fəsil 10. Peşəkar cinayətkarlıq və onun qarşısının alınması.



downloaded from KitabYurdu.az

**Peşəkar cinayətkarlığın anlayışı və onun kriminoloji xarakterizəsi.**
**Müasir cinayətkarlıqda kriminal peşəkarlıq.**
**Peşəkar cinayətlərin təsnifi.**
**Peşəkar cinayətkarlığın səbəbləri və şəraiti.**
**Peşəkar cinayətkarlığın qarşısının alınması.**

## Fəsil 11. Mütəşəkkil cinayətkarlıq və onunla mübarizə tədbirləri.

**Mütəşəkkil cinayətkarlığın anlayışı və onun xarakterizəsi.**
**Mütəşəkkil cinayətkarlığın sosial təhlükəliliyi, meylləri, inkişafının proqnozu.**
**Mütəşəkkil cinayətkarlığın meydana gəlməsinin və inkişafının determinantları.**
**Cinayətkar birliklərin iştirakçılarının şəxsiyyəti.**
**Mütəşəkkil cinayətkarlığın qarşısının alınmasının xüsusi kriminoloji tədbirləri.**

## Fəsil 12. Residiv cinayətkarlıq və onun qarşısının alınması.

**Residiv cinayətlərin anlayışı.**
**Residiv cinayətlərin səciyyəsi, quruluşu və dinamikası.**
**Residiv cinayətkarlığın səbəbləri (doğuran hallar).**
**Residivistlərin şəxsiyyətinin kriminoloji xarakteristikası.**
**Residiv cinayətlərin qarşısının alınması.**

## Fəsil 13. Yetkinlik yaşına çatmayanların cinayətkarlığı.

**Yetkinlik yaşına çatmayanların cinayətkarlığının vəziyyəti, dinamikası, quruluşuna və motivlərinə görə kriminoloji xarakterizəsi.**
**Yetkinlik yaşına çatmayanların cinayətlərinin yayılmasının region üzrə xüsusiyyətləri.**
**Yetkinlik yaşına çatmayan cinayətkarların şəxsiyyətlərinin xüsusiyyətlərinin kriminoloji xarakterizəsi.**
**Yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəbləri. Yetkinlik yaşına çatmayanların cinayətlərinin qarşısının alınması.**

## Fəsil 14. Qadınların cinayətkarlığı və onun qarşısının alınması.

**Qadınların cinayətkarlığının vəziyyəti, quruluşu və dinamikası.**
**Qadınlar tərəfindən törədilən cinayətlərin səbəbləri.**
**Qadınlar tərəfindən törədilən cinayətlərin qarşısının alınması.**

## Fəsil 15. Hərbi qulluqçuların cinayətləri və onların qarşısının alınması.

**Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlığın vəziyyəti.**
**Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin səbəbləri.**
**Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin qarşısının**


downloaded from KitabYurdu.az

**alınmasının əsas istiqamətləri.**

## Fəsil 16. Penitensiar cinayətlər və onların qarşısının alınması.

**Penitensiar cinayətlərin kriminoloji xarakteristikası.**
**Penitensiar cinayətlərin səbəbləri.**
**Penitensiar cinayətlərin profilaktikası.**

## Fəsil 17. Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlər və onların qarşısının alınması

**Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin anlayışı, onların vəziyyəti və quruluşu.**
**Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin səbəbləri.**
**Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin qarşısının alınmasının ümümi sosioloji və xüsusi kriminoloji tədbirləri.**

*Kriminologiya.* Ali məktəblərin hüquq fakültələri üçün dərslik. Ə.Piriyevin ümumi redaksiyası altında - B.: Bakı Biznes Universitetinin nəşriyyatı, 1999-cu il

Dərslikdə kriminologiyanın bir elm kimi predmeti və məzmunu, kriminoloji tədqiqatların metodologiya və metodikası, cinayətkarlıq, onun əsas göstəriciləri və səbəbləri, cinayətkarın şəxsiyyəti və kriminal davranışının səbəbləri, cinayətkarlığın qarşısının alınmasının ümumi problemləri, qərb kriminologiyasında cinayətkarlığın səbəblərinə dair təlimlər, cinayətkarlığın müxtəlif növləri və onlara qarşı aparılan mübarizənin xüsusiyyətləri açıqlanır.

Bu dərslik ali məktəblərin hüquq fakültələrinin tələbələri, aspirantlar və müəllimlər, kriminologiya sahəsinin mütəxəssisləri, habelə kriminologiyanın problemləri ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulub.



downloaded from KitabYurdu.az

## Ön söz.

Son illərdə dövri mətbuatda, elmi məqalə və monoqrafiyalarda, bir çox beynəlxalq müşavirə və konfranslarda, cinayətkarlıq kimi mürəkkəb və çoxaspektli sosial-hüquqi hadisə ilə, onun təhlükəli təzahürləri, mütəşəkkil və iqtisadi cinayətkarlıq, terrorizm, narkomaniya və narkotizm, sifarişli qətllər, adamların girov götürülməsi və digər ağır forma və növləri ilə mübarizənin gücləndirilməsi zəruriliyi haqqında fikirlər daha qətiyyət və kəskinliyi ilə səslənməkdədir.

Cəmiyyətdə baş verən dəyişikliklər iqtisadi, siyasi, sosial və hüquq-mühafizə sahələrində islahatların həyata keçirilməsini tələb edir. Hüquqi dövlətin formalaşdırılması, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, vətəndaşların konstitusiya hüquq və azadlıqlarının qorunması və onlara etibarlı təminat verilməsi, cəmiyyət qarşısında duran ən mühüm vəzifələrdən hesab edilir.

Belə vəzifələrin yerinə yetirilməsi ilk növbədə hüquq pozuntuları ilə, cinayətkarlıqla mübarizəni bütün kəskinliyi ilə ön plana çəkir. Cinayətkarlıqla mübarizədə kökündən dönüş yaranması üçün hüquq-mühafizə orqanlarının, onların cinayətkarlıqla mübarizənin ön cəbhəsində gedən bölmələrinin təkcə maddi-texniki deyil, həm də kadr, intellektual potensialı xeyli yüksək olmalıdır.

Bu mübarizə yalnız o halda müvəffəqiyyət qazana bilər ki, belə bir mübarizəni həyata keçirən orqanların əməkdaşları cinayətkarlığı, onun təhlükəli forma və növlərinin yaranma səbəblərini, struktur və dinamikasını, meyl və qanunauyğunluqlarını düzgün təhlil etməyi bacarsın, inkişafının təmayüllərini proqnozlaşdıra bilsin, onunla mübarizənin strategiya və taktikasını, onun ayrı-ayrı xüsusən ağır növlərinin kriminoloji tədqiqi və qarşısının alınması üzrə yüksək elmi-nəzəri və metodiki səviyyədə hazırlanmış kompleks proqram və konsepsiyaları hazırlaya bilsinlər. Cinayətkarlıq kimi sosial bəlaya qarşı uğurlu mübarizə cəmiyyət miqyasında onun qarşısının alınmasına yönələn fəaliyyətin elmi təməl üzərində qurulmasını tələb edir. Bu da ilk növbədə kriminoloji nəzəriyyə ilə silahlanmış kadrların hazırlanmasını vacib vəzifə kimi qarşıya qoyur.

Kriminologiya kursunun öyrənilməsi üçün dərsliklər və dərs vəsaitləri ilə yanaşı, cinayətkarlıqla mübarizə üzrə bağlı tələbələrin Azərbaycan Respublikasının qanunları, Milli Məclisin qərarları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və sərəncamları ilə müntəzəm tanış olmalarını və təhlil etmələrini nəzərdə tutur.

Kriminologiyanın tədrisi respublikada cinayətkarlığın vəziyyəti ilə bağlı statistik məlumatlarla, məhkəmə təcrübəsində ayrı-ayrı cinayətlər üzrə aparılmış ümumiləşdirmə materialları ilə sıx surətdə əlaqələndirilməlidir.

20-ci əsrdə kriminologiya özünün bir elm kimi təmayül tapmasını və zərurətini sübut etdi. Artıq indiki dövrdə kriminoloji biliklərdən istifadə etmədən cinayətkarlıqla mübarizənin səmərəli təşkilini təsəvvür etmək çətindir.



downloaded from KitabYurdu.az

Onlar sosial idarəetmədə, qanunverici və hüquq tətbiqedici fəaliyyətdə çox vacibdirlər.

Kriminologiya cinayətkarlıq barədə ümumnəzəri elm olmaqla yanaşı bilavasitə təcrübi əhəmiyyət kəsb edir.

Dünyada kriminologiya üzrə müxtəlif cür dərsliklər var. Xarici ölkələrdə onların çoxu sosioloqlar üçün yazılmışdır. Bu da kriminologiyaya cinayətkarlığın sosiologiyası kimi yanaşma ilə bağlıdır. Azərbaycanda və MDB ölkələrində kriminologiya ənənəvi olaraq hüquqşünaslara sosial-hüquqi fənn kimi tədris olunur. Təqdim edilən dərslik hüquqşünaslar üçün nəzərdə tutulubdur. Lakin bundan filosoflara, sosioloqlara, jurnalistlərə, sosial idarəetmə sahəsinin mütəxəssislərinə də kriminologiyanın tədrisində istifadə oluna bilər.

Bu dərsliyin xüsusiyyəti ondadır ki, o əsas gücünü oxucunun cinayətkarlıq və onun səbəbləri barədə məlumatlandırılmasına deyil, müstəqil kriminoloji tədqiqatların aparılmasına yönəldir.

*Əzim Piriyev*



downloaded from KitabYurdu.az

*Ümumi hissə*

# Birinci fəsil.

## Kriminologiya elmi və onun predmeti.

**Kriminologiya bir elm kimi. Kriminologiyanın başqa elmlər sistemində yeri. Kriminologiyanın predmeti və məzmunu. Kriminologiyanın metodologiyası və metodikası. Kriminoloji tədqiqatların metodikası.**

## Kriminologiya bir elm kimi.

**Kriminologiya** - cinayətkarlıq haqqında elmdir. Lakin kriminologiya elminin məzmunu faktiki olaraq daha mürəkkəbdir və çox sahələri əhatə edir. Belə ki, kriminologiya təkcə cinayətlərin ayrı-ayrı növlərini, fərdi cinayətkar davranışı deyil, həm də cinayətkarlığın və kütləvi cinayətkar davranışın xüsusiyyətlərini əhatə edir.

İnsan nə üçün cinayət törədir? Nə üçün öz problemlərini həll etmək üçün bəziləri cinayət yolunu seçirlər? Belə halların qarşısını almaq üçün nə etməli? Bu suallar insan ağlını, zəkasını min illərdir ki, düşündürür. Bu suallara filosoflar, yazıçılar, sosioloqlar, həkimlər, iqtisadçılar və siyasətçilər cavab tapmağa çox çalışıblar.

Cinayətkarlıq cəmiyyətdə həmişə ciddi problem kimi qarşıda durmuşdur və ictimai fikri narahat etmişdir. Hakimiyyətə gəlmək istəyən siyasətçilər birinci növbədə söz verirlər ki, cinayətkarlıqla amansız mübarizə aparacaqlar. Bu mövzuya həsr olunan çıxışlar həmişə ictimaiyyət tərəfindən çox maraqla qarşılanır və böyük ümidlər doğurur. Ona görə ki, cinayətkarlıq hamının mənafeyinə çox mənfi təsir göstərir. Belə çıxışlardan sonra xüsusi proqramlar, qanunlar qəbul olunur.

İlk dövrlərdə aparılan tədbirlər öz təsirini göstərsə də, sonralar cinayətkarlıq yenə də baş qaldırır və davam edir. Dəyişən kriminal əxlaq, cinayətin törədilmə yerləri olur və daha təhlükəli xarakter daşıyır.

Başqa elmlər kimi, kriminologiya da daim inkişaf edir, konsepsiya və əsasnaməsi elmi-texniki tərəqqinin təsiri ilə öz mahiyyətinə uyğun müvafiq şəkildə dəyişikliklərə məruz qalır, dəqiqləşdirilir və genişləndirilir. Kriminologiyanın nəzəriyyəsi və təcrübəsinin bir çox aktual problemlərinin müvəffəqiyyətlə işlənib hazırlanması, cinayətkarlığın öyrənilməsi və proqnozlaşdırılması, habelə cəmiyyətə zidd hadisələrin qarşısının alınması üzrə tədbirlərin planlaşdırılması və təşkilində kompleks elmi-tədqiqat proqramların işlənib hazırlanması kimi xüsusi əhəmiyyətli kriminoloji məsələlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün bir elmin metod və vasitələri kifayətedici deyildir, buna kompleks yanaşma zəruridir.*



downloaded from KitabYurdu.az

Cinayət hüququnu, cinayət prosesini, kriminalistikanı və digər elmləri öyrənərkən gələcək hüquqşünas özünü elə savadlı hazırlamalıdır ki,qanun çərçivəsində cinayətkarlığa qarşı mübarizəyə qoşula bilsin, cinayətləri aça bilsin, onun qarşısını almağı bacarsın, cinayətkarları ifşa etmək məharəti olsun, təqsirkar şəxslərə qarşı qanunçuluğu düzgün tətbiq etsin.

Bunların hamısı çox vacibdir və bunları bacarmaq lazımdır. Bunsuz cinayətkarlığa qarşı mübarizə aparmaq mümkün deyildir.

Kriminologiya cinayətkarlığı, onun növlərini və cinayəti öyrənir; onların səbəbini, başqa növlərlə əlaqələrini, müxtəlif prosesləri və əlamətləri, habelə cinayətkarlığa qarşı mübarizənin nəticəsinin səmərəliliyini öyrənir, bunun əsasında cinayətkarlığa qarşı mübarizənin təkmilləşdirilməsi üçün təkliflər hazırlayır.

Bu təkliflərin çoxu başqa mütəxəssislərə (iqtisadçılara, hüquqşünaslara, sosioloqlara və s.) verilir ki, cinayətkarlığı doğuran səbəb və şəraitin aradan qaldırılmasına yönələn kompleks tədbirlərin işlənib hazırlanması üçün elmi və hüquqi baza yaransın, qanunlara, qanunvericiliyə müvafiq dəyişikliklər, əlavələr edilsin, yeni Dövlət Proqramları hazırlansın, Fərmanlar, Sərəncamlar verilsin və s.

## ***Kriminologiyanın bir elm kimi yaranması və təşəkkül tapmas*.**

Kriminologiyanın bir müstəqil elm kimi yaranmasında XIX əsrin birinci yarısında aşağıdakı tədqiqatların aparılması təkan vermişdir:

1) Antropologiya;
2) Statistik tədqiqatlar;
3) Sosial-iqtisadi, sosioloji və digər tədqiqatlar zamanı cinayətkarlığın amilləri, onların təsir mexanizmi;
4) Sosial-hüquqi sahələr.

Antropoloji tədqiqatın əsasını professor Qall qoymuşdur.** O, cinayət törədən şəxslərin bioloji təsnifatını irəli sürərək onları üç kateqoriyaya bölürdü:

1. Anadangəlmə xüsusiyyətlərinə görə yüksək ideal uydurma üstünlüklərə malik olması barədə özünü təqdim edən (liderlik);

2. Bu qrupa təbiətdən özü üçün istədiyi payı ala bilməyən şəxsləri (fiziki, əqli qüsurlu, zəif inkişaf etmiş) və ya yeniyetmələri aid edirdi. Bu adamlar çox asanlıqla cinayətkarların caynağına düşürlər;

3. Üçüncü qrup isə bunların arasında dayananlar idilər.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.7

** Gall. Sur les fonctions du cerveau. C.1, 1825. A.İ.Dolqova. Kriminologiya. M,1997, s.15



downloaded from KitabYurdu.az

Cinayətkar kimi doğulmaq ideyasını isə italyanlı professor, türmə məhkəmə həkimi Tsezar (və ya Çezare) Lombrozo irəli sürmüşdür. Onun fikrincə cinayətkar elə anadan olandan cinayətkar doğulur. Sonralar Ç.Lombrozo öz işlərində cinayətkarlığa təsir edən xarici mühitin amillərinə daha çox diqqət yetirir, lakin anadangəlmə cinayətkar haqqında fikirlərindən də imtina etməmişdir.*

F.Engels isə cinayəti sosial müharibə adlandıraraq, ona sinfi don geyindirir, burjuaziya ilə proletariatın münasibətləri kimi baxaraq xüsusi mülkiyyəti günahlandırırdı. Bununla da ictimai-siyasi mühiti, bunlara xidmət edən dövlət maşınını dəyişməyi təklif edirdi.**

Bütün bu və digər fikirlər cinayətlərin, onun qanunauyğunluqlarının və səbəbinin xüsusi tədqiq edilməsinə və bununla da kriminologiyanın yaranmasına gətirib çıxardı.

R.Qarafalo, Marro və başqaları təsdiq etdilər ki, kasıbçılıqla cinayətkarlıq biri-birləri ilə sıx əlaqədədirlər və bu səbəbdən də proletariat arasında çoxluq təşkil edir. ***

Romadakı kassasiya məhkəməsinin prokuroru R.Qarafalo 1890-cı ildə çapdan çıxan kitabını “Kriminologiya” adlandırdı.

---

* Ç.Lombrozo. Cinayətkar haqqında elmin ən yeni nailiyyətləri. SPb, 1892. (sit.A.İ.Dolqova. Kriminologiya. M,1997, s.16.)

** K.Marks, F.Engels. Seç. C.2, s.361.

*** Marro. J carrateri dei delinguenti.Torino,1887, c.265



downloaded from KitabYurdu.az

## Kriminologiyanın predmeti və məzmunu.

Kriminologiya bütün elmlər kimi qanunauyğunluqları öyrənir. Onun spesifik predmeti aşağıdakılardan ibarətdir:

1) cinayətkarlığın bütün halları;
2) cinayətkarlığın şərait və səbəbləri;

Cinayətkarlığa daxildir:

1.Cinayət və ya fərdi cinayət davranışı;

2.Cinayətlərin ayrı-ayrı növləri:

a) obyekt üzrə - dövlət, mülkiyyət, şəxsiyyət əleyhinə və s.

b) təqsirin formaları üzrə - qəsdən edilən ( tamah, qisas və s.) və ehtiyatsızlıq üzündən törədilən;

v) müxtəlif sosial qrupların - yetkinlik yaşına çatmayanların, qadınların, residivistlərin, sahibkarların və s. cinayətləri;

q) müxtəlif regionların (Qarabağ, Şəki, Lənkəran, Bakı, Gəncə və s.) cinayətləri;

d) ictimai həyatın müxtəlif sahələrində törədilən - iqtisadi, sosial, siyasi, dini xarakterli cinayətlər;

e) ümumilikdə dövlətdə baş vermiş cinayətlər;

j) cəmiyyətin inkişafının müxtəlif mərhələlərində (ictimai icma, quldarlıq, feodalizm, sosializm, kapitalizm quruluşunda və ya inqilab, inqilabdan sonra, kollektivləşmə, müharibə, keçid dövrlərində) baş verən cinayətlər.

Fəlsəfədən fərqli olaraq kriminologiya cinayətkarlığı zaman və məkanın konkret şəraitində öyrənir.

Kriminologiya cinayətkarlığı iki tərəfdən öyrənir:

1. Spesifik sosial təzahür kimi (yəni cəmiyyətdə yaranan);
2. Digər neqativ hallarla əlaqədə (sərxoşluq, narkomaniya, fahişəlik, kölgəli biznes və s.)

Kriminologiyanın predmetinə bunlardan əlavə cinayətkarın şəxsiyyəti də daxildir. Kriminologiya öncə cinayətkarın şəxsiyətini sosial tip kimi tədqiq edir. Kriminologiyada cinayətkarın şəxsiyyəti üç pillədə öyrənilir: a) konkret kriminal əməli törədənlərin şəxsiyyəti; b) müəyyən növ cinayətləri törədənlərin şəxsiyyəti; v) cinayətkarın şəxsiyyətinin kriminoloji planda ümumi anlayışı. Bu barədə bundan sonrakı fəsillərdə ətraflı bəhs ediləcəkdir.

Cinayətkarlıqla mübarizə - mürəkkəb, çoxaspektli fəaliyyətdir.

Bura aşağıdakılar daxildir:

1.Cinayətkarlıqla mübarizənin ümumi təşkili:

a) təhlil;
b) proqnoz;
v) proqramlaşdırma;
q) hüquqi tənzimləmə;
d) kadrlarla təchizat.

2. Cinayətkarlığın qarşısının alınması - onu yaradan səbəb və şəraitin aradan qaldırılması və ya bunlara təsir göstərməsi;



downloaded from KitabYurdu.az

3. Hüquq - mühafizə fəaliyyəti.*

Cinayətkarlıqla mübarizə tədbirlərinin səmərəli aparılması üçün onun real məqsədinin müəyyən edilməsinin böyük rolu var. Real məqsəd isə cinayətkarlığın azalmasına və onun ictimai təhlükəsinin zəifləməsinə istiqamətləndirilməlidir. Bütün bunlar cəmiyyətin sağlamlığına və sosial islahatların aparılmasına, ölkənin sürətlə inkişaf etməsinə gətirib çıxarır.

Kriminoloqların yalnız özlərinə məxsus tədqiqat sahəsi - cinayətkarlığı bilavasitə doğuran şərait və səbəblərin müəyyən edilməsi, bu səbəblərin aradan qaldırılması üçün yolların göstərilməsidir. Məsələn, mülkiyyət əleyhinə cinayətlərin sayının artmasının təhlili kriminoloqları belə bir nəticəyə gətirib çıxarır ki, bu cinayətlərin bir hissəsi yoxsulluq dərəcəsində olan şəxslər tərəfindən törədilir. Bu adamlar həm də gözlərinin qabağında cinayət sayəsində varlanan və heç bir məsuliyyətə cəlb olunmayan adamları görüb cinayət yolunu seçirlər. Yəni kriminoloq cinayətkarlıq prizmasından yoxsulluq dərəcəsində olan insanların sayının artmasını, kriminal fəaliyyət sahəsində sosial təbəqələşməni, günahkarların cəzalandırılmamasını, cinayətlərin qarşısının alınmasında mövcud çatışmamazlıqları və digər sosial halları görür və bunlara qarşı mübarizə üçün tədbirlər təklif edir.

Bu halda kriminoloq problemlərin aradan qaldırılması barədə dövlət orqanlarına müraciət edir, alınmış nəticələr barədə iqtisadçıları, siyasətçiləri, sosioloqları, hüquq-mühafizə orqanlarını məlumatlandırır.

***Kriminologiyanın məzmunu-*** cinayətkarlığın tədqiqatı və qiymətləndirilməsi, onun dəyişikliklərinin, regional və sosial qruplar üzrə fərqlərinin qiymətləndirilməsi, cinayətkarlıqla mübarizə üzrə tövsiyyələrin, kriminoloji tədqiqatların metodologiya və metodikasının işlənib hazırlanmasıdır.

Kriminologiyanın məzmununun predmetindən iki fərqi var:

1. Cinayətkarlığın tədqiqatı və qiymətləndirilməsi;
2. Cinayətkarlıqla mübarizə üzrə tövsiyyələrin, kriminoloji tədqiqatların metodologiya və metodikasının işlənib hazırlanması.

***Cinayətkarlıqla mübarizə*** - cinayətkarlığın təhlili; onunla mübarizənin proqramlaşdırılması; cinayətlərin aşkar edilməsi, qarşısının alınması, təqsirkar şəxslərin qanuni məsuliyyətə cəlb olunması,cinayət nəticəsində vurulan ziyanın ödənilməsi üzrə hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi deməkdir.

Cinayətkarlığın kəskin şəkildə artdığı bir şəraitdə hüquq-mühafizə orqanlarının işinin təşkili, planlaşdırılması və idarə olunması mexanizmlərinin, cinayətkarlığın kompleks tədqiqi, proqnozlaşdırılması və qarşısının alınmasının prinsipcə yeni metod və üsullara əsaslanan kompleks elmi-tədqiqat proqramlarının, konsepsiyaların yaradılması və həyata keçirilməsi son dərəcədə mühüm və praktiki əhəmiyyət daşıyır.

* A.İ.Dolqova. Kriminologiya. M,1997, s.23.



downloaded from KitabYurdu.az

Belə bir şəraitdə cinayətkarlığın kompleks şəkildə öyrənilməsi və proqnozlaşdırılması, tədqiqatlarının aparılması, cinayətkarlıqla mübarizədə və onun qarşısının alınmasında elmi-texniki tərəqqinin (ETT) yeni nailiyyətlərinin tətbiqi geniş elmi-əməli əhəmiyyət kəsb edir.

Öyrənilən kriminoloji hadisələrin mürəkkəbliyi və onların tədqiqini qısa bir zamanda başa çatdırmaq zərurəti müasir dövrdə kriminoloji obyektlərin tədqiqində ənənəvi üsullarla yanaşı, prinsip etibarilə yeni metodların, üsul və vasitələrin araşdırılması və onların əməli tətbiqi, kriminoloji məlumatların toplanması, işlənməsi və təhlili sisteminin təkmilləşdirilməsi, cinayətkarlığın proqnozlaşdırılması və qarşısının alınması işinin ardıcıl, mərhələlərlə kompleks öyrənilməsi, onun planlaşdırılması və ardıcıl idarə olunmasının yeni yollarının müəyyənləşdirilməsi məsələlərini qarşıya qoyur.*

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.3, 5.Sit: Y.S.Abdullayev, İ.A.Cavadova. Kibirnetika metodlarının kriminologiyada tətbiqi problemləri. "Qanunçuluq", 1983, № 1, səh. 17-23. Советская криминология на современном этапе. Материалы конференции "Актуальные вопросы советской криминологии" М., 1973, с.43.



downloaded from KitabYurdu.az

## Kriminologiyanın başqa elmlər sistemində yeri.

Kriminologiyanın başqa elmlər sistemində yerinin müəyyən edilməsi ilə bağlı müxtəlif fikirlər söylənibdir. Bunlardan geniş yayılmış 4 əsas fikirdir:

1) Kriminologiya - cinayətkarlığın sosiologiyasıdır və buna görə kriminoloqun sosioloji hazırlığı əsas olmalıdır.
2) Kriminologiya - hüquq elmidir və müvafiq olaraq mütəxəssisin hüquqi hazırlığı əsasdır. Bununla əlaqədar aşağıdakı arqumentləri gətirirlər:
    a) cinayətkar hərəkətin həddini qanun müəyyən edir;
    b) digər qanun pozuntuları və neqativ hallardan fərqli olaraq cinayətkarlıqla mübarizə məhz qanun tərəfindən dərindən tənzimlənir.

Lakin həm də qeyd olunur ki, kriminoloq hüquqşünas - mütəxəssislərdən fərqli olaraq sosiologiyanı, sosiopsixologiyanı daha yaxşı bilməlidir. Buna görə də kriminologiyanı sosial-hüquqi elm sayırlar.

3) Kriminoloji tədqiqat - insan əxlaqının tədqiqatıdır və müvafiq olaraq onu psixoloq-mütəxəssislər, psixiatrlar aparmalıdırlar.
4) Kriminoloji tədqiqat - cinayətkarlığın öyrənilməsinə yönələn elmlərarası elmi-tədqiqat fəaliyyətidir. Bu baxımdan yanaşanda kriminologiya kompleks elmdir.

Müasir zamanda cinayətkarlığın problemlərinin öyrənilməsində, sözsüz psixoloqlar, iqtisadçılar, politoloqlar, filosoflar iştirak edirlər. Kriminologiyanın məzmununu təşkil edən əsas problemlərin həlli ilə isə hüquqşünas - kriminoloqlar məşğul olurlar.

Hüquq elmlərinin silsiləsində (cinayət hüququ, cinayət prosesi, kriminalistika, əməliyyat-axtarış fəaliyyəti, məhkəmə psixologiyası və s.) kriminologiya ümumnəzəri bir elm kimi yer tutur.

Bunlardan başqa kriminologiya digər hüquq ixtisasları - prokuror nəzarəti, mülki hüquq və proses, başqa ictimai elmlərdən - fəlsəfə, politologiya, sosiologiya, psixologiya və s. ilə sıx əlaqədədir.

Kriminologiya əsasən praktiki xarakter daşıyır. Çünki onun tövsiyyələri əsasında cinayətkarlıqla mübarizə üzrə proqram qəbul olunur, qanunvericiliyə dəyişikliklər edilir, prokuror nəzarəti aktları, cinayətlərin səbəbləri barədə məlumatı əks edən digər cinayət prosessual sənədlər işlənib hazırlanır.



downloaded from KitabYurdu.az

## Kriminologiyanın metodologiya və metodikası.

Methodos - yunanca "tədqiqat, nəyəsə doğru yol" deməkdir.

Kriminoloji nəzəriyyə və təcrübənin metodoloji və metodiki problemlərinə bir sıra xüsusi işlər həsr edilmişdir. Bu məsələlərə A.A.Qertsenzonun, İ.İ.Karpetsin, V.N.Kudryavtsevin, A.İ.Dolqovanın, V.V.Pankratovun, Q.M.Minkovskinin, S.S.Ostroumovun, N.P.Kosopleçevin və başqa görkəmli kriminoloqların elmi əsərlərində toxunulmuşdur. Y.D.Bluvşteyn, V.E.Vitsin, V.K.Zvirbul, R.A.Qavrilov, N.N.Kondraşkov, D.O.Xan-Məhəmmədov və başqaları cinayətkarlığın kriminoloji tədqiqinə sistemli-struktur yanaşmanın, ehtimal-statistik metodların və hesablama texnikası vasitələrinin tətbiqi və bu mürəkkəb sosial-hüquqi hadisənin riyazi modelinin yaradılması məsələlərini öyrənmişlər.*

Kriminoloji tədqiqatlar zamanı aşağıdakı terminlərdən istifadə olunur:

**metod -**tədqiqat qaydası, üsülu;

**metodika** - tədqiqat metodlarının toplusu;

**metodologiya -** nəyinsə elmi tədqiqatının yolları, metodları barədə nəzəriyyədir.

**Kriminologiyanın metodologiyası** - tədqiqatın predmet və obyektindən, tədqiqatçının qarşısında duran məsələlərdən asılıdır.

Kriminoloji tədqiqatların predmeti - cinayətkarlığın qanunauyğunluqları, obyektinin isə - cinayətkarlığın müxtəlif halları olmasını nəzərə alaraq, kriminologiyanın metodologiyasında aşağıdakılar əsas götürülür:

1. Kriminologiya - sosial hadisə kimi qiymətləndirilir və müvafiq olaraq onun tədqiqatında sosioloji elmlərin metodlarından istifadə olunur;
2. Cinayətkarlıq digər ictimai təzahürlərlə əlaqəli analiz edilir. Cinayətkarlıq ictimai həyatın bütün sahələrində - siyasi, iqtisadi, sosial və s. mövcuddur;
3. Kriminoloji təzahürlərin (cinayətlər, cinayətkarlıq, onların səbəbləri və s.) dəyişiklikləri ilə birgə təhlil edilməsi;

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.3, 5.Sit: А.И.Долгова. Теория криминологии: проблемы, поиски, решения. В сб., Вопросы борьбы с преступностью. Вып. 46. М., 1988. А.А.Герцензон. Актуальные проблемы криминологии. Вопросы борьбы с преступностью. Вып.6. М., 1987. В.Н.Кудрявцев. Причинность в криминологии. М., 1968: В.В.Панкратов. Методология и методика криминологических исследований. М., 1972, А.М.Яковлев. Теория криминологии и социальная практика. М., 1985, И.С.Ной. методологические проблемы советской криминологии. Из-во Саратовского универ-та. 1975. Ю.Д.Блувштейн. Криминология и математика. М., 1974. Н.Н.Кондрашков. Количественные методы в криминологии. М., 1974, Е.С.Вицин. Моделирование в криминологии. М., 1973, В.Г.Беляев. Методология прогноза преступности. Тезисы Ростовской научно-технической конференции молодых ученых. Ростов. 1987. М.Д.Шаргородский. Прогноз и преступность. М., 1980. О.А.Гаврилов. Математические методы и модели в социально-правовых исследованиях. М., 1980 вə башгалары.



downloaded from KitabYurdu.az

1. Kriminoloji təzahürlərin inkişafını proses kimi təhlil edilməsi - yəni cinayətkarlığın vəziyyətinin dəyişməsini və yeni halların yaranmasını nəzərə alaraq, onunla mübarizənin mütəmadi olaraq təkmilləşdirilməsi;
2. Kriminoloji təzahürlərin daxili və xarici ziddiyyətlərinin nəzərə alınması - cinayətkarlıqla mübarizə, onun qarşısının alınması eyni zamanda digər neqativ halları da aradan qaldırır.

Beləliklə, kriminoloq tədqiqatını tək cinayətkarlığın təhlilindən yox, həm də onun cəmiyyətdə baş vermə səbəblərinin araşdırılmasından başlamalıdır. Çünki cinayətkarlıq cəmiyyətin parametrlərindən biridir və onun içində yaranır.

Cinayətkarlığın öyrənilməsinə iki tərəfdən yanaşırlar:

1. Cinayətkarlıq- cinayətlərin baş verməsidir ki, bu da müxtəlif səbəblərdən (insanın bioloji və digər xüsusiyyətlərindən, xarici şəraitdən) asılıdır. Tədqiqatçını nəticə yox, baş vermə prosesi maraqlandırmalıdır;
2. Cinayətkarlıq - nisbənən müstəqil hadisədir və bunun öyrənilməsinə sistemli yanaşılmalıdır.

**Kriminoloji tədqiqatlarda ümumelmi, statistik, sosioloji və digər metodların tətbiqi.**

Cinayətkarlığın kompleks tədqiqi və proqnozlaşdırılması zamanı yaranan bu və bir çox digər suallara metodoloji və metodik cavabları müasir kompleks yanaşma verir.

Qəti əminliklə demək olar ki, kompleks yanaşmanın meydana çıxması ilə elmi biliklərin inteqrasiyasına olan obyektiv meyl metodoloji dərk edilən səviyyəyə çatdı. Bu zaman qeyd etmək yerinə düşərdi ki, bütün sosial-hüquqi hadisələr, onların mürəkkəblik və əhəmiyyət dərəcəsindən asılı olmayaraq insan cəmiyyətinin həyat və inkişafının müxtəlif tərəflərini əks etdirir. Bu hadisələrə izolə edilmiş şəkildə baxmaq, onları bir-birindən ayırmaq, yalnız bir elmin köməyi ilə kifayət qədər tam və dolğun şəkildə öyrənmək demək olar ki, qeyri-mümkündür. Məsələn: cinayətkarlıq kimi mürəkkəb sosial-hüquqi hadisənin öyrənilməsi zamanı bir sıra elmlərin - kriminologiyanın və cinayət hüququnun, sosiologiya və psixologiyanın, demoqrafiya və iqtisadiyyatın, riyaziyyat və kibernetikanın metod və vasitələrindən kompleks istifadəyə böyük ehtiyac duyulur.

Hazırda artıq sosial-hüquqi elmlər özlərinin təsvir və müşahidə metodlarını təkmilləşdirmə prosesini davam etdirərək "dəqiq" elmlərin (riyyaziyyat, kibernetika, fizika, kimya və s.) metodlarını müvəffəqiyyətlə qavrayır, riyazi-kibernetik baza əsasında yeni nəzəriyyələr yaradır, özlərinin metodoloji və metodiki bazalarını zənginləşdirirlər. Artıq bu elmlərin bir sıra sahələrində məlumatlar avtomatlaşdırılmış informasiya - axtarış sistemlərindən istifadə olunaraq işlənir və təhlil edilir. EHM-nin və riyazi modelləşdirmə metodlarının köməyi ilə proqnozlar qurulur. Müasir mərhələdə sosial-hüqüqi elmlər ETT-nin ən yeni nailiyyətlərindən - riyazi modelləşdirmədən,



downloaded from KitabYurdu.az

kibernetikadan, informasiya nəzəriyyəsindən, sistemli-struktur təhlildən istifadəyə başlamışlar.*

Kriminoloji tədqiqatlar zamanı aşağıdakı ümumelmi dərketmə metodlarından istifadə olunur:

1. Sistemli yanaşma metodu;
2. Tarixi metod;
3. Müqayisəli metod;
4. Dinamik və statistik metodlar;
5. Konkret sosioloji metodlar.

*1.Sistemli yanaşma metodu* - öyrənilən obyekt (cinayətkarlıq və cəmiyyət) müəyyən struktura malik olan mürəkkəb mütəşəkkil sistem kimi təhlil edilir. Bu metodun iki əlaqəli aspektinin istifadə olunmasının böyük mənası var:

1) Cinayətkarlığın bir-biri ilə əlaqədə olan cinayətlər və onları törətmiş şəxslər kimi təhlil edilməsi;
2) Cinayətkarlıq cəmiyyət çərçivəsində tədqiq edilir, onu yaradan səbəblər, digər neqativ hallarla əlaqədə analiz edilir. Burada riyazi metodlarından da istifadə olunur.

Ədəbiyyatda sistem anlayışı öz aralarında müəyyən bütövlük və vəhdət yaradan qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan ünsürlərin məcmusu kimi müəyyənləşdirilir.

Ümumiyyətlə isə, deyə bilərik ki, sistemli təhlil və sistemlər nəzəriyyəsinə həsr olunmuş muasir ədəbiyyatda sistemə bir-birindən fərqli bir çox tərif və anlayışlar verilir. Bunlardan sistemi səciyyələndirən aşağıdakı ən mühüm ünsürləri göstərmək olar.

1. Sistem çoxlu sayda ünsürlərin nizamlı və tam məcmusudur.
2. Sistemin ünsürləri bu sistemin alt sistemi olmaqla onun hüdudları daxilində qarşılıqlı asılılıqdadırlar. Eyni zamanda sistemin hər bir ünsürü altsistem olmaqla müəyyən nisbi müstəqilliyə, kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malikdir, buna görə də nisbətən aşağı səviyyəli müstəqil sistem kimi nəzərdən keçirilə bilər.
3. Sistem bir tam kimi müəyyən funksiyanı yerinə yetirir. Həmin funksiya onun ayrılıqda götürülən hər bir ünsürünün funksiyaları ilə eyniləşdirilə bilməz.
4. Sistemin ünsürləri (altsistem kimi) həm müəyyən sistem çərçivəsində, həm də mühitlə qarşılıqlı əlaqədə ola bilər və bu zaman öz məzmunlarını və ya daxili quruluşlarını dəyişə bilərlər.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.10-13. Sit: А.И.Долгова. Социально-психологические аспекты преступности несовершеннолетних. М., 1981. Стр.25-26. М.Г.Чепиков. Интеграция науки. М., 1981. Стр.127. А.Т.Москаленко, А.А.Погорадзе и др. Методология в сфере теории и практики. Новосибирск. 1988. Стр. 168. А.Т.Москаленко. Синтез фундаментальных и прикладных наук в комплексных исследованиях. (Фундаментальные и прикладные исследования в условиях НТР. Новосибирск, 1978, стр. 83-84.



downloaded from KitabYurdu.az

Beləliklə, kriminologiya elminin müasir inkişaf səviyyəsi cinayətkarlığa nisbi müstəqilliyə malik, bir sıra əlamət, parametr və göstəricilərlə səciyələnən mürəkkəb, dinamik, sosial-hüquqi sistem kimi baxmağa imkan verir. Cinayətkarlığın nisbi müstəqilliyinin təzahürlərindən biri sistemin özünüqoruma qabiliyyətidir, bu, cəmiyyətə əks-təsir göstərmək vasitəsilə həyata keçirilir.

Deməli, cinayətkarlıq dinamik sosial sistem kimi ümumən qapalı deyildir və onun bütün alt sistemlərinə daha qlobal sistemin tərkib hissələri kimi baxmaq olar. Ona görə də cinayətkarlığı sistemli struktur yanaşma baxımından tədqiq edərkən onun digər sosial, iqtisadi, ekoloji, demoqrafik hadisə və prosesləri arasındakı mövcud sıx əlaqə və asılılıqlarının aşkara çıxarılıb müəyyənləşdirilməsi vacibdir. Lakin mürəkkəb sosial hadisələrin və o cümlədən cinayətkarlığın, digər bir sıra sadə və mürəkkəb ictimai hadisə və proseslərlə sıx bağlılığına baxmayaraq, cinayətkarlıq sistemini şərti olaraq, xüsusi hallarda izolə edilmiş halda, ayrıca tədqiq etmək olar. Daha yüksək - cəmiyyətin həyatının sosial-iqtisadi, siyasi, mənəvi inkişafının ümumi sisteminin tərkib hissəsi olan cinayətkarlıq sistemi eyni zamanda öz vəzifələrinə, məqsədlərinə və sistem yaratma əməllərinə görə bir qədər aşağı səviyyədə olan, özünün mürəkkəb daxili quruluşuna, subyektlərinə, əlaqələrinə və münasibətlərinə, informasiyanın alınmasının və ötürülməsinin spesifik mənbələrinə, xüsusi formalara malik, idarə edən və idarə olunan, nisbətən nizamlanmış və nisbətən sabit sistem kimi çıxış edir.

Cinayətkarlığın ümumi sistemində onun kifayət qədər çoxlu ünsürlərə, daha doğrusu altsistemlərə ayrılması mümkündür, bunların hər biri sistem kimi çıxış edə bilər.

Cinayətkarlıq sistemi daxili vəhdətə: struktura, vəziyyətə və dinamikaya malikdir. Sonuncu iki xarakteristika onun kəmiyyət tərəfini müəyyənləşdirən xassələrin məcmusunu təşkil edir.

"Kompleks" termini çox vaxt "sistem" anlayışı ilə yanaşı işlədilir. "Sistem" anlayışında o fakt ifadə olunur ki, onun elementləri bir-biri ilə müəyyən qaydada bağlıdır. Sistemdə elementlərin struktur qarşılıqlı əlaqə və fəaliyyəti prinsipi vacibdir. Məhz bunun sayəsində də sistem yaranır. Daxili əlaqələrin nizamlığı sistemə, nisbi qapalı müstəqilliyə malik olmaqla, xarici təsirlərə müəyyən dayanaqlılığı saxlamağa imkan verir. Bütün elementləri müəyyən şəkildə öz aralarında qarşılıqlı əlaqə və təsirdə olan, nizamlı struktura malik istənilən obyekt sistemdir. Əgər "sistem" anlayışı obyektin daxili elementlərinin vəhdət və tamlığını, onların qarşılıqlı tabeçiliyini, subordinasiyasını bildirirsə, "komplekslik" anlayışı obyektə nəzərən xarici olan mühitin elementlərinin tamlığını ifadə edir.

Sistemli yanaşma bir elm daxilində qalmaqla sintezə can ata bilər, halbuki kompleks yanaşma bu sistemə müxtəlif elementlərin məlumat bazaları əsasında həyata keçirilməlidir. Sistemli yanaşma tədqiqatçılar tərəfindən sistem kimi qəbul edilən obyektlərin öyrənilməsinə yönəlib, kompleks tədqiqatın obyekti isə sistemlər deyildir, istənilən hadisəni, prosesi, vəziyyəti, münasibəti və s. kompleks tədqiq etmək olar.



downloaded from KitabYurdu.az

Digər tərəfdən sözsüz ki, xüsusi metodoloji konsepsiya kimi kompleks yanaşma gec formalaşıb. Öz inkişafında fəlsəfənin ən vacib prinsiplərinə söykənərək, sistemli yanaşmanın nailiyyətlərindən də istifadə etməyə can atır.

Əks nöqteyi-nəzər V.A.Ştoffa məxsusdur. O hesab edir ki, "sistemli yanaşma obyektin daha tam nəzəriyyəsinin yaradılması yolunda kompleks yanaşmanın sonrakı inkişafıdır".

Onun fikrincə kompleks yanaşma özünün sonrakı inkişaf , dərinləşmə və konkretləşməsini sistemli yanaşmada alır, sistemli yanaşma isə obyektin müəyyən sistem kimi xarakteri ilə bağlıdır. Beləliklə Ştoff kompleks yanaşmanı sistemlərin öyrənilməsi ilə birmənalı şəkildə bağlayır.

Kompleks və sistemli yanaşmaya olan müxtəlif baxışlar içərisində P.P.Osipov və İ.A.İsmayılov belə hesab edirlər ki, kompleks tədqiqatlara sistemlik daxildir, lakin onunla məhdudlaşmır: "Çox vaxt kompleks yanaşma sistemli yanaşma ilə eyniləşdirilir. Lakin əslində kompleks və sistemli yanaşma bir-biri ilə qarşılıqlı bağlı olsalar da, onlar eyni deyildir. Məhz buna görə də onları qarışdırmaq olmaz. Sosial-hüquqi tədqiqatların metodoloji prinsipləri kimi kompleksklik və sistematiklik bir neçə parametrlərə görə üst-üstə düşmürlər. Əgər problemi maksimum dərəcədə sadələşdirsək, onda belə demək olar: kompleks yanaşma əsasında biz nə, harada və nəyə görə axtarmağı öyrənirik, sistemli yanaşma əsasında isə - bunu necə, nə cür etməyi öynənirik. Sistemli yanaşmanı xarakterizə edərək əsasən mürəkkəb (sistemli) obyektin tam şəkildə qavranılmasına, kompleks yanaşmada isə diqqət tədqiqatın çoxaspektliyinə, obyektin və o cümlədən onun elementlərinin müxtəlif tərəflərindən və ya müxtəlif mövqelərindən baxılmasına cəmləşdirilib ".

Kompleks yanaşma, keçirilməsi planlaşdırılan elmi-nəzəri və ya praktiki tədqiqat prosesini bir neçə istiqamətlə aparmağa, obyektin bir deyil, ən azı bir neçə tərəfini öyrənməyə imkan verir.*

*2.Tarixi metod* - cinayətkarlığın uzunmüddətli dövr ərzində öyrənilməsini nəzərdə tutur.

Burada cinayətkarlığın regional fərqləri öyrənilərkən tarixi müqayisə metodu istifadə olunur:

a) bir dövr ərzində birtipli təzahürlərin müxtəlif regionlar üzrə müqayisəsi (yetkinlik yaşına çatmayanların, gənclərin cinayətkarlığı);

b) hər regionda eyni göstəricilərin müxtəlif dövrlər üzrə müqayisəsi.

*3.Müqayisə metodu* - müxtəlif ölkələrdə, regionlarda, müxtəlif cinsli, müxtəlif yaşlı şəxslər tərəfindən törədilən cinayətlərin öyrənilməsi və müqayisə edilməsidir. Bu metod cinayətkarlığın səbəbləri barədə yeni məlumatların alınmasına şərait yaradır.

Burada iki metoddan istifadə olunur:

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.18-21. Sit: В.А.Штофф. К вопросу о методологии комплексного исследования науки. - В кн.: Проблемы деятельности ученого и научных коллективов. М-Л., 1978 с.40, 41. В.Г.Афанасьев. Системность и общество. М., 1980; З.Г.Юдин. Системный подход и принцип деятельности. М., 1978.



downloaded from KitabYurdu.az

1. Eyniləşdirmə metodu - cinayətkarlığın təkrar olunan xarakteristikaları müəyyən edilir və onlara insanların yaşayış şəraiti uyğunlaşdırılır. Bunun əsasında şərait və cinayətkarlığın əlaqə mexanizmi tədqiq edilir;

2. Fərqlənmə metodu - cinayətkarlığın bir qisim ölkələrdə, regionlarda müşahidə olunan, digər ölkələrdə isə rast gəlməyən göstəriciləri müəyyən edilir. Bu da cinayətkarlığın şəraitdən asılı olması hipotezasının irəli sürülməsinə əsas vermiş olur.

Cinayətkarların şəxsi xarakteristikalarının öyrənilməsi zamanı nəzarət qrupundan istifadə olunur. Məsələn, yetkinlik yaşına çatmayanların hüquq düşüncəsinin öyrənilməsi zamanı onların həmin təhsil ocaqlarında oxuyan, lakin cinayət törətməmiş həmyaşıdları dindirilir. İki qrupun cavablarının müqayisəsi cinayət törədənlərin mövqeyinin aşkar edilməsinə kömək edir.

*4.Dinamik və statistik metodlar.*

*Dinamik qanunauyğunluqlar* - inkişafın qanunauyğunluqlarıdır. Onlardan istifadə olunması bilavasitə səbəbli əlaqələrin aşkar edilməsinə gətirib çıxarır. Məsələn, yetkinlik yaşına çatmayan yaşda cinayət törətmiş 100 nəfərin 16 il ərzində şəxsi xarakteristika və taleləri öyrənilib. Tədqiqatın 1-ci mərhələsi - cinayət törədəndən sonra 14-17 yaşında sınaqdan keçənlərin öyrənməsi, 2-ci - 10 il sonra, 3-cü - daha 6 il sonra.

Bu tədqiqatlar 1-ci mərhələdə cinayət davranışının, sonrakı dövrdə isə bir tərəfdən mövcud cinayət residivinin, digər tərəfdən tərbiyələnmənin hansı səbəblərlə və necə əlaqəli olmasının müəyyən edilməsinə imkan yaratmış olur.

*Statistik qanunauyğunluqlar*- təzahürlərin ümumi xüsusiyyətlərinin tapılması və ölçülməsi yolu ilə izah olunur. Burada əsas tələblər aşağıdakılardır:

1) öyrənilən məcmu tərkibcə eyni olmalıdır (ağır cinayətlər və s.)
2) öyrənilən məcmu kütləvi olmalıdır.

Yuxarıda göstərilən dinamik metodla şəxsiyyətin uzunmüddətli ətraf-sosial mühitdə öyrənilməsi belə statistik nəticəyə gəlməyə imkan verir ki, residivistlərin 70-80 %-i ilk cinayətlərini yetkinlik yaşına çatmayan yaşda törətmişlər.

*Ehtimal-statistik metodların köməyi ilə seçmə tədqiqatların təşkili və keçirilməsi.*

Seçmə metodu sosial-iqtisadi, demoqrafik və digər amillərin cinayətkarlığa təsiri araşdırılarkən, müxtəlif sorğular aparılarkən, habelə cinayətkarların şəxsiyyəti öyrənilərkən və ayrı-ayrı kateqoriyadan olan cinayətlərin törədilməsinə gətirib çıxaran səbəb və şəraitlərin daha dərin elmi tədqiqatı məqsədi ilə tətbiq olunur.

Seçmə metodu yüksək etibarlılıq dərəcəsi ilə fərqlənir, çünki sosial gerçəklik sahəsindəki hadisələr üçün təkrarlanma səciyyəvidir.

Kriminoloji seçmə müşahidələrinin təşkili və keçirilməsi zamanı aşağıdakı bir sıra mühüm və əhəmiyyətli qayda və şərtlərə əməl edilməsi olduqca vacib və zəruridir:



downloaded from KitabYurdu.az

1. Seçmə kriminoloji tədqiqatların məqsəd və vəzifələrini aydın təsəvvür etmək və yol verilə biləcək reprezentativlik xətasının dəqiq hüdudlarını müəyyənləşdirmək.

2. Seçmə müşahidənin təşkili və keçirilməsi proqramının yaradılması, ilkin müşahidə sənədlərinin, lazımi cədvəllərin tərtibi və eyni zamanda da ehtimal və riyazi statistika nəzəriyyəsinin elmi prinsip və qaydalarına əsaslanan seçmə tədqiqatların keçirilməsi texnologiyasını dərin və hərtərəfli düşünülüb müəyyənləşdirilərək yaradılması (bu zaman aydın məsələdir ki, seçmə texnologiyası konkret şəraitdə - obyektin xarakterindən, hadisənin yayılma dərəcəsindən və s. asılı olaraq dəyişdirilməli və uyğunlaşdırılmalıdır).

3. Seçmə tədqiqatlar üçün məlumatların mənbəyi əvvəlcə müəyyənləşdirilməlidir. Bu mənbə ayrı-ayrı cinayətləri və cinayət növlərini, cinayətkarların şəxsiyyətini, cinayətkarlığın bir sıra meyl və qanunauyğunluqlarını öyrənərkən cinayət işləri, cinayətkarın şəxsiyyətinin statistik kartoçkası, doldurulmuş xüsusi anket, müsahibə və testlər ola bilər.

4. Seçmə müşahidələrə başlamazdan əvvəl DİN, məhkəmə və prokurorluq orqanlarının cinayət, cinayətkarın şəxsiyyəti və cinayətkarlıqla bağlı statistik hesabatları ilə ilkin tanışlıq vacib və zəruridir.

5. Seçmə müşahidənin alınmış məlumatları, onların ilkin statistik-kriminoloji işlənməsindən sonra, kriminoloji tədqiqatların keçirilməsinin ümumi, kompleks proqramı əsasında mövcud cinayət statistikasının üst-üstə düşən uyğun ümumi məlumatları ilə müqayisəli surətdə təhlil olunmalıdır.*

### ***5.Konkret-sosioloji metodlar*** .

Bunlar sosial hadisələrin konkret təzahürlərinin zaman və məkanın konkret şəraitlərində öyrənilməsi metodlarıdır. Bu kompleks metodlara aşağıdakılar daxildir:**

1. Sənədlərin öyrənilməsi;
2. Anketləşdirmə və müsahibə formasında sorğu;
3. Müşahidə ( daxili və xarici);
4. Eksperiment.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.87.

** A.İ.Dolqova. Kriminologiya.M, 1997, s. 50



downloaded from KitabYurdu.az

**1. Sənədlərin öyrənilməsi**

Kriminoloji tədqiqatlar aparılarkən müxtəlif sənədlər öyrənilir:

1) statistik uçotlar;
2) cinayət işlərinin materialları;
3) cinayətlər barədə ərizələr və onların cavabları;
4) şikayətlər;
5) nəzarətedici orqanların materialları;
6) məhkəmə-tibbi ekspertiza bürosunun materialları;
7) mətbuat informasiya vasitələrinin materialları;
8) sosial-iqtisadi vəziyyətin təhlilinin ümumi nəticələri.

Cinayət işlərinin və digər sənədlərin öyrənilməsi üçün proqramlar işlənib hazırlanır.

2. **Sorğu-** iki formada aparılır:

qiyabi - anketləşdirmə

əyani - müsahibə

**1) Anketləşdirmə** üçün suallardan ibarət anket işlənib hazırlanır. Suallar iki cür olur:

bağlı xarakterli - yəni onlara “hə”, “yox”, “bilmirəm” cavab variantları qoyulur;

açıq xarakterli suallar - onlara cavab müxtəlif formada verilə bilər. Bunlardan tədqiqatın ilkin mərhələlərində mümkün olan cavab variantlarını qabağcadan görmək çətin olanda istifadə olunur.

Anketlərdə həmişə nəzarətedici, bir-birini tamamlayan suallar da olur. Buna görə çox vaxt açıq və bağlı suallardan birgə istifadə olunur.

Bunlardan başqa anonim sorğudan da istifadə olunur - yəni dindirilən soy adını və ünvanını göstərmir.

**2) Müsahibə -** cinayət törətmiş şəxslə və ya onun qohumları, hüquq-mühafizə orqanlarının əməkdaşları və digər şəxslərlə söhbətdir.

Müsahibə digər ünsiyyət növlərindən aşağıdakılarla fərqlənir:

1. Müsahibədə üzbəüz görüşlər keçirilir;
2. Müsahibə sadə informasiya mübadiləsi deyil, dinamik söhbətdir- yəni əvvəlcədən hazırlanmış suallar söhbət zamanı dəyişdirilə bilər;
3. Müsahibə iştirakçılar arasında birtərəfli münasibətdir- bir iştirakçı o birisini dindirir.

Anket sorğusundan fərqli olaraq müsahibə zamanı tam nəticələr əldə edilir, cinayətkar davranışın istiqaməti və motivləri, onun səbəbləri və həyat şəraiti aşkar olunur.

Kollektiv müsahibə zamanı - tədqiqatçı bir neçə şəxslə görüşür (10 nəfərdən yuxarı olmamalıdır) və onlardan müşahidə edilən cinayətkarlığın vəziyyəti, görülən tədbirlərin nəticəsi, cinayətkarlığın artması və ya azalması səbəbləri barədə danışmağı xahiş edir.

Belə müsahibə müəyyən rayon sakinləri, cəza çəkmə yerlərində, polis bölmələrinin əməkdaşları ilə aparılır.



downloaded from KitabYurdu.az

**3. Müşahidə -** üç cür olur:

1. Müşahidəçi hansısa fəaliyyətin iştirakçısı olur (bu fəaliyyəti və ya onun iştirakçılarını müşahidə edir);
2. Həqiqi müşahidəçi - fəaliyyətinə nəzarət etdiyi subyektlərlə ünsiyyətdə özünü bildirir;
3. Daxil edilmiş müşahidəçi- özünü müşahidəçi kimi bildirmədən hansısa təşkilata işə düzəlir, lakin müşahidə etdiyi fəaliyyətdən kənarda qalır. Belə müşahidə böyük çətinliklərlə bağlıdır və təcrübə tələb edir.

4. **Eksperiment**- eksperimentçi tərəfindən idarə olunan bir sıra amillərin təsiri nəticəsində dəyişən, ardıcıl əks olunmuş və nəzarət edilən obyektin vəziyyətinin tədqiqatı metodudur.

Bu hüquqpozuntularının qarşısının alınması üçün optimal tədbirlər barədə irəli sürülən hipotezanın yoxlanılması məqsədilə aparılan, əvvəlcədən hazırlanmış ictimai fəaliyyətdir.

Eksperiment aşağıdakı tələblərə cavab verməlidir:

1. Cinayətin təhrik edilməsi yolverilməzdir və tədqiqatçını cinayət məsuliyyətindən azad etmir;
2. Qanun çərçivəsində aparılmalıdır.



downloaded from KitabYurdu.az

## Kriminoloji tədqiqatların metodikası.

Göstərilən metodlar təcrübə zamanı cəm şəkildə tətbiq edilir. Lakin onların yığımı tədqiqatın predmeti, obyekti və məqsədindən asılıdır:*

1) Tədqiqatı aparılacaq problem, əvvəlki tədqiqatların nəticələri və analizi nəzərə alınmaqla təsvir olunmalı, əsaslandırılmalıdır;
2) Tədqiqatın məqsədi və məsələləri göstərilməlidir;
3) Hipoteza irəli sürülməlidir;
4) Tədqiqat metodikası və alınan məlumatların ümumiləşdirmə metodikası işlənilməlidir.

Məsələn, şəxsiyyət əleyhinə törədilən cinayətlər barədə hüquq statistikasının verdiyi məlumatların dəqiqliyini öyrənmək məqsədilə aşağıdakılardan istifadə olunmuşdur:

**1)** Statistik məlumatların öyrənilməsi ;
**2)** Məhkəmə-tibbi ekspertizanın büro materiallarının öyrənilməsi;
**3)** Vətəndaşların sorğusu;
**4)** Xəstəxanaların materiallarının öyrənilməsi;
**5)** Təhsil, hüquq-mühafizə orqanları əməkdaşlarının sorğusu;
**6)** Sığorta kompaniyalarının materiallarının öyrənilməsi.

Bundan başqa mühüm əhəmiyyət kəsb edən yalnız məlumatların alınma metodikası deyil, həm də bu məlumatların qiymətləndirilməsi, ümumiləşdirilməsi metodikasıdır.

---

* A.İ.Dolqova. Kriminologiya. M, 1997, s. 55



downloaded from KitabYurdu.az

# İkinci fəsil.

## Cinayətkarlığın əsas göstəriciləri.

**Cinayətkarlıq. Cinayətkarlığın keyfiyyət göstəriciləri. Cinayətkarlığın kəmiyyət xarakterizəsi. Cinayətkarlığın dinamikası. Cinayətkarlığın digər göstəriciləri. Latent cinayətkarlığın aşkar edilməsi metodikası.**

### C İ N A Y Ə T K A R L I Q.

Cinayətkarlıq - nisbi kütləvi, tarix boyu dəyişilən, cinayət-hüquqi mahiyyətli, müəyyən dövr ərzində müvafiq dövlətdə törədilən cinayətlərin məcmusundan ibarət olan, kəmiyyət və keyfiyyət göstəriciləri ilə xarakterizə edilən neqativ sosial hadisədir. Cinayətkarlıq cinayətlərin sadə cəmi deyil, özünəməxsus xüsusiyyətlərdən ibarət olan cinayətlər sistemidir.

Qeyd etmək lazımdır ki, cinayətkarlıq - cinayətlərin sadə mexaniki cəminə gətirilməyən və müəyyən səbəb və şərait daxilində, zaman və məkanda baş verən cinayətlərin xüsusi toplusundan ibarət mürəkkəb, çoxölçülü, açıq, sosial-hüquqi sistemdir. Məhz bu səbəbdən də cinayətkarlıq sisteminin xüsusiyyətləri onun hissələrinin xüsusiyyətlərinin sadə cəmindən ibarət deyildir. Cinayətkarlığın əsas kəmiyyət və keyfiyyət göstəriciləri və spesifik xüsusiyyətləri konkret nəticələrin xarakteristikalarından köklü surətdə fərqlənir. Bu baxımdan cinayətkarlıq son sayda elementlər çoxluğundan ibarət stoxastik, çoxölçülü, bircinsli olmayan, bir qrup əlamət, parametr və göstəricilər sistemi ilə xarakterizə edilən çoxluqdur. Digər kütləvi statistik hadisələr kimi, cinayətkarlıq da onu tədqiq etmək üçün istifadə olunan, kəmiyyətcə ifadə edilə bilən və üzə çıxarılması mümkün ola bilən müəyyən statistik qanunauyğunluqlara tabedir. V.N.Kudryavtsevin qeyd etdiyi kimi, cinayətkarlığı əmələ gətirən elementlərin qeyri-nizamlığı, kortəbiiliyi, irrequlyarlığı onun xarakteristikalarındakı hər hansı bir qanunauyğunluqların olmamasına dəlalət etmir. Cinayətkarlıq kütləvilik kimi bir xüsusiyyətə malik olduğundan, onun inkişafının bir çox təsadüfi meylləri tarazlaşaraq ümumi meyllər əmələ gətirir və cinayətkarlığın parametrlərinin dayanaqlılığı meydana çıxır.

Eyni zamanda cinayətkarlıq özlüyündə inkişaf edən sistemdir. Müxtəlif qanunauyğunluqların təsirinə məruz qalmaqla və bu təsir nəticəsində dəyişməklə öz mahiyyətini saxlayır, öz qanunları ilə inkişaf edir. Bütövlükdə cinayətkarlığa xas qanunauyğunluqlar, ona daxil olan sistemlərin səciyyəvi qanunauyğunluqları ilə üst-üstə düşmür. Müxtəlif altsistemlərin və xarici sistemlərin təsiri cinayətkarlığın inkişafında da özünü göstərir. Lakin qeyd etmək lazımdır ki, cinayətkarlıq sistemində dəyişikliklərin baş verməsi həm də onun öz xüsusiyyətlərindən də asılıdır.*

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.18.



downloaded from KitabYurdu.az

Cinayətkarlığın öz qanunauyğunluqları, cəmiyyət və insanlar üçün neqativ nəticələrə gətirib çıxaran və xüsusi nəzarət tədbirləri tələb edən kəmiyyət və keyfiyyət xüsusiyyətləri - göstəriciləri var.

Cinayətkarlığın kriminoloji təhlilinin əsas məqsədi onun qanunauyğunluqlarının aşkar edilməsidir. Cinayətkarlığın kriminoloji öyrənilməsi zamanı aşağıdakılar aydınlaşdırılmalıdır:

1) onun vəziyyəti və tendensiyalarının qiymətləndirilməsi, cinayətlə mübarizənin istiqamətlərinin müəyyən edilməsi üçün onun ümumi yayılma dərəcəsi və konkret şəraitdə ictimai təhlükəliliyi;
2) konkret xəbərdaredici tədbirlərin işlənib hazırlanması məqsədilə onun yaranmasının və işlənilməsinin xüsusiyyətlərini göstərən sosial göstəriciləri (əsasları, sosial istiqamətlənməsi, sosial qrupları, sosial sahələri, sosial ərazi üzrə yayılması);
3) hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə cinayətkarlığın özünəməxsus, daxili keyfiyyətləri (sabitliyi, fəallığı, təşkilatçılığı).

Cinayətkarlığın səbəblərinin aydınlaşdırılması, onunla mübarizə üzrə əsaslı tövsiyyələrin hazırlanması üçün, statistik informasiya təhlili kifayət etmir. Çünki statistika bütün cinayətkarlığı əks etdirmir və onun gizli hissəsi mövcuddur. Bu da latent cinayətkarlıqdır.

Cinayətkarlığın təhlili onun real keyfiyyət və kəmiyyət göstəricilərinin aşkar olunmasına istiqamətləndirilməlidir.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın keyfiyyət göstəriciləri.

_Cinayətkarlığın keyfiyyət göstəriciləri_ onun yayılması, zaman dəyişiklikləri, müxtəlif elementlərlə, strukturla, onların sabitliyi ilə xarakterizə olunan müəyyən formada sistemləşməsi deməkdir.

Cinayətkarlıq müəyyən, bir - biri ilə əlaqəli elementlərdən ibarət olan sistem olduğuna görə, onun nisbi müstəqilliyi, ayrı-ayrı elementlərinə məxsus olmayan keyfiyyət göstəriciləri var.

Cinayətkarlığın sistemli xarakterdə olmasını aşağıdakılar əsaslandırır:

1) cinayətkarlığın daha böyük ümumi sistemin - bütövlükdə cəmiyyətin spesifik tərkib hissəsi olması kimi qəbul olunması;

2) tək bir keyfiyyət meyarının ayrılması əsasında cinayətkarlığın bütövlüyünün əsaslandırılması;

3) bir-biri ilə əlaqədə olan, cinayətkarlığa ümumilikdə yeni keyfiyyət göstəriciləri verən konkret elementlərin (altstrukturların) seçilməsi.

Bunlardan əlavə cinayətkarlıq sosial neqativ əyintilərdən ibarət böyük ümumi bir sistemin tərkibidir. Bu əyintilər müxtəlifdir: kölgəli iqtisadiyyat, sərxoşluq, narkomaniya, fahişəlik… Sosial əyintilərin bir-birindən fərqlərinə baxmayaraq, cəmiyyət zidd təbiətləri onların əlaqəli təsirini, asılılığını, birləşməsini şərtləndirir. Lakin cinayətkarlıq digər sosial əyintilərdən ən böyük ictimai təhlükəlilik dərəcəsi və dövlət tərəfindən ona cinayət-hüquqi qadağanın qoyulması və cinayət məsuliyyətinin müəyyən olunması ilə fərqlənir.

Cinayətkarlığın spesifikasını qeyd edərkən o da nəzərə alınmalıdır ki, cinayətkarlıq cinayət cəzasını nəzərdə tutan ən ciddi qadağanın vətəndaşlar tərəfindən şüurlu pozulmasıdır.

Cinayətkarlıq müəyyən şərait və şəxsiyyət tiplərinin əlaqəsinin məhsuludur və bu baxımdan onun iki altstrukturu seçilir:*

1. _Sabit cinayətkarlıq_ - (qəsdən, məqsədli) bunun yaranmasında şəxsi keyfiyyətlər əsas rol oynayır ( insan bütün maneələri şüurlu olaraq aradan qaldırır; cinayətin törədilməsi üçün əlverişli şərait yaradır, ondan fəal istifadə edir).
2. _Situasiyalı cinayətkarlıq_-onun yaranmasında şəxsi keyfiyyətləri boğan xarici təsir, cinayətkar davranışın mürəkkəb vəziyyətə düşməsi əsas olur.

Cinayətkarlığın bu növlərinin də öz növbəsində iki tərkib hissəsi fərqləndirilir:

_1.Sabit cinayətkarlıqda:_

a) **qəsdən törədilən** - mütəşəkkil, professional cinayətkarlıq;

b) **aktual yönəlişlə bağlı olan cinayətkarlıq -** əlverişli vəziyyətdə dərhal seçilən cinayətkar davranışla xarakterizə edilir.

-

* A.İ.Dolqova. Kriminologiya. M, 1997, s. 55



downloaded from KitabYurdu.az

*2. Situasiyalı cinayətkarlıqda:*

**a) viktim-situasiyalı cinayətkarlıq -** cinayətin törədilməsi üçün əlverişsiz situasiyanın yaranması, belə vəziyyətin yaranmasında və ya düşməsində cinayətkarın müəyyən təqsirinin olması ilə xarakterizə edilir.

**b) təsadüfi- situasiyalı cinayətkarlıq** - cinayətin törədilməsi üçün mürəkkəb vəziyyət cinayətkardan asılı olmayaraq yaranır və onun üçün gözlənilməz olur.

**Qəsdən edilən cinayətkarlığın xüsusiyyətləri** - sosial şəraitdən şüurlu istifadə etmə; cinayətkar fəaliyyətin planlaşdırılması; lazım gəldikdə isə cinayət-hüquqi qadağanın pozulması üçün əlverişli şəraitin yaradılması; sosial nəzarətin (həmçinin cinayətkarlıqla mübarizənin) dəyişikliklərinin mütəmadi uçotu. Cinayətkar hərəkət variantının seçilməsi subyekt tərəfindən müvafiq şəraitdə onun üçün daha əlverişli olan kimi qiymətləndirilir, o qazananların və itirilənlərin ehtimal balansını dəqiqliyi ilə ölçür. Burada şəxsiyyətin xüsusən böyük rolu var.

***Aktual yönəlişlə bağlı olan cinayətkarlığın xüsusiyyətləri*** **-** aktual quraşdırmanın təsiri altında yaranır, yəni neqativ deformasiyalı tələbləri, maraqları olan və ya bunların təmin edilməsi vasitələri barədə qanuna zidd təsəvvürləri olan şəxsiyyətin müəyyən sosial tipinin bu tələblərin və maraqların həyata keçirilməsi üçün əlverişli şəraitə düşməsi nəticəsində yaranır.

***Situasiyalı cinayətkarlıq*** - onun törədilməsi üçün əsas vəziyyətin özüdür. Əlverişli vəziyyət yarandığı halda şəxs hər hansı bir hərəkət variantını seçməlidir və o, cinayətkar hərəkəti seçir.

***Viktim-situasiyalı cinayətkarlıqda*** - vəziyyətin rolu əsasdır, lakin burada cinayətkarların şəxsi keyfiyyətlərinin deformasiyası da özünü göstərir və bunun nəticəsində onlar bu problematik vəziyyətə düşürlər. Məsələn, spirtli içkilərdən istifadə edən kompaniyada münaqişəoərlər yarandıqda və savaşma zamanı cinayətin qurbanını və təqsirkarı təsadüf həll edir.

***Təsadüfi-situasiyalı cinayətkarlıqda*** - həlledici gözlənilmədən yaranan vəziyyət olur ki, buna da şəxsiyyət bütün əvvəlki inkişafı ilə hazır olmur və münaqişənin həlli yolunu tez bir vaxtda düzgün tapa bilmir. Məsələn, sükan arxasında olan sürücü hüquq pozucularının üzündən yaranan mürəkkəb yol hərəkəti vəziyyətinə düşür və düzgün hərəkət variantını seçməyə vaxt tapmadığına görə insanı vurur və ölümünə səbəb olur.

Müxtəlif regionlarda seçmə yolu ilə aparılan kriminoloji tədqiqatlar göstərir ki, qəsdən edilən cinayətkarlıqda sabit və situasiyalı cinayətkarlıqların münasibətləri 5:1 nisbətindədir.

Ümumi cinayətkarlığın içində qəsdən edilən cinayətkarlığın payı 55-69%, təsadüfi situasiyalı cinayətkarlığın isə 0,8-2,1% olmuşdur.



downloaded from KitabYurdu.az

Bunlar aşkar edilmiş və qeydiyyata alınmış cinayətkarlıq barədə məlumatlardır. Ehtimal etməyə əsas var ki, cinayətkarlığın latent (gizli) hissəsində sabit və xüsusilə qəsdən edilən cinayətkarlığın payı daha yüksəkdir.

Cinayətkarlığın göstərilən strukturlarının əlaqəsinin əsasını inkişafda olan cinayətkar fəaliyyət özü təşkil edir. Müəyyən şəraitdə cinayətkarlığın bir növü digərini yaradır və ya ona təsir göstərir.

Əgər situasiyalı cinayətkarlığın sabit cinayətkarlığa keçid yolunda etibarlı maneələr qoyulmursa, onda cinayətlərin sayı, cinayətkarlığın ictimai təhlükəsi artır, o yeni, daha mürəkkəb keyfiyyətlər alır, mütəşəkkil olur və s. Bu öz növbəsində ictimai psixologiyaya mənfi təsir göstərir, iqtisadiyyatda, siyasətdə, sosial mühitdə problemlər yaradır. Bu həm də cinayətkarlıqla mübarizədə müəyyən çatışmamazlıqlarla bağlıdır.

Beləliklə, cinayətkarlığın məhz altstrukturalarının, elementlərinin bilavasitə əlaqəli olması onun nisbətən müstəqil, spesifik sistemli keyfiyyətlərinin sosial təzahür kimi mövcudluğuna əsas olur.

Buna görə də cinayətkarlığın ayrı-ayrı növlərinə ayrılıqda təsir göstərilməsi cəhdləri iflasa uğrayır. Cinayətkarlıqla mübarizə onun xarakterinə uyğun sistemli xarakterdə aparılmalıdır.

Cinayətkarlıq sosial problem olduğuna görə ona bu sistemin xüsusiyyətləri məxsusdur: məqsədəuyğunluq, açıqlıq, cinayətkarlıqla mübarizədə çatışmamazlıqlar olduqda özünüsaxlamaq və inkişaf.

*Cinayətkarlığın spesifik məqsədəuyğunluğu*-ictimai təhlükəli, qanunazidd məqsədlərə çatmasında (narkotik maddələrin istehsalının təşkili və onların yayılması); yaxud qanunla qadağan olunmayan məqsədlərə qanunazidd , ictimai təhlükəli vasitələrlə çatmasında özünü göstərir ( hədə-qorxuyla tələb etmək yolu ilə varlanma, ləyaqəti alçaldan təhqirə görə qəsdən adam öldürmə). Bu nöqteyi nəzərdən narkotik cinayətkarlığın kriminoloji təhlili daha çox aydınlıq gətirə bilər.

Narkomaniya və narkotizmlə mübarizə məsələləri kəskin ictimai-siyasi əhəmiyyət kəsb edir.

Respublikada mövcud şəraitin təhlili göstərir ki, son illər ərzində narkotiklərlə bağlı cinayətlərin xüsusi çəkisi artmaqdadır.

Azərbaycan Respublikasında narkomaniya və narkotizmin yayılmasına qarşı görülən tədbirlərə baxmayaraq, bu sahədə əməliyyat şəraiti, mövcud kriminoloji durum xeyli dərəcədə mürəkkəbləşmişdir Belə ki, 1991-1996-cı illər ərzində narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə bağlı cinayətlərin sayı 3,5 dəfə artmışdır. Problemin mürəkkəbliyini və kəskinliyini narkomaniya diaqnozu ilə tibb müəssisələrində qeydə alınan xəstələrin sayı da sübut edir. Bu illər ərzində onların sayı 3,8 dəfə artaraq, 1996-cı ildə 6825-ə çatmışdır. Narkotiklərlə bağlı cinayətlər Azərbaycanın bütün regionlarına yayılmış, bu cinayətlərin mütəşəkkil qruplar tərəfindən törədilmə faktları xeyli artmışdır. Beynəlxalq mütəşəkkil cinayətkar narkotəşkilatları Azərbaycanın əlverişli geosiyasi vəziyyətindən istifadə edərək ölkə ərazisindən narkotiklərin Avropa ölkələrinə və dünyanın digər ölkələrinə aparılması üçün tranzit-keçid məntəqəsi kimi istifadə etməyə çalışırlar. Son illərin əməliyyat-axtarış təcrübəsi buna əyani sübutdur.



downloaded from KitabYurdu.az

İnsanların sağlamlığına birbaşa təsirindən başqa narkomaniyanın ictimai təhlükəliliyi ondan ibarətdir ki, narkomaniya müxtəlif ağır zorakı-tamah xarakterli cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amil rolunda çıxış edir. Narkomaniya ilə cinayətkarlıq arasında əlaqə əsasən üç formada özünü göstərir.

Birincisi, narkomanlar obyektiv və subyektiv olaraq cinayətlərin törədilməsinə meyllidirlər. Qanuni dövriyyədən çıxarılan narkotiklərin özü artıq cinayətkar yolla əldə edilir. Digər tərəfdən narkomaniya xəstəliyinə düçar olan şəxslərin öz davranışlarına fərdi - iradə nəzarəti xeyli dərəcədə zəifləyir, bu isə onlar tərəfindən müxtəlif cinayətlərin törədilməsini asanlaşdırır.

İkincisi, narkotik vasitələrə olan mövcud tələbat, uyğun surətdə təklif yaradır, bunun mənbəyi olaraq isə narkotik vasitələrin əkilib-becərilməsi, istehsalı, satışı, oğurlanması və s. ilə bağlı cinayətkar fəaliyyət çıxış edir.

Nəhayət üçüncüsü, narkotiklərə həddən artıq aludə olan şəxslər yüksək viktimoloji xüsusiyyətlərə malik olduğundan, özləri çox vaxt cinayətlərin qurbanlarına çevrilirlər.

Hüquq-mühafizə orqanlarının narkomaniya və narkotizmlə mübarizə təcrübəsi göstərir ki, bu gün “narkomanlar dünyası” strukturca təşkil olunubdur. Mənzillərdə, diskotekalarda, parklarda və digər yerlərdə bir-biri ilə əlaqə saxlayan, təmas və ünsiyyətdə olan müxtəlif regional narkoman qrupları mövcuddur.

Narkotizasiya prosesi öz görkəm və xarakterini dəyişməkdədir. Narkomanların qiymət meyarlığı, mənəvi - əxlaqi baxışları cəmiyyətin qadağan və məhdudiyyətlərini, sosial dəyərlər sistemini inkar edir, bunun özü də öz növbəsində cinayətkarlığın və digər neqativ kriminal hadisələrin artımını doğurur.*

Tədqiqatın nəticələri göstərir ki, respublikadakı narkotik şərait intensiv surətdə mürəkkəbləşir. 1988-ci ildən başlayaraq narkotik cinayətkarlığın vəziyyəti sabitləşmiş neqativ təmayüllərin təzahürü ilə xarakterizə olunur. Bunlardan bəziləri başqa dövlətlərdəki narkotizm təzahürləri ilə oxşardır. Məsələn, dünya ölkələrinin əksəriyyətində olduğu kimi, Azərbaycanda narkotik cinayətlərin ümumi sayının əhəmiyyətli dərəcədə artması müşahidə olunur. Göstərilən müddət ərzində bunların sayı 40%-dən çox artmışdır. Bu cinayətlərin yayılması müxtəlif intensivlik dərəcəsi ilə respublikanın bütün şəhər və rayonlarında qeyd olunur.

Narkomanlar tərəfindən törədilmiş cinayətlər arasında qərəzli-zorakı cinayətlər 76,8%, bunların içində şəxsi əmlakın oğurlanması 88,7% təşkil etmişdir.**

---

* Cavadov F.M., Abdullayev Y.S. Narkotizm və narkomaniya: - problemlər və həlli yolları. “Qanunçuluq” jurnalı, № 1, 1998.

** Xarici araşdırmaların nəticələrinə görə narkomanlar tərəfindən törədilən oğurluqlar 44% təşkil edir. Bax: Обследование наркоманов в исправительном центре Флери-Мерожи (ВИНИТИ, 1989, № 12, с.29.)



downloaded from KitabYurdu.az

Narkotik cinayətkarlığın strukturunda narkotik vasitələrin qanunsuz olaraq hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və göndərilməsi ilə bağlı cinayətlər birinci yeri tutur. Bunların faizi durmadan artmaqdadır və 87%-dən 96%-ə qədər yüksəlmişdir. Həmin cinayətlərin böyük əksəriyyətini (96%-dən 98,8%-ə qədər) satış məqsədi olmadan törədilən cinayətlər təşkil edir. Belə vəziyyət bir tərəfdən, güman etməyə əsas verir ki, sadalanan əməllər narkotik vasitələrin şəxsi istifadə üçün əldə edilməsi məqsədilə törədilib, digər tərəfdən, belə bir nəticəyə gəlmək olar ki, narkotik vasitələrin qanunsuz yayılması ilə əsas mübarizə "faktiki olaraq narkotiklər qəbul etmiş şəxslərə qarşı tədbirlər istiqamətinə keçmişdir".

Lakin bir sıra şərtləri nəzərə aldıqda belə bir nəticəyə gəlmək olar ki, narkotik vasitələrin satışı məqsədilə törədilən cinayətlərin sayı da artıbdır, lakin müxtəlif obyektiv və subyektiv səbəblərdən bunlar başqa cür hüquqi qiymət alır. Burada bir sıra digər şəraitlərlə birlikdə, göstərilən qeyri-qanuni əməllərlə bağlı konkret vəziyyətlərin qiymətləndirilməsindəki subyektivliklə əlaqədar satış məqsədinin sübutundakı mürəkkəbliklər müəyyən rol oynayır. Bu əməllərin ayrılmasına dair qanunvericilikdə dəqiq mövqe yoxdur. Narkotizmlə mübarizə ilə məşğul olan sorğuya cəlb edilmiş daxili işlər orqanları işçilərinin 93 %-i narkotiklərin satış məqsədinin sübutunun daha mürəkkəb olduğunu göstərirlər. Məlumdur ki, satış məqsədinin müəyyən edilməsi cinayət işi üzrə son qərarın qəbulunda həlledici əhəmiyyətə malikdir.

Narkotik vasitələrlə bağlı qeyri-qanuni hərəkətlərə görə məhkum olunanların 63%-i göstərilən əməllərin törədilməsində satış məqsədinin olmasını və hüquq-mühafizə orqanları tərəfindən tutulana qədər uzun müddət ərzində müntəzəm olaraq belə əməllərlə məşğul olduğunu etiraf etmişlər.

Bununla bağlı müşahidə olunan belə bir vəziyyət maraq doğurur. Cinayətkarlardan müsadirə edilmiş narkotik vasitələr arasında son zamanlara qədər bitkilərdən hazırlanmış narkotiklər əksəriyyət təşkil edir (87%).

Narkotik tərkibli bitkilərin qeyri-qanuni əkildiyi və ya yabanı bitdiyi sahələrin üzə çıxarılması və ya məhv edilməsinin həcmi əhəmiyyətli dərəcədə azalsa da, narkotiklər hazırlanması üçün xammalın müsadirə edilən 10 tonlarla hesablanan miqdarı 5 dəfədən də çox artmışdır.

Narkotik cinayətkarlığın strukturunun başqa xüsusiyyətləri də diqqəti cəlb edir. Qeydiyyata alınmış cinayətlər arasında səhiyyə sistemində, kimyəvi-farmakologiya müəssisələrində, tibbi-bioloji obyektlərdə və s. narkotik maddələrin istehsalı, əldə edilməsi, saxlanılması, uçota alınması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının pozulması ilə bağlı əməllər yoxdur. Məlumdur ki, cinayət haqqında məlumatın olmaması bütün hallarda cinayətin olmamasını sübut edə bilməz.

Məsələ burasındadır ki, göstərilən qaydaların əsas icraçısı Səhiyyə Nazirliyidir. Səhiyyə Nazirliyi bu qaydaların yerinə yetirilməsinə də nəzarət edir, habelə hüquq-mühafizə, digər marağı olan təşkilat və idarələrlə qarşılıqlı əlaqədə narkotik vasitələrin qorunma vəziyyətinin birgə yoxlamalarını həyata keçirir.

Lakin təcrübədə belə qarşılıqlı əlaqə mexanizmi zəif işlənmişdir. Hətta marağı olan vəzifəli şəxslərin, daxili işlər orqanları işçilərinin çoxu göstərilən



downloaded from KitabYurdu.az

qaydaların mövcudluğundan xəbərsizdir. Belə vəziyyət bu qaydaların yerinə yetirilməsini xeyli dərəcədə çətinləşdirir.

Narkotizmin yayılmasında çox mənfi rol oynayan digər cinayətlər də narkotik cinayətkarlığın strukturunda azsaylı bir qrupda təmsil edilmişdir.

İldə narkotik vasitələrdən istifadəyə təhriklə bağlı bir-iki cinayət, narkotiklərdən istifadə üçün tiryəkxanaların təşkil edilib və saxlanılması və ya bu məqsədlər üçün yer verilməsinə görə 3-dən 8-ə qədər cinayət qeydə alınır.

Bununla bərabər, satış məqsədi ilə narkotik vasitələrlə qeyri-qanuni hərəkətlərə görə məhkum edilmiş şəxslər arasında keçirilən sorğuda iştirakçıların 98 %-i 3-dən 7-yə qədər şəxsi narkotiklərdən istifadəyə təhrik etməsini boynuna almışdır. Belə cinayətlərin 70%-dən çoxu məqsədyönlü şəkildə, nəzərdə tutulan "qurban"ın yer verdiyi üçün muzd alan müxtəlif şəxslərin mənzillərinə dəvət edilməsi, belə yerlərin xüsusi təchiz olunması ilə həyata keçirilir. Satış məqsədi olmadan həmin hərəkətlərə görə məhkum edilmiş hər 4 nəfərdən biri söhbət zamanı gizlətmədi ki, şəxsi istifadəsi üçün əldə etdiyi və ya hazırladığı narkotik vasitələri təklif etməklə ən azı 3-4 nəfəri narkotiklərdən istifadəyə alışdırmışdır.*

*Cinayətkarlığın açıqlığı* - onun ətraf mühitin dəyişikliklərinə hazır olması (müəyyən hədlərdə) və buna uyğunlaşması deməkdir.

*Cinayətkarlığın özünüsaxlama və inkişafında* qəsdən edilən, xüsusilə professional və mütəşəkkil cinayətkarlıq böyük rol oynayır.

Bu nöqteyi-nəzərdən mütəşəkkil cinayətkarlığın öyrənilməsinə xüsusi yer ayrılır.

## *Mütəşəkkil cinayətkarlıq.*

Mütəşəkkil cinayətkarlıq barədə kriminoloqlar, kriminalistlər, cinayət hüququ üzrə mütəxəssislər, siyasətçilər, iqtisadçılar, sosioloqlar, jurnalistlər çox yazırlar.

Bir neçə şəxs tərəfindən mütəşəkkil cinayətin törədilməsi üçün onların əvvəlcədən birləşməsi və cinayətin hazırlanması, qəsd edilməsi və törədilməsi zamanı hərəkətlərinin razılaşdırılması gərəkdir. Mütəşəkkil qrup belə yaranır. Bu sadəcə birlikdə cinayət törədən şəxslərin qrupu deyil (məsələn, gənclərdən ibarət olan bir qrup, rəqslərdə savaşa cəlb olunur və nəticədə onlar hansısa bir adama ağır bədən xəsarəti yetirir və ya öldürürlər). Bu hətta əvvəlcədən sövdələşmə əsasında cinayətləri törədən şəxslərin qrupu da deyil (məsələn, gənclərin bir qrupu boş qalmış bağların yanından keçərkən ordan nə isə oğurlamaq qərarına gəlirlər və bu fikri həyata keçirmək üçün cinayətkar rolların bölüşdürülməsi sxemini, cinayətin izlərinin gizlədilməsi üsullarını işləmədən hərəkətə başlayırlar).

Mütəşəkkil cinayətin törədilməsi üçün qrup müəyyən formada təşkil olunmalıdır, plan işlənməlidir, kollektiv səylər bu plana yönəldilməlidir, onun üzvləri planın həyata keçirilməsi zamanı ortaya çıxan problemləri razılaşdıraraq həll etməyə borcludurlar. Mütəşəkkil qrup bir cinayətin törədilməsi üçün də təşkil oluna bilər.

* E.Həsənov. Antinarkotizm. Bakı 1996. Səh.171-174.



downloaded from KitabYurdu.az

Lakin mütəşəkkil cinayətlərin çoxluğu və mütəşəkkil qrupların çoxluğu fakt kimi üzə çıxanda "mütəşəkkil cinayətkarlıq" termini istifadə olunur.

Cinayətkar fəaliyyətin miqyasının genişlənməsi müxtəlif subyektlərin cəlb olunması ilə bağlıdır. Təcrübədə bu fiziki şəxslər, müxtəlif cinayətlərin törədilməsi sahəsində ixtisaslaşan mütəşəkkil qruplar və hüquqi şəxslər olur (məsələn, onların vasitəsilə cinayətkar gəlirlər yuyulur).

Bu mütəşəkkil sistemin idarəetməsinin aşağıdakı ümumi qaydaları olur:*

1. İdarəetmə üçün xüsusi strukturların (təşkilatçı, rəhbərlər);
2. İcraçı funksiyaları olan strukturların;
3. Bilavasitə cinayəti törədən strukturların;
4. Analitik bölmələrin;
5. Özünün təhlükəsizlik xidmətlərinin;
6. Cinayətkar gəlirlərin leqallaşdırılması üçün strukturların və s. yaradılması;

Legitim (leqal) mütəşəkkil birləşmələrdən fərqli olaraq cinayətkar təşkilatlar özünün saxlanılması və aşkar olunmaqdan qorunması üçün bu funksiyaları təmin edən xüsusi bölmələr yaradırlar:
kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini təmin edən bölmələr, təhlükəli şəxslərə və ya əməkdaşlıq üçün lazım olan şəxslərə güc və digər təsirin göstərilməsi üçün (ələ alma, şantaj, diskreditasiya, fiziki aradan götürmə, əmlakın məhv edilməsi); şəxsi mühafizə və bazaların mühafizəsi üçün bölmələr.

Bunlardan başqa cinayətkar fəaliyyətin qorunma vasitələrinin təmin edilməsi üçün , cinayətkar təşkilatlar dövlət strukturları ilə əməkdaşlıq yaratmağa çalışırlar və onları əks- fəaliyyətə cəlb edirlər. Bu da dövlət orqanları sistemində korrupsiyanın yayılmasına gətirib çıxarır.

Beləliklə, adi cinayətkarlıq cəmiyyətin institutlarına qarşı təsir göstərdiyi halda, mütəşəkkil cinayətkarlıq cəmiyyətin və dövlətin institutlarına arxalanaraq, onlardan öz məqsədləri üçün istifadə etməyə çalışır.

1968-ci ildə ABŞ qanununda mütəşəkkil cinayətkarlığın anlayışı belə verilmişdir: "Qanunla qadağan olunmuş xidmətlərin (qumar oyunlardan, fahişəlikdən, narkotiklərin yayılmasından istifadə etmə) təchizatı ilə məşğul olan yüksək təşkil olunmuş və intizamlı assosiasiyanın üzvlərinin qanunazidd fəaliyyətidir".

Sonradan bu dəqiqləşdirilmişdir: "Mütəşəkkil cinayətkarlıq maliyyə mənfəəti qazanmaq məqsədilə qanundan kənarda hərəkət edən, cinayətkar razılıqda olan və işinin davam etməsi üçün siyasi ələ almağı və nəzarəti bacara bilən şəxslərin qrupudur".

Cinayətkar təşkilatda iştirak etmək və cinayətkar təşkilatın fəaliyyətində iştirak etmək anlayışları eyni deyil. Çünki çox hallarda cinayətkar təşkilatlarla əməkdaşlıq edən dövlət qulluqçuları onun üzvü olmurlar və kimə qulluq etdiklərini də bilmirlər.

* A.İ.Dolqova. Kriminologiya. M, 1997, s. 92-93



downloaded from KitabYurdu.az

İtalyan hüquqşünası Rozario Minna cinayətkar təşkilatların beş xüsusiyyətini qeyd edir: informasiya yığımı və ötürülməsi; hüquq mühafizə institutlarının fəaliyyətinin neytrallaşdırılması; əsas sosial-iqtisadi xidmətlərdən istifadə etmə; daxili strukturun olması; hərəkətlərinin xarici "qanunçuluğu".*

Cinayətkarlığın cəmiyyətə təsirinin genişlənməsi nəticəsində *cinayətkar birliklər* yaranır. Burada cinayətkar qruplar və ya təşkilatlar ümumilikdə yox, onların nümayəndələri əməkdaşlıq edirlər.

Cinayətkar birlik digər cinayətkar təşkilatlara nisbətən yuxarıda duran instansiya deyil, müəyyən koordinasiya mərkəzidir. Rusiyanın yeni Cinayət Məcəlləsində cinayətkar birliyə belə anlayış verilir: "Əgər cinayət ağır və xüsusilə ağır cinayətlərin törədilməsi üçün yaranan mütəşəkkil qrup (təşkilat) tərəfindən törədilibsə, o cinayətkar birlik tərəfindən törədilmiş hesab edilir".

Hal-hazırda Rusiyada cinayətkar birliklər mövcuddur ki, onlar bir-biri ilə düşmənçilik aparır (yanğınlardan, ölümə süi-qəsdlərdən istifadə etməklə) və yaxud vəziyyətdən asılı olaraq atəşkəs bağlayırlar, əməkdaşlıq barədə razılıq əldə edirlər, yeni cinayətkar birlik yaradırlar.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Ali Məhkəmənin sorğusuna əsasən özünün 1999-cu il 20 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulmuş "mütəşəkkil dəstə" anlayışını şərh etmişdir:

"Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulan "mütəşəkkil dəstə" dedikdə bir və ya bir neçə cinayətin törədilməsi üçün əvvəlcədən birləşmiş iki və yaxud daha çox şəxslərdən ibarət olan möhkəm cinayətkar qrup başa düşülməlidir;

Mütəşəkkil dəstənin möhkəmliyini onun tərkibinin və təşkilati qurumlarının sabitliyi, üzvlərinin birliyi (sıxlığı), cinayətkar fəaliyyətin forma və üsullarının daimiliyi xarakterizə edir.

Mütəşəkkil dəstənin başqa cinayətkar qruplardan fərqləndirilməsi üçün istifadə edilə biləcək digər xüsusiyyətlərlə yanaşı, ilk növbədə aşağıdakı əsas xüsusiyyətlər nəzərə alınmalıdır:

- dəstədə təşkilatçı və ya başçının irəli sürülməsi və ciddi intizamın gözlənilməsi; cinayət niyyətlərinin ümumiliyi; cinayətin törədilmə planının işlənib hazırlanması və bunun üçün mükəmməl hazırlıq görülməsi; cinayət törədilməsində rolların bölüşdürülməsi; cinayətin törədilmə üsulunun qabaqcadan müəyyənləşdirilməsi; cinayətin törədilməsi üçün mürəkkəb üsullardan istifadə olunmasının mümkünlüyü; hazırlanmış plana uyğun olaraq cinayətin törədilməsi üçün hərəkətlərin razılaşdırılması; cinayət yolu ilə əldə edilmiş mənfəətlərin qrupun strukturlarında olan mövqelərə uyğun bölüşdürülməsi".

Mütəşəkkil cinayətkar birliklər daimi inkişaf edirlər, onların keyfiyyət və kəmiyyət göstəriciləri dəyişir, cinayətkarlıqla mübarizənin və dövlətin səhvləri nəticəsində çox vaxt onlar hadisələri qabaqlaya bilirlər.

---

*R. Minna. "Mafiya qanuna qarşı". M, 1988, s.260



downloaded from KitabYurdu.az

Mütəşəkkil cinayətkarlığın liderlərinin ifşası və məsuliyyətə cəlb olunması böyük çətinliklərlə bağlıdır. Çünki onlar mübarizə mərkəzini elitadan və cinayətkar kapitallardan kriminal aksiyaların yerli icraçılarına; iqtisadi və vəzifə kriminal fəaliyyətlə, korrupsiya ilə mübarizəni - küçə cinayətkarlığına və bandalara yönəldərək, özlərini müdafiə edirlər.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın kəmiyyət xarakterizəsi.

Kəmiyyət - təzahürün məkan-zaman xüsusiyyətləridir (məkanda həcmi, mövcudluğunun sürəklikliliyi, artma templəri və s).

Cinayətkarlığın öyrənilməsi onun dərk edilməsi və təhlilindən ibarətdir.

Dərk etmə zamanı tədqiqatçı cinayətkarlıq barədə faktiki məlumatları alır. Qiymətləndirmə yeni məlumatların köhnələri ilə əlaqələndirilməsidir. Məsələn, müəyyən dövr ərzində cinayətkarlığın artması və ya azalması təhlil edilərkən öyrənilən dövrün məlumatları ötən dövrün məlumatları ilə müqayisə edilir.

Cinayətkarlıq onun nəticələri ilə birlikdə təhlil edilərkən aşağıdakılar nəzərə alınır:*

1) cinayətin qurbanlarının sayı;
2) maddi ziyanın məbləği (itirilmiş mənfəət də daxil olmaqla);
3) müxtəlif sosial qrupların kriminal pozulması;
4) əhalinin müəyyən hissəsinin başlı-başına buraxılması (narkomanlığın yayılması, nəzarətsizlik və baxımsızlıq və s.);
5) həyatın müxtəlif sahələrinin kriminal pozulması (məsələn, Rusiyada kapitalın 50% və səsverən aksiyaların 80% cinayətkar klanların əlinə keçmişdir);
6) dövlət strukturlarına və cəmiyyətə, hüquqa kriminal təsirin dərəcəsi, onların cinayətkar fəaliyyətdə istifadə olunmasının dərəcəsi;
7) cinayətkar psixologiyanın sarsıdılması;
8) cinayətkarlıqla qarşıdurmada əhalinin fəallığının zəiflənməsi.

Cinayətkarlığın təhlilinin son məqsədi - cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi, proqramların işlənib hazırlanması, hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsidir.

Cinayətkarlığın təhlili perspektiv xarakter daşımalıdır, o keçmiş vəziyyətləri əks etməsi ilə bitməməli, proqnoz üçün əsaslar verməlidir.

### ***Cinayətkarlıq barədə informasiya mənbələri və onun göstəriciləri.***

Cinayətkarlıq barədə informasiya mənbələri aşağıdakılardır:

1. Statistik hesabatlar:

a) DİN, prokurorluq, digər hüquqi-mühafizə orqanlarının hesabatları: qeydiyyata alınmış cinayətlər barədə; cinayət törətmiş şəxslər barədə;

b) məhkəmələrin və ədliyyə orqanlarının hesabatları, o cümlədən:
məhkəmələrin işi barədə hesabatlar;
cinayət məsuliyyətinə cəlb olunanların və cinayət cəzalarının sayı barədə hesabatlar;
məhkum olunanların tərkibi, cinayətin törədilmə yerləri barədə hesabatlar;
yetkinlik yaşında cinayət törətdiyinə görə məhkum olunanlar barədə hesabatlar.

---

*A.İ. Dolqova. Kriminologiya. M, 1997, s.109



downloaded from KitabYurdu.az

2. İlkin hesabatın statistik kartoçkaları. Bunlarda cinayətlər,onları törədən şəxslər barədə məlumatlar əks edilir. Statistik hesabatlar bu kartoçkalar əsasında hazırlanırlar. Kartoçkaların məlumatları DİN informasiya mərkəzlərinin məlumatlar yaddaşına salınır.
3. Sosial-iqtisadi, sosial-demoqrafik və digər statistik hesabatların göstəriciləri. Məsələn, cinayətkarlığın əmsallarının hesablanması üçün əhalinin sayı barədə məlumat tələb olunur.
4. Digər qanun pozuntuları, sərxoşluq, narkomanlıq və s. barədə məlumatlar.
5. Cinayət işlərinin, materiallarının və cinayət barədə ərizələrin ümumiləşdirilməsi materialları.

Bunlar mütəmadi olaraq hüquq-mühafizə orqanlarında, müvafiq icra hakimiyyəti orqanlarında hazırlanır.

Hüquq-mühafizə orqanlarının işlərindəki əsas çatışmazlıqlar sırasında cinayətkarlığın yeni formalarının, onların inkişafının zəif təhlilini, elm və texnikanın nailiyyətlərindən kifayət qədər istifadə edilməməsini, informasiya xidmətinin zəifliyini qeyd etmək olar. Cinayət siyasətinin həyata keçirilməsində qeyri-ardıcıllıq da öz rolunu oynayır.*

**Cinayətkarlığın birinci göstəricisi** - törədilmiş cinayətlərin sayıdır. Bu göstərici statistikada bütünlükdə əks oluna bilməz, çünki çox cinayətlər naməlum şəraitdə törədilir, çoxlarının izləri gizlədilir, zərərçəkənlərin bəzisi onlara edilən qəsdlər barədə xəbər vermir.

Beləliklə, qeydiyyata alınmış cinayətlərin sayı törədilmiş cinayətlərin sayı deyil. Buna görə heç olmasa iki statistik göstəricinin analizi məqsədəuyğundur: daxili işlər və prokurorluq orqanları tərəfindən baxılmış ərizələrin, cinayətlər barədə məlumatların sayının və qeydiyyata alınmış cinayətlərin sayının analizi.

**Cinayətkarlığın ikinci göstəricisi** - cinayət törədən şəxslərin sayıdır. Statistika yalnız təqsiri sübut olunmuş cinayətkarların sayını əks edir.

Cinayət törədib aşkar olunmuş şəxslərin ümumi sayı iki kateqoriyaya bölünür:

1) cinayət məsuliyyətindən azad olunan şəxslər (reabilitasiya olmayan əsaslarla - yəni materialları yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalara göndərilənlər və s.)

2) işləri məhkəməyə göndərilmiş şəxslər. Bura həm məhkum edilənlər, həm bəraət qazananlar, həm də işlərinə məhkəmə tərəfindən xitam verilənlər və ya onlar barədə materialları əlavə istintaqa göndərilənlər daxildir.

**Cinayətkarlığın üçüncü göstəricisi -** zərərçəkənlərin sayıdır. Bu fiziki və hüquqi şəxslərdir.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.23



downloaded from KitabYurdu.az

**<u>Cinayətkarlığın dördüncü göstəricisi -</u>** maddi ziyandır. Ötən dövrdə cinayət statistikası yalnız dövlət və içtimai əmlakın oğurlanması nəticəsində vurulmuş ziyan barədə məlumatı əks edirdi. Xüsusi təhlükəli və digər cinayətlər, hərbi cinayətlər barədə məlumatlar verilmirdi. Buna görə cinayətkarlığın ümumi kriminoloji analizi açıq statistikanın məlumatlarına əsaslanırdı. *

Respublikada cinayət statistikası ilə məşğul olan vahid metodoloji-metodik mərkəzin olmaması aktual problemdir. Məsələn, indiyə qədər cinayətlərin açılmasının dəqiq qeydiyyatı, mürəkkəb cinayət hadisələrinin, o cümlədən rayon və şəhərlər üzrə cinayətkarlığın struktur xüsusiyyətlərinin qeydiyyatı, latent cinayətkarlığın hesablanması, cinayətkarlığın tədqiqi metodikasına və digər başqa mürəkkəb məsələlərə aid vahid iş konsepsiyasının olmaması işin keyfiyyət və səmərəliliyini xeyli aşağı salır. Gizli deyildir ki, vahid metodikanın olmamasının nəticəsidir ki, bir sıra statistik göstəricilər cinayətkarlıq və onun profilaktikası üzrə əsl həqiqi mənzərəni nəinki əks etdirmir, hətta bir çox hallarda təhrif edir.

Cinayətkarlıq haqqında informasiya sisteminin təşkilində hazırda olan çatışmazlıqlar dəqiq və əsaslı proqnozların alınması yolunda da ən böyük əngəldir. Cinayətlər, cinayətkarlar və cinayətkarlığa aid vahid statistik informasiya sisteminin təşkili proqnozlaşdırmada və son nəticədə cinayətkarlığa qarşı mübarizə sahəsində əsaslı dönüşə nail olmağa və beləliklə görülən elmi-praktiki işlərin səmərəliliyini qat-qat artırmağa imkan verərdi.**

### Cinayətkarlıq əmsalları və onun strukturu.

Cinayətkarlığın öyrənilməsi zamanı mütləq məlumatlarla yanaşı nisbi məlumatlar da - əmsallar, xüsusi çəki və ya paylar istifadə olunur.

Cinayətkarlığın yayılmasının analizindən aşağıdakılar müəyyən olunur:

1) cinayətkarlığın səviyyəsi (qeydiyyata alınmış və aşkar edilmiş cinayətlərin mütləq sayı);

2) əmsallarla göstərilən cinayətkarlığın intensivliyi;

Əmsallar cinayətkarlıq barədə məlumatın əhali barədə məlumatlarla tutuşdurulması yolu ilə hesablanır.

**Kf** ( faktlar üzrə əmsal)- qeydiyyata alınmış cinayətlərin sayı barədə məlumatların tutuşdurulduğu halda istifadə olunur;

**Kş** (şəxslər üzrə əmsal) - aşkar olunmuş cinayətkarların sayı tutuşdurulduqda istifadə edilir;

**Km** - məhkum olunmuşların sayı barədə göstəricilər olanda istifadə olunur.

Əmsalların köməyi ilə müxtəlif ölkələrin, ölkənin regionlarının, müxtəlif dövrlərin, müxtəlif sosial qrupların cinayətkarlığının müqayisəsi aparılır. Məsələn, Rusiya və Azərbaycanda qeydiyyata alınmış cinayətlər barədə mütləq məlumatların tutuşdurulması düzgün deyil. Çünki Rusiyada əhalinin sayı bir neçə dəfə artıqdır. Lakin cinayətkarlıq əmsalı əhalinin sayında olan fərqləri aradan qaldırır.

*A.İ. Dolqova. Kriminologiya. M, 1997, s.116-117

** İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.45



downloaded from KitabYurdu.az

Cinayətkarlığın əmsalının hesablanma düsturu:

$$Kf = \frac{\textbf{Cinayət faktlarının sayı x 100.000}}{\textbf{əhalinin sayı}}$$

Burada hesaba 100.000 nəfər götürülüb, lakin əmsalı 10.000 adama, lazım gəldikdə isə 1.000 adama da hesablamaq olar.

Cinayətkarlığın əmsalı bütün əhali üzrə və ya cinayət məsuliyyəti yaşında olan əhaliyə (14 yaşdan) hesablana bilər.

Bütün əhaliyə hesab götürüləndə, əmsal faktiki olaraq əhalinin cinayətkarlıqdan zərər çəkməsini əks edir (yəni 100.000 nəfərə neçə qeydiyyata alınmış cinayət düşür). Axı zərərçəkən azyaşlı uşaq da ola bilər.

14 və çox yaşlara nəzərdə tutulmuş əmsal təqribi sayılır.

Cinayətkarlığın ayrı-ayrı növlərinin öyrənilməsi zamanı onların ümumi cinayətkarlıqda xüsusi çəkisi və payı hesablanır.

Ayrı-ayrı cinayətlərin sayının xüsusi çəkisi müvafiq cinayət növünün ümumi sayından da hesablana bilər. Məsələn, şəxsiyyət əleyhinə cinayətlərdə ölümə sui-qəsdlərin xüsusi çəkisinin hesablanması.

Xüsusi çəki faizlə göstərilir.

*Cinayətkarlığın strukturu* -müəyyən ərazidə müəyyən dövr ərzində törədilən cinayətlərin ümumi sayında müxtəlif növ cinayətlərin xüsusi çəkisi və nisbətidir. Cinayətkarlığın sturukturu cədvəl və ya diaqram vasitəsi ilə əks edilə bilər.

Struktur növdən tutmuş ayrı-ayrı cinayətlərə qədər cinayətkarlığın ünsürlərini dəyişərək, onlara ümumilik, tamlıq verərək, onları küll halında toplayır. Cinayətkarlıq sisteminin strukturuna müxtəlif səviyyələrdə olan, bir-biri ilə sıx bağlı müxtəlif altsistemlərin iyerarxiyası kimi tərif vermək olar. O cinayətkarlığın ünsürlərinin heç birinə xas olmayan yeni keyfiyyətlərinin yaranmasını, zaman və məkan daxilində baş verən keyfiyyət dəyişikliklərini şərtləndirir. Ona görə də sistemin qorunması üçün strukturun nisbi müstəqilliyi, sabitliyi xüsusilə böyük əhəmiyyət kəsb edir. *

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.45



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın dinamikası.

Araşdırmalar göstərir ki, cinayətkarlıq kəmiyyət və keyfiyyət baxımından ciddi dəyişikliklərə uğrayır. Belə ki, ağır cinayətlər artır, cinayətkarlar getdikcə amansızlaşır, cinayətkarlıq getdikcə mütəşəkkil xarakter alır. Məsələn, əgər 1979-83-cü illərdə qeydə alınan cinayətlərin sayının artımı vardısa, 1984-85-ci illərdə bu sahədə sabitləşmə müşahidə olunmuş, 1988-ci ildən isə başlayaraq cinayətlərin sayı artmağa başlamışdır. Cinayətkarlığın dinamikası haqqında 1989-cu ilə dair məlumatlardan görünür ki, bir il ərzində 2,46 mln. cinayət qeydə alınmışdır. Bu da 1988-ci illə müqayisədə 31,6 % artıq olmuşdur. 1993-cü ilədək qeydə alınan cinayətlərin sayı artmaqda davam etmişdir. 1992-ci ildə cinayətlərin sayı 22450 olmuşdur. Həmin dövrdə xüsusən ağır cinayətlər - qəsdən adam öldürmə, zorlama və s. cinayətlər say etibarı ilə başqa cinayətlərdən çox baş vermişdir. Cinayətkarlığın bu cür vüsət almasına qeyd olunan dövrdə hakimiyyət böhranı, siyasi hərc-mərclik, iqtisadiyyatdakı nəzarətsizlik və özbaşınalıqlar, hüquq-mühafizə strukturlarının fəaliyyətsizliyi və s. bu kimi hallar əlverişli şərait yaratmışlar. Lakin 1993-cü ildən başlayaraq qeydə alınan cinayətlərin sayı azalmağa başlamışdır. Bu da onunla izah olunur ki, elə həmin vaxtdan siyasi və iqtisadi sabitləşmə dövrü başlamış, ayrı-ayrı xüsusi təhlükəli cinayətkar dəstələr, qruplar zərərsizləşdirilmiş, dövlət, şəxsiyyət əleyhinə yönlədilmiş bir çox qəsdlərin qarşısı alınmış, cinayətkarlığa qarşı mübarizə mexanizmi ayrı-ayrı adamlara yox, dövlətə xidmət etməyə başlamışdır.

1990-1995-ci illərdə cinayətkarlığın dinamikasına dair statistikadan məlum olur ki, 1992-ci ildə cinayətkarlıq öz apogeyinə qalxsa da, sonrakı illərdə (1995-ci il istisna olunmaqla) azalmaya doğru istiqamət götürmüşdür.

Keçid dövrünün özünəməxsus ziddiyyətlərinin təsiri nəticəsində cinayətkarlığın kəmiyyət və keyfiyyətcə dəyişməsi kriminogen vəziyyətin mürəkkəbləşməsini bir daha təsdiqləyir.*

Cinayətkarlıq onun dinamikasında öyrənilir. Burada aşağıdakılardan istifadə olunur:

*1) Cari təhlil* - il ərzində törədilən cinayətlər barədə məlumatların ötən illərin məlumatları ilə tutuşdurulması;

*2) Sistematik təhlil* - cinayətkarlıq ardıcıl olaraq illər üzrə təhlil edilir, ayrı-ayrı dövrlər üzrə seçilir (beşillik, onillik).

*3)Cinayətkarlığın mövsüm dəyişikliklərinin təhlili*. Bu təhlil istirahət yerləri, turist bazalarında aktual olur.

Cəmiyyətdə olan geniş dəyişikliklər avtomatik surətdə cinayətkarlığın dəyişikliklərinə gətirib çıxarmır. Lakin əhalinin sayının və tərkibinin kəskin dəyişdiyi halda (məsələn, əhalininin bir yerdən o biri yerə miqrasiyası zamanı) cinayətkarlıqda da dəyişikliklər baş verə, bu proses sürətlənə bilər.

---

* Ç.Mustafayev. Müasir şəraitdə cinayətkarlığa qarşı mübarizənin bəzi problemləri. "Qanunçuluq" jurnalı. № 10, 1997



downloaded from KitabYurdu.az

Adətən miqrasiya proseslərinin yüksək intensivliyi ilə xarakterizə olunan zonalar həmçinin cinayətkarlığın yüksək səviyyəsi və dinamikasının qeyri-qənaətbəxş vəziyyəti ilə xarakterizə olunurlar. Belə ki, məcburi miqrasiya nəticəsində respublika əhalisinin təxminən 15% öz daimi yaşayış yerlərini tərk etməyə və qaçqın olmağa məcbur olmuşlar. Cinayət statistikasının məlumatları göstərir ki, 1989-1993-cü illərdə qaçqınlar tərəfindən törədilmiş oğurluq cinayətlərinin sayı kəskin artmışdır. Lakin onu da qeyd etmək vacibdir ki, bu oğurluq cinayətlərinin böyük əksəriyyəti "məcburi" xarakter daşımış və 1 milyondan artıq Ermənistandan, Qarabağın dağlıq hissəsindən və işğal olunmuş ətraf rayonlardan olan qaçqınların maddi-məişət və digər vəziyyətlərinin olduqca acınacaqlı olmaqları ilə üzvü surətdə bağlıdır.**

Cinayətkarlığın dinamikasının öyrənilməsi zamanı *artma templəri* hesablanır. Bu cinayətkarlığın azalması zamanı da istifadə edilən ümumi termindir - onda faizin qabağında "-" işarəsi qoyulur.

Artma tempi faizlə yazılır və qeydiyyata alınmış cinayətlərin və ya digərlərinin sayının ümumi cinayətlərə nisbətən neçə faiz qalxması və ya neçə faiz azalmasını göstərir. Burada aşağıdakı üsullardan istifadə olunur:

1. Dinamikanın bazis göstəricilərindən istifadə edilməsi -bir sıra illərin məlumatları mütəmadi olaraq bazis məlumatlarla (analiz dövrünün birinci ilinin məlumatları ilə) tutuşdurulur. Bu halda yazılır: "… ilə artma, %"

2. Dinamikanın zəncirvari göstəricilərindən istifadə edilməsi - hər ilin məlumatı ötən ilki ilə müqayisə edilir. Bu halda yazılır: "Ötən ilə artma, %".

---

* M. R. Kazımov. Y. S. Abdullayev. Miqrasiya prosesləri və cinayətkarlıq. "Qanunçuluq", № 4, 1997.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın digər göstəriciləri.

Cinayətkarlığın öyrənilməsinin digər aspekti - onun regionun iqtisadi, sosial, siyasi, mədəni xarakterizələrinin koordinatlarında analizidir.

### Sosial-xarakterizə.

Kriminoloji tədqiqatlar zamanı regionun *sosial-xarakterizəsi* əhali və onun yerləşməsinin tipi barədə məlumatların analizi yolu ilə müəyyən edilir.*

Əhalinin aşağıdakı qrupları seçilir:

*1.Cins üzrə* - bununla insanların sosial vəziyyətinin və əxlaqının xüsusiyyətləri bağlıdır (məsələn, qadınların kriminal zorakılıq fəaliyyəti kişilərə nisbətən aşağıdır və buna görə qadınların üstünlük təşkil edən əhali yerləşmələrində zorakılıqla bağlı cinayətlər daha az olur);

*2. Yaş həddi üzrə* - (14-15, 16-17, 18-24, 30-49, 50 yaşdan yuxarı), çünki hər yaş həddinə özünəməxsus cinayət davranışının formaları var (yetkinlik yaşına çatmayanlar daha çox oğurluq, soyğunçuluq, quldurluq, zorlama, xuliqanlıq cinayətləri törədirlər, 50 yaşından yuxarı olan şəxslər isə - daha çox iqtisadi, vəzifə cinayətlərinin törədilməsi ilə xarakterizə olunurlar);

*3.Milliyətcə* - müxtəlif millətlərə məxsus insanlar cinayət törədərkən kriminal əxlaqın elə variantlarını göstərirlər ki, onların adət-ənənələrinə görə belə hərəkətlər yaxınları tərəfindən ciddi günahlandırılmır.

*4. Əqidəsinə görə* - məsələn, müsəlmanların əksəriyyətinin spirtli içkilərdən istifadə etmədiyinə görə, onların olduğu regionlarda sərxoşluq əsasında törədilən cinayətlər azdır. Lakin burada narkotik maddələrlə bağlı cinayətlər çoxdur.

*5. Ailə vəziyyətinə görə* - (nigahda olanların sayı, boşananların sayı və s.). Məsələn, tam olmayan ailələrdə, yalnız valideynləri olan ailələrdə və üç nəsli birləşdirən ailələrdə böyüyən yetkinlik yaşına çatmayanların sayı böyük əhəmiyyət kəsb edir. Çünki axırıncı deyilən ailələrdə uşaqların əxlaqı üzərində nəzarət daha güclüdür.

6. Əhalinin yerləşməsi tipləri aşağıdakılardır:

*1.Şəhər və kənd yerləşmələri;*

*2.Əhalinin sayına görə şəhərlər bölünür*:

a) şəhər tipli qəsəbələr (10 min nəfər əhalisi olan);
b) kiçik şəhərlər (10-50 min nəfər);
v) orta şəhərlər (50-100 min nəfər);
q) böyük şəhərlər (100-500 min nəfər);
d) çox böyük şəhərlər (500 min- 1 mln. nəfər);
e) xüsusilə böyük şəhərlər (1 mln. nəfərdən yuxarı).

Qəsəbələr də müvafiq olaraq kiçik, orta və böyük qəsəbələrə bölünür.

*3.İnzibati meyara görə* - paytaxt, vilayət, rayon mərkəzi və s.;

---

*A.İ. Dolqova. Kriminologiya. M, 1997, s.123



downloaded from KitabYurdu.az

*4. İnkişafın vaxtı və templərinə görə* - yeni şəhər, tez inkişaf edən köhnə şəhər və s. Burada ailələrin formalaşması, miqrasiya prosesləri də müxtəlif olur.

*5.Funksional xüsusiyyətinə görə* - çoxfunksiyalı paytaxt şəhərlər, istehsalat, nəqliyyat, sağlamlıq mərkəzləri və s.

Böyük və xüsusilə böyük şəhərlərdə cəmiyyətə zidd və cinayətkar həyat tərzi olan şəxslərin aşkar olunması çətindir; böyük maliyyə xərcləri tələb edən şirnikləşdirici hallar çoxdur və buna görə bu şəhərlərdə cinayətkarlıq geniş yayılaraq inkişaf edir. Əksinə əhalinin kiçik yerləşmələrində sosial nəzarət güclüdür, insanlar hamısı bir-birini tanıyır. Burada xuliqanlıq, insanların sağlamlığına qarşı olan cinayətlərin latentliyi yüksək olmur, eyni zamanda quldurluq,oğurluq cinayətləri praktiki olaraq törədilmir.

Bu gün artıq aydındır ki, cinayətkarlığı xarakterizə edən cinayət statistikası ilə əhalinin demoqrafik statistikasının müqayisəli təhlilini aparmadan cinayətkarlığın real vəziyyəti, səviyyəsi, struktur və dinamikasını, ayrı-ayrı şəhər və rayonlarda onun yayılma dərəcəsini bilmək, cinayətkarlığa xas meyl və qanunauyğunluqları aşkar etmək və deməli cinayətkarlığı kompleks tədqiq edib onu proqnozlaşdırmaq, demək olar ki, mümkün deyil. Təcrübə göstərir ki, əhalinin sayı, cinsi və tərkibi, onun inkişaf dinamikası, doğum və ölüm, urbanizasiya, əhalinin miqrasiyası və digər demoqrafik proseslərin dərin və hərtərəfli təhlilinə əsaslanmadan cinayətkarlığın kompleks tədqiqi və proqnozlaşdırılması məqsədi ilə aparılan kriminoloji tədqiqatlar qənaətbəxş hesab edilə bilməz.

Əhalinin sayı, məşğuliyyəti, əhalinin yaş və cinsi tərkibi, təhsil səviyyəsi, peşəkar tərkibi, doğum, ölüm, miqrasiya prosesləri (əhalinin təbii və mexaniki yerdəyişməsi), əhalinin etnik qruplar üzrə bölgüsü, əmək ehtiyatları və digər demoqrafik statistikanı xarakterizə edən əlamətlərə aid göstəriciləri bilmək cinayətkarlığın istər respublika, istərsə də ayrı-ayrı şəhər və rayonlar üzrə vəziyyəti və strukturunu xarakterizə edən müxtəlif əmsallar və indekslərin hesablanması üçün lazımdır.*

## Sosial-iqtisadi xarakterizə.

Cinayətkarlığın öyrənilməsi zamanı aşağıdakılar nəzərə alınır:

1. Müxtəlif mülkiyyət forması və təşkilati-hüquqi forması olan müəssisələrin və təşkilatların nisbəti;
2. Müxtəlif ixtisaslaşması olan müəssisə və təşkilatların nisbəti;
3. Əhalinin sosial - ixtisaslı tərkibi (istehsalat, nəqliyyat, səhiyyə işçiləri və s.);
4. Əhalinin gəlirləri üzrə strukturu (bu gəlirlərin məbləği və mənbələri nəzərə alınmaqla) və xərcləri üzrə strukturu (onların xarakteri nəzərə alınmaqla - məsələn, uşaqların tərbiyəsinə, əlilliyə, investisiya qoyuluşuna, sərxoşluğa və s.);
5. Regionun əmək ehtiyatlarının formalaşmasının və istifadə olunmasının xüsusiyyətləri ( daxili istehsal, işçi miqrasiyası, gizli və aşkar işsizlik);

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.66



downloaded from KitabYurdu.az

6. İnsanlara birinci növbədə lazım olan tələbatlarının təmin edilməsi;
7. Əhalinin digər tələbatlarının təmin edilməsi.

Belə ki, əgər əhali arasında işsizlik çoxluq təşkil edirsə, onda mülkiyyət əleyhinə cinayətlərin törədilməsi ehtimalı bu regionda, sözsüz ki, yüksəkdir.

**Sosial-siyasi xarakterizə.**

Bura aşağıdakılar daxildir:

1. Əhalinin müxtəlif qruplarının siyasi maraqlarında kəskin fərqlər varmı və onlar necə həll olunur;
2. Regionun siyasi partiyalarının əlaqəsi;
3. Müxtəlif siyasi tələbləri hakimiyyət strukturları necə təmin edirlər;
4. Hakimiyyət strukturları necə formalaşırlar (seçki hüquqlarının pozulmasının olub-olmaması halları).

Bu şərtlər regionda dövləti cinayətlərin, terrorizm aktlarının törədilməsinə əsas olur.

**Sosial-mədəni xarakterizə.**

Bu xarakterizəyə aşağıdakı məlumatlar daxil olur:

1.Mədəni və idman təşkilatlarının sayı, strukturu, onların fəaliyyətinə əhalinin cəlb etmə dərəcəsi barədə;
2.Ümumtəhsil və peşə- ixtisas hazırlığını təmin edən təşkilatlar barədə;
3. Əhalinin maraqlarının və tələbatlarının xüsusiyyətləri barədə;
4.Adət-ənənələr, münaqişəli situasiyaların həll olunmasının ənənəvi üsulları barədə (qan qisası və s.).

Təhsil səviyyəsinin cinayət davranışının xarakterinin formalaşmasında təsiri ondadır ki, yüksək səviyyəli təhsili olan cinayətkarlar əsasən iqtisadi və vəzifə cinayətlərini törədirlər, başqalarını cinayət törətməyə təhrik edirlər.

**Sosial-hüquqi xarakterizə.**

Sosial-hüquqi xarakterizənin xüsusiyyətləri aşağıdakılardır:

1. Cinayətkarlıqla mübarizəyə cəlb olunan dövlət orqanlarının, ictimai təşkilatların, qeyri- dövlət təşkilatların sayı və strukturu.

Məsələn, əməliyyat- axtarış işçilərinin və müstəntiqlərin sayının artırılması qeydiyyata alınmış cinayətlərin sayını artırır.

2.Cinayətkarlıqla mübarizənin hüquqi tənzimlənməsi, müvafiq hüquq normalarının tətbiq edilməsi;
3. Cinayət xarakteri olmayan, eyni zamanda isə mənfi sosial əyintilər barədə məlumatlar. Məsələn, sərxoşluğun yayılması, spirtli içkilərlə ticarət barədə qanunvericiliyin pozulması alkoqol kriminal bizneslə əlaqəli ola bilər;
4. Əhalinin hüquqi mədəniyyətinin vəziyyəti, onun cinayətkarlıqla mübarizəyə cəlb olunmasının təcrübəsi barədə məlumatlar.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın xarici və daxili xarakteristikalarının öyrənilməsi.

Cinayətkarlığın xarici xarakteristikasının öyrənilməsi onun yayılmasının təhlilindən başlanır. Burada aşağıdakılar müəyyən edilir:

1.Cinayətkarlığın səviyyəsi (qeydiyyata alınmış cinayətlər və aşkar edilmiş şəxslər barədə tam məlumatlar);

2. Cinayətkarlığın intensivliyi (əhalinin müəyyən sayından hesablanan əmsallar ).

*Cinayətkarlığın ümumi yayılması* ildə qeydiyyata alınmış cinayətlərin ümumi sayının və ya aşkar edilmiş cinayətkarların ümumi sayından müəyyən edilir.

Cinayətkarlığın motivasiyasının xarakteristikası - müxtəlif motivlərin seçilməsi, bu motivlərlə törədilən qeydiyyata alınmış cinayətlərin sayının və onları törədən şəxslərin aydınlaşdırılması.

Cinayətkarlığın statistik analizi zamanı aşağıdakı cinayət növləri seçilir:

a) qəsdən edilən, o cümlədən siyasi, zorakılıqla, tamah məqsədilə törədilən cinayətlər;

b) ehtiyatsızlıq üzündən edilən cinayətlər.

Siyasi cinayətlərin dövlətin və hakimiyyətin əsaslarına qarşı düşmənçilik münasibətilə bağlı olan siyasi- əqidəvi motivləri olur.

Zorakılıqla törədilən cinayətlərin motivi zorakılıq olur. Məsələn, quldurluq, tamah məqsədilə törədilən cinayətlər zorakılıqla törədilir.

Ümumcinayət növü - özgə əmlakının bilavasitə qeyri-qanuni əldə edilməsidir. Burada motiv - tamah, məqsəd isə - başqasının əmlakı hesabına əsassız varlanmaqdır.

İqtisadi və ya təsərrüfat cinayətlərin motivi idarəetmənin, təsərrüfatın, istehsalatın prinsiplərini pozmaqla, vəzifədən sui-istifadə etməklə əmlakın əldə edilməsidir.

Cinayət işlərinin öyrənilməsi zamanı müxtəlif motivlər seçilir. Bu halda cinayətkarlığın həm faktlar üzrə, həm də şəxslər üzrə analizi vacibdir.

*Cinayətkarlığın sosial istiqamətləndirilməsi* cinayətkar qəsdlərin obyektinə görə müəyyən edilir.

Kriminoloji analizdə aşağıdakı cinayət növləri seçilir:

1. Dövləti cinayətlər;
2. Şəxsiyyət əleyhinə, onun hüquq və azadlıqlarına, mülkiyyətinə qarşı cinayətlər;
3. İctimai qayda əleyhinə;
4. Hərbi cinayətlər.

Qeydiyyata alınmış cinayətlərin analizi birinci növbədə maraq kəsb edir. Bunları analiz edərkən hansı maraqların konkret şəraitdə daha çox zərər çəkməsi, hansı obyektlərin mühafizəsinin gücləndirilməsinə ehtiyac olması barədə nəticə çıxarmaq olar.



downloaded from KitabYurdu.az

*Cinayətkarlığın sosial-ərazi yayılması* regionların ərazi meyarı üzrə bölünməsi yolu ilə öyrənilir. Məsələn, şəhərlər, rayonlar çərçivəsində və s. Burada cinayətkarlığın əmsallarının hesablanmasının böyük əhəmiyyəti var. Əgər bir regionda əhali arasında uşaqların sayı çoxdursa, digərində isə - yaşlıların sayı, onda əmsallar ayrıca həm bütün əhaliyə, həm də 14 və çox yaşında olan əhaliyə hesablanmalıdır.

*Sosial - qrup yayılması* müxtəlif sosial qruplardan və əhali təbəqələrindən olan cinayətkarlar barədə məlumatların analizindən müəyyən edilir.

*İctimai təhlükəlilik dərəcəsinə görə cinayətləri bölmək olar*:

1) ağır cinayətlərə;
2) yüksək ictimai təhlükəsi olmayan cinayətlərə (onların törədilməsinə görə 1 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur).

**Cinayətkarlığın daxili xarakteristikaları.**

Cinayətkarlığın daxili xarakteristikaları - sabitlik, fəallıq, mütəşəkkillikdir.

*Cinayətkarlığın sabitliyinin* göstəricisi cinayətlərin residividir.

*Cinayətkarlığın fəallılığı* aşağıdakılarda özünü göstərir:

1) ifşa edilənədək cinayətkarların bir neçə cinayət törədə bilmələri;
2) cinayətkarlar cinayətkar hərəkət üçün əlverişli şəraiti şüurlu olaraq yaradırlar. Bu halda onlar kriminal vərdişlərdən, təcrübədən istifadə edirlər.

*Cinayətkarlığın mütəşəkkilliyi* təşkil olunmuş cinayətlərdə və mütəşəkkil cinayətkarlıqda özünü göstərir.



downloaded from KitabYurdu.az

## Latent cinayətkarlığın aşkar edilməsi metodikası.

Cinayətkarlıq yüksək latentliyi ilə xarakterizə edilir.

Latent cinayətkarlıq problemi bir çox hüquqşünasların, kriminoloqların diqqətini cəlb etmiş və onlar bu hadisənin obyektiv qiymətlərdirmə imkanlarını axtarmışlar.

"Latentlik" (latınca latenus) - gizli, görünməz, xarici cəhətdən özünü göstərməyən deməkdir. Lüğətlərdə bu termin eyni zamanda gizlədilməyə yönəldilən hərəkət, nə barədə isə susmaq, gizlətmək, görmə hüdudundan kənarda, digərlərinə nəyi isə görməyə, aşkar etməyə imkan verməmək və s. mənada da işlədilir.

Kriminologiyada latent cinayətkarlığa belə tərif verirlər: "Latent cinayətkarlıq - hər hansı bir səbəblər üzündən hüquq-mühafizə orqanlarının rəsmi hesabat sənədlərində öz əksini tapmayan, lakin real mövcud olan cinayətkarlıqdır".

Latent cinayətkarlıq problemi yeni deyildir. Hələ X1X əsrdə, cinayətkarlığın sosioloji tədqiqi istiqamətinin yaradıcılarından biri sayılan A.Ketle tərəfindən latent cinayətkarlıq faktının mövcud olmasına diqqət yetirilmişdir. Cinayətkarlığın real ölçülərinin cinayət statistikasının məlum ölçülərindən əhəmiyyətli dərəcədə fərqləndiyini qeyd edərək A.Ketle yazırdı: "Bütün törədilmiş cinayətlərin yalnız kiçik bir hissəsi bizə məlum olur".

Cinayətkarlığın sosioloji problemlərini analiz edərkən E.Ferri həqiqi cinayətkarlıqla "görünən" və ya aşkar olunan cinayətkarlıq arasında fərqlər olduğunu qeyd etmişdir.

Onun fikrincə bu hər şeydən əvvəl əhalinin baş vermiş cinayətlər haqqında hüquq-mühafizə orqanlarına az və ya çox dərəcədə məlumat vermə səviyyəsindən asılıdır. E.Ferri tərəfindən gizli cinayətlərin mövcudluğu və yaranma təbiəti ümumən tədqiq edilməsə də, o haqlı olaraq belə cinayətlərin mənfi nəticələrini, onların cəzasızlığa və son nəticədə yeni cinayət törədilməsinə gətirib çıxarmasını qeyd etmişdir.*

Cinayət, məhkəmə statistikasının analizi zamanı cinayətkarlığın latentlilik dərəcəsinin müəyyən edilməsi məqsədi qoyulur.

Məsələn, cinayətkarlığın regional fərqlərinin analizi zamanı onların müxtəlif regionlarda cinayətkarlığın latentliliyinin dərəcələri ilə bağlı olub-olmaması öyrənilir. Ola bilər ki, bir regionda cinayətlər dəqiqliklə qeydiyyata alınırlar və buna görə burada cinayətkarlığın yüksək dərəcəsi göstərilir. Başqa regionda isə cinayətlərin çoxu aşkar olunmur və gizlədilir.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.50,52. Sit: А.Кетле. Социальная физика или опыт исследования человеческих способностей. Киев. 1911. Стр. 262.; З.Ферри. Преступление, как социальное явление. Проблемы преступности. сб. н. тр. Киев. 1924, стр.15-18.



downloaded from KitabYurdu.az

Bir qayda olaraq ağır cinayətlər daha tez aşkar olunurlar. Çünki onların nəticələrini gizlətmək çətindir. Məsələn, ölüm hadisələri bədənə yüngül xəsarət yetirməyə nisbətən az latentlidirlər. Qiymətli əşyaların oğurlanması xırda oğurluqlara nisbətən tez ifşa olunur. Onların tez və ya gec açılması isə başqa məsələdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində hüquq pozuntularının yüksək latentliyi və az üzə çıxarılmasının əsas səbəbləri arasında aşağıdakıları qeyd etmək lazımdır:

narkotik cinayət subyektlərinin belə cinayət törətdiklərini gizli saxlamaqda maraqlı olmaları; əldə edilən nəticədən qarşılıqlı maraq; bununla bağlı olaraq hüquq-mühafizə orqanları ilə münasibətə girmək istəməmələri; narkotiklərdən istifadə edənlərlə onları təchiz edənlər arasında hər iki tərəfin cəzalandırılması qorxusu altında ciddi konspirasiya tələb edən qarşılıqlı sərfəli və qarşılıqlı asılı əlaqələrin olması. Təsadüfi deyil ki, narkoloji müalicəxanalara daxil olmuş narkomanlar həyatları və sağlamlıqları üçün ən ağır və təhlükəli vəziyyətdə belə, bir qayda olaraq, narkotikləri əldə etdikləri mənbələri göstərmirlər. Narkomanların özlərini belə aparmasını şərəf, borc və ya həmrəylik kimi yüksək əxlaqi prinsiplərlə izah etmək düzgün olmazdı: bunun səbəbi əksər hallarda, narkotiklər əldə edilməsi mənbəyini itirmək və ya həmin mənbənin ünvanını dediyinə görə qisas qorxusundan ibarət olur;

narkotizmlə mübarizənin təşkilati-hüquqi, kadr, taktiki və maddi-texniki tədbirlərinin qeyri-kamilliyi.

Beləliklə, cinayətkarlığın latent hissəsinə *gizli və gizlədilən cinayətlər* daxildir.

*Cinayətlərin gizli hissəsini* törədilmiş, lakin hüquq-mühafizə orqanları tərəfindən ifşa edilməyən cinayətlər təşkil edir. Bu müxtəlif səbəblərdən olur: zərərçəkən oğurluq barədə xəbər vermir; nəzarətedici orqanlar ifşa edilmiş sui-istifadələr barədə materialları polis və ya prokurorluq orqanlarına göndərmirlər.

*Cinayətkarlığın gizlədilən hissəsi* - hüquq- mühafizə orqanlarına xəbər verilən, lakin müxtəlif səbəblərə görə statistikada əksini tapyaman cinayətlər (cinayətlər barədə ərizələrə baxılmaması, hərəkətlərdə cinayət tərkibi olmayan kimi qiymətləndirilməsi, düzgün çıxarılmayan prosessual qərar və s.).

Cinayətkarlığın latentliyi nəzərə alınmaqla onun yayılma dərəcəsinin müəyyən edilməsi metodikaları aşağıdakılardır:

1. Bir sıra statistik göstəricilərin tutuşdurulması. Məsələn, adam öldürmə, ağır bədən xəsarəti, az ağır bədən xəsarəti, yüngül bədən xəsarəti cinayətlərinin sayının tutuşdurulması.
2. Cinayət statistikası, mülki-hüquqi qərarların, inzibati hüquq-pozmaların məlumatlarının tutuşdurulması. Məsələn, əgər cinayət statistikasının məlumatlarına görə təhqir, böhtan faktlarının sayı azalır, amma məhkəmə statistikalarının məlumatlarına görə vətəndaşlarının ləyaqətinin qorunması barədə baxılmış və təmin edilmiş iddiaların sayı artırsa, deməli, bu cinayətlər yayılmaq üzrədirlər, lakin vətəndaşlar bu barədə hüquq-mühafizə orqanlarına müraciət etmirlər.



downloaded from KitabYurdu.az

3. Cinayət statistikasının məlumatları cinayətlər barədə ərizə, şikayət və xəbərlərlə tutuşdurulur.
4. Əhali arasında sorğu aparılır.

Latentliliyin analizinin materialları cinayətlər barədə ərizə və məlumatların baxılmasının qanunauyğunluğunun yoxlanılması üçün, hüquqi təbliğin gücləndirilməsi və s. əsas verir.

Latent cinayətkarlığın respublikada ümumən kriminoloji və ya ümumsosial şəraitə təsirini öyrənməyin zəruriliyini qeyd edərək T.K.Qarayev yazırdı: "Birincisi, cəzasızlıq hissi cinayətkarları öz cinayətkar fəaliyyətlərini davam etdirməyə və genişləndirməyə həvəsləndirir: bu cəzasızlığı müşahidə edən şəxslərdə isə müəyyən şəraitdə cinayətkar davranış motivasiyasını formalaşdırır. İkinci, latent cinayətkarlıq geniş yayılmış hadisə olaraq və qanuna itaət edən vətəndaşların diqqət sahəsinə düşərək onların mənəvi və hüquqi baxışlarına təsir göstərir, onların öz təhlükəsizliyinə əminlik hissini sarsıdır və nəticədə cəmiyyətdə sosial-psixoloji gərginliyi gücləndirir".

İ.A.İsmayılov cinayətkarlığın müxtəlif növlərinin müxtəlif latentlik dərəcəsi ilə xarakterizə olunduğunu və respublikada ümumən latentlik səviyyəsinin törədilən cinayətlərin "ağırlıq" dərəcələri ilə tərs mütənasibliyi kimi qanunauyğunluğun müşahidə olunduğunu qeyd edərək, respublikada latent cinayətkarlığın əsasən aşağıdakı səbəblərdən yarandığını göstərmişdir:

- cinayətkarlıqla mübarizə aparan hüquq-mühafizə orqanlarının maddi-texniki, kadr və digər potensialının kifayət edəcək səviyyədə olmaması;
- bir qrup cinayət növlərinə əhalinin dözümlüyü, bəzən isə biganə münasibəti;
- bir çox hallarda zərərçəkənlərin hüquq-mühafizə orqanlarına olan inamsızlıq hissi;
- bəzi hüquq-mühafizə orqanları əməkdaşlarının öz xidməti borclarına əməl etməməsi, törədilmiş cinayətlər faktlarını gizlətmək və ört-basdır etməyə cəhd göstərməsi;
- bir qrup hüquq-mühafizə orqanları əməkdaşlarının peşəkar səviyyəsinin aşağı olması və s.

T.E.Qarayevin fikrincə isə respublikada latent cinayətkarlıq əsasən aşağıdakı səbəblərdən yaranır:

- milli psixologiyanın bir sıra xüsusiyyətləri, adət və ənənələrlə (böyüklərə, ağsaqqal və valideynlərə hörmət, özünün və yaxınlarının namusunu qorumağa, mehriban qonşuluğa can atmaq və s.) bağlı zərərçəkənlərin passivliyi;
- zərərçəkən ilə cinayətkar arasında "sövdələşmə";
- mövcud əmək ehtiyatlarının artıqlığı və iş yerlərinin azlığı şəraitində bir çox şəxslərin öz iş yerlərini itirməməkdən ötrü özlərindən vəzifəcə böyüklər və ümumiyyətlə müdiriyyət tərəfindən törədilmiş cinayət faktlarına qarşı passivlik göstərərək susması;
- yeniyetmələr tərəfindən qonşuluqda və ya məktəblərdə törədilən cinayətlərə, bədənə xəsarət yetirməyə gətirib çıxarmış məişət xuliqanlığına, yol-nəqliyyat hadisələri ilə bağlı konfliklərə və s. dözüm



downloaded from KitabYurdu.az

ənənəsi, mehriban qonşuluq münasibətlərinə xələl gətirməmək xatirinə barışıq və ya məişət mübahisələrinin "sövdələşmə" yolu ilə qaydaya salınması praktikasının geniş yayılması;

- ailə daxilində onun üzvlərinə və digər yaxınlara qarşı işgəncə və cinayətlər, ailə üzvlərindən hər hansı birinin iştihar səviyyəsinə çatdırılması;
- bəzi vətəndaşların şəxsiyyətinə və ya əmlakına təcavüz olunduqda, onların bu cinayət faktı ilə bağlı müəyyən səbəblərdən hüquq-mühafizə orqanlarına müraciət etməməsi.

T.E.Qarayevin fikrincə respublikada cinayətkarlığın özünəməxsus mənzərəsinin əsasını həm də müsəlman hüququnun ənənəvi təşəkkül tapmış qaydalarına hörmətdən irəli gələn milli psixologiyada da axtarmaq lazımdır. O yazır: "Məhz burada, bizə elə gəlir ki, əksər azərbaycanlıların özünün qanuna əməl etmələri ilə digərlərinin qanunazidd davranışlarına dözümlülük, öz şəxsi və ya ailə, millət namusunun qorunması tələb olunduqda cinayət faktlarına göz yummaq, görməməzliyə vurmaq kimi ilk baxışında paradoksal hadisənin izahını tapmaq olar".

Hazırda kriminoloji ədəbiyyatda cinayətkarlığın analizi və xüsusi halda proqnozlaşdırılması zamanı latent cinayətkarlıq haqqında imkan daxilində daha dəqiq məlumatlara malik olmağın əhəmiyyəti haqqında bir-birinə əks fikirlər söylənilməkdədir.

Ümumiyyətlə götürdükdə isə latent cinayətkarlığın mövcudluğu faktı bizim cinayətkarlıq haqqında malik olduğumuz təsəvvürləri ciddi surətdə təhrif edə bilməz. İstənilən hadisəni analiz etmək üçün onun haqqında bütün məlumatlara malik olmaq heç də zəruri deyildir. Daha vacib onun mahiyyətini dərk etməyin, əsas meyl və qanunauyğunluqların aşkar edilməsinin ən səmərəli yollarının tapılmasıdır.

Lakin eyni zamanda onu da nəzərə almaq lazımdır ki, kriminologiya elmi və o cümlədən bir çox kriminoloqlar tərəfindən müxtəlif növ cinayətlərin müxtəlif latentlik dərəcəsinə malik olması artıq kifayət qədər tam müəyyən edilmişdir. Məhz bu cinayətləri onlar respublikada ən yüksək latentlik kateqoriyasına aid edirlər.

T.E.Qarayev bədənə xəsarət yetirmə, zorlama və soyğunçuluq cinayətlərinin yüksək latentliyə malik olduğunu göstərir. İ.A.İsmayılovun bununla bağlı mövqeyi daha məqbul sayıla bilər. Onun fikrincə bədənə ağır xəsarət yetirmə və zorlama respublikada ümumi model üzrə aşağı latentli cinayətlər kimi qiymətləndirilə bilər.

Rüşvətxorluq və s. kimi bəzi cinayət növlərinin yüksək latentliyini qeyd etməklə yanaşı A.İ.İsmayılov eyni zamanda həm də bəzi zorakı xarakter daşıyan cinayətlərin qeydiyyatının tam olmadığını göstərir.

Beləliklə, latentlik - bütün kateqoriyalı cinayətlərə az və ya çox dərəcədə xasdır, çünki hər bir cinayət törətmiş şəxs hadisə yerindən qaçmağa, məsuliyyətdən yaxa qurtarmağa can atır, bacardıqca gizli fəaliyyət göstərməyə cəhd edir. Bununla yanaşı aydındır ki, cinayət növləri bir-birindən az və ya çox latentlik səviyyəsi ilə fərqlənirlər. Bu mənada cinayətləri iki qrupa ayırmaq olar:



downloaded from KitabYurdu.az

ən az latentlik qəsdən adam öldürmə, quldurluq, qəsdən bədənə ağır xəsarət yetirmə cinayətlərinə, ən çox latentlik isə rüşvətxorluq, bədənə yüngül xəsarət yetirmə, xuliqanlıq, alıcıları aldatma, oğurluq və s. cinayətlərə xasdır. Bütün bunları isə respublikada cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının təhlili zamanı nəzərə almaq vacibdir, çünki bütün hallarda cinayət statistikasının təhlili yolu ilə müəyyən olunmuş statistik qanunauyğunluqları cinayətkarlığın özünün qanunauyğunluğu kimi hesab etmək həmişə düzgün deyildir. Bütün hallarda bu meyl və qanunauyğunluqların reallıq dərəcələri müəyyən olunmalıdır.*

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.50,52,55, 56 . Sit: И.А.Исмаилов. Преступность и уголовная политика. Баку. 1990, с.14, 15.; Т.Э.Караев. Проблемы борьбы с преступностью в Азербайджанской Республике. Баку, 1992, с.106-110; Х.Д.Алекперов, Р.И.Расулов. Понятия и причины латентной преступности. Баку, 1989, с.31.



downloaded from KitabYurdu.az

# Üçüncü fəsil.

# Cinayətkarlığın səbəbləri.

**Cinayətkarlığın səbəblərinin anlayışı. Cinayətkarlığın səbəblərinin təsnifi. Cinayətkarlığın baş verməsinə kömək edən hallar (şərait). İqtisadi münasibətlər və cinayətkarlıq. Sosial münasibətlər və cinayətkarlıq. Siyasət və cinayətkarlıq. Cəmiyyətin mənəvi vəziyyəti və cinayətkarlıq. Demoqrafik proseslər və cinayətkarlıq.**

## Cinayətkarlığın səbəblərinin anlayışı.

Cinayətkarlığın və onun inkişafının faktiki aşkar olunması hələ nə etmək sualına cavab vermir. Çox vaxt təcrübədə belə olur : qəsdən edilən cinayətlərin sayının artmasını müəyyən edib, məhz bu cinayətlərlə bağlı mübarizə üzrə tədbirlər planı hazırlanır. Və ya nəticə çıxardanda ki, ölüm hadisələrinin çoxu ictimai yerlərdə törədilir, parklarda, küçələrdə, meydanlarda ictimai asayişin qorunmasını gücləndirmək məsələsi qoyulur.

Yəni belə hallarda cinayətkarlıqla mübarizə yalnız onun göstəricilərinin analizinə əsaslanır. Lakin bunlar kifayət deyil, çünki ictimai yerlərdə ölüm hadisələrinin törədilməsi hələ o demək deyil ki, bunun səbəbi ictimai yerlərdə asayişin qorunması pis təşkil edilibdir. Əgər bu qəsdən edilən ölümə sui-qəsddir, hətta ictimai asayişin qorunması gücləndirilsə də, o digər əlverişli yerdə törədilə bilər (binanın girəcəyində, zərər çəkənin iş yerində və s.).

Buna görə, birinci növbədə cinayətlərin nə üçün törədilməsini, kimə sərfəli olmasını aydınlaşdırmaq lazımdır. Məsələn, sifarişlə törədilən ölümlərin sayının azalması mütəşəkkil və peşəkar cinayətkarlıqla mübarizə üzrə məqsədyönlü tədbirlərin işlənilməsini tələb edir.

Beləliklə, cinayətkarlığın öyrənilməsi, qiymətləndirilməsi və cinayətkarlıqla mübarizənin təşkili mərhələlərinin arasında cinayətkarlığın səbəb və şəraitinin öyrənilməsi mərhələsi durur.

*Cinayətkarlığın determinasiyası* - cinayətkarlığın baş verməsinə kömək edən prosesdir. Cinayətkarlığın *determinantları* - onun baş verməsinə kömək edən *hallardır* - yəni səbəbləri və şəraitidir.

*Cinayətkarlığın səbəbiyyəti* - onun yaranma prosesinin izlənilməsi, yaradanla yarananın əlaqəsinin müəyyən edilməsidir.

*Determinizm* öyrənir: niyə müvafiq proses belə və ya başqa cür olub, niyə məhz bu hal yarandı, bu prosesin yaranmasının və sabitliyinin şəraiti nədir.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın səbəblərinin öyrənilməsi.

Dolqova hesab edir ki, səbəbli əlaqələrin xüsusiyyətləri aşağıdakılardır:

1. Səbəb nəticəni yaradır. Səbəbin hərəkəti üçün müəyyən şəraitlər lazımdır. Səbəb olanda onlar cinayətin törədilmə ehtimalını həqiqətə çevirirlər. Səbəblər motivin, məqsədin formalaşması , onlara çatmaq üçün cinayətkar vasitələrin seçilməsi və qərarın qəbul edilməsi mərhələlərinə təsir göstərirlər. Kriminal vasitələrin içində konkret vasitələrin seçilməsi isə şəraitdən asılı olaraq müəyyən edilir (hədə-qorxu ilə tələb etmə ya dələduzluq, qəsd etmənin konkret obyektinin seçilməsi, konkret zərərin vurulması). Bu şəraitlərdən ətraf mühitin vəziyyətini xarakterizə edən hallar (müxtəlif obyektlərin qorunma vəziyyəti), insanın özünü xarakterizə edən hallar (kriminal, peşəkar vərdişlərin olması və s.) ola bilər.

2. Səbəb nəticədən əvvəl olur. Buna görə təhlil etmək lazımdır ki, cinayətlərdən qabaq, cinayətkarlığın artmasından əvvəl nə olub.

3. Bir səbəbin nəticəsi onun səbəbi ola bilməz. Məsələn, cinayətkarlığın yeni vəziyyəti cəmiyyətin yeni bir vəziyyətinin yaranmasına gətirib çıxarır. Bu cəmiyyət isə öz növbəsində yeni xarakterli cinayətkarlığı yaradır.

4. Bir səbəbin təsiri eyni şəraitdə həmişə bir nəticəyə gətirib çıxarır.

5. Nəticə səbəbi təkrar etmir. O obyektin dəyişilməsinin nəticəsidir. Məsələn, əgər kütləvi rüşvətxorluq halları barədə cinayət işi qaldırılarkən müəyyən edilir ki, müvafiq təşkilatda kargüzarlıq işi pis aparılır, kadrlar intizamsızdır, bu o demək deyil ki, vəziyyət rüşvətxorluğun kütləvi vəziyyət almasından əvvəl də belə olub. Belə vəziyyətin yaranmasında yüksək ixtisaslı və intizamlı işçiləri işə götürməyən rüşvətxorların böyük rolu olub.

Cinayətkarlığın səbəblərinin başa düşülməsinə kriminoloqlar arasında aşağıdakı yanaşmalar var:

1. *Kondisional və ya şərtli yanaşma.* Burada səbəb müvafiq nəticənin zəruri və kifayət olan şəraitlərinin məcmusu kimi başa düşülür.

Ç.Lombrozo yazır: “Hər bir cinayət səbəblərin çoxluğundan yaranır və bu səbəblər bir-biri ilə sıx bağlı və əlaqəli olsa da, biz onların hər birisini ayrılıqda açmalıyıq”. *

Sonradan bu fikir dəqiqləşdirilmişdi. “İnsanın bütün hərəkətləri onun fizioloji və psixoloji təşkilinin və fiziki - sosial mühitin məhsuludur; buna görə cinayətkarlığın 3 amili seçilir: antropoloji (fərdi), fiziki və sosial”.

Cinayətkarlığın səbəb və şəraiti-müvafiq ictimai-iqtisadi formasiyanın və dövlətin cinayətkarlığı bir nəticə kimi yaradan neqativ sosial təzahürlərinin sistemidir.

*2. Ənənəvi yanaşma.*

Bu yanaşmanın tərəfdarları cinayətkarlığın səbəbini xarici güc təsiri kimi başa düşürlər.

* Ç. Lombrozo. Le krime, causes et remedes. Paris, 1899. s.1



downloaded from KitabYurdu.az

Belə nəticəyə konkret cinayətin və ya cinayətkarlığın ayrı-ayrı növlərinin səbəblərinin analizi zamanı gəlirlər. Məsələn, valideynlər cinayət törətmiş övladları barədə deyirlər: "oğlum yaxşıdır, cinayətə onu pis dostları itələyiblər" və ya "zərərçəkən özü onu təhrik etdi".

Cinayətkarlığın səbəbləri- öz hərəkəti ilə onu yaradan fəal qüvvələrdir.

Konkret cinayətin səbəbləri-onun törədilməsi üçün motivləri və subyektin marağını yaradan fəal qüvvələrdir.

Burada cinayətkarların viktimliyi də cinayətin səbəbi kimi başa düşülür.

*Viktimologiya*-zərərçəkən barədə elmdir. Viktimologiya yetkinlik yaşına çatmayanların cinayətkarlığının, onların cinayətkar fəaliyyətinə cəlb olunması səbəblərinin öyrənilməsinə kömək edir. Kriminoloji tədqiqatlar göstərir ki, zorakılıqla edilən ağır cinayətlərin 50%-dən çoxunun törədilməsindən əvvəl iki tərəfin "münasibətlərin aydınlaşdırılması" situasiyası olub və ancaq təsadüf cinayətin qurbanını və müqəssiri müəyyən edib.*

3. *Ənənəvi-dialektik yanaşma*.

Səbəb - müvafiq nəticəni yaradan hər bir haldır. Yəni, cinayətkarlığın səbəbləri - ictimai fikrin iqtisadi, siyasi, hüquqi, məişət psixologiyasının elementlərindən ibarət olan sosial-psixoloji determinantlardır.

Burada cinayət törədən şəxsin genetik xüsusiyyətləri də nəzərə alınır.

İnsanların maddi şəraiti ictimai fikri yaradır, o isə cinayətkarlığı. Lakin burada nəzərə alınmır ki, cinayətkar davranışın yaranmasına situasiyasında eyni zamanda həm xarici şərait, həm də şəxsi xarakterlər özünü göstərir.

*4. İnteraksionist yanaşma.*

Cinayətkar hərəkətin və cinayətkarlığın səbəbləri - insanın və ətraf mühitin qarşılıqlı təsiridir.

Burada iki cür qarşılıqlı təsir seçilir:

1) daxili və xarici qarşılıqlı təsiri - yəni mühitin və insanın;
2) daxili qarşılıqlı təsir -

a) insanların iqtisadi, siyasi, sosial və mənəvi həyat şəraitlərinin qarşılıqlı təsiri (ictimai asayişin zəif qorunması şəraitində, maliyyə nəzarətinin çatışmamazlıqları şəraitində törədilən cinayətlər).

b) bu insanların müxtəlif xarakteristikalarının qarşılıqlı əlaqəsi (tələbatların, maraqların - sərxoşluq, narkotik maddələrdən istifadə, işsizlik).

Buna görə cəmiyyətdə, dövlətdə sosial şəraitin, nəzarətedici və hüquq-mühafizə fəaliyyətinin vəziyyəti kriminoloji tədqiqatlarda böyük əhəmiyyət kəsb edir. Məsələn, A.İ. Dolqova Rusiya Federasiyasının bir sıra regionlarında bu qarşılıqlı təsirin islahatlar zamanı özünü göstərməsini analiz edərkən aşağıdakıları müəyyən etmişdir:

* A.İ. Dolqova. Kriminologiya. M, 1997, s. 204



downloaded from KitabYurdu.az

Hərbi - sənaye kompleksləri olan regionlarda islahatlar istehsal həcminin azalması, işsizliyin yaranması, maaşların verilməsi ilə yanaşı gedib. Lakin bu şəraitlər yüksək ixtisaslı, yüksək təhsilli xarakteristikaları olan əhali ilə qarşılıqlı təsirdə olub. Bu proseslərin nəticəsi: əhalinin bir hissəsinin xaricə miqrasiyası; əhalinin yaşlı nəsli tərəfindən, əsasən, sirrlərlə, qiymətli materiallarla ticarət etməklə bağlı cinayətlərin törədilməsi, gənc nəslin bazar şəraitində müvəffəqiyyət gətirən ixtisaslara yiyələnməsi olmuşdur.

Digər regionlarda bu proseslər əsasən yüngül sənayedə məşğul olan, nisbətən aşağı təhsilli və qanunazidd hərəkətləri olan əhali ilə qarşılıqlı əlaqədə olmuşdur.

Nəticə: işsizliyin uzanması; yaşlı nəslin şəxsi həyətyanı təsərrüfata qoşulması; kiçik nəslin ticarətə qoşulması və buna görə cinayətkarların nəzarəti altında olan münasibətlərə, reketə cəlb olunması.

*5. Coğrafi yanaşma.*

Sosial-iqtisadi, demoqrafik, sosial-psixoloji, etnoqrafik və digər tədqiqatlar eyni bir region, şəhər və hətta rayonun hüdudlarında insanların yaşayış şəraitlərində böyük rəngarəngliyi və müxtəlifliyi göstərir. Bu şəraitlərin xüsusiliyi yalnız ictimai sinif və qrupların, milli xüsusiyyətlərin, şəhər və kənd həyatındakı fərqlərlə deyil, həm də yerli amillərlə, bu və ya digər yaşayış məntəqəsinin xüsusiyyətləri ilə bağlıdır. Hər bir şəhər, rayon və hətta kənd öz coğrafiyası və tarixinə, digərlərindən fərqli iqtisadiyyata, mədəniyyətə və yerli adət-ənənələrə malikdir.

Cinayətkarlığın səviyyə, struktur və dinamikasında regional fərqlərin mövcudluğu sübuta ehtiyacı olmayan həqiqətdir. Düzdür, bir sıra hallarda bu fərqlər cinayətkarlığın kəmiyyət və keyfiyyət parametrləri üçün "təsadüfi" xarakter daşıyan səbəblərlə izah oluna bilər (məsələn, bəzi cinayət növlərinin müxtəlif latentlik dərəcələri ilə). Lakin bütünlükdə cinayətkarlıqda ərazi fərqlərinin mövcudluğu haqqında fərziyyə empirik olaraq təsdiq olunur. Məsələn, kiçik və böyük şəhərlərdə, kənd və şəhərlərdə cinayətkarlığın səviyyə və strukturunda olan bir sıra fərqlər yaxşı məlumdur. Belə ki, şəhərlərdə kəndə nəzərən mənzillərdən şəxsi əmlakın oğurluğu daha yüksəkdir, avtonəqliyyat oğurluğu "şəhər", mal-qara və kənd təsərrüfatı oğurluğu isə əsasən "kənd" cinayətkarlığı sayılır.

Cinayətkarlığın kəmiyyət və keyfiyyət xarakteristikalarında əsas fərqlər yalnız yaşayış məntəqələrinin növündən (kiçik və ya böyük, fəhlə və ya bağ qəsəbəsi, kiçik, orta və ya böyük şəhər, şəhər-kurort və s.) asılı olaraq müşahidə olunmur. Bu fərqlər həm də respublikanın müxtəlif regionlarında yerləşən və əsas sosial iqtisadi göstəricilərə görə o qədər də fərqlənməyən eyni tipli yaşayış məntəqələrində (yəni "coğrafi" nöqteyi-nəzərdən) də özlərini göstərir.

İctimai həyatın ziddiyyətləri, iqtisadi və sosial inkişafdakı uyğunsuzluqlar, əhalinin sosial qeyri bircinsliliyinin dərəcəsi sosial-hüquqi anormallıqların, o cümlədən də cinayətkarlığın mənbəyi rolunu oynayaraq müxtəlif regionlarda,


downloaded from KitabYurdu.az

ərazi vahidlərində, şəhər və kənd məskənlərində, iri və xırda şəhərlərdə, nisbi stabil və ya sürətlə inkişaf edən rayonlarda və s. eyni qayda ilə təzahür etmir.

Digər sosial proses və hadisələr kimi, cinayətkarlıq da "coğrafilik" xassəsinə malikdir. Sosial davranışın bir növü kimi cinayətkar davranış da insanların təbii, iqtisadi, mədəni və s. həyat şəraitləri ilə bağlı olmaya bilməzdi. Ona görə də, həyat şəraitlərinin zaman və məkan dəyişmələrinə uyğun olaraq, cinayətkarlıq və onun kəmiyyət və keyfiyyət xarakteristikalarının da zaman və məkan daxilində dəyişəcəyini güman etmək tamamilə təbiidir.

Sosial-hüquqi idarətmənin praktiki ehtiyacları cinayətkarlığın tədqiqinə məhz regional yanaşmanı vacib və zəruri edir: cəmiyyətə zidd hadisələrə qarşı konkret mübarizə tədbirləri təkcə bütövlükdə respublika üçün deyil, hər şeydən əvvəl ayrı-ayrı ərazi vahidləri - şəhərlər, rayonlar və s. üçün yaradılmalıdır.

Beləliklə, cinayətkarlığın tədqiqinə ərazi üzrə yanaşma prinsipi bir çox hallarda "coğrafi" yanaşma da adlanır və "cinayətkarlığın coğrafiyası" kimi vahid anlayışla, ümumi bir terminlə birləşdirilir. Bu, onunla izah olunur ki, bir tədqiqatın gedişində regionun və ya müəyyən coğrafi məkanın bir çox sosial-demoqrafik və iqtisadi xarakteristikalarına təsir edən "coğrafi" amil daha tam və dolğun şəkildə nəzərə alınır. Bu zaman cinayətkarlığın coğrafiyası cinayətkarlığın tərkibinin zəruri əlaməti struktur bölməsi kimi qəbul edilir.

Cinayətkarlığın ərazi fərqlərinin yaranmasına gətirib çıxaran səbəb - nəticə kompleksinin tədqiqi hüquqi ədəbiyyatda öz geniş əksini tapmış və artıq xeyli müddətdir ki, cinayətkarlığın "coğrafi" tədqiqi problemləri kriminoloqların diqqət mərkəzindədir.

Son bir neçə onillikdə bu problemə diqqət xeyli artmış, respublika, vilayət, rayon və şəhərlərdə cinayətkarlığın "coğrafi" tədqiqi, şəhər və kənd cinayətkarlığında fərqlərin aşkar edilməsinə yönəlmiş iri miqyaslı kriminoloji tədqiqatlar keçirilmişdir.

Beləliklə, son illərdə cinayətkarlığın ərazi prinsipi üzrə tədqiqinə olan diqqət daim artmış, tədqiqat obyekti isə daha çox dərəcədə differensiasiyalaşmışdır. Nəticədə - artıq kriminologiya elmində yeni istiqamətin, - cinayətkarlığın "coğrafi" prinsip üzrə tədqiqi və proqnozlaşdırılmasının yaranması və mövcudluğundan danışmaq olar.

Azərbaycan Respublikasının müxtəlif ərazi vahidlərində cinayətkarlığın səviyyə, struktur və dinamikasında fərqləri təhlil edərkən qeyd etmək lazımdır ki, prinsipcə bu fərqlərin mövcudluğu qanunauyğundur və onun elmi cəhətdən əsaslandırılmış izahını vermək mümkündür.

Respublikanın müxtəlif şəhər və rayonlarında cinayətkarlığın səviyyə, struktur və dinamikasını göstərən cinayət statistikasının göstəriciləri bütün hallarda eyni ola bilməz. Sosial determinasiyalı hadisələr kimi cinayətkarlıq da bu və ya digər şəhər və rayonda təşəkkül tapan sosial, iqtisadi, mədəni həyatın konkret şəraitlərindən, mövcud sosial-psixoloji mühitdən asılıdır, hər bir dəyişmələrə həssaslıqla reaksiya verir və bu şəraitlərdəki müxtəlifliyi əks etdirir. Sübuta ehtiyacı olmayan bir həqiqətdir ki, cinayətkarlığa bu və ya digər dərəcədə təsir etməyə qadir olan söhbət apardığımız şərait müxtəlif ərazilərdə eyni ola bilməz. Ümumiyyətlə, cinayətkarlığa təsir göstərən amillərdən



downloaded from KitabYurdu.az

danışarkən İ.A.İsmayılov qeyd edir ki, cinayətkarlığın səviyyəsi və meylləri ilə sosial proseslər arasında təxminən 200-250 nisbətən sabit korrelyasiyalı asılılıqlar mövcuddur.

T.E.Qarayevin fikrincə sosial-iqtisadi, demoqrafik və digər amillər respublikadakı kriminogen vəziyyətə ayrı-ayrılıqda deyil, sistem kimi, məcmu amillər sisteminin qarşılıqlı əlaqə və fəaliyyətində təsir göstərirlər.

Bununla əlaqələr olaraq Azərbaycanın bir çox hüquqşünasları (İ.A.İsmayılov, T.E.Qarayev, X.D.Ələkbərov və başqaları) qeyd edirdilər ki: əgər müəyyən ərazilərdə təbii, iqtisadi, demoqrafik, tarixi, mədəni və etnik proseslər öz xarakter və intensivliyinə görə əhəmiyətli dərəcədə fərqlənirlərsə, onda çox ehtimal ki, bu ərazilərdə cinayətkarlıq da xeyli dərəcədə fərqlənməlidir. Məhz buna görə də respublikanın aparıcı hüquqşünasları cinayətkarlığın "coğrafi" tədqiqinin vacibliyini göstərmişlər.

X.D.Ələkbərov və R.İ.Rəsulov respublikanın şəhər və rayonlarında cinayətkarlığın paylanması və strukturunda mövcud olan əhəmiyyətli fərqləri göstərir və bununla bağlı cinayətkarlıqla mübarizə məqsədləri üçün respublikanın kriminoloji rayonlaşdırılmasının zəruriliyi və elmi-praktiki əhəmiyyətini qeyd edirlər.

Müasir şəraitdə Azərbaycan Respublikasında cinayətkarlığın "coğrafi" tədqiqinin aktual və zəruri olduğunu qeyd edərək T.E.Qarayev də yazırdı ki, müstəqil Azərbaycan Respublikasında cinayətkarlıqla mübarizənin strategiya və taktikasının formalaşdırılması bu mübarizənin konseptual, təşkilati, informasiya, metodiki, hüquqi əsaslarının yaradılması, cinayətkarlığın regional xüsusiyyətlərinin öyrənilməsi ilə üzvü surətdə bağlıdır. Məsələn, geniş dağ otlaqlarına malik rayonlarda mal-qara oğurluğu, sərhəd rayonlarında qaçaqmalçılıq, sənaye şəhərlərində və dənizkənarı qəsəbələrdə əməyin mühafizəsi qaydaları və ekoloji təhlükəsizlik qaydalarının pozulması ilə bağlı cinayətlərin üstünlük təşkil etdiklərini bilmək bu regionlarda və deməli, ümumilikdə respublika üzrə cinayətkarlıqla mübarizə işini də səmərəli və kompleks şəkildə təşkil etməyə imkan verir.

İ.A.İsmayılovun fikrincə "respublika ərazisinin yığcamlığına baxmayaraq Azərbaycanda mövcud kriminogen mənzərənin xüsusiyyətlərindən biri də cinayətkarlığın səviyyə, struktur və dinamikasının kəskin fərqləndiyi zonaların varlığıdır".

Cinayətkarlığın qeyri-ənənəvi metod və üsullarla (EHM, kibernetika, riyazi modelləşdirmə, sistemli - struktur yanaşma, informasiya nəzəriyyəsi və s.) tədqiqinin baş verə biləcəyi geniş imkanlardan danışarkən, İ.A.İsmayılov cinayətkarlığın strukturunda regional fərqlərin yaranma səbəblərinin müqayisəli təhlilinin aparılmasının vacib və zəruriliyini qeyd edir və EHM köməyi ilə cinayətkarlığın "coğrafi" tədqiqi prosesində aldığı nəticələri özünün "Cinayətkarlıq və cinayət siyasəti" monoqrafiyasında verir. Cinayətkarlığın yalnız bir il üzrə regional (rayon və şəhərlərdə) tədqiqi zamanı etibarlı məlumatların alınmasında mövcud olan çətinlikləri (çünki müqayisə edilən baş məcmunun o qədər də böyük olmayan qiymətlərində təsadüfi sapmalar və kənara çıxmaları asanlıqla sabit xarakteristikalar kimi qəbul etmək olar ki, bu



downloaded from KitabYurdu.az

da nəticədə səhvlər və təhriflərə gətirib çıxarar) qeyd edərək, o, tamamilə haqlı olaraq göstərir ki, tədqiqat prosesinin gedişində meydana çıxa bilən bu qəbil çətinliklərin aradan qaldırılmasına ən səmərəli və elmi cəhətdən əsaslı yolu baş məcmuya daxil olan əsas cinayət növləri üzrə 10 illik məlumatların cəmlənməsi üsulu ilə baş məcmunun "iriləşdirilməsidir".

Bu qayda ilə bütün qeyd olunmuş cinayətlərin sayına görə müqayisə edilə bilən rayon və şəhərlər "cütünü" seçərək və qrafik modellər quraraq bu regionlarda cinayətkarlığın səviyyə, struktur və dinamikasında mövcud olan fərqləri tədqiq etmək və onların yaranma səbəblərini təhlil etmək mümkündür.

İ.A.İsmayılov tərəfindən 10 illik bir dövrdə (1979-1988-ci illər) qeydə alınmış cinayətlərin ümumi sayı təxminən eyni olan ərazi "cütləri" olaraq Quba rayonu (2074 qeydə alınmış cinayət) və Yevlax rayonu (2008 qeydə alınmış cinayət) seçilmişdir. Dövlət və ictimai mülkiyyətin, şəxsi əmlakın oğurluğu, qərəzli qətllər, qəsdən bədənə xəsarət yetirmə, zorlama, quldurluq, soyğunçuluq, xuliqanlıq və s. kimi həm daha geniş yayılmış, həm də nisbətən sayı az olsa da lakin xüsusi təhlükəli sayılan zorakı və tamah xarakterli cinayətlərin müqayisəli kriminoloji tədqiqi keçirildi və bu rayonların cinayətkarlığının strukturunda prinsipial fərqlərin mövcud olduğu aşkar edildi. Belə ki, Quba rayonunda əsasən mülkiyyət əleyhinə (731 - Quba rayonu, 546 - Yevlax rayonu), Yevlax rayonunda isə şəxsiyyət əleyhinə (198 - Yevlax rayonu, 141 - Quba rayonu) cinayətlər sabit surətdə üstünlük təşkil etdiyi aşkar edildi (məsələn, əgər Quba rayonunda 31 qərəzli qətl, 21 qəsdən bədənə ağır xəsarət yetirmə, 4 soyğunçuluq, 2 quldurluq, 61 şəxsi əmlak oğurluğu hadisəsi baş vermişdisə, Yevlax rayonunda bu göstəricilər uyğun olaraq 53, 40, 8, 9 və 125 olmuşdur).*

*M.R. Kazımov, Y.S. Abdullayev. Cinayətkarlığın "coğrafiyası". Tarixi-hüquqi baxış. B, 1996, s. 3-6, 41-45



downloaded from KitabYurdu.az

## Cinayətlərin baş verməsinə kömək edən hallar (şərait).

Əməlin baş verdiyi şərait-cinayətin törədildiyi sosial mühiti nəzərdə tutur. Sosial mühit müəyyən hallarda cinayətin təhlükəliliyini həm artıra bilər, həm də azalda bilər. Buna görə də qüvvədə olan qanunvericilik cinayətin baş verdiyi şəraiti səciyyələndirən əlamətləri bəzən konkret cinayət tərkiblərinə daxil edir. Belə ki, qüvvədə olan qanunvericiliyin "Hərbi cinayətlər" fəslində xeyli normalarda "döyüş şəraiti" məsuliyyəti ağırlaşdıran tərkib əlaməti kimi nəzərdə tutulur. (Məsələn, CM-nin 233, 234, 235, 244 və s. maddələri).

Qanun eyni zamanda cinayətin ictimai fəlakət şəraitindən istifadə olunaraq edilməsini məsuliyyəti ağırlaşdıran hallar sırasına daxil etmişdir. Belə şərait zəlzələ ilə, vulkan püskürməsi ilə, daşqınla, kütləvi epidemiya ilə və s. ilə bağlı ola bilər.

Cinayətin törədildiyi şərait cinayətin sosial təhlükəliliyini azalda bilər və beləliklə məsuliyyət yüngülləşə bilər. Cinayət Məcəlləsinin 36-cı maddəsinin 2-ci bəndindəki "cinayətin ağır şəxsi vəziyyət və ya ailə vəziyyəti nəticəsində törədilməsi", 3-cü bəndindəki "cinayətin hədə-qorxu və ya məcburiyyət təsiri altında, yaxud da maddi və ya sair cəhətdən asılılıq nəticəsində törədilməsi", 4-cü bəndindəki "cinayətin zərər çəkmiş şəxsin qeyri-hüquqi hərəkətləri nəticəsində baş vermiş güclü ruhi həyəcan təsiri altında törədilməsi", 5-ci bəndindəki "zəruri müdafiə həddini almış olsa da cinayətin ictimai təhlükəli qəsddən müdafiə zamanı edilməsi" məsuliyyəti yüngülləşdirən hallar sırasına daxil edilmişdir.

Sadalanan hallar qanuna məsuliyyəti yüngülləşdirən hallar sırasına daxil edilərkən, cinayətin xeyli dərəcədə şəraitin təsiri altında törədildiyi nəzərə alınmışdır.*

Cinayətkarlığın şəraiti - cinayətkarlığı ya cinayəti özü yaratmır, onun yaranma prosesinə təsir edir.

Səbəb- nəticəli əlaqələr müxtəlif şəraitlərdə həyata keçirilir. Bunlardan, əsasən aşağıdakılar nəzərə alınmalıdır:**

1. *Yarımçıq izolyasiya şəraiti* - yəni hər bir lokal qarşılıqlı təsir daha böyük sosial qarşılıqlı təsirin elementidir və onun qanunlarına tabedir (məsələn, insan və mikromühit-- cəmiyyət);

2. *Daxili müxtəliflik şəraiti* - qarşılıqlı təsir elementləri qeyri bərabərdirlər, yəni onlardan biri daha aktiv rol oynayır və həlledici olur (sosial mühit), digərləri - köməkçi (şəxsiyyət);

3. *Daxili təşkilolunma və sabitlik şəraiti* - bunun nəticəsində kriminoloji əhəmiyyət kəsb edən qarşılıqlı təsirin müxtəlif sabitlik dərəcəsi ola bilər;

4. *Mühitin şəraitləri* - şəxsiyyətlə sosial mühitin qarşılıqlı təsiri cəmiyyətin müəyyən inkişaf dərəcəsi ilə bağlıdır;

5. *Hədd-hüdud şəraiti* - burada konkret şəraitin hərəkətləri müəyyən keyfiyyət ölçüsü alır. Məsələn, mənəvi pozğunluq cinayət davranışına keçəndə;



downloaded from KitabYurdu.az

6. *Determinasiyanın tam olması şəraiti* - bu şəraitdə determinasiyanın bir xətti seçilir (məsələn, iqtisadi və ya siyasi).

Beləliklə, kriminoloq onda olan məlumatı düzgün qiymətləndirməyə borcludur və müvafiq nəticələri ayırmağı bacarmalıdır, yəni onlardan hansı:

a) cinayətkarlıqla mübarizədə nəzərə alına bilər;

b) informasiya tam işlənməsi üçün digər mütəxəssislərə verilməlidir.

Cinayətlərin törədilməsinə kömək edən hallar iki cür olur:

1. Kriminogen hallar - yəni özündə cinayətin törədilməsi ehtimalını daşıyan;
2. Antikriminogen hallar - yəni cinayətin törədilməsini çətinləşdirən, qanuni hərəkətləri həvəsləndirən.

Lakin bu bölünmə də nisbidir. Məsələn, işsizliyin olmaması antikriminogen amil kimi qiymətləndirilir, çünki statistika göstərir ki, cinayətlərin çoxu məşğulluqdan çox işsizliklə bağlıdır. Buradan nəticə çıxarmaq olar ki, məşğulluq antikriminogen amildir. Lakin, pis işçilərin olması da müxtəlif təsərrüfat, vəzifə cinayətlərinə gətirib çıxarır.

Beləliklə, yalnız şəraitlə qarşılıqlı təsirdə olan səbəblər cinayəti yaradır.

* F.Y.Səməndərov . Cinayət hüququ. Cinayət və cəza məsələləri. Bakı, 1994, səh. 84-85; ** A.İ. Dolqova. Kriminologiya. M, 1997, s. 211



downloaded from KitabYurdu.az

## İqtisadi münasibətlər və cinayətkarlıq.

Cəmiyyətin analizi zamanı onun iki tərkib hissəsi seçilir: əhali və insanların formalaşdığı və fəaliyyət göstərdiyi sosial mühit.

Sosial mühit insanı əhatə edən və onun şüuruna və əxlaqına təsir göstərən ictimai şəraitlərin, fəaliyyətlərin və münasibətlərin yığımıdır.

Cinayətkarlığın tədqiqini apararaq, kriminoloq əhalinin bir hissəsi tərəfindən cinayətkar yola üstünlük verilməsinin səbəbi olan sosial mühitin xarakteristikalarını tapır .

Kriminoloji tədqiqatlarda, əsasən, ictimai fəaliyyətin sahələrindən: iqtisadi, sosial, siyasi, mənəvi sahələr seçilir.

*Cəmiyyətin iqtisadi sahəsi* - maddi sərvətlərin istehsalı ilə bağlı olan ictimai həyatın sahəsidir.

Cinayətkarlığın iqtisadi amillərlə bağlılığı - cinayətkarlığın kompleks tədqiqi və proqnozlaşdırılması zamanı meydana çıxan, çətin həll edilən problemlərin ən əsasından biridir. Lakin təəssüf ki, indiyə qədər iqtisadi amillərin cinayətkarlığa təsiri hərtərəfli araşdırılmamış, mövcud fikir və təkliflər isə çox vaxt bir-birini inkar edir: cinayətkarlığa iqtisadi şəraitin təsir etmədiyi fikrindən, iqtisadi amillərin əhəmiyyətinin həddən artıq şişirdilməsinə kimi.*

Cinayətkarlığın iqtisadi amillərinin tam anazili 1900-cü ildə J.Van-Kam tərəfindən edilmişdir. O nəticə çıxarmışdır ki, mülkiyyət əleyhinə edilən cinayətkarlığın dinamikasında və iqtisadi sahədə olan dəyişikliklərdə paralellizm var.

Lakin bu o demək deyil ki, cinayətkarlıq - ancaq iqtisadi təzahürlərin məhsuludur. Sadəcə olaraq, iqtisadi amil tez dəyişiləndir və buna görə onun cinayətkarlığın dinamikasına təsiri özünü daha aydın büruzə verir. Digər amillər nisbətən daimidirlər və onların təsirini görmək çətin olur.

Məlumdur ki, iqtisadiyyat mürəkkəb sistemdir. O bir-biri ilə qarşılıqlı bağlı olan, qarşılıqlı təsir göstərən çoxlu sayda altsistemlər və elementlər toplusudur. Onun strukturu vahid iyerarxiyaya gətirilmir. Bundan başqa iqtisadiyyatın inkişafına, ondan az əhəmiyyətli olmayan demoqrafik, elmi-texniki, ekoloji və digər amillər təsir göstərir.

Cəmiyyətin iqtisadiyyatının vəziyyəti ilə cinayətkarlıq arasındakı qarşılıqlı əlaqə mexanizmi mürəkkəb və çoxcəhətlidir. Çox vaxt cinayətkarlığı bütünlükdə əhalinin müəyyən təbəqələrinin maddi həyat şəraitinin pisləşməsi ilə əlaqələndirirlər. Doğrudan da belə bir qarşılıqlı əlaqə mövcuddur.

Məsələn, bəzi şəxslərin qanunsuz yollarla öz gəlir səviyyələrini qaldırmaq, sərvət əldə etmək meylləri tamah və başqa xarakterli cinayətlərin törədilməsinə gətirib çıxarır. Lakin bütünlükdə cinayətkarlığın yalnız insanların maddi vəziyyətindən asılılığını söyləmək düzgün olmazdı.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.63



downloaded from KitabYurdu.az

Digər tərəfdən nəzərə almaq lazımdır ki, əməyin xarakterində olan keyfiyyət fərqləri (yaradıcı, zehni və fiziki, sənaye və kənd təsərrüfatı əməyi və s.) istehsal vasitələrinə olan müxtəlif münasibətlərə və insanların maddi təminatındakı bərabərsizliklərə gətirib çıxarır və onların tələbat, maraq və davranış tərzlərinə təsir göstərir. İqtisadi amillərlə cinayətkarlıq arasındakı əlaqə yalnız qeyd olunanlarla qurtarmır. Aydındır ki, cəmiyyətin iqtisadi inkişafının səviyyəsi ilk növbədə məhsuldar qüvvələrin vəziyyətindən asılıdır. Nəhayət, onu da qeyd etmək vacibdir ki, müxtəlif çeşidli gündəlik tələbat mallarının çatışmazlığı, əməyin qeyri-qənaətbəxş təşkili, məişət və xidmət sahələrinin kifayət qədər inkişaf etməməsi və digər iqtisadi proses və hadisələr də müəyyən sosial-psixoloji şəraitdə kriminogen amillər sayıla bilər. *

İqtisadi amilin mülkiyyət əleyhinə və insanın həyatı, səhhəti əleyhinə edilən cinayətlərə təsir mexanizmi fərqlidir. Həqiqətən əgər mülkiyyət cinayətlərində iqtisadi amil cinayət barədə qərar qəbul edilməsi və bu qərarın həyata keçirilməsi situasiyasında özünü göstərirsə, zorakılıqla bağlı cinayətlərdə o şəxsiyyətin formalaşmasına və hərəkətinin motivasiyasına təsir edir. Məsələn, cəmiyyətin sosial-iqtisadi təbəqələşməsi əhalinin varlı və yoxsul təbəqələri arasında konfliktlər yaradır. Bu isə işsiz və tez bir zamanda özünün vəziyyətini yaxşılaşdırmaq niyyətində olan cavanlar tərəfindən sahibkarların gəlirlərini hədə-qorxu ilə almaq, onların evlərinin yandırılması faktlarına gətirib çıxarır.

Kriminoloji tədqiqatlar cəmiyyətin iqtisadi sahəsində gedən aşağıdakı proseslərin birinci növbədə uçotunun aparılması zərurətini göstərir: istehsalın vəziyyəti və inkişafı, əhalinin tələbatlarının və maraqlarının təmin edilməsi, əhalinin məşğulluğu, onların layiqli həyatını təmin edən stabil gəlirlərin alınması.

İqtisadi amillərə istehsalatın düşməsi, işsizlik də aiddir. İnsan iş yerini itirir, əmək kollektivindən ayrılır, sərxoşluğa və narkomanlığa qurşanır və ya mütəşəkkil cinayətkarlığın nəzarətində olan kölgəli iqtisadiyyata, digər fəaliyyətə cəlb olunur; və yaxud işinin itirilməsindən qorxaraq, vəzifədən sui-istifadə edərək rəhbərin qanunazidd göstərişlərini yerinə yetirir, bunlar isə bilavasitə ümumi cinayətkarlığın artmasına təsir edir.

İstehsal edən qüvvələrin və istehsalat münasibətlərinin vəziyyəti, onların qarşılıqlı təsirinin xarakteri də cinayətkarlığa öz təsirini göstərir. Tək maddi bazanın, elmi-texniki inkişafın olması kifayət etmir, əmək vərdişləri və bilikləri olan insanlar da gərəkdir. Buna görə, iqtisadi sahədə cinayətkarlığın qarşısının alınması üçün kadrların ixtisasının artırılması, onları təkmilləşməyə həvəsləndirilməsi lazımdır.

Çox vaxt iqtisadi sahədə cinayətlər müəssisələrin, təşkilatların nəzarətsizliyi üzündən törədilir. Bu baxımdan özəlləşdirmə müəssisələrin idarəetməsinin yaxşılaşdırılmasına və istehsalatın yüksəlməsinə imkan yaradılmalıdır. Lakin bu sektorda da neqativ hallara yol verilməsi kriminal kapitalların "qazanmasına", "qara" bazarın yaranmasına gətirib çıxarmışdır.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.64



downloaded from KitabYurdu.az

Gəlirlərin gizlədilməsi, ictimai fondların vəsaitlərinin dağıdılması ailənin saxlanılması, yetişən nəslin tərbiyəsi, əlillər və qocalar üçün nəzərdə tutulmuş proqramların maliyyələşdirilməməsinə səbəb olur. Bu isə öz növbəsində cəmiyyətdə neqativ halları yaradır.

Kriminoloqlar əhalinin gəlirlərinin və xərclərinin bölüşdürülməsinə də fikir verməlidirlər. Burada əhalinin faktiki gəlirlər və həyat səviyyəsi üzrə sosial-iqtisadi differensiasiyası mühüm əhəmiyyət kəsb edir. Çünki o insanlarda özünün və ətrafdakıların maddi vəziyyətinin müqayisəsi nəticəsində nisbi tələbatları yaradır, bu tələbatları qeyri-qanuni yolla təmin edilməsinə itələyir və buna görə cinayətkarlıq amili olur.



downloaded from KitabYurdu.az

## Sosial münasibətlər və cinayətkarlıq.

Cinayətkarlığa təsir göstərən amillərdən danışarkən İ.A.İsmayılov qeyd edir ki, cinayətkarlığın vəziyyəti və meylləri ilə sosial proseslər arasında təxminən 200-250 nisbətən sabit korelyasion asılılıqlar mövcuddur.

Sosial-iqtisadi hadisə və proseslər cinayətkarlığın törədilməsində müəyyən yol oynayır, elə cinayətkarlığın özü də xeyli dərəcədə cəmiyyət həyatının sosial-iqtisadi sahəsinə təsir göstərir. F.Y.Səməndərov cinayətkarlığın və müəyyən növ cinayətlərin səbəblərinin, habelə onların baş verməsinə kömək edən şəraitin, cinayətkarların şəxsiyyətinin öyrənilməsini və aşkar edilməsini kriminologiya elminin qarşısında duran ən aktual problemlərdən biri hesab edərək yazır: "Cinayətkarlığı doğuran sosial şəraitin öyrənilməsi, ilk növbədə cəmiyyətdə gedən sosial-iqtisadi, ideoloji və sair proseslərlə əlaqədar cəmiyyətə zidd hadisələri doğuran halların və bunların "mexanizmləri"nin öyrənilməsini tələb edir… Cinayətkarlığın ümumi səbəbləri şəxsiyyətə təsir göstərən və onda müəyyən kompleks mənfi xüsusiyyətlər püxtələşdirən obyektiv və subyektiv xarakterli sosial hadisələrin məcmusudur. Cinayətkarlıq sosial hadisə kimi sosial mühitin amilləri ilə daxili subyektiv amillərin qarşılıqlı əlaqəsində doğur".

İ.İ.Karpets kriminologiyanın ən aktual problemlərindən biri olan sosial mühitin cinayətkarlığa təsiri mexanizminin tədqiqi və açılmasını sayırdı. Lakin V.N.Kudryavtsevin qeyd etdiyi kimi son illərdə kriminologiyanın yüksək inkişafına baxmayaraq, bu istiqamət hazırda lazımi səviyyədə inkişaf etməmişdir. Hətta indiyə qədər cinayətkarlıqla sosial həyatın müxtəlif tərəflərini əlaqələndirən mühüm problemlərin dairəsi belə, dəqiq müəyyən edilməyib.

Cinayətkarlıqla mürəkkəb sosial-iqtisadi problemlər arasında qarşılıqlı əlaqə və asılılıqların müəyyənləşdirilməsi hər şeydən əvvəl əhalinin müxtəlif sosial qrupları və təbəqələrinin həyat və yaşayış tərzlərinin fərqi və bunların cinayətkarlığa təsiri kimi məsələlərin çoxcəhətli və mərhələlərlə dərin tədqiqini nəzərdə tutur.*

İctimai həyatın sosial sahəsini *vətəndaşlıq cəmiyyəti* təşkil edir - yəni cəmiyyətin sosial strukturu, müxtəlif sosial qrup və təbəqələrin maraqlarını, məqsədlərini müəyyən edən, vətəndaşların cəmiyyətdə yerini əks etdirən sosial münasibətlərdir.

Bizim cəmiyyətdə yenidənqurma və islahatlar dövrü qısa bir müddətdə kəskin sosial-iqtisadi təbəqələşmə yaranmış, dini və milli fərqlər gərginləşmişdir. Bu hallar çox vaxt kriminal yolla həll olunan konflikt və problemli vəziyyətləri yaratmışdır.

Pullu xidmətlərin tətbiq edilməsipulsuz təhsilə, tibbi yardım və mənzilə öyrəşmiş əhalini dövlət bu hüquqdan kənarlaşdırır.

Əhalinin strukturunun, aztəminatlı ailələrin qeyri dəqiq uçotu, bunların formalaşmasında ciddi nöqsanlar yaradır və gələcəkdə çoxlarının əxlaqında əyintilərə, tələbatları və maraqları rahat təmin etməyən kriminal mühitin seçilməsinə gətirib çıxarır.

Həyatın sosial sahəsi - bu həm də vətəndaş cəmiyyətinin müxtəlif institutlarıdır: ictimai təşkilatlar, fondlar, assosiasiyalar. Bunların da cinayətkarlığa münasibəti və onunla mübarizədə iştirakı böyük əhəmiyyət kəsb edir.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.60-63



downloaded from KitabYurdu.az

## Siyasət və cinayətkarlıq.

*Cəmiyyətin həyatının siyasi sahəsi* - siyasi təşkilatlar, siyasi münasibətlər və hərəkətlərdir.

Əsas siyasi sual həmişə dövlət hakimiyyəti barədə olubdur. Dövlət hakimiyyəti orqanlarının formalaşması, hərəkət etməsi, dövlət hakimiyyətinin müəyyən əllərdə saxlanılması bir-birinə zidd olan, o cümlədən kriminal və hüquqa uyğun maraqların toqquşma meydanı olur.

Bu aspektdən korrupsiyanın, vəzifə cinayətlərinin artması, dövlət strukturlarından istifadə edən iqtisadi cinayətkarlığın, siyasi terrorizmin, bir sıra dövləti cinayətlərin, silahlı toqquşmaların və onlarla bağlı cinayətlərin öyrənilməsi vacibdir. Bütün bunlar digər cinayətlərə də öz təsirini göstərir.

Müxtəlif sosial qrupların maraqlarının nəzərə alınması, cəmiyyətdə kəskin toqquşmalara yol verilməməsi, sosial şəraitin sağlamlaşdırılması - bütün bunlar cinayətkarlığın qarşısının alınmasına kömək edir. Bu cəhətdən müxtəlif sosial qrupların, siyasi partiyaların, hərəkətlərin siyasi maraqlarında olan ziddiyyətlərin qanun çərçivəsində və ya qeyri-qanuni həll olunması; sosial nəzarətin qurulması; qanunvericiliyin təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir.

Əgər cinayətkarlıq cəmiyyətdə geniş miqyaslar alır və yüksək mütəşəkkilliyi ilə fərqlənirsə, o müəyyən siyasi partiyaların fəaliyyətinə təsir göstərir və bununla belə “kölgəli siyasət, kölgəli ədliyyə yaranır.”



downloaded from KitabYurdu.az

## Cəmiyyətin mənəvi vəziyyəti və cinayətkarlıq.

Bura ictimai və fərdi fikir, elmi və gündəlik fikir, dünya görünüşü, elmi biliklər və illyuziyalar, dini və estetik baxışlar, etnik və hüquqi normalar, sosial qrup və siniflərin mənəvi həyatı, millətlərin ideologiyası və sosial psixologiya daxildir.

Mənəvi sahənin sistemaltları - elm, incəsənət, ideologiya, din, təhsil və tərbiyədir.

Mənəvi sahənin bütün elementləri kriminoloji əhəmiyyət kəsb edirlər. Bunların içində hüquqi şüurun analizi daha mühümdür.

Hüquqi şüur - sosial-hüquqi reallığı əks edən cəmiyyətin və ya ayrı-ayrı sosial qrupların, təbəqələrin, vətəndaşların baxışlarının, qiymətlərinin, təsəvvürlərinin, keyfiyyətlərinin, hisslərinin sistemidir. Hüquqi şüur hüquqi davranışa öz təsirini göstərir.

Kriminoloq tədqiqatlar zamanı aydınlaşdırmalıdır ki, cinayət qadağanına mənfi münasibətin, bu qadağanın pozulmasının kökləri haradan gəlir: ənənələrə sadiq qalmaqdır (qan intiqamı), yaxud ictimai fikirdə yayılmış təsəvvürdür ki, "məhkəmədə haqq yoxdur" və incidənə qarşı fiziki güc tətbiq edilə bilər; yaxud da qanun normalarının bilməməsinin nəticəsidir.

Bu tədqiqatlar zamanı kriminoloqlar məktəblərin, digər tərbiyə və təhsil ocaqlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətini analiz etməli, ictimai sorğu aparmalıdırlar.



downloaded from KitabYurdu.az

## Demoqrafik proseslər və cinayətkarlıq.

M.M.Babayev özünun demoqrafik proseslərin cinayətkarlığa təsirinin öyrənilməsinə həsr olunmuş monoqrafiyasında həmin problemin bir sıra aktual kriminoloji istiqamətlərini göstərir. Onun fikrincə, birinci istiqamət əhalinin müxtəlif sosial demoqrafik xüsusiyyətlərə görə paylanmasını nəzərə almaqla cinayətkarlığın statistik tədqiqidir. İkinci istiqamət cinayətkarın şəxsiyyətini öyrənərək onun sosial vəziyyətini müəyyənləşdirən bir sıra əlamətlərin (cins, yaş, təhsil səviyyəsi, ailə vəziyyəti və s.) tədqiqidir. Üçüncü istiqamət cinayətkarlığın vəziyyətinə, struktur və dinamikasına urbanizasiya, miqrasiya və s. demoqrafik proseslərin təsirinin tədqiqi ilə bağlıdır. Dördüncü istiqaməti o cinayətkarlığın qarşısının alınması tədbirləri sistemini yaradarkən demoqrafik amillərin nəzərə alınması ilə əlaqələndirir.

Demoqrafik proseslərdən danışarkən əsasən miqrasiya və urbanizasiya kimi amilləri xüsusilə qeyd etmək lazımdır. Urbanizasiya, əhalinin miqrasiyası, sosial-iqtisadi əlaqələrin mürəkkəbləşməsi və digər hadisələrin cinayətkarlığın artmasına gətirib çıxarması təəccüb doğurardı. Cinayətlər, heç şübhəsiz əhalinin gur yerdəyişmə prosesləri, kənddə ənənəvi yaşayış tərzinin pozulması, mənəvi və mədəni dəyər və sərvətlərin dəyişməsi ilə müəyyən dərəcədə əlaqəlidir. Bundan başqa kriminoloji tədqiqatlar göstərir ki, elə iqtisadi rayonlar var ki, orada cinayətkarlıq başqa rayonlara nisbətən xeyli yüksəkdir. Bu zaman cinayətkarlığın səviyyəsi ilə əhalinin cinsi və yaş strukturu, əmək qabiliyyətli əhalinin sosial və peşə tərkibi, onların yerdəyişməsinin xarakteri və digər sosial-demoqrafik göstəricilər ilə çox aydın surətdə əlaqə olduğunu görmək o qədər də çətin deyildir.

Cinayətkarlığa bu və ya digər dərəcədə təsir göstərən demoqrafik amillərdən ən əsaslarından biri miqrasiya prosesləridir. Miqrasiya prosesləri mürəkkəb təsərrüfat mexanizminin təkmilləşdirilməsi, şəhərlərin salınması, yeni ərazilərin fəthi, cəmiyyətin maddi sərvətlərinin artırılması və deməli həm də əhalinin sonrakı maddi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı olan ümumən müsbət və zəruri sosial hadisədir. M.M.Babayev miqrasiya proseslərinin müsbət, əhəmiyyətli tərəflərindən danışarakən qeyd edirdi ki: 1) miqrasiya əvvəlki yaşayış yerlərində hər hansı səbəblərdən iş tapa bilməyən əhalinin, yeni yaşayış yerlərində qismən də olsa ictimai faydalı əməklə məşğul olmasına şərait yaradır; 2) yerdəyişmələr son nəticədə köçənlərin əksəriyyətinin həyatının, geniş mənada maddi-məişət şəraitinin yaxşılaşdırılmasına gətirib çıxarmaqla onların təhsilinin, mədəniyyətinin və düşüncə səviyyəsinin artmasına səbəb olur; 3) yeni yaşayış yerlərinin spesifik xüsusiyyətlərinə uyğunlaşma müddətində adətən şəxsiyyətin bütün müsbət daxili "ehtiyatlarının" səfərbər olunmasına, onların ən yaxşı insani keyfiyyətlərinin, qayğıkeş, məsuliyyət, yeni şəraitə uyğunlaşmaq bacarığını, çətinlikləri dəf etmək və s. aşkara çıxarılmasına, təkmilləşdirilməsinə və inkişafına səbəb olur.

Bununla belə, miqrasiya prosesləri müəyyən şərait daxilində kriminogen rol oynaya biləcək bir sıra arzuolunmaz hadisələrə gətirib çıxara bilər. Adətən, miqrasiya proseslərinin yüksək intensivlik zonaları cinayətkarlığın daha çox



downloaded from KitabYurdu.az

qeyri-məqbul dinamikası və artım səviyyəsi ilə seçilir. Lakin miqrasiya prosesləri cinayətkarlığa bilavasitə deyil, iqtisadi, sosial, mədəni, elmi-texniki, ekoloji və digər amillər kompleksində, qarşılıqlı əlaqəli surətdə təsir göstərir.

Urbanizasiyanı geniş miqyasda xarakterizə edən bütün kompleks problemlər sırasında cinayətkarlığa təsir göstərə biləcək əhalinin sıxlığı, kənd əhalisinin azalması və əhalinin getdikcə daha böyük bir hissəsinin iri şəhərlərdə məskunlaşması və bunlarla birbaşa bağlı şəhər və kənddə baş verən iqtisadi, sosial-demoqrafik, sosial-psixoloji, ekoloji və digər dəyişiklikləri göstərmək olar.

Son illərdə əhalinin siyahıya alınmasının nəticələri göstərir ki, mövcud orta və iri şəhərlərin getdikcə nəhəngləşməsi, kəndlərin şəhərtipli qəsəbələrə və kiçik şəhərlərə çevrilməsi prosesləri sürətlənmişdir.

Bu meyllərin respublikamız üçün də xarakterik olduğunu, cinayətkarlığın şəhərdə kəndə nisbətən xeyli dərəcədə yüksək olduğunu aparılan kompleks tədqiqat və proqnozlarda hökmən nəzərə almaq lazımdır.

Aydındır ki, urbanizasiyanın insanların hərəkət və davranışlarına və o cümlədən də cinayətkar davranışa həqiqətən də təsir göstərdiyi şübhəsizdir. Lakin bu təsir birmənalı olmayıb, çoxcəhətli və çoxaspektlidir. Urbanizasiya insanların davranışının dəyişməsinə gətirib çıxaran sosial-iqtisadi, sosial-psixoloji, elmi-texniki, ekoloji, sosial-demoqrafik və s. hadisə və proseslər vasitəsilə birbaşa deyil, dolayı yolla təsir edir.*

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh.65, 66, 69. Sit: М.М.Бабаев, З.В.Кузнецова, Е.В.Урланис. Влияние демографических процессов на преступность. М., 1976, с.7-9. с.119-120; М.М.Бабаев. Влияние механического движения (миграции) населения на территориальные различия в преступности. В сб.: Влияние социальных условий на территориальные различия в преступности. М., 1977.



downloaded from KitabYurdu.az

# Dördüncü fəsil.

## Cinayətkarın şəxsiyyəti və kriminal davranışının səbəbləri.

**Cinayətkarın şəxsiyyət anlayışı. Cinayətkarın şəxsiyyətinin öyrənilməsində sosial və psixoloji amillərin yeri. Cinayətkarın şəxsiyyətinin öyrənilməsi həddi. Cinayətkarın şəxsiyyətinin kriminogen xüsusiyyətlərinin öyrənilməsi. Cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik xüsusiyyətləri; sosial- mövqe və sosial rollar. Cinayətkarın şəxsiyyətlərinin təsnifi. Fərdi kriminal davranışın mexanizmi. Kriminogen motiv və məqsəd. Kriminoloji viktimologiya - zərərçəkən və onun davranışı haqqında təlim.**

### Cinayətkarın şəxsiyyət anlayışı.

Şəxsiyyət - insanın sosial sifətidir, onun cəmiyyətdə sosial inkişafı, formalaşması və fəaliyyəti nəticəsində yaranır. Buna görə "cinayətkarın şəxsiyyəti" deyəndə cinayət törədən şəxsin "sosial portreti" nəzərdə tutulur.

Kriminologiya elmində cinayətkarın şəxsiyətinin tədqiqi çox mühüm elmi-nəzəri və praktiki əhəmiyyətə malikdir. Cinayətkarın cəmiyyətə zidd davranış mexanizmini açmadan, onu xarakterizə edən bioloji və psixoloji xüsusiyyətlərinin aydın mənzərəsini yaratmadan, cinayətkarın şəxsiyyətini sosial fərd kimi səciyyələndirən bütün əsas əlamətlərinin dərin elmi tədqiqi və təhlilini aparmadan, cinayətkarlığı sosial hadisə kimi izah etmək, onun səbəblərini aşkara çıxarmaq və qarşısının alınması yollarını tapmaq, kompleks tədbirlər proqramını yaratmaq qeyri-mümkündür. Cinayətkarın şəxsiyyətinin tədqiqinin belə mühüm əhəmiyyət daşıması onunla izah olunur ki, cinayətkarlıqla mübarizə problemləri düzünə və ya dolayı cinayətkarların şəxsiyyəti ilə əlaqəlidir, onunla bağlıdır. Axı cinayətkarların şəxsiyyətinin xüsusiyyətləri cinayətkar davranışın xarakterinə, qrup halında cinayətkarlığın səviyyəsinə, residivə, cinayətkarlığın ərazi prinsipi üzrə yayılma hallarına, latentlik səviyyəsinə və s. əhəmiyyətli dərəcədə təsir göstərir. Nəhayət cinayətkarlıqla mübarizə tədbirlərinin səmərəliliyi həmişə cinayət törətmiş şəxslər haqqında əlimizdə olan məlumatların dəqiqliyindən və onların elmi əsaslarla təhlilinin səviyyəsindən asılıdır. Bir sözlə, "cinayətkarın şəxsiyyəti problemi, cinayətkarlığın, onun səbəbləri, qarşısının alınması yolları və vasitələri problemləri ilə qırılmaz surətdə bağlıdır".

Kriminologiyanın problemləri içərisində ən mürəkkəbi, ən çox diskussiya doğuranı və ən çox işlənildiyi cinayətkarın şəxsiyyəti problemidir. Bu problemin əhəmiyyəti aydındır. Cinayətkarlıq adamların cəmiyyətə qarşı hər hansı qanunsuz hərəkəti ilə əlaqəli sosial hadisədir. Belə hərəkəti izah etmək, onu


downloaded from KitabYurdu.az

doğuran səbəbləri aşkara çıxarmaq, cinayətlərin qarşısının alınmasının səmərəli yollarını və vasitələrini tapmaq ancaq cinayətkarı bioloji və sosial-psixoloji şəxsiyyət kimi xarakterizə edən bütün parametr və amilləri dərin və hərtərəfli öyrənmək nəticəsində mümkündür.

Son illər aparılan kriminoloji tədqiqatlar cinayətkarın şəxsiyyətinin strukturunun ümumiləşdirilmiş mənzərəsini, onun sosial-demoqrafik, mənəvi-psixoloji xarakteristikasını verməyə və cinayətkarların təsnifatının əsas prinsiplərini yaratmağa imkan vermişdir.

Müasir elmdə cinayətkarın şəxsiyyətinin strukturu haqqındakı təsəvvürlər olduqca müxtəlifdir. Bu müəyyən mənada onunla izah olunur ki, ümumiyyətlə psixologiyada, sosiologiyada və kriminologiyada şəxsiyyətin strukturuna olan baxışların mənzərəsi olduqca müxtəlif və rəngarəngdir.

Adətən cinayətkarın şəxsiyyəti anlayışı cinayət törətmiş şəxsin sosial keyfiyyətlərindən, sosial inkişaf prosesi zamanı onun kimə çevrildiyindən danışarkən işlədilir. Lakin şəxsiyyət təkcə sosial kateqoriya deyildir. "Şəxsiyyət" anlayışı həm də psixoloji və bioloji mahiyyət daşıyır. Şəxsiyətin hər iki aspekti qarşılıqlı əlaqəli, qarşılıqlı asılı olaraq ayrılmaz vəhdət təşkil edir. "İnsan bir idrak daşıyıcısı kimi obyektiv aləmin mahiyyətini anlamaq qabiliyyətinə, özünü bu əlaqədə dərk edib şüurlu surətdə hərəkət etmək, öz davranışı haqqında hesabat vermək, öz hərəkətlərini idarə etmək qabiliyyətinə malikdir. Hər bir şəxsin psixikasının xüsusiyyətləri onun davranışında üzə çıxaraq, onun sosial funksiyalarına təsir göstərir. Cinayət - şüurlu, iradəli bir aktdır. Xaricdən fəaliyyətə çağıran (sürükləyən) stimuldur, "daxili şəraitdən" - şəxsiyyətin psixikasından keçir, şüurda təshih olunur və artıq müəyyən tərzdə (qaydada) işlənmiş halda bu və ya digər davranış və o cümlədən də cinayətkar davranış formasında üzə çıxır. İnsanları hərəkətə gətirən hər bir şey, hökmən onların beynindən keçməlidir; lakin bu, beyində onun hansı forma alması daha çox konkret şəraitdən və o cümlədən də sosial şəraitdən asılıdır. Hər bir insanın daxili aləmi fərdidir və ona görə də xarici qıcıqlandırıcılara hər bir insan müxtəlif tərzdə reaksiya verir. Aydındır ki, şəxsiyyətin cinayətkar davranışından onun təkcə həyat meyarları deyil, həm də özünəməxsus psixi xüsusiyyətləri özünü göstərir. Ayrı-ayrı cinayətlərin törədilməsinə heç də az əhəmiyyətli olmayan rolu şəxsiyyətin həmin anda psixi vəziyyəti oynayır".

Beləliklə, insan biososial məxluq olub, təkcə təbiətin deyil, həm də ictimai inkişafın məhsulu olduğundan insanın şəxsiyyəti - cəmiyyətin bir üzvü kimi insanı xarakterizə edən bütün sosial, psixoloji, biofizioloji və digər əlamətlərin məcmusudur. Ona görə də cinayətkarın şəxsiyyətinin aşağıdakı tərifi daha dəqiq və daha düzgün sayıla bilər: "Cinayətkarın şəxsiyyəti - cinayət-hüquqi əhəmiyyətə malik olan cinayət törətmiş şəxsin sosial, mənəvi, siyasi, psixoloji və biofizioloji əlamətlərinin məcmusudur".*

Kriminologiyada cinayətkarın şəxsiyyətinin öyrənilməsinin müxtəlif istiqamətləri var.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh 73-76.



downloaded from KitabYurdu.az

Klinik istiqamətin nümayəndələri cinayətkarın şəxsiyyətinin öyrənilməsində psixiatr, psixoloqlara əsas yer verir, antropoloji nəzəriyyənin nümayəndələri isə cinayətkarlığın irsi xarakter daşıdığını qeyd edirlər.

Lakin genetik proqramın olması o demək deyildir ki, doğulandan qoyulmuş potensiyalar insanın əxlaqına avtomatik surətdə keçməlidirlər. Bunun üçün müvafiq həyat tərzi, ətrafdakı şərait olmalıdır ki, onların təsiri altında insanın təbii potensiyaları inkişaf etsin və ya əksinə sönsünlər.

Kriminoloq aydınlaşdırmalıdır ki, həqiqətən insan cinayət törədərkən öz hərəkətlərini idarə edə bilməyib, öz bioloji xüsusiyyətlərinə görə hərəkətlərinin xarakterini dərk etməyi bacarmır. Belə olduğu halda insan artıq cinayət - hüquqi mənada cinayətkar deyil və o kriminoloqun diqqət obyektindən çıxır.

Davranışının xarakterini dərk edən və öz hərəkətlərini ölçüb-biçmək qabiliyyətinə malik olan şəxs cinayətin subyekti ola bilər. İctimai təhlükəli əməli törədərkən şəxs psixi vəziyyətinə görə hərəkətinin xarakterini dərk etmirsə və öz davranışını idarə edə bilmirsə, qəsd yaxud da ehtiyatsızlıq formasında təqsir aradan qalxır. Düşüncəli hərəkət edən, anlaqlı olan şəxs təqsirli hesab edilə bilər. Deməli şəxs psixi vəziyyətinə görə, davranışının xarakterini dərk etmirsə və öz hərəkətlərini idarə etmək qabiliyyətinə malik deyildirsə, anlaqsızlıq (CM mad.11) mövcud olur və şəxs cinayətin subyekti ola bilməz.

Əməlin xarakterini dərk etmək və öz hərəkətlərini idarə etmək qabiliyyəti şəxsin doğulması ilə bir vaxtda yaranan xüsusiyyət deyildir. Şüur, təfəkkür, insanın özünü və ətraf mühiti dərk etməsi, özünün və başqalarının davranışına qiymət vermək qabiliyyəti tədricən illər boyu formalaşır. Əqli kamillik, öz davranışını dərk etmək və özünü idarə etmək qabiliyyəti şəxsin müəyyən yaş həddinə, yetkinliyə çatmasını tələb edir. Psixologiya, psixiatriya, pedaqogika, cinayət hüququ və s. bu kimi elm sahələri belə yetkinlik həddini - 16 yaşdan müəyyən edir.

Belə yaş həddində yeniyetmə artıq cinayət sayılan əməllə cinayət sayılmayan əməllər haqqında mükəmməl təsəvvürə malik olur, öz əməlinin xarakterini dərk edir, hərəkətlərini idarə etmək qabiliyyətinə malik olur.

Elə ictimai təhlükəli əməllər də vardır ki, onların kriminal xarakterə malik olmasını şəxs artıq 14 yaşdan bütün aydınlığı ilə dərk edir. Buna görə də məişətlə bağlı olan belə cinayətləri törətməyə görə məsuliyyət 14 yaşdan müəyyən edilmişdir.

Beləliklə, fiziki şəxs, anlaqlılıq və müəyyən edilən yaş həddi subyektin əsas əlamətləridir. Qeyd edilən bu mühüm əlamətlər bütün cinayətlərin subyektləri üçün xarakterikdir və cinayətin ümumi subyektinin elmi anlayışını təşkil edir.*

---

F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 133,134



downloaded from KitabYurdu.az

Kriminoloji tədqiqatlar obyekti aşağıdakılardır:

1. Cinayət törətmiş şəxslər;
2. Cinayətkarların müxtəlif kontingentləri - yetkinlik yaşına çatmayanlar, residivistlər və s.;
3. Cinayətkarlığın müxtəlif kriminoloji tipləri;
4. Cinayət törətməmiş şəxslər - nəzarət qrupu kimi.

Cinayətkarın şəxsiyyətinin öyrənilməsinin əsas məqsədi - cinayətə və cinayətkarlığa ən yaxın olan səbəbli əlaqələrin üzə çıxarılması üçün imkan yaradan xarakteristikaların aşkar edilməsidir. Bunun üçün kriminoloq başqa mütəxəssisləri də cəlb edə bilər.

Kriminologiyada əsasən 6 qrup xüsusiyyətlər öyrənilir:

1. Sosial -demoqrafik;
2. Cinayət-hüquqi;
3. Sosial əlaqələr;
4. Mənəvi;
5. Psixoloji;
6. Fiziki (bioloji) xüsusiyyətlər.

Cəza təyin edilərkən təqsirkarın sosial və psixoloji xüsusiyyətləri nəzərə alınır. Sosial xüsusiyyətlərə təqsirkarın cinsi, yaşı, ictimai vəziyyəti, təhsili, ailə vəziyyəti (sosial-demoqrafik əlamətlər), peşəsi, vəzifəsi, həyat tərzi, əməyə, təhsilə, birgə-yaşayış qaydalarına, qanunlara, insanlara münasibəti, təbiətin qorunmasına, uşaqların tərbiyəsinə göstərdiyi qayğı və s. vətəndaşlıq vəzifələrinə olan münasibəti (sosial mövqeyi və sosial münasibətlər) daxildir. Təqsirkarın psixoloji xüsusiyyətlərinə onun xarakteri, iradəsi, sərvət meylləri, yönəlişləri, işlədiyi kollektivdə nüfuzu və s. bu kimi hallar daxildir.

Təqsirkarın əxlaqa zidd həyat tərzi, ictimai faydalı əməkdən yayınması, qanunların, birgə-yaşayış qaydalarının tələblərinə laqeydliyi, qızışdırıcı oyunlara, spirtli içkilərə və narkotik maddələrə aludəçiliyi və s. bu kimi hallar onun nisbətən yüksək sosial təhlükəli olmasını göstərir.

Əksinə, təqsirkarın ictimai faydalı əməyə bağlılığı, mənəvi prinsiplərə əsaslanan həyat tərzi, xeyirxahlığı, yaxud adamlar barəsində qayğıkeşlik göstərməsi və sair bu kimi alicənablığı səciyyələndirən xüsusiyyətlər isə onu müsbət mövqedən xarakterizə etdiyindən, törədilən kriminal əməlin onun həyat tərzi ilə əlaqədar olmadığını, onun üçün təsadüfi hal olduğunu göstərir. Buna görə də əgər birinci halda məhkəmə təqsirkarın şəxsiyyətini mənfi mövqedən xarakterizə edən halları nəzərə alaraq məsuliyyəti ağırlaşdırırsa, ikinci halda təqsirkarın şəxsiyyətini müsbət mövqedən xarakterizə edən hallara əsasən məsuliyyəti yüngülləşdirir.

Məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallardan fərqli olaraq cinayətkarın şəxsiyyətini xarakterizə edən sair hallara ayrı-ayrılıqda deyil, bütövlükdə əhəmiyyət verərək cinayətkarın şəxsiyyəti nəzərə alınır.*

---

F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 347, 348



downloaded from KitabYurdu.az

## Cinayətkarın şəxsiyyətinin öyrənilməsində sosial, psixoloji və bioloji amillərin yeri.

Cinayətkarın şəxsiyyətinin kriminoloji tədqiqatları göstərir ki, cinayətkarın dəyərli səmtləşmələrin arasında ən yüksək yeri individual və tayfaeqoistik dəyərlər tutur. Bunlara şəxsi maddi firavanlıq; hədsiz dərəcədə öz mənliyinin büruzə verilməsi; bunun üçün ən rahat şəraitlərin yaradılması və ya tayda, qrup maraqları aiddir. Məsələn, kriminal kapitalların yuyulması yolu ilə hədsiz sahibkarlıq fəaliyyəti; hakimiyyətin müəyyən qrup şəxslərin əlində saxlanılması.

Y.D.Bluvşteyn, hər bir konkret şəxsiyyətdə, o cümlədən cinayətkarın şəxsiyyətində müxtəlif sosial qruplarla sistematik qarşılıqlı əlaqə prosesi zamanı yaranan, sosial mahiyyət daşıyan bir qrup xüsusiyyətlərin cəmləşdiyini qeyd etməklə yanaşı, onu da xüsusi olaraq vurğulayırdı ki,"şəxsiyyətin kriminoloji struktur analizində, həmçinin insanların davranış mexanizmində, o cümlədən cinayətkar davranış mexanizmində mühüm rol oynayan bir çox fərdi psixi xüsusiyyətlər və bioloji xassələr maksimum dərəcədə nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki,  cinayətkarın şəxsiyyətinin strukturunda bu xüsusiyyət və xassələrin ayrıca göstərilməsi heç də cinayətlərin baş verməsinin səbəblərinin içərisində psixoloji və bioloji amillərin həlledici olduğu demək deyildir. Aydındır ki, şəxsiyyət özünün bütün bioloji və psixoloji xüsusiyyətləri ilə müəyyən sosial amillərin təsiri altında formalaşır və inkişaf edir. Və ona görə də adətən cinayətlərin baş verməsinin əsas səbəbləri şəxsiyyətin qazandığı mənfi sosial xüsusiyyətlərdir.

Ayrıca götürülmüş bəzi mənfi psixoloji proseslər, vəziyyətlər və bioloji xassələr ancaq bu səbəblərin hərəkətə gəlməsini sürətləndirə bilər.*

Əxlaq və ədəb kateqoriyaları ilə bağlı olan anlayışlardan: yaxşılıq və pislik, alicənablıq və alçaqlıq, vəfalılıq və xainlik, humanistlik və qəddarlıq və digərləri kriminoloji əhəmiyyət kəsb edir.

Kriminoloji tədqiqatlar göstərir ki, cinayət törətmiş şəxslərin əxlaqi düşüncələrində müəyyən çatışmamazlıqlar olur. Məsələn, əgər yeniyetmə kriminal və əxlaqsız şəraitdə böyüyür və buna görə ictimaiyyət tərəfindən bəyənilən əxlaqi normalarla tanışlığı olmur.

Cinayətkarlırın şəxsiyyətini öyrənərkən bütün hallarda bir sual ortaya çıxır: niyə pozulmuş tələbləri, maraqları, dəyər səmtləşmələri, ədəb-əxlaq təsəvvürləri olan cinayətkarı ciddi sanksiyaları olan cinayət qanunu saxlamadı? Bu suala cavab vermək üçün insanın hüquq düşüncəsinin analizi gərəkdir.

Tədqiqatlar göstərir ki, qanun pozan vətəndaşların digər vətəndaşlara nisbətən cinayət hüququnu mükəmməl bilmələri barədə fikir yanlışdır (bəzi dövləti, vəzifə, iqtisadi cinayətləri törədənlər  istisna olaraq).

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh 76.



downloaded from KitabYurdu.az

Belə ki:

1. Birinci cinayəti törədənə və onun açılmasına qədər onların hüquqi məlumatlanması öz həmyaşıdlarından fərqlənmir;
2. Cinayət törədənə qədər və ondan sonra alınan biliklər təsadüfi və sistemsiz olur, şəxsi və ya yaxınlarının təcrübəsi ilə bitir.

Cinayətkarın fikrincə şəxsi və ya qrup maraqlarını qorxu altına qoyan konkret situasiyada qanunu pozmaq olar.

Cinayətkarların arasında qəsdən edilən cinayətləri törədən cinayətkarların, o cümlədən yetkinlik yaşına çatmayanlarda da, mütləq həmyaşıdlarından seçilən əxlaqi, hüquqi baxışlarını əks edən kompleks xüsusiyyətləri olur.

Residivistlərin, xüsusən uzun müddət cəza çəkmə yerlərində keçirənlərin hüquqi şüuru o qədər pozulur ki, onlar bunu adi hal kimi qəbul edir (hətta tatuirovkalarını göstərməyə utanmırlar).



downloaded from KitabYurdu.az

## Cinayətkarın şəxsiyyətinin öyrənilməsi həddi.

Kriminoloji analiz zamanı cinayət ətraf mühitin və şəxsiyyətin xarakteristikalarının qarşılıqlı təsiri kimi öyrənilir.

Cinayətkarın şəxsiyyətinin strukturunun aşağıdakı əsas strukturaltlardan ibarət olduğunu söyləmək olar:

1. Sosial və ailə vəziyyəti, məişəti, milli və peşə mənsubiyyəti, təhsil-mədəni və maddi təminat səviyyəsini, məhkumluğu və digər sosial-demoqrafik və hüquqi əlamətləri özündə əks etdirən altsistem.

2. Zehnin inkişafını, bilik, vərdiş və bacarıqları, şəxsiyyətin mənəvi keyfiyyətlərini və psixi xüsusiyyətlərini, onun sosial mövqeyini və əlaqələrini, etik-siyasi baxışlarını və s. sosial-psixoloji cizgiləri özündə əks etdirən altsistem.

3. Yaş, cins, fiziki vəziyyət, sağlamlıq dərəcəsini, irsi və fiziki çatışmazlıqları, bir sözlə özündə əsas biofizioloji əlamətləri cəmləşdirən altsistem.

Qeyd olunmuş altsistemlər bir-biri ilə müəyyən qarşılıqlı münasibət və qarşılıqlı asılılıqda olur və ona görə də cəm halında elementlər sistemini, cinayətkarın şəxsiyyətinin strukturunu əmələ gətirir.

Aydın məsələdir ki, təqdim olunan cinayətkarın şəxsiyyətinin strukturu yeganə mümkün olan deyildir və onun bütün altstruktur və altsistemlərinin dəqiq və tam müəyyən olunduğunu da demək olmazdı. Bu struktur - mümkün olanlardan yalnız biridir. O, kifayət qədər sadə olmaqla cinayətkarın şəxsiyyətinin dərin və hərtərəfli tədqiqi zamanı meydana çıxan bir çox suallara cavab verməyə imkan yaradır.

Cinayətkarın şəxsiyyətinin sistemli-struktur kriminoloji tədqiqi hansı kateqoriya və sosial qruplara mənsub şəxslərin daha çox cinayət etmələri, onları cinayət törətməsinə gətirib çıxaran səbəb və şəraitlərin aşkara çıxarılıb öyrənilməsi, konkret cinayətkar davranışın proqnozlaşdırılması və s. problemlərin həlli yolllarının axtarışı baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu problemlərin sistemli-struktur tədqiqi cinayətkarlığa gətirib çıxaran konkret səbəb və şəraitləri öyrənməyə, cinayətkar davranış “mexanizmini” açmağa kömək etməklə, həm də cinayətkarlığın qarşısını almağa yönəldilmiş səmərəli tədbirlər kompleksini daha dəqiq və məqsədyönlü həyata keçirməyə imkan verəcəkdir. Ümumiyyətlə götürdükdə isə statistik məlumatlar əsasında cinayətkarın şəxsiyyətinin tədqiqi zamanı qarşıya qoyulmuş məqsədlərə çatmaq aşağıdakı yollarla mümkündür:

-özündə cinayətlərin törənmə səbəb və şəraitləri, cinayətkarın şəxsiyyəti haqqında sualları əks etdirən yeni tipli vahid statistik kartoçkanın yaradılması ilə cinayətkarlığın, onun səbəb və şəraitlərinin və qarşısı alınma tədbirlərinin vahid qeydiyyat və hesabat sisteminin təşkili;



downloaded from KitabYurdu.az

-uyğun məlumatların tədqiqat istiqamətlərinin düzgün müəyyən edilməsi;

-cinayətkarın şəxsiyyəti haqqında cinayət-statistik informasiyanın toplanması, işlənmə və təhlili prosesinin təşkilinin əsas elmi prinsiplərinin, müasir sosiologiya, riyaziyat, statistika və kibernetika elmlərinin ən yeni metod, üsul və vasitələrinin geniş tətbiqini nəzərdə tutan elmi cəhətdən əsaslandırılmış metodologiya və metodikasının yaradılması;

-elmi cəhətdən əsaslandırılmış işləmənin, təhlilin və qərarların qəbul mexanizminin təşkili və həyata keçirilməsi.*

Cinayətin törədilmə vəziyyəti ilə kifayətlənməyərək, cinayətkarın və zərərçəkənin qarşılıqlı təsirlərinin xarakterinin aydınlaşdırılmasının da böyük əhəmiyyəti var. Zərərçəkən barədə təlim-viktimologiya- məhz bu məsələləri öyrənir.

Bundan başqa, cinayətkar davranışın daha böyük konfiliktin - cinayətkarın mühitlə qarşılıqlı təsirinin nəticəsi kimi də öyrənilməsi vacibdir.

Məsələn, vətəndaş L. küçədə rast gəldiyi, heç tanımadığı xarici vətəndaşı döyür. İstintaq zamanı müəyyən olur ki, vətəndaş L. uzun müddət sərxoşluqla məşğul olub, yoldaşı onunla boşanmasını bildirib və evdən qovub. Buna görə o qəzəbli vəziyyətdə olaraq, qarşısına çıxdığı yaxşı geyinmiş, göründüyü kimi imkanlı bir adamı, hirsini soyutmaq üçün döyür.

Beləliklə, kriminoloji analizin həddi cinayət-hüquqi analizdən genişdir. Motivləşmə və qərarın qəbul olunma mərhələlərinə elə hərəkətlər daxil ola bilər ki, onlar cinayət hüququnda cinayətin törədilməsinə hazırlıq kimi qiymətləndirilmir. Məsələn, oğurluq niyyətində olan adam, əvvəlcədən lazımi obyekti tapır, ora işə düzəlir, mühafizə sistemini öyrənir.Uzun müddət keçdikdən sonra o özü üçün əlavə şəraitlər yaradır, oğurluğu isə əlverişli moment olanda törədir.

Kriminoloji tədqiqatlar kriminaldan sonrakı davranışı öyrənir. Edilən əməlin həm müqəssir üçün, həm də ətrafdakı mühit üçün nəticələri analiz edilir.

Cinayətkar fəaliyyət cinayət davranışından fərqli olaraq tək cinayət hərəkətlərini yox, həm də sosial mövqeni, cinayətkar fikirlərin, cinayətkar fəaliyyət üçün lazım olan və özünütərbiyə zamanı inkişaf edən xüsusiyyətlərin şəxsiyyət tərəfindən məqsədyönlü axtarışını əks edir.

Cinayətkar fəaliyyətin analizi zamanı aşağıdakıları bilmək vacibdir:**

1. Cinayətkar hərəkət ayrıca aktdır və ya hərəkətlərin zəncirində bir halqadır.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullayev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. Bakı, 1995, səh 78, 85.

** A.İ. Dolqova. Kriminologiya. M, 1997, s. 286-287



downloaded from KitabYurdu.az

2. Cinayətkar davranış normadan cinayətə sıçrayışdır və ya o cəmiyyətə zidd əxlaqın yüksəlməsi nəticəsidir. Buna səbəb aşağıdakı amillər ola bilər:

   a) müəyyən yaş həddi və vəziyyəti olan insanların normal sosial mövqelərinə uyğun olan tələblərin pozulması;

   b) əxlaqsız, lakin hüquqa zidd olmayan hərəkətlər (yetkinlik yaşına çatmayanın vaxtından əvvəl məktəbi atması, uşaqların maddi saxlanmasından imtina və s.) ;

   v) cinayət xarakteri olmayan hüquqa zidd hərəkətlər (inzibati cəzalandırma).

3. Cinayətlər fəaliyyətin hansı sahəsində törədilir.

Seçmə yolu ilə aparılan tədqiqatlar göstərir ki, qəsdən ölüm hadisələri törədən şəxslərin 67%-i əvvəllər ya cinayət, ya da digər qanun pozuntuları törətmişdir.

Cinayət törədilən fəaliyyət sahələrinin, qarşılıqlı təsirlərin analizindən sonra qarşılıqlı təsirlərin tiplərinin nə dərəcədə yayılması və necə tez kriminal nəticə vermələri, onlarda hansı xarakteristikaları olan şəxslərin iştirakı öyrənilir. Bunların əsasında cinayətkarlığın inkişafının proqnozu verilir, müvafiq şəraitdə cinayətlərin qarşısının alınması barədə tövsiyyələr hazırlanır.



downloaded from KitabYurdu.az

## Cinayətkarın şəxsiyyətinin kriminogen xüsusiyyətlərinin öyrənilməsi.

Cinayət törətmiş şəxslərin hamısı kriminogen şəxsiyyət sayılmır. Bunların arasında təsadüfi cinayətkarlar da var. Onlar qanunauyğun əxlaqları olanlardan fərqlənmirlər və beləlməsinə az hallarda rast gəlmək olar.

Kriminogen şəxsiyyətin sosial tipinin aşağıdakı xüsusiyyətləri olur:

1. Şəxsiyyətin intensiv hüquqa zidd və amoral əxlaqı olan şəraitdə formalaşması (ailə və yoldaşlar);
2. Keçmişdə əxlaqsız hərəkətlərə və müxtəlif hüquq pozuntularına yol verməsi, qanunla müəyyən olunmuş təsir tədbirləri görüləndən sonra da onları yenə təkrar etməsi;
3. Şəxsiyyətin, cəmiyyətin və dövlətin dəyərli-normativ sistemindən ayrılması;
4. Öz davranışının mənfi qiymətləndirilməsinə öyrəşməsi, sosial-psixoloji özünümüdafiə mexanizmlərindən istifadə etməsi;
5. Cinayət törədilməsində fəallığı və bir qayda olaraq, cinayətin tam əsaslar olmadan törətməsi.

Cinayətkarın spesifik şəxsi xarakteristikalarının axtarılması iki qrup tədqiqatları müəyyən etmişdir:

1. Cinayətkarların kontingentinin özünü qanun çərçivəsində aparan şəxslərin kontingenti ilə bu və ya başqa növ xüsusiyyətlər üzrə müqayisəsi;
2. Cinayətkarın şəxsiyyətinin monoqrafik tədqiqatı, kompleks xarakteristikaların seçilməsi və hər bir cinayətkarın nəzarət qrupundan olan şəxslərdən hər biri ilə kompleks xüsusiyyətləri üzrə surətlərin tanınma metodu istifadə olunmaqla müqayisəsi;

Cinayətkar şəxsiyyətlərin kriminoloji tiplərinin öyrənilməsi onların üç meyar üzrə qruplaşdırılmasından başlanır:

1. Cinayətdən qabaq davranışın xarakteri;
2. Mikromühitin xarakteri;
3. Cinayətkar davranışın cinayətdən qabaq olan davranışla əlaqəsi.

Hər bir meyar üzrə seçilən qrupların nisbi sxemi təsvir olunur.

Bu tədqiqatlar nəticəsində yuxarıda göstərilən kriminogen şəxsiyyətin xüsusiyyətləri müəyyən olunmuşdur.

Məsələn, narkotiklərə alışmaq və cinayət törədilməsi arasındakı qarşılıqlı əlaqəyə dair məsələnin aydınlaşdırılması göstərir ki, narkomanların əksəriyyətində (72%) əvvəlcə istifadəyə alışma başlayır, sonrakı mərhələdə isə ya narkotiklər almaq üçün vəsait əldə etmək üçün, ya narkotik sərxoşluğun təsiri altında, ya da ki, orqanizmin tələb etdiyi "dozanın" əldə olunması imkansızlığından aqressiv vəziyyətdə müxtəlif cinayətlər törədilməsi baş verir.

Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, narkotik vasitələrin yayılması ilə və bu sahədə digər qeyri-qanuni hərəkətlərlə məşğul olan və yaxud müxtəlif qrup və birliklərin cinayətkar fəaliyyətində iştirak edən şəxslər narkotiklərdən istifadəyə alışdıqları andan, bir qayda olaraq, "etibardan" düşürlər və cinayətkar qruplardan qovulurlar.



downloaded from KitabYurdu.az

Narkotiklərlə bağlı cinayət törədənlərin şəxsiyyətinin kriminoloji xarakteristikasının təhlili bu cinayətkarlıq üçün bəzi səciyyəvi xüsusiyyətləri aşkar etməyə imkan verir.

Narkotiklərlə bağlı cinayətlərdə müxtəlif yaşlı şəxslərin nisbəti göstərir ki, bu sahədə kriminal fəallıq daha çox 30 yaşdan yuxarı şəxslər üçün xarakterikdir. Bu cinayətkarların tərkibində ən az pay 18 yaşına çatmamış şəxslərə düşür.

Narkotiklərlə bağlı cinayət törədənlərin şəxsiyyətini sosial vəziyyətə, məşğuliyyət növünə görə xarakterizə edərək, qeyd etmək lazımdır ki, onların arasında heç bir məşğuliyyət növü olmayanlar, yəni işləməyən və təhsili olmayanlar üstünlük təşkil edirlər. Residivistlər arasında da bu cinayətlərin çəkisi böyükdür. Həmin cinayətləri törədən şəxslər təhsil səviyyəsinin aşağı olması ilə xarakterizə olunur.*

*E.H. Həsənov. Antinarkotizm. B, 1996, s. 176



downloaded from KitabYurdu.az

## Cinayətkarın şəxsiyyətinin sosial-demoqrafik xüsusiyyətləri; sosial- mövqe və sosial rollar.

Demoqrafik xüsusiyyətlərdən cins və yaş barədə məlumatlar kriminoloji əhəmiyyət kəsb edir. Cinayət statistikasında aşağıdakı qruplaşmalar seçilir:

1. Yetkinlik yaşına çatmayanlar (14-15 yaş və 16-17 yaş);
2. Cavanlar (19-21 yaş və 25-29 yaş);
3. Yaşlılar (30 yaş və yuxarı).

İlkin kartoçkaların, cinayət işlərinin və materialların öyrənilməsi yolu ilə daha dəqiq təsnifatı almaq olar.

Kriminoloji tədqiqatlar zamanı əhalinin cins-yaş strukturunun cinayətkarlığın intensivliyi ilə bağlı olması öyrənilir. Məsələn, daha çox kişi cinsli şəxslərin olduğu yerdə cinayətkarlıq yüksəkdir, ya yox? Müəyyən olmuşdur ki, cinayətkarlığın yüksək və aşağı əmsalları olan yerlərdə əhalinin cins-yaş strukturu təxminən eyni olub. Alınmış məlumatlar göstərir ki, əhalinin cins-yaş strukturu faktiki cinayətkarlığın intensivliyini yox, çox halda onun strukturunu göstərir. Yetkinlik yaşına çatmayanların və cavanların cinayətkarlığının əmsalları yüksək olduğu yerdə cinayətkarlığın, o cümlədən tamah məqsədilə və zorakılıqla edilən cinayətlərin əmsalları da yüksək olur.

Şəxsiyyətin sosial rolları 4 cür başa düşülür:

1. İnsanın davranışı onun cəmiyyətdə tutduğu mövqeyindən asılıdır. Hər bir rolun ssenarisi var və insan ona uyğun hərəkət edir. Bu sosial rolun normativ anlayışıdır.

   _Sosial movqe_ - sosial münasibətlərin düyünüdür, _sosial rol_ - müvafiq mövqeni tutan şəxsə qarşı yönələn tələblərin məzmunudur.
2. Rol - şəxsiyyətin fərdi xüsusiyyətləri ilə müəyyən edilən azad əxlaqdır.
3. Rol - müvafiq mövqe tutan başqa insanların hərəkətinin gözlənilməsidir.
4. Rol - sosial amillərin və insanın daxili dünyasının qarşılıqlı təsirinin məhsuludur. *

Kriminologiya rolun normativ anlayışına əsaslanır.

İnsan eyni vaxtda çoxlu sosial mövqe tutur. Ailədə o - oğuldur, atadır, qardaşdır, nəvədir. Hər bir mövqeyə uyğun olan rolun müəyyən subyektlər tərəfindən ssenarisi tərtib edilir:

1. Dövlət tərəfindən bu rəsmi tələblər sistemində əks olunur (qanunlar, qanunaltı aktlarda);
2. Cəmiyyət tərəfindən - ictimai fikrin qəbul etdiyi və bəyəndiyi əxlaq normaları kimi - əxlaqi, estetik, dini və s.;
3. Qeyri-rəsmi strukturlar tərəfindən (ailə, işçilər) yazılmamış davranış qaydaları. Bura cinayətkar birləşmələrin davranış normaları da aiddir.

Kriminoloji cəhətdən aşağıdakı sosial mövqelərin öyrənilməsi vacibdir:

---

*A.İ. Dolqova. Kriminologiya. M, 1997, s.282



downloaded from KitabYurdu.az

1. İnsan dövlətin, “böyük cəmiyyətin” normaları ilə tanış olmağa və özünü onlara uyğun aparmağa imkan verməyən sosial mövqelər tutur (məsələn, o spesifik təsəvvürləri olan pozulmuş mühitdə olur və münaqişələri fiziki güc tətbiq etməklə həll edir);
2. İnsan ziddiyətli tələblərlə, əxlaq normaları ilə bağlı mövqelər tutur (məsələn, qanunvericiliklə cinayətlərin uçotdan gizlədilməsi qadağandır, rəhbərlik isə müəyyən edilmiş cinayətlərin statistikada əks olunmamasını tələb edir);
3. İnsan birbaşa qanunazidd, cinayətkar davranışı ona diktə edən mövqeləri tutur (cinayətkar birləşmələrin üzvü );
4. Şəxsin müvafiq sosial mövqedə hüquqi normaların gözlənilməsinə hazır olmaması (məsələn, bu səhlənkarlığa gətirib çıxarır və s.);
5. İnsan bir sosial mövqeləri tutur, digərlərinə isə səmtləşir. Məsələn, az məvacib alan müstəntiq varlı sahibkarların həyatına oxşar həyat sürmək istəyir, buna görə müəyyən mükafata hansısa xidməti görmək barədə onların təklifini qəbul edir. Bu isə rüşvət almaq və vəzifədən sui- istifadə deməkdir
6. İfa olunan və gələcəkdə gözlənilən rolların münaqişəsi.

Tədqiqatlar göstərir ki, natamam ailələrdə böyüyən şəxslərin çoxu özlərinin yaxşı ailəsi olmasını ürəkdən istəsələr də, ailədə valideynlərinə xas olan davranış standartlarını göstərirlər: arvadının döyülməsi, kobud təhqirlər və s. Bəzi hallarda bunlar birbaşa cinayət davranışına keçir, digərlərində isə - ailənin dağılmasına, sərxoşluğa, işsiz qalmağa səbəb olur.



downloaded from KitabYurdu.az

## Cinayətkarların şəxsiyyətlərinin təsnifi.

Cinayətkarların öyrənilməsi onların sistemləşdirilməsi aparıldığı halda təcrübi və nəzəri cəhətdən daha nəticəli olur.

Cinayətkarların təsnifatı iki cür olur: qruplar və tiplər üzrə.

*Qruplaşma* - statistik məcmunun, bir və ya bir neçə xüsusiyyətlərin yayılma meyarını istifadə etməklə, müəyyən qruplara, kateqoriyalara bölüşdürülməsi.

Belə təsnifatın çərçivəsində cinayətkarların kontingenti öyrənilir. Ən geniş yayılmış aşağıdakı qruplaşmalardır:

1. *Demoqrafik məlumatlar əsasında* - cins və yaş üzrə. Bunlar yuxarıda verilmişdir.
2. *Sosial - iqtisadi meyarlar əsasında:* təhsil, məşğuliyyət növü, daimi yaşayış yerinin olması və ya olmaması (bomjlar, məcburi köçkünlər, qaçqınlar); şəhərdə və ya kənddə yaşama; gəlir mənbələri; daimi sakinlər və miqrantlar və s.;
3. *Vətəndaşlıq əsasında* (respublikanın vətəndaşları; xaricilər; vətəndaşlığı olmayanlar; başqa ölkə qarşısında öhdəliyi olanlar);
4. *Şəxsiyyətin cinayət törədən vaxt vəziyyətinə görə:* sərxoşluq, narkomanlıq faktları; cinayət törədərkən qrupun tərkibində olması (və hansı qrupun); cəza çəkmə yerlərində olması və s.
5. *Cinayət davranışının xarakteri üzrə:* qəsdən edilən və ya ehtiyatsızlıq üzündən; zorakılıqla, mülkiyyət əleyhinə ( tamah məqsədilə) və s; ilkin və ya təkrar və s.

Belə sadə, yəni tək bir xüsusiyyəti nəzərə alan təsnifatlardan başqa mürəkkəb təsnifatlardan da istifadə olunur. Məsələn, regionlarda öyrənilir ki, hansı yaşda və məşğuliyyət növü olan cinayətkarlar bu və ya digər cinayətləri törətmişlər.

Tipologiya - müxtəlif cinayətkarların kontingentlərinin daha dərin xarakteristikasıdır.

Cinayətkarların aşağıdakı tipləri olur:

1. Kinli, qeyri-sabit situasiyalı, təsadüfi;
2. Professionallar, peşəkar cinayətkarlar, birinci və ikinci qrupun arasında olanlar, təsadüfi;
3. Qlobal, parsial (hissələrə bölünmüş), qismən kriminal yoluxmuş, kriminalqabaq, müəyyən situasiyalarda cinayətləri törədən.

Hərdən bu tipləri 3 qrupa, hərdən isə 5 qrupa aid edirlər. Bütün hallarda *tipologiyanın əsası* - cinayət davranışının müəyyən vəziyyətlərdə sabitlik dərəcəsi - mütləq nəzərə alınmalıdır.

Yuxarıda göstərildiyi kimi cinayətkarların 2 tipi: təsadüfi cinayətkarlar və kriminogen tipli cinayətkarlar seçilir.

*Kriminogen tip* - sosial vəziyyətin və şəxsiyyətin qarşılıqlı təsir xarakterindən asılı olaraq aşağıdakı alttiplərə bölünür:



downloaded from KitabYurdu.az

1. *Ardıcıl - kriminogen alttip* - əxlaq və hüquq normalarının müntəzəm pozulduğu mikromühitdə formalaşır. Cinayət adi davranışdan ortaya çıxır. Cinayətin törədilmə vəziyyəti belə şəxslər tərəfindən fəallıqla yaradılır.

2. *Situativ-kriminogen alttip* - əxlaq normalarının pozulması, cinayət xarakteri olmayan hüquq pozmaları ilə xarakterizə edilir, ziddiyətli mikromühitdə formalaşır. Cinayət əsasən sosial-iqtisadi, mənəvi və hüquqi cəhətdən əlverişli olmayan vəziyyətlə şərtlənir (cinayətkar birləşmədə olmaq, digər şəxslərlə konfliktlər və s.). Cinayətə belə şəxsiyyəti onun mikromühiti və əvvəlki həyat tərzi gətirir.

3. *Situasiyalı alttip* - belə şəxsiyyətin şüuru və davranışında onun mikromühitinin əxlaqsız elementləri olsa da, onlar özlərini az büruzə verir. Bu alttipin nümayəndələri cinayətləri onların günahı üzündən baş verməyən və ya tanış olmayan vəziyyətin həlledici təsiri altında törədirlər. Eyni zamanda belə şəxsiyyətlər (təsadüfi cinayətkardan fərqli olaraq) özünün və başqasının hüquqa zidd hərəkətlərinə bəraət qazandırmağa çalışırlar.*

*A.İ. Dolqova. Kriminologiya. M, 1997, s.304



downloaded from KitabYurdu.az

## Fərdi kriminal davranışın mexanizmi.

Şəxsiyyətin kriminal davranışının hər bir mərhələsi - cinayət törədən şəxsin və ətraf mühitin qarşılıqlı təsirinin nəticəsidir. Cinayətkar davranışın mexanizminin sxemi belədir.

**Mühit**

| | | | |
|---|---|---|---|
| **motivlərin formalaşması planlaşdırma** | **qərarın qəbul olunması** | **qərarın icra olunması** | **kriminaldan sonrakı davranış** |

**cinayət törədən şəxs**

***Motivasiya*** - cinayətkar davranışın motivinin və məqsədinin yaranması və formalaşması prosesidir. *Davranışın motivi* - ətraf mühitin və konkret vəziyyətin təsiri altında yaranan tələblərin, maraqların, hisslərin həyata keçirilməsi üçün daxildən gələn hərəkət, istəkdir. Motivdən sonra *məqsəd* formalaşır, yəni müəyyən işin gözlənilən və istənilən nəticəsinə nail olmaq üçün şəxsin səyi.

***Qərarın qəbul olunması*** - yaranan istəyin həyata keçirilməsindən sonra ehtimal olunan nəticələrin proqnozlaşdırılmasından; real vəziyyət, daxili imkanlar və digər hallar nəzərə alınmaqla davranışın planlaşdırılmasından, vasitələrin seçilməsindən ibarətdir.

Qərar qəbul olunandan sonra müəyyən "gecikdirmə" yaranır.Bir qayda olaraq, insan yaranmış qərarı cəmiyyətdə olan əxlaqi, hüquqi və digər normalarla, ictimai fikirlə uyğunlaşdırır. Bundan başqa, o obyektiv amilləri, o cümlədən xarici sosial nəzarətin vəziyyətini nəzərə alır (obyektin mühafizə sistemini, müəssisənin uçot vəziyyətini və s.). Cinayətlərin açılması, qarşısının alınması, günahkarların cəzalandırılması da nəzərə alınır, cinayətdən olan gəlir və itgilər ölçülür. Məsələn, əgər söhbət böyük miqdarda pulun oğurlanmasından gedirsə, bunun cəzası isə - aşağı məbləğdə cərimədir, onda cinayət sərfəli hesab edilir. Qərarın qəbul olunması gecikəndə cinayətdən imtina edilmə halları ola bilər.

Yetkinlik yaşına çatmayanlarda, aşağı intellektual səviyyəsi olanlarda çox hallarda cinayətkar davranışın bağlanmış mexanizmi olur - yəni gecikdirmə aktı olmur, qərar ətraflı düşünülmür.

***Qərarın icrası mərhələsi*** - cinayətin törədilməsidir.

Qərarın faktiki olaraq həyata keçirilməsi onun planlaşdırıldığından fərqli ola bilər. Məsələn, xarici vəziyyət dəyişəndə - zərərçəkənin fəal əks təsiri



downloaded from KitabYurdu.az

nəticəsində soyğunçuluq quldurluğa keçə bilər və ya cinayətdən imtina oluna bilər.

Maddi cinayət tərkiblərində nəzərdə tutulan əməllərin ictimai təhlükəli nəticələrinin dərk edilməsinin zəruri elementlərindən biri də əməllə nəticə arasında mövcud səbəbli əlaqənin şüurla əhatə olunmasıdır. Səbəbli əlaqəni görmək - gerçəkliklə baş verən dəyişikliyin xarakterini, yəni şəxsin hərəkət və ya hərəkətsizliyi ilə baş verən nəticə arasında zəruri əlaqənin dərk edilməsidir.

F.Səməndərov qəsdin aşağıdakı növlərini fərqləndirir:

1) əvvəlcədən düşünülmüş qəsd;
2) qəflətən baş verən qəsd;
3) affektlə bağlı olan qəsd;
4) alternativ qəsd;
5) qeyri-müəyyən qəsd;
6) konkret qəsd (müəyyən qəsd) və s.

**Əvvəlcədən düşünülmüş qəsddə** kriminal niyyətin yaranması ilə onun realizəsi arasında xeyli zaman intervalı olur. Bu vaxt subyektdə cinayət törətmə niyəti möhkəmlənir, cinayət törətmək üçün plan cızılır, üsul seçilir, mümkün maneələrin aradan qaldırılması üçün vasitələr müəyyən edilir. Törədiləcək cinayət əməlinin bütün ünsürləri dəqiq düşünülür, ölçüb-biçilir. Belə hallarda yaranmış kriminal niyyətin dərhal realizə edilməsinin səbəbləri aydınlaşdırılmalıdır. Əgər bu, hələ də şəxsdə daxili qətiyyətin möhkəm olmaması ilə, onun tərəddüd etməsi ilə, cinayətə mənfi emosional münasibəti ilə əlaqədar olmuşdursa - belə cinayəti qəflətən yaranan qəsdlə törədilən cinayətdən təhlükəli saymaq olmaz. Əksər hallarda yaranmış kriminal niyyətlə onun həyata keçirilməsi arasında olan xeyli zaman fasiləsi subyektin kriminal məqsədə nail olmaq yolunda möhkəm qətiyyətinə, hiyləgərliyinə dəlalət edir. Cinayətin törədilməsində daha mürəkkəb üsullardan istifadə edilir ki, bu da cinayətə mütəşəkkillik verir, onun izinə düşmə işini, açılması ilə əlaqədar fəaliyyəti xeyli çətinləşdirir. Bütün belə hallarda əvvəlcədən düşünülmüş qəsd subyektin şəxsiyyətini yüksək təhlükəli olması ilə xarakterizə edir.

**Qəflətən yaranan qəsd.** Bu qəbildən olan qəsdə şəxsdə yaranan kriminal niyyət onu ya dərhal cinayət əməlinə vadar edir, ya da qəsdin yaranmasından az sonra əməlin realizəsinə başlanır.

Adətən belə kriminal niyyəti bu və ya başqa cinayətin baş verməsinə kömək edən kriminogen şərait yaradır. Məsələn, oğurluq cinayətində əmlakın mühafizəsiz qalması, şəxsiyyət əleyhinə olan cinayətlərdə zərərçəkənin münaqişə yaradan hərəkətləri və s.

Qəflətən yaranan qəsdlə törədilən cinayətlərdə təqsirkar müəyyən mənada münaqişəli şəraitin "qurbanı" olur. Buna görə də qəsdin bu növü ilə törədilən cinayətlər əvvəlcədən düşünülmüş qəsdlə törədilən cinayətlərdən adətən az təhlükəli olur.



downloaded from KitabYurdu.az

**Müəyyən (konkretləşdirilmiş) qəsd.**

Qəsdin bu növündə şəxs əməlinin törədəcəyi zərərli nəticələrinin kəmiyyət və keyfiyyət göstəriciləri haqda konkret təsəvvürə malik olur.

A. aralarındakı ədavətə görə B-ni öldürməyi qət edir. Yay axşamlarından birində A. B-nin yaşadığı evə yaxınlaşır, barıya yaxın ağaca qalxır və B-ni pəncərəsi açıq olan otaqda stol arxasında oturan görür. A. əlindəki ov tüfəngini qaldırır B-ni nişan alır və öldürmək məqsədilə atəş açır. Atəş sərrast olmur, B. ancaq yüngül dərəcəli xəsarət alır.

A. yaxalanır və qəsdən adam öldürməyə sui-qəsdə görə məsuliyyətə alınır. Biz belə tövsifi düzgün sayırıq. Çünki, əməli törədərkən təqsirkar başqasını həyatdan məhrumetmə kimi konkret məqsəd izləmişdir. Buna görə də, belə hallarda tövsif əməlin faktiki nəticəsinə (yüngül xəsarətə) görə deyil qəsdin konkret məzmununa görə həll edilir.

**Qeyri- müəyyən (konkretləşdirilməmiş) qəsd.**

Qeyri-müəyyən qəsdlə edilən əməllərdə təqsirkar əməlinin doğura biləcəyi nəticələri ümumi formada görür, lakin konkret hansı nəticənin baş verəcəyini müəyyən edə bilmir. Məsələn, dalaşan şəxs müqabil tərəfə ağacla zərbələr vurursa o, bu əməli ilə bədənə yüngül, az ağır, ağır dərəcədə xəsarətlərdən birini yetirəcəyini əvvəlcədən görür, lakin məhz hansı konkret nəticənin baş verəcəyini əvvəlcədən görmür. *

***Kriminaldan sonrakı davranış mərhələsi*** - cinayətkar olanları, nəticələri analiz edir, cinayətkar yolla əldə etdiyi barədə sərəncam verir, cinayətin izlərini gizlədir, ifşa olunmamaq üçün tədbirlər görür.

Bu mərhələdə cinayətkar arzu etdiklərini nail olduqları ilə müqayisə edir. Bunlar yenə də mövcud normalarla tutuşdurulur. İnsan ya günahını boynuna alır, ya da ifşa olunmağa qarşı mühafizə sistemini hazırlayır.

İstintaq zamanı məhz bu "qoruyucu" motivlər irəli sürülür. Cinayətkar özünü nəyinsə qurbanı hesab edir; deyir ki, "ətrafdakıların çoxu oğurluqla məşğuldur; başqa cür yaşamaq mümkün olmurdu".

---

*F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 98, 102, 103



downloaded from KitabYurdu.az

## Kriminogen motiv və məqsəd.

Motiv və məqsəd cinayətin subyektiv cəhətinin elementlərindəndir. Cinayət işlərinin istintaqı zamanı təqsir kimi cinayətin motiv və məqsədi də araşdırılır və aydınlaşdırılır. Motiv və məqsəd qəsdi formalaşdırır, səmtləşdirir və onu icra etməyə yönəldir.

Cinayətin motiv və məqsədi cinayət törədilənə qədər yaranır. Motiv və məqsəd cinayətin subyektiv cəhətinə qəsd və ehtiyatsızlıq vasitəsi ilə deyil, müstəqil daxil olur.

Şəxsin bütün iradəvi əməlləri kimi cinayət əməli də müəyyən motivlə əlaqədar olur və belə motiv qarşıya qoyulan məqsədə doğru şəxsi istiqamətləndirir. Motiv və məqsəd arasında daxili əlaqə vardır. Motivin oyanması və fəallaşması eyni vaxtda məqsəd formalaşdırır, müəyyən edir. O, subyekti məqsədə nail olmağa doğru istiqamətləndirir.

Motiv maddi təbiətə malikdir, onun əsasını insanın müxtəlif maddi və mənəvi sərvəti olan tələbatı təşkil edir. Bu ehtiyac insanı iztiraba çəkir, insan orqanizmində müəyyən gərginlik yaradır, şüurda maraq püxtələşir.

Cinayət etməyə qətiyyət  yaradan daxili oyanma normal, pozitiv tələbata deyil, qeyri-normal, təhrif olunmuş tələbata əsaslanır.

Baş verən oyanma sadəcə şüurla əhatə olunmur, həm də o dərk edilir. Başqa sözlə, şəxs bu oyanmanın təsiri altında yol veriləcək əməlin obyektiv aləmdəki əməllərini və nəticələrini əvvəlcədən dərk edir, ona subyektiv qiymət verir.

Dərk edilmiş oyanma özü üçün obyekt və predmet arayır və nəticədə də fəaliyyət istiqamətlənir.

Motivə dərk olunmuş tələbat kimi baxmaq konkret cinayətin səbəbini açmağa, cinayəti doğuran səbəbləri aradan qaldırmağa kömək edir.

Beləliklə, cinayətin motivi ictimai təhlükəli əməli törətməyə qətiyyət yaradan, konkret əməldə maddiləşən, dərk olunmuş maraqdır.

Motivi aydınlaşdırmadan insanın nə üçün müəyyən məqsədə çatmağa səy etdiyini, beləliklə onun hərəkətinin əsl mənasını anlamaq mümkün deyildir.

Motivdən kənarda insanın aktiv fəaliyyətindən danışmaq olmaz. Motivin məzmununu açmaqla şəxsin konkret vəziyyətdə başqa cür deyil, məhz nə üçün belə hərəkət etməsi izah edilir.

Motiv insanın şüurlu fəaliyyətinin nüvəsidir. Eləcə də ictimai təhlükəli mənbəyi, onun hərəkətverici qüvvəsidir.

Şəxsi davranışa, o cümlədən kriminal əmələ, bəzən bir neçə motiv təhrik edir. Davranışa vadar edənə qədər motivlər arasında mübarizə baş verir. Təhrikedici motiv üstün gəldikdə, o əsas motiv rolunu oynayır və bu motiv əsasında da şəxs kriminal əmələ dair qərar qəbul edir. Başqa sözlə, qətiyyət yaradan motivin meydana gəlməsi motivasiya prosesi ilə bağlıdır. Motivasiya - motivlərin formalaşması və inkişaf prosesinə deyilir.

Motivasiya prosesi tələbatın səviyyəsinə və xarakterinə uyğun olaraq obyektiv gerçəklikdə insanın davranışının determinantlarını  ifadə edir.



downloaded from KitabYurdu.az

Qəsdlə bağlı bütün cinayətlər müəyyən motiv zəminində törədilir. Belə əməllər tamah, qısqanclıq, intiqam, qisas, xuliqanlıq hissi və s. bu kimi motivlər əsasında baş verir.

Ehtiyatsızlıqla törədilən cinayətlərin motivi qəsdən törədilən cinayətlərin motivlərindən fərqlənir. Ehtiyatsızlıqla törədilən cinayətlərdə şəxs ictimai təhlükəli nəticəni nəinki arzu etmir, hətta onun qarşısını alacağına ümid bağlayır, ya da ümumiyyətlə belə nəticənin baş verəcəyini görə bilməli və görməli olduğu halda görmür. Buna görə də ehtiyatsızlıqla törədilən cinayətlərdə ictimai təhlükəli nəticənin deyil, nəticəni doğuran davranışın motivi mövcud olur. Belə cinayətlərdə hərəkətin, yaxud da hərəkətsizliyin motivi lovğalıqla, eqoizmlə, laqeydliklə və s. bu kimi meyllərlə əlaqədar olur.

Hüquq ədəbiyyatında qəsdən törədilən cinayətlərin aşağıdakı səpkidə təsnifinə rast olunur: 1) siyasi motivlər; 2) tamahla edilən motivlər; 3) alçaq hisslərlə bağlı olan motivlər; 4) şəxsi məzmunda olan motivlər.

Motivlərin cinayət hüquqi əhmiyyəti müxtəlifdir. Motiv cinayət tərkibinin əlaməti kimi qanunda nəzərdə tutula bilər. Məsələn, Azərbaycan Respublikası CM-nin 94-cü maddəsinin 1-ci və 2-ci bəndlərində "tamah", "xuliqanlıq" motivləri tərkib əlamətləri kimi qanuna daxil edilmişdir. Lakin həmin CM-nin azərbaycan mətnində istinad edilən maddədə "motiv" əvəzinə "məqsəd" və "niyyət" ifadələri göstərilmişdir.

CM-nin 36 və 37-ci maddələrində cinayətin motivinə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hal kimi baxılır.

Xeyli tərkiblər vardır ki, cinayətin motivləri onlarda nəzərdə tutulmur, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar sırasında olmur. Belə hallarda da cinayəti törədənin şəxsiyyətinə düzgün qiymət vermək üçün cinayətin motiv və məqsədi öyrənilməlidir.*

A.İ.Dolqovaya görə, cinayətkar davranışın və cinayətkarlığın əsas motivləri aşağıdakılardır:

1) *ictimai - siyasi motivlər:* dövlətin və cəmiyyətin idarəetməsində iştirak etmək, ona təsir göstərmək və s.;

2) *sosial-iqtisadi motivlər:*

a) ən zəruri olan, həyat əhəmiyyətli tələbatları təmin etmək;

b) əhalinin sosial-iqtisadi differensiasiyası şəraitində bir adamların öz vəziyyətlərini ətrafdakılarla müqayisə etməsi nəticəsində yaranan "nisbi" tələbatları təmin etmək;

v) öz idealına çatmaq - müəyyən maddi standartlara (var-dövlət) və ya sosial standarlara (cəmiyyətin yuxarı təbəqələrinə qəbul olunması) çatmaq;

3) *zorakı-eqoistik motivlər* (fiziki və ya psixoloji cəhətdən aqressiv):

a) özünü təsdiqetmə ideyasının mütləqləşdirilməsi;

b) konkret vəziyyətlərdə mümkün olan formalarda özünü təsdiqetmə (tərbiyəsiz, səviyyəsiz insan ona edilən qayğılara təhqirlə cavab verir).

---

*F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 113-116



downloaded from KitabYurdu.az

4) *yüngul-məsuliyyətsiz motivlər:*

a) öz davranışında mövcud normalara nisbətən tələbatın və maraqların olmaması;

b) belə nisbətin seçiciliyi (məsələn, ciddi xarici nəzarət altında və ya varlılarla ünsiyyət şəraitində, lakin tabeçilikdə olmayan insanlarla və s.).

Bunlardan başqa ayrı-ayrı qrup cinayətkarların kriminal motivləşməsi də (yetkinlik yaşına çatmayanların, qadınların və s.) qeyd edilir.

Məsələn, yetkinlik yaşına çatmayanlarda yaş motivləri özünü göstərir:

1) özü üçün əhəmiyyətli olan şəxslərə, qrupa sübut etmək ki, “mən sizin kimiyəm” və “mən şəxsiyyətəm”;
2) uşaq anarxizmi - uşaqlıqla və onun qalıqları ilə bağlı motivlər (məsələn, maşında gəzmək, hansısa bir əşyanı nəyin bahasına olursa, almaq və s.)
3) böyüklərdən asılı olmağına görə və öz hüquqlarını qanuni yolla müdafiə etməyə bacarmadığından irəli gələn motivlər.

Motivdən fərqli olaraq cinayətin məqsədi törədiləcək cinayətin xarici aləmdə yaradacağı arzu olunan dəyişiklik barəsində şəxsin təsəvvürüdür.

Məqsəd də tələbatla, maraqla, sərvətlə sıx əlaqədardır. Bu o deməkdir ki, müəyyən məqsədin yaranması obyektiv varlıqla əlaqədardır. Bunlar arasındakı determinoloji əlaqədə şəxsiyyətin vərdişlər sistemi mühüm rol oynayır.

İnsan dəyərə malik olmaq üçün səy və fəaliyyətin buna yönəltməmişdən əvvəl, onun şüurunda fikrən bu sərvətin surəti (mənzərəsi) yaranır, başqa sözlə, məqsəd fəallığı mövcudlaşmış olur.

Cinayət hüquq elmi insanların ictimai təhlükəli fəaliyyətini tədqiq edir. Bununla əlaqədar olaraq belə hərəkətə müvafiq məqsədi, başqa sözlə cinayətin məqsədini müəyyən etmək zərurəti meydana çıxır. İctimai təhlükəli davranış da məqsədəuyğun aktdır. İnsan müəyyən qaydada fəaliyyət göstərərkən özünün tələbat və marağına uyğun hərəkət etmiş olur. Bununla real olan sərvətə nail olmağa səy göstərir. Məsələn, ehtikar üçün qazanc götürmə, hərbi mükəlləfiyyətli şəxs üçün hərbi qulluqdan boyun qaçırma olmayan sərvətə nail olmağa göstərilən səydir.

Beləliklə, cinayətin məqsədi cinayətkarın təsəvvüründə yaratdığı sərvətin obrazıdır, mənzərəsidir ki, buna nail olmağa şəxs səy göstərir.

Müxtəlif cinayətlərə görə məsuliyyətin həllində cinayətin məqsədinin müxtəlif əhəmiyyəti vardır. Bir halda tərkibdə subyektiv cəhəti xarakterizə edən əlamət kimi nəzərdə tutulur, başqa halda isə tərkibdən kənarda qalır. Məqsədi nəzərdə tutan cinayət tərkiblərinə terror aktı, təxribat, ziyançılıq və s. bu kimi tərkibləri misal göstərmək olar.

Cinayət hüquq nəzəriyyəsi və məhkəmə təcrübəsi belə bir mövqedə durur ki, oğurluq tamah motivi olmadan edilə bilmədiyi kimi, eləcə də faydalanmaq məqsədi olmadan da edilə bilər. Başqa sözlə, oğurluğa görə məsuliyyət həll edilərkən qanunsuz faydalanmaq məqsədinin olub-olmaması qaydası müəyyən edilməlidir. Əgər əmlak qanunsuz götürülərkən şəxs belə bir məqsədi güdməmişdirsə, əməl oğurluq kimi qiymətləndirilə bilməz.



downloaded from KitabYurdu.az

Cinayət qanununun əksər maddələrində məqsəd göstərilmir. Lakin psixoloji baxımdan qəsdən törədilən bütün cinayətlərin məqsədi olduğunu heç kim inkar etmir. Lakin əgər məqsəd normada göstərilmirsə, deməli o tərkibdən kənarda qalır. Buna görə də təcrübədə, çox halda cinayətin məqsədinin aydınlaşdırılmasına məhəl qoyulmur.

Cinayətin məqsədi, onun motivi kimi təqsirkarın cinayətin edilməsi ilə əlaqədar şüurunda gedən prosesi xarakterizə edir. Beləliklə, cinayətin məqsədi cinayətkarın ictimai təhlükəliliyini göstərən hallardandır. Cəza təyini zamanı, cəzanın növünün və həddinin seçilməsində bu nəzərə alınır.

Cinayət hüquq ədəbiyyatında cinayətin məqsədlərinin təsnifi onların məzmunlarına görə aparılır. Belə meyar əsasında cinayətin məqsədi aşağıdakı qaydada təsnif edilə bilər: 1) cəmiyyətəzidd xarakterli məqsədlər; 2) tamah xarakterli məqsədlər; 3) şəxsi xarakterli məqsədlər; 4) idarə və müəssisənin mənafeyi ilə bağlı məqsədlər; 5) başqa alçaq (mənfi) xarakterli məqsədlər.

Cinayətin məqsədi cinayətin nəticəsi anlayışlarına yaxındır, lakin bunlar eyni mənalı anlayışlar deyildir. Cinayətin nəticəsi obyektiv amil olduğu halda cinayətin məqsədi subyektiv amillər sırasına daxildir. Məqsədin həyata keçirilməsi nəticəyə gətirib çıxarır.*

## Cinayətin baş verməsinə kömək edən şərait .

Cinayət Məcəlləsinin maddəsi nəzərdə tutur ki, “cəza təyin edilərkən cinayətin xarakteri və ictimai təhlükəsinin dərəcəsi, cinayətkarın şəxsiyyəti, o cümlədən məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar nəzərə alınmalıdır”.

Bu halların içində ətraf mühitin vəziyyəti, cinayətin törədilmə şəraiti, onun motivləri və digərləri seçilir.

Cinayətin şəraitlərinin öyrənilməsi üçün cinayət işləri öyrənilir, xüsusi proqramlar üzrə cinayəti törədən şəxslər, onların qohumları və tanışları, zərərçəkənlər və şahidlər, sahə müvəkkilləri və s. dindirilir. Alınmış məlumatlar ümumiləşdirilir və təhlil edilir.

Dolqovaya görə tamah məqsədilə törədilən cinayətlərə kömək edən şəraitlər aşağıdakılardır:

1. *Şəxsiyyətin ümumi pozulması* - sərxoşluq, narkomanlıq, tüfeyli həyat sürməsi;
2. *Yüksək gəlirlərin dalınca düşmək* - oğurluğun ən qorxulu formalarına, təsərrüfat, vəzifə cinayətinə, banditizmə və s. əsas olur;
3. *Kəskin ehtiyac* - həyatın lazımi səviyyəsini təmin etmək mümkün olmayan şəraitdə;
4. *Pulların qanunsuz dövriyyəsinə,* vergilərin ödənilməməsinə əsaslanan kölgəli iqtisadi və digər münasibətlər;
5. *Təsərrüfatsızlıq, uçot və nəzarətin çatışmamazlığı* , hüquq-mühafizə fəaliyyətində çatışmamazlıqlar - cəzasızlığa və yeni mülkiyyət cinayətlərinin törədilməsinin mümkünlüyünə inam yaradır;
6. *Bürokratizm, yerlibazlıq* - dövlətin, bələdiyyənin və digər vəsaitlərin talan edilməsinə, vəzifədən sui-istifadələrə, rüşvətxorluğa gətirib çıxarır və s.;

*F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 116-118



downloaded from KitabYurdu.az

7. *İqtisadiyyatın idarə edilməsində səhvlər* - inflyasiya proseslərinə, əhalinin həyat səviyyəsinin aşağı düşməsinə , özəlləşdirmə və digər sahələrdə tamah məqsədilə edilən cinayətlərə gətirib çıxarır;

8. *Cəmiyyətin idarəetməsinin demokratik prinsiplərinin pozulması, aşkarlığın olmaması* - dövlət aparatının şəxsi və ya tayfabazlıq maraqlarında istifadə etməsinə gətirib çıxarır.

Zorakılıqla edilən cinayətlər aşağıdakıların qarşılıqlı təsiri nəticəsində törədilir:

1. Əhalinin bir hissəsinin sərxoşluğa qurşanması, cinsi əxlaqsızlıq, münaqişələri güc yolu ilə həll edən mütəşəkkil dəstələrin yaranması - bunlar hamısı zorakılığı məqsədlərə çatmaq üçün vasitə kimi göstərərək, böyüyən nəslə mənfi təsir edir;
2. Mübahisələri güclə həll etməyə vadar edən (qisas və s.), qadına qarşı düzgün münasibət bəsləməyən baxışlar, ziyanedici əməllər, vərdişlər;
3. Vətəndaşların qanuni mənafelərinin və hüquqlarının müdafiəsi üzrə dövlət orqanlarının fəaliyyətində çatışmamazlıqlar, bürokratizm, aşkarlığın olmaması;
4. Əhalinin bir hissəsinin sosial passivliyi, ailə-məişət münasibətlərinin həll edilməsində kömək göstərməsi üçün yaradılan dövlət orqanlarının və ictimai təşkilatlarının fəaliyyətinin səmərəliliyinin zəif olması - nəticədə münaqişələrin kəskinləşməsinə, yoldaşının, uşaqlarının öldürülməsinə gətirib çıxarır;
5. Subyektlərin özünütəsdiqetməyə can atması və konkret şəraitdə zorakılığın ən səmərəli vasitə kimi qiymətləndirilməsi;
6. Sosial nəzarətdə, o cümlədən, ictimai təhlükəsizliyin müdafiəsində çatışmamazlıqlar.

Göstərilən hallar müxtəlif cür birləşərək cinayətlərin başqa növlərini yaradırlar.



downloaded from KitabYurdu.az

## Kriminoloji viktimologiya - zərərçəkən və onun davranışı haqqında təlim

.

*Viktimologiya* - zərərçəkən və onun davranışı haqqında təlimdir. Viktimologiya son 20 ildə inkişaf etmişdir.

Kriminoloji tədqiqatlar göstərir ki, çox vaxt cinayətin qurbanı cinayətkarla oxşar xarakterə malik olan şəxslər olur (əvvələr məhkum olunanlar, alkoqoliklər və s.). Başqa cür qurbanlar da olur: onlar müsbət xarakterizə edilirlər, lakin cinayətkarla qarşıdurmaya hazır olmurlar və müəyyən laqeydlik göstərirlər (əşyaları onlara saxlanc üçün verirlər; onlara qonaq getməyə razı olurlar və s.).

Bütün hallarda cinayətkarla zərərçəkənin münasibətlərinin öyrənilməsi vacibdir.

Bu tədqiqatlar təkcə cinayətin törədilmə situasiyası ilə bitməməlidir, çünki ola bilsin ki, cinayətkarla zərərçəkənin arasında əvvəllər uzunmüddətli münaqişə olub. Ancaq bunları biləndən sonra, cinayətin motivasiyasını dərk etmək olar. Məsələn, əvvəllər məhkum olunmuş A. qonşuda olan qardaşları mütəmadi olaraq ələ salırdı: onları alçaldırdı, ona müəyyən xidmətləri etməyə məcbur edirdi. Qardaşlar etiraz etdiyi halda o onları döyür, ölümlə qorxudurdu. O, hətta qardaşlardan böyüyünün gəzdiyi qızı zorlamağa cəhd etmişdir. Polisə edilən müraciətlər müsbət nəticə verməmişdir. Onda böyük qardaş ovçu tüfəngi alır, əlverişli moment tapıb A. öldürür.

Cinayətin hədə-qorxu və ya məcburiyyət təsiri altında, yaxud maddi və ya s. cəhətdən asılılıq nəticəsində törədilməsi də viktimlik daşıyır.

Hədə-qorxu döyməklə, bədəninə xəsarət yetirməklə, öldürməklə, əmlakını məhv etməklə, barəsində rüsvayedici məlumatları yaymaqla və s. bu qəbildən olan hərəkətlərin ediləcəyi ilə bağlı təqsirkara göstərilən psixi təsirdir. Hədə-qorxu təqsirkara göstərilən psixi təsir (informasiya xarakterli) olmaqla onun sərbəst davranmaq imkanını məhdudlaşdırır. Hədə-qorxu ciddi və real xarakterdə olduqda məsuliyyəti yüngülləşdirən hal kimi qiymətləndirilir. Buna görə də hər bir halda şəxsin cinayət etməkdən faktiki çəkinmə imkanı və hədə-qorxunun ictimai təhlükəlilik dərəcəsi nəzərə alınır.

Məcburiyyət hədə-qorxu ilə yanaşı başqasını cinayətə vadar edən fiziki və ya psixi təsirdir. Məcburiyyət təsiri təqsirkarın iradəvi davranışını aradan qaldırmasa da, lakin onu cinayət etməyə vadar etmişsə, belə halda cinayətin məcburiyyət təsiri altında törədilməsi məsuliyyəti yüngülləşdirən hal kimi qiymətləndirilir.

Bütün hallarda məcburiyyətin xarakteri və təhlükəlilik dərəcəsi nəzərə alınmalıdır. Məcburiyyət daha təhlükəli olduqda (məsələn, həyat üçün real təhlükə yaradan hallarda) və belə məcburiyyət təsiri altında şəxs cinayət etdikdə, məcburiyyətə məruz qalan əməl son zərurət vəziyyətində edilən hərəkət kimi qiymətləndirilə bilər.

Maddi asılılıq dedikdə - təqsirkarın tamamilə və ya qismən cinayətə məcbur edənin himayəsində yaşaması anlaşılmalıdır. Sair asılılıq - tabeçilikdə



downloaded from KitabYurdu.az

olan şəxsin müdirdən, təqsikarın müstəntiqdən, abituriyentin qəbul imtahanını götürən müəllimdən və s. bu kimi asılılığıdır.

Cinayət zərəçəkmiş şəxsin qeyri hüquqi hərəkətləri nəticəsində baş vermiş güclü ruhi həyəcan təsiri altında edilə bilər.

Belə hallarda cinayət güclü ruhi həyəcan (fiziki affekt) təsiri altında baş versə də təqsirkar anlaqlı olur. Cinayət güclü ruhi həyəcan vəziyyətində törədilərkən yol verilən əməl üzərində təqsirkarın əqli nəzarəti zəifləyir, hərəkət güclü cərəyan edən hisslərin təsiri altında olur.

Təqsirkarda baş verən və onu cinayətə gətirib çıxaran güclü ruhi həyəcan vəziyyəti zərərçəkənin qeyri hüquqi hərəkətləri ilə bağlı olmalıdır. Zərərçəkənin qeyri hüquqi hərəkətləri psixi və ya fiziki təsir göstərmə - hədə-qorxu, ağrı yetirmə, döymə, xəsarət yetirmə, şərəf və ya ləyaqəti alçaltma və bu kimi formalarda ifadə oluna bilər.

Güclü ruhi həyəcan vəziyyəti təqsirkarın yaxın adamlarına qarşı qeyri hüquqi hərəkətlərə yol verildiyi hallarda da yarana bilər.*

Beləliklə, cinayətin motivini tapmaq üçün viktimologiyanın problemlərini dərindən öyrənmək lazımdır.

*F. Y. Səməndərov. Cinayət hüququ. Cinayət və cəza məsələləri. B, 1994, s. 350-351



downloaded from KitabYurdu.az

# Beşinci fəsil.

# Cinayətkarlığın qarşısının alınmasının ümumi problemləri.

**Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin yaranması. Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin predmeti və quruluşu. Cinayətkarlığın qarşısının alınması sistemi və profilaktikanın subyektləri. Cinayətlərin bilavasitə profilaktikasının subyektləri. Hüquq mühafizə funksiyasının həyata keçirilməsində cinayətlərin profilaktikasının subyektləri. Nəzarət funksiyasının icrasında cinayətlərin profilaktikasını həyata keçirən subyektlər. Cinayətlərin profilaktikasına rəhbərliyi həyata keçirən subyektlər. Cinayətkarlığın qarşısının alınmasının sosial-iqtisadi və təşkilati əsasları. Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsasları.**

## Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin yaranması.

Bu gün respublikamızda cinayətkarlığa qarşı mübarizə özünün çox çətin və mürəkkəb dövrünü yaşayır. Belə ki, keçid dövrünə qədər Azərbaycan Respublikası böyük bir ittifaqın tərkib hissəsi olduğundan özünün müstəqil cinayətkarlığa qarşı mübarizə metodlarını formalaşdırmaq imkanlarından demək olar ki, məhrum idi. Bu da müəyyən mənada təbii qəbul edilməlidir. Çünki SSRİ vahid dövlət idi və orada hər bir respublika istədiyi kimi cinayətkarlığa qarşı mübarizə apara bilməzdi.

Dövlətçiliyimizin formalaşması və inkişafı istiqamətində atılan addımlardan artıq aydın görünür ki, keçid dövründə nə qədər mürəkkəb sosil-iqtisadi, siyasi, hərbi situasiyaların yaranmasına baxmayaraq, cinayətkarlığa qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının özünəməxsus təcrübəsi artıq formalaşır.Bu istiqamətdə başqa dövlətlərlə əməkdaşlığın genişmiqyaslı inteqrasiyası (o cümlədən hüquqi) xüsusi əhəmiyyət kəsb edir. Artıq ayrı-ayrı dövlətlər cinayətkarlığa qarşı mübarizə işində geniş əməkdaşlığın zəruriliyini birmənalı qəbul edirlər. Bunu müasir cinayətkarlığın xüsusiyyətləri, inkişaf tempi, eyni vaxtda bir neçə dövlətin mənafeyinə zərər yetirməsi və s. tələb edir. Əlbəttə, heç kim üçün gizli deyil ki, dünyanın bir çox ölkələri bürümüş narkomaniyaya, terrorizmə, bütün bəşəriyyət üçün təhlükəli olan ekoloji cinayətlərə qarşı bir dövlət daxilində mübarizə aparılması kifayət qədər səmərə verə bilməz. Odur ki, bəşəriyyət üçün təhlükəli olan bu sosial bəlalara qarşı dünya dövlətlərinin birgə mübarizə aparmaq ehtiyacı təbii olaraq yaranır.

Məlum olduğu kimi, bu istiqamətdə müəyyən işlər görülür - beynəlxalq konfranslar keçirilir, hüquqi yardım aktları qəbul edilir və s.*

---

* Ç.Mustafayev. Müasir şəraitdə cinayətkarlığa qarşı mübarizənin bəzi problemləri. “Qanunçuluq” jurnalı, №10, 1997.



downloaded from KitabYurdu.az

Kriminoloji və digər xüsusi ədəbiyyatda, rəsmi sənədlərdə və publisistik materiallarda belə anlayışlara rast gəlmək olar: cinayət siyasəti, cinayətkarlıqla mübarizə, müharibə, nəzarət, cinayətkarlığa əkstəsir, qarşısının alınması, profilaktika və s.

“*Cinayət siyasəti”* anlayışı elə bir vaxt ortaya çıxmışdır ki, artıq söhbət ayrı-ayrı cinayətlərdən və onlara təsirdən yox, cinayətlərin çoxluğuna əkstəsirdən gedirdi. O vaxtlar “cinayətkarlıq” anlayışı hələ yox idi. Cinayət siyasətinə iki cür yanaşıblar. Bəzi müəlliflər hesab edir ki, cinayət siyasətinin çərçivəsində cinayət-hüquqi vasitələrlə cinayətlərə təsiretmə məsələləri həll olunur (19-cu əsrin əvvəlində Feyerbax, List və s. bu fikirləri söyləyiblər). 20-ci əsrin 80-cı illərində ikinci yanaşma üstünlük alır. Bu müəlliflər hesab edirlər ki, cinayət siyasəti cinayətkarlığa bütün təsiretmə tədbirlərini nəzərdə tutur və cinayətkarlıqla mübarizə onun çərçivəsindən kənara çıxmamalıdır.

*Cinayətkarlıqla mübarizə* termini müxtəlif dövrlərdə müxtəlif cür başa düşülüb. Hətta “kriminal romantika”nın nümayəndələri cinayətkarlığı kökündən qırmaq kimi qiymətləndiriblər.

Cinayətkarlıqla mübarizə - sosial idarəetmənin bir sahəsi kimi cinayətkarlığı yaradan səbəb və şəraitə, cinayəti törədən şəxslərə təsiri nəzərdə tutur.

*Cinayətkarlığın qarşısının alınması* - cinayətkarlığın səbəb və şəraitinin aradan qaldırılmasına, zəifləməsinə və neytrallaşmasına yönələn dövlət və ictimai tədbirlər sistemidir.

Bu terminlə yanaşı kriminologiyada *profilaktika* termini işlənir. Profilaktika cinayətkarlığın qarşısının alınması və hüquq-mühafizə fəaliyyəti arasında bir körpüdür. Konkret cinayətlərə gəldikdə isə profilaktika cinayətlər barədə motivin yaranması, cinayətə hazırlıq faktlarını tapıb, onlara vaxtında təsir göstərməni nəzərdə tutur.

Məsələn, narkotik cinayətkarlıqla mübarizənin aparılmasını təhlil edək.

Beynəlxalq səviyyədə narkotizm ilə mübarizə üzrə dünyanın müxtəlif ölkələrinin səyləri, bu hadisənin sıçrayışla yayılmasının izahını tapmağa edilən cəhdlər qeyri-bircins və mürəkkəb mənzərədən ibarətdir. Bir sıra dövlətlərin və beynəlxalq təşkilatların narkomaniya və narkotizm probleminin həllinə yönəlmiş yanaşma tərzlərinin təhlili göstərir ki, bu sahədə üç əsas istiqamət mövcuddur: 1) cinayət məsuliyyətinin artırılması və narkotizm ilə mübarizədə polis tədbirlərinin fəallaşdırılması;

2) narkomaniya probleminin tibbi və tərbiyəvi tədbirlər hesabına həll edilmə cəhdləri; 3) kompleks yanaşma. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, heç bir meyl “təmiz” şəkildə mövcud deyildir və istənilən ölkənin bu sahədə cinayət siyasəti alternativ, inteqrativ və sintezli xarakter daşıyır. Lakin indiyə qədər də bir istiqamətin və təmayülün ziyanına, digərinə həddən artıq aludəçilik, həddən artıq ümid bağlamaq meylləri müşahidə olunur. Belə tərəddüdlər və qeyri-ardıcıllıq əsasən onunla izah edilir ki, problem hələ də tam şəkildə, kifayət qədər tədqiq edilməyibdir və narkomaniya və narkotizmlə



downloaded from KitabYurdu.az

mübarizə tədbirlərinin təcrübədən, sınaqdan keçmiş strategiya və taktikası hələ də yaradılmayıbdır.

Hər şeydən əvvəl cəmiyyətin inkişafının bu mərhələsində narkomaniya və narkotizmlə mübarizənin məqsədləri dəqiqləşdirilməli və müəyyən olunmalıdır. Bu məqsəd isə belə olmalıdır: vətəndaşların narkotiklərlə ilk "görüşünün" qarşısının alınması, xammal mənbələrinin - tərkibində narkotik maddə olan əkin sahələrinin məhv edilməsi; tibb müəssisələrindən narkotik dərman preparatlarının oğurlanması hallarının qarşısının alınması, narkomanların müalicəsi və narkomaniyanın profilaktikasının maddi bazasının yaradılması.

Narkotik vasitələrdən istifadə ilə mübarizə tədbirləri harada və kim tərəfindən həyata keçirilməsindən asılı olaraq istər üsuluna, istərsə də formasına görə ən müxtəlif ola bilər. Kriminoloji planda və praktiki fəaliyyət maraqları nöqteyi nəzərindən bu olduqca mürəkkəb və çətin problemin daha vacib mövcud ümumi yanaşma tərzlərini dərk etmək, narkotizm ilə mübarizənin əsas istiqamətləri və prinsiplərini müəyyən etmək vacibdir. Onların yoxluğu və ya kifayət qədər tədqiq edilərək yaradılmaması bu gün çox vaxt narkomaniya və narkotizmlə mübarizənin məqsəd və vəzifələrin birmənalı başa düşülməsinə, onun birtərəfliyinə və qeyri ardıcıllığına, qarşıya qoyulmuş vəzifələrə uyğun olmayan və lazımsız üsul və metodlarla həllinə gətirib çıxarır.

Narkomaniya ilə mübarizə işinin təşkilinin ilkin mövqeləri müəyyən edilərkən ən vacib məsələlərdən biri də narkomaniya ilə mübarizə anlayışının özünün aydınlaşdırılmasıdır. Sözün dar mənasında narkomaniya və narkotizmlə mübarizə dedikdə adətən narkotik vasitələrin qeyri-qanuni qəbulu, onların əldə edilməsi, hazırlanması, saxlanılması, daşınması, göndərilməsi, oğurlanması, satışı, narkotiklərin qəbulu üçün tiryəkxanaların saxlanması, tərkibində narkotik maddə olan bitkilərin əkini və yetişdirilməsi və s., həmçinin narkotiklərdən epizodik istifadə edən və xəstə - narkomanlarla aparılan profilaktik iş başa düşülür. Lakin narkomaniya və narkotizm mürəkkəb hadisə kimi insanların həyat şəraiti ilə birbaşa bağlı olduğundan, yəni təkcə qarşısıalınma və profilaktika deyil, həm də bu bəlanı törədən səbəb və şəraitləri aradan qaldıran tədbirləri özündə birləşdirən məcmusu kimi baxılmalıdır. Beləliklə, narkomaniya və narkotizmlə mübarizə dedikdə həm cinayət-hüquqi, inzibati-məcburi, həm də profilaktiki, reabilitasiya xarakteri daşıyan dövlət və cəmiyyətin səyləri başa düşülməlidir. Bununla bağlı profilaktiki xarakterli səylər ilə narkotik vasitələrlə bağlı şəxslərin cinayətkar davranışlarına qarşı mübarizə tədbirləri bir-biri ilə dəqiq əlaqəli şəkildə təşkil edilib həyata keçirilməlidir.

Beləliklə, olduqca mürəkkəb hadisə olan narkomaniya və narkotizm, ona səmərəli qarşı durmaq, radikal şəkildə qarşısını almaq, tez və yaxşı narkotik vasitələrdən asılılıq kompleksinin tibbi-sosial xarakterli mənfi nəticələrini aradan qaldırmaq istəyən hamı tərəfindən (dövlət orqanları, ictimai təşkilatlar, ayrı-ayrı vətəndaşlar) xüsusi diqqətin yetirilməsini tələb edir. Ona görə də onunla mübarizədə hüquqşünas-kriminoloqların, həkim-narkoloqların, psixoloqların, psixiatrların, sosioloqların iştirakı vacib və zəruridir. Narkotizmlə mübarizədə və onun qarşısının alınmasında xüsusi rolu gömrük, polis, prokurorluq, məhkəmə, səhiyyə, təhsil və s. kimi xüsusi dövlət orqanları



downloaded from KitabYurdu.az

oynamalıdır. Eyni zamanda kütləvi informasiya vasitələrinin, mətbuat, radio və televiziyanın fəaliyyəti heç də az əhəmiyyət kəsb etmir.

Respublikamızda narkotizmlə mübarizə və narkomaniyanın qarşısının alınması üzrə heç də az iş görülməyib, lakin bununla sakitləşmək olmaz. Hər şeydən əvvəl, gizli narkotik ticarətinin ləğvi üzrə fəaliyyətin təkmilləşdirilməsi məqsədi ilə uyğun işin sonrakı mərkəzləşməsi və ciddi əlaqələndirilməsi zəruridir. Sonra, belə bir işi yalnız daxili işlər orqanlarının güclü bölmələri, yaxşı hazırlıqlı, yüksək peşəkar səviyyəli mütəxəssislər apara bilərlər - çünki narkotiklərin qeyri-qanuni dövriyyəsini təşkil edənlər olduqca gizli və müxtəlif incə üsullardan istifadə edirlər. Xüsusi cinayət axtarışı bölmələrini istər keyfiyyətcə, istərsə də kəmiyyətcə möhkəmləndirmək, əməkdaşların ixtisasını artırmaq lazımdır.

Daha geniş miqyasda ən müasir texniki vasitələri tətbiq etmək, narkotiklərin gətirilmə kanallarını daha cəsarətlə və operativ bağlamaq, qeyri-qanuni əkin, yığın, hazırlama, narkotik xammalları daşınma faktlarının qarşısını almaq lazımdır.

Narkomaniya və narkotizmin real vəziyyətini, onu doğuran sosial-iqtisadi hadisələri, narkotizmlə mübarizədə dövlətin, cəmiyyətin mövcud imkan, qüvvə və vasitələri tam və dolğun şəkildə təhlil edilib qiymətləndirilməlidir. Narahatlıq, təlaş və vahimədən, real vəziyyətin aşkar edilməsinə keçmək lazımdır. Bütün bunları kəmiyət və keyfiyyət göstəricilərində təsvir etmək, yeniyetmə və gənclərin narkomaniya və narkotizmə qoşulmasının qarşısını almaq məqsədi ilə dövlətin və cəmiyyətin bütün imkanları səfərbər edilməli, əks zərbənin əsas istiqamətləri dəqiq hesablanmalıdır. İstər keçmiş ənənələrə, istərsə də dünya təcrübəsinə istinad edilərək, narkotizmə təsirin effektiv üsulları axtarılaraq tapılmalıdır.

Narkomaniya və narkotizmlə mübarizədə ayrı-ayrı qurumların, müxtəlif xeyriyyə cəmiyyətlərinin, dini təşkilatların imkan və bacarığından istifadə edilməlidir.*

*Əks təsir* - başqa hərəkətin məhv edilməsi, ona mane olmaq deməkdir. Lakin bu termin cinayətkarlığa bütün təsiretmə tədbirlərini əhatə etmir.

*“Təsiretmə”* termini də belə qiymətləndirilir, çünki - təsiretmə kiməsə və ya nəyəsə yönələn birtərəfli hərəkətdir.

Termin “cinayətkarlıqla müharibə” özünü doğrultmur, çünki müharibə düşmənin necə olursa, olsun məhv edilməsi deməkdir. Cinayətkarlıqla mübarizə isə cinayətkarlığın qarşısının alınmasını, şəxslərin cinayətin törədilməsindən uzaqlaşdırılmasını, cinayətkar fəaliyyət aşkar olunduqda isə birinci növbədə onun motivlərini, səbəblərini aydınlaşdırıb, cinayət törədən şəxsə qarşı cinayət cəzasını əvəz edən başqa cəza növlərinin tətbiq edilməsi məsələsinin məqsədəuyğunluğuna baxılmasını nəzərdə tutur.

* F.Cavadov, Y.Abdullayev. Narkotizm və narkomaniya: - problemlər və həlli yolları. Qanunçuluq, №1, 1998.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın qarşısının alınmasına dair nəzəriyyənin predmeti və quruluşu.

Cinayətkarlığın qarşısının alınması nəzəriyyəsi üç istiqamətdən olan birlikdir:

1) cinayətkarlıqla mübarizənin ümumi təşkili;
2) cinayətkarlığın qarşısının alınması;
3) hüquq-mühafizə fəaliyyəti.

*Cinayətkarlıqla mübarizənin ümumi təşkilinə daxildir:*

1. Cinayətkarlığın göstəricilərinin qeydiyyatı, bu göstəricilərin öyrənilməsi, onların yaranmasının və nəticələrinin, əvvəlki mərhələlərdə cinayətkarlıqla mübarizənin nəticələrinin öyrənilməsi və bu məlumatların qiymətləndirilməsi üzrə *analitik - informasiya fəaliyyəti.*

2. *Kriminoloji proqnozlaşdırma.* Kriminoloji proqnoz - cinayətkarlığın gələcəkdə gözlənilən vəziyyətinin və digər kriminoloji əhəmiyyət kəsb edən məsələlərin qiymətləndirilməsidir.

Bu proqnozların əsasını kriminoloji tədqiqatlar, ekspertlərin sorğusu və s. təşkil edir.

Burada istifadə olunan spesifik metod - cinayətkarlığın, onun səbəb və şəraitinin müzakirəsi üçün forumlara yığışan kriminoloq-mütəxəssislərin bu barədə fikirlərinin yığılması, cinayətkarlıqla mubarizə üzrə tövsiyyələrin hazırlanmasıdır.

Cinayətkarlığın proqnozlaşdırılmasının mümkün olub-olmamasından danışarkən V.N.Kudryavtsev yazır: “Kriminologiyada elmi proqnozlaşdırmanın əsası bu ictimai hadisələr sisteminə xass olan qanunauyğunluqların aşkar edilməsidir.

Proqnozlaşdırma - cinayətkarlığa qarşı gündəlik, operativ mübarizəyə rəhbər edilməsinin ən aparıcı və mühüm elementlərindən biri olmaqla, müəyyən zaman müddətində cinayətkarlıqla mübarizənin konkret məqsəd və vəzifələrini müəyyənləşdirməyə, konkret qısa və uzunmüddətli planların tərtib edilməsinə kömək göstərməlidir.

Cinayətkarlığın kriminoloji proqnozlaşdırılmasının əsas məqsədini belə ifadə edə bilərik: gələcəkdə cinayətkarlığın vəziyyətində, səviyyəsində, strukturunda, xarakter və dinamikasında baş verə biləcək dəyişikliklərin, meyl və qanunauyğunluqların, bu dəyişikliklərin yaranma şəraitlərinin və səbəblərinin, yeni cinayət növlərinin və cinayətkarlığın gələcəkdə yarana bilmə imkanlarının, törətdikləri cinayətlərə görə məhkum olunmuş şəxslərin gələcək davranışlarının; bu cinayətkarlıqla mübarizə tədbirinin həyata keçirilməsinin mümkün ola biləcək nəticələrinin; cinayətkarlıqla mübarizə sahəsində sosial və hüquq elmlərinin inkişaf perspektivlərinin və s. tətbiq edilib müəyyənləşdirilməsidir.

Kriminoloji proqnozlaşdırmanın əhatə etdiyi dövr göstəricilər sisteminin seçilməsinə təsir göstərir. Belə ki, qısa müddətli proqnoz zamanı, çox güman ki, müxtəlif göstəricilər sistemindən istifadə etmək daha məqsədəuyğundur. Cinayətkarlığın qısa müddətli proqnozu üçün mövcud dövrü statistikanın



downloaded from KitabYurdu.az

məlumatları əsasında asanlıqla qiymətləndirilən və cinayətkarlığın dəyişmələrinə kifayət qədər həssas göstəricilər tələb olunur. Qısamüddətli proqnozlar cinayətkarlıqla mübarizənin gündəlik taktikasının formalaşmasına və cinayətkarlığın qarşısının alınmasının ən səmərəli tədbirlərinin yaradılması üçün xüsusi əhəmiyyət kəsb edir.

Uzunmüddətli proqnozlar üçün ayrı-ayrı səbəblərə nisbətən daha az dəyişkənliyə məruz qalan və zamana görə dəyişməsi daha çox dərəcədə cinayətkarlığın dəyişməsinin ümumi qanunauyğunluqlarını əks etdirən göstəricilər götürülməlidir.

Cinayətkarlığın uzunmüddətli proqnozu zamanı sosial inkişafın məcmu ümumi elementləri, o cümlədən dövlətin siyasətində nəzərdə tutulan dəyişikliklər, qanunvericilikdə, iqtisadiyyatda və s. baş verə biləcək dəyişikliklər hökmən nəzərə alınmalıdır.

Cinayətkarlığın kriminoloji uzunmuddətli proqnozu ümumi sosial-iqtisadi, demoqrafik, siyasi və digər qanunauyğunluqlarının (cəmiyyətin ümumən inkişaf qanunlarına, cinayətkarlığın səviyyə və strukturunun cəmiyyətin sosial-iqtisadi, demoqrafik, elmi-texniki və mədəni inkişaf səviyyəsi və s. ilə əlaqələrin qanunauyğunluqlarının) təhlilinə əsaslanır.

Orta müddətli proqnoz hər iki qrup tələbləri maksimum dərəcədə ödəyən göstəricilər kompleksinin seçilməsini tələb edir.*

3. *Cinayətkarlıqla mübarizə üzrə strategiyanın müəyyən edilməsi.*

Kriminoloji situasiyanın (yəni cinayətkarlığın, onun səbəblərinin, şəraitlərinin, mübarizəsinin vəziyyətinin) qiyməti, proqnozu və mütəxəssislərin tövsiyyələri əsasında dövlət tərəfindən cinayətkarlıqla mübarizənin strategiyası müəyyən edilir.

Strategiya vurulan zərbənin istiqamətini müəyyən edir. Çünki cinayətkarlığın elə bir yerindən zərbə vurulmalıdır ki, onun müxtəlif göstəricilərinə müsbət təsir göstərsin. Tədqiqatlar göstərir ki, belə vəziyyəti yetkinlik yaşına çatmayanların cinayətkarlığı, mütəşəkkil və peşəkar cinayətkarlıq tutur.

Strategiyanın spesifikası ondadır ki, zərbələr aşağıdakı kimi vurulur:

a) cinayətkar birləşmələrin özlərinə; b) bu birləşmələrin liderlərinə; v) cinayətkar kapitallara.

*Taktika* - strategiyanın bir hissəsidir. Taktika - konkret şəraitlərdə, konkret məqsədlərin və onlara çatmaq üçün metodların müəyyən edilməsidir. Burada kadrların vəziyyəti, maddi təchizat, maliyyələşdirmə məsələləri həll olunur.

4. *Cinayətkarlıqla mübarizənin proqramlaşdırılması.*

Proqram - elmi-təqdiqat işlərinin təşkili, planlaşdırılması və idarə olunması vasitəsidir, bu nəzarət və hər şeydən əvvəl özünənəzarət vasitəsidir. Proqramın əsas funksiyaları kimi, - istiqamətləndirməyi, təşkil, idarə, nəzarət, mobilizə etməyi və s. göstərmək olar.

---

*İ.M. Rəhimov, E.N. Həsənov, Y.S. Abdullayev, İ.A. Cavadova. Cinayətkarlıq və kibernetika. B, 1995, s.103,104,107



downloaded from KitabYurdu.az

Hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə sahəsində çatışmayan cəhətlərindən bəlkə də ən əsası bu işə perspektiv yanaşmanın olmamasıdır.

Seçilir uzunmüddətli, ortamüddətli (iki illik) və qısamüddətli (rüblük, yarımillik) proqramlar.

Proqramlar bütöv xarakter daşımalıdırlar, yəni birinci növbədə konkret məqsədlər göstərilməlidir, sonra isə - onlara nail olmaq vasitələri, icraçılar, müddətlər, kadrlar, maliyyə məsələləri.

Cinayətkarlıqla mübarizə cəmiyyətin siyasətinin üzvi hissəsi olmalıdır. Məsələn, ölkənin iqtisadi və sosial inkişafı planlarında cinayətkarlıqla mübarizə tədbirləri nəzərdə tutulur. Bunlarla yanaşı cinayətkarlıqla mübarizə üzrə ayrıca proqramlar, həmçinin cinayətkarlığın ayrı-ayrı növləri ilə mübarizə proqramları hazırlanır.

Xarici ölkələrin bir çoxunda kompleks proqramlarının yaradılması üzrə müəyyən təcrübə toplanıb.

Bir sıra ölkələrdə (məsələn, ABŞ, İngiltərə, Kanada və s.) müxtəlif növ kompleks sosial-iqtisadi, hüquqi proqramlar yaradılıb. Bütün bu qabaqcıl təcrübəni öyrənmək və bizim ictimai praktikada istifadə etmək müsbət nəticə verə bilər.

Məlumdur ki, 80-ci illərin əvvəllərində yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınması, residiv cinayətkarlıqla mübarizənin gücləndirilməsi və s. üzrə proqramların hazırlanması və həyata keçirilməsinə cəhdlər edilib. Bütün çatışmazlıqlarına baxmayaraq, bu proqramlar faydalı xarakter daşıyırdı. Lakin çox təəssüf ki, onlar həyata keçmədi. Bu isə bir sıra səbəblərlə izah olunurdu: proqramlar zəruri elmi-nəzəri hazırlıq işləri aparılmadan yaradılırdı, onların yerinə yetirilmə mexanizmləri nəzərdə tutulmamışdı, demək olar ki, təsdiqdən dərhal sonra onlar yaddan çıxarılırdı, proqramlar maliyyə, işçi qüvvəsi, texniki vasitələr və bir sıra digər ehtiyatlarla təmin olunmamışdı. Bütün bu çatışmazlıqların və buraxılan səhvlərin cinayətkarlığın tədqiqi və proqnozlaşdırılması üzrə kompleks proqramının hazırlanması və həyata keçirilməsi zamanı nəzərə alınması zəruri və vacibdir.

Çoxillik təcrübə bir daha sübut edir ki, mürəkkəb sosial-hüquqi problem olan cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması üzrə kompleks proqramın yaradılması olduqca çətin, mürəkkəb və ilk növbədə nəzəri dərk edilməsinə böyük ehtiyac duyulan çoxməchullu bir məsələdir.

Hazırlanması zərurəti çoxdan gəlib çatmış cinayətkarlıqla mübarizə proqramı kompleks xarakter daşımalı, iri dövlət tədbirlərini, o cümlədən sosial tədbirləri əhatə etməlidir.

Kompleks proqramın yaradılması cinayətkarlıqla mübarizənin ən əhəmiyyətli və ən məsuliyyətli mərhələsidir, çünki bu mərhələdə cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınmasının əsas istiqamətləri, onlara çatmaq yolları, bunun üçün lazım olan informativ məlumatların toplanılması mənbələri və s. müəyyən edilir. Proqram tədqiqat obyektinin mahiyyətinə, əsas məqsəd və vəzifələrinə uyğun tərtib olunmalıdır.



downloaded from KitabYurdu.az

Proqram cəmiyyətin sosial-hüquqi sahəsində gedən proseslərin elmi təhlilinə əsaslanmalıdır. Proqramda kriminologiya, cinayət hüququ, kriminalistika, sosiologiya, psixologiya və s. elmlərin elmi-praktiki potensialından, kibernetika, riyazi modelləşdirmə, sistemli-struktur təhlil, informasiya nəzəriyyəsində ETT-nin nailiyyətlərindən istifadə etmək zəruridir.

Cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması üzrə kompleks proqramın çərçivəsində aşağıdakı konkret vəzifələrin həll edilməsini nəzərdə tutmaq zəruridir:

- cinayətkarlığın tədqiqi. Proqnozlaşdırılması və qarşısının alınmasının ümumnəzəri əsaslarının, metodologiya və metodikasının yaradılması;
- latent və qeydə alınan cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının, inkişaf qanunauyğunluqlarının və meyllərinin təhlili;
- cinayətkarlığın səbəb və şəraitlərinin təhlili;
- cinayətkarlığın törədilməsinə gətirib çıxaran sosial-iqtisadi, demoqrafik və digər amillərin tədqiqi;
- cinayətkarlığın və cinayətkar davranışın proqnozlaşdırılması;
- cinayətkarın şəxsiyyətinin sistemli-struktur tədqiqi;
- cinayətkarlıqla mübarizə üzrə ictimaiyyətin və hüquq-mühafizə orqanlarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, bu mübarizənin sosial bazasının genişləndirilməsi;
- hüquq-mühafizə orqanlarının islahatını təmin edən və cinayətkarlıqla mübarizəni nizamlayan yeni qanunvericilik normalarının yaradılması;
- cinayətkarlıqla mübarizənin gücləndirilməsi üçün hüquq-mühafizə orqanlarının iş təcrübəsindən, ETT-nin ən müasir nailiyyətlərindən daha geniş istifadə edilməsi.

Bundan başqa proqram ayrı-ayrı cinayət növləri ilə mübarizə üzrə strateji məsələləri də özündə əks etdirməlidir. Bu məsələlər cəmiyyətdə baş verən dəyişikliklərlə bağlıdır və onların müstəqil öyrənilməyə və elmi tədqiqata ehtiyacı vardır. Bu mənada aşağıdakı cinayət növləri ilə bağlı problemlərin müstəqil tədqiqata ehtiyacı vardır:

- qəsdən adam öldürmə, qəsdən bədənə ağır xəsarət yetirmə, oğurluq, quldurluq, soyğunçuluq, banditizm, terrorizm və s.;
- mütəşəkkil cinayətkarlıq, onun cəmiyyətdə yaranma səbəb və şəraitləri, ona qarşı mübarizənin metod və vasitələri;
- bazar iqtisadiyyatına keçdiyimiz indiki şəraitdə iqtisadi cinayətkarlıq, onun əsas formaları və yaranma səbəbləri;
- narkotiklərlə bağlı cinayətlər, son illərdə onların artımı və yayılması səbəbləri.

Adları çəkilən bu və bir sıra başqa konkret cinayət növlərinin tədqiqi proqramın müstəqil bloklarında (fəsillərində) əks olunmalıdır.

Yuxarıda qeyd edilənlərdən başqa proqram əsasında elmi tədqiqatlar aparılarkən konkret cinayətlərin törədilmə yerini, vaxtını, törədilmə üsulunu, cinayətkarların şəxsiyyətini, törədilmiş cinayətlər nəticəsində ən çox zərər dəymiş



downloaded from KitabYurdu.az

obyektləri (yerləri), konkret cinayətlərin törədilməsinə gətirib çıxaran səbəb və şəraiti aydınlaşdırmaq lazımdır.

Göstərilən məqsəd və vəzifələrə uyğun olaraq kompleks proqramın sxemi hazırlanmalı və onun əsas bölmələri müəyyənləşdirilməlidir. Proqramın giriş hissəsində, cinayətkarlığın qısa, lakin kifayət qədər dolğun xarakteristikası, daha sonra isə respublikanın sosial-iqtisadi və demoqrafik inkişafının təhlili verilməli və onların cinayətkarlığa bilavasitə və ya dolayı yolla nə dərəcədə təsir edəcəyi barədə ilkin fərziyyələr əks olunmalıdır.*

5. *Cinayətkarlıqla mübarizə sahəsində qanunvericilik.*

Əgər qüvvədə olan qanunlar ölkədə olan kriminogen vəziyyətin yeni xarakteristikalarına cavab vermir və onunla mübarizəni təmin etmirsə, onda qanunlara əlavələrin, dəyişikliklərin edilməsi və ya yeni hüquq-normativ aktların hazırlanması üzrə ciddi və məqsədyönlü iş aparılmalıdır. Məsələn, müxtəlif ölkələrdə korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə yalnız mövcud qanunvericiliyə dəyişikliklər ediləndən, kompleks qanunlar qəbul olunandan sonra real olmuşdur.

Bu məsələlərlə hərəkətlərin kriminallaşdırılması və kriminalsızlaşdırılması bağlıdır.

Kriminalsızlaşma (hərəkətlərin cinayət daşıyıcıların tərkibindən çıxarılması) əksəriyyətdə iki cür olur:

1) hansısa hərəkət ictimai təhlükəliliyini itirəndə;
2) hərəkətin geniş yayıldığına görə müqəssirlərə qarşı cinayət- hüquqi ölçülərin götürülməsi mümkün olmur və bu halda cinayət məsuliyyəti inzibati məsuliyyətlə əvəz olunur (xırda oğurluqlar).

6. *Cinayətkarlıqla mübarizə üzrə proqramların həyata keçirilməsi, bu sahədəki fəaliyyətin koordinasiyası.*

Cinayətkarlıqla mübarizə proqramlarının həyata keçirilməsi çox aspektli xarakter daşıyır. Bura idarəetmə, nəzarət, kadrların seçilməsi, onların yerləşdirilməsi, ixtisaslarının artırılması, yeni texnikanın tətbiqi, resurs təchizatı, tədbirlərin səmərəliliyinin analizi daxildir.

Cinayətkarlıqla mübarizənin subyektlərinin çox olduğuna görə onun koordinasiyası zəruridir. Bu koordinasiyada dövlət, vətəndaş cəmiyyətinin institutları (ictimai təşkilatlar, fondlar və s.), hüquqi və fiziki şəxslər iştirak edirlər.

*7.Cinayətkarlıqla mübarizənin elmi tədqiqatlarının təşkili və inkişafı.*

Bura elmi-tədqiqat ocaqlarının inkişafı, elmi kadrların hazırlanması, tədqiqatların metodikasının təkmilləşdirilməsi daxildir.

---

*İ.M. Rəhimov, E.N. Həsənov, Y.S. Abdullayev, İ.A. Cavadova. Cinayətkarlıq və kibernetika. B, 1995, s. 25,26,31. Sit: В.К.Звирбуль. Роль социального планирования при предупреждении правонарушений. М., 1977; С.В.Бородин. Борьба с преступностью: теоретическая модель комплексной программы. М., 1980. Стр.20-22; С.Г.Чадаев. Уголовная политика и преступность: проблемы, пути решения. М., 1981; С.В.Бородин. Борьба с преступностью: теоретическая модель комплексной программы. М., 1990.



downloaded from KitabYurdu.az

*8. Hüquq-mühafizə fəaliyyəti.* Bu fəaliyyətin iki tərəfi seçilir:
*1. Cəzalandırıcı fəaliyyət* - cinayətlərin aşkar olunması, qarşısının alınması, açılması, cinayət məsuliyyətinə cəlb olunması və cəzanın tətbiq edilməsi üzrə hərəkətlərdir.

2. *Hüquqbərpaedici fəaliyyət* - cinayətlə pozulmuş hüquqların və qanuni maraqların bərpa edilməsi, ziyanın ödənilməsi üzrə fəaliyyətdir.

Beləliklə, nəticə etibarilə cinayətkarlıqla mübarizə təkcə gecə təqiblərindən, hiddətli atışmalardan və cinayət işlərinin başgicəlləndirici istintaqından ibarət deyildir. Bu, həm də əbədi sosial-hüquqi bəla olan cinayətkarlığın üzərinə intellektual hücumdur.

Lakin təəssüf ki, hazırda cinayətkarlığa qarşı belə bir intellektual hücumun elmi, nəzəri, praktiki, metodoloji və metodiki əsaslarının yaradılması ilə faktiki məşğul olan və buna cavab verən dövlət orqanı yoxdur. Cinayətkarlığın kompleks tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması ilə bağlı respublikamızda elmi-tədqiqat işlərini sürətləndirməklə indikindən daha geniş miqyasda həyata keçirmək lazımdır.


downloaded from KitabYurdu.az

## Cinayətkarlığın qarşısının alınması sistemi və profilaktikanın subyektləri.

*Məqsədyönlülük* (*və ya səviyyə)* xüsusiyyətinə görə cinayətkarlığın ümumi və xüsusi qarşısının alınması seçilir.

Ümumi qarşıalmada söhbət cəmiyyətin pozitiv inkişafından, onun iqtisadi, siyasi, sosial və digər institutlarının inkişafından, cinayətkarlığı doğuran neqativ halların aradan qaldırılmasından gedir.

Xüsusi qarşıalma tədbirləri məqsədyönlü aparılır və aşağıdakı məqsədi güdürlər: kriminogen amillərin aradan qaldırılması, neytrallaşdırılması; mikromühitin sağlamlaşdırılması, hərəkətində cinayət törətmə ehtimalı olan şəxslərin davranışının korreksiyası (məsələn, cəzaçəkmə yerlərindən azad olunan şəxslərin ətrafında profilaktik tədbirlər və ya inzibati nəzarət).

*Miqyasına* görə cinayətkarlığın qarşısının alınması tədbirləri olur:

1) ümumdövlət tədbirləri-böyük sosial qruplara aiddir;
2) ayrı-ayrı obyektlərə və ya mikroqruplara aid olan qarşıalma tədbirləri;
3) fərdi tədbirlər.

*Ümumdövlət* tədbirləri ölkənin ərazisində qüvvədə olan qanunlarda nəzərdə tutulur, təsərrüfatın, regionun çərçivəsində müəyyən şəxslər kontingentinə (qaçqınlar, miqrantlar) aid olaraq, təşkil edilir.

*Ayrı-ayrı obyektlərdə, mikroqrupda* cinayətlərin qarşısının alınması - konkret müəssisədə, istirahət zonasında, təhsil ocaqlarında və s. hüquqpozmalara şərait yaradan halların aşkar olunması və aradan qaldırılmasıdır.

*Fərdi* tədbirlər konkret şəxslərə, onların yaxınlarına xəbərdaredici təsirlərin edilməsini nəzərdə tutur.

*Məzmununa görə* cinayətkarlığın qarşısının alınması tədbirləri iqtisadi, siyasi, sosial, təşkilati-idarəetmə, mədəni-tərbiyəvi, hüquqi və s. tədbirləri təşkil edir.

*Mərhələlərə görə* cinayətkarlığın bilavasitə qarşısının alınması və cinayətlərin residivinin qarşısının alınması seçilir. Praktiki cəhətdən daha böyük əhəmiyyət profilaktika, qabağını alma, aradan qaldırma mərhələləri kəsb edir.

*Profilaktika* - cinayətlərin səbəblərinin, şəraitlərinin və digər determinantlarının aşkar olunması, aradan qaldırılması (neytrallaşdırılması,nəzarətə götürülməsi) üzrə tədbirlərdir. Məsələn, işə düzəlməyə kömək edilməsi, alkoqolizmdən müalicə.

*Qabağınıalma* - nəzərdə tutulan və ya hazırlanan cinayətlərin həyata keçirilməsi üçün görülən tədbirlərdir. Burada polislə əməkdaşlıq edən şəxslərin məlumatlarından istifadə olunması böyük əhəmiyyət kəsb edir.

*Aradan qaldırma* - başlanmış cinayətlərin qəsd olunma mərhələsində və ya davam edən cinayətlərin növbəti mərhələsinə son qoyulması üzrə hərəkətlərdir. Məsələn, tələ qurmaq, cinayət başında tutmaq.

*Cinayətlərin bilavasitə qarşısının alınması* - şəxsiyyətin formalaşması üçün əlverişli şəraitlərin aradan qaldırılması, mikromühitin sağlamlaşdırılması;



downloaded from KitabYurdu.az

cinayət yoluna düşmək ehtimalı daşıyan şəxslərin maraqlarının, tələbatlarının, davranışının korreksiyası ilə bağlı tədbirlərdir.

*Cinayətlərin residivinin qarşısının alınması* - cinayət törətmiş və cəza çəkmiş şəxslərin cinayət yoluna qayıtmaması üçün, xəbərdaredici təsirlərin görülməsidir.

*Cinayətkarlığın ümumi qarşısının alınması subyektləri* - bütün cəmiyyət, vətəndaşlıq cəmiyyətinin institutları, bütünlükdə dövlətdir.

*Cinayətkarlığın xüsusi qarşısının alınması subyektləri* - qanunvericiliklə müəyyən edilən dövlət və qeyri-dövlət, ixtisaslaşdırılmış və qeyri-ixtisaslaşmış subyektlərdir.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın profilaktikasına rəhbərliyi həyata keçirən subyektlər.

Cinayətkarlığın profilaktikasına rəhbərliyi həyata keçirən subyektlər Azərbaycan Respublikasının Prezidenti, qanunvericilik, məhkəmə və icra hakimiyyəti orqanlarıdır. Onlar cinayətkarlığın xüsusi qarşısının alınmasının qanunverici və hüquq-normativ əsasını təşkil edir, bu fəaliyyətdə iştirak edən digər subyektlərin səlahiyyətlərini, hüquq və vəzifələrini müəyyən edir, onun maliyyələşdirilməsi, maddi-texniki, kadr və digər ehtiyatlarla təchizat, planlaşdırma, nəzarət və dövlət idarəetməsi məsələlərini həll edir, müxtəlif səviyyələrdə məqsədyönlü tədbirləri həyata keçirirlər.

Bu məqsədlərə çatmaq üçün xüsusi rol oynayan müxtəlif dövlət nəzarəti orqanlarını qeyd etmək olar: Baş Dövlət Vergi Müfəttişliyi, Dövlət Antiinhisar və Sahibkarlığa kömək Komitəsi, Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi, Maliyyə Nazirliyi, sanitar-epidemioloji, meşə və balıq sərvətlərinin mühafizəsi orqanları və s.

Müxtəlif sahələrdə (ticarət, maliyyə, vergi, təbiətdən istifadə və s.) qanunların icrasını öz səlahiyyətləri çərçivəsində müşahidə edən bu orqanlar hüquq pozuntularını aşkar etmək və onlara təsir üçün müxtəlif vasitələrdən və metodlardan istifadə edirlər. Məsələn, hüquqi təsiretmə vasitələri olan təsərrüfat subyektlərinin fəaliyyətinin dayandırılması, lisenziyaların geri alınması, inzibati cərimələr və s. tətbiq olunur. Bu ölçülər cinayət tərkibi olmayan qanun pozuntularının cinayətə keçməsinin qarşısını alır, kriminogen amilləri aradan qaldırır.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın bilavasitə profilaktikasının subyektləri.

Cinayətkarlığın bilavasitə profilaktikasını ixtisaslaşdırılmış subyektlər həyata keçirirlər. Yəni bunlar cinayətkarlığın qarşısının alınması üçün yaradılır və bu fəaliyyəti əsas funksiya kimi həyata keçirirlər. Bura dövlət və qeyri-dövlət subyektləri daxildir.

İctimai strukturlardan bunlara ictimai asayişin qorunması məntəqələri, yoldaşlıq məhkəmələri, ictimai asayişin qorunması üzrə könüllü xalq drujinaları, müəssisələrin sərxoşluqla mübarizə üzrə komissiyaları, əmək kollektivlərinin profilaktika şuraları, prokurorların, müstəntiqlərin ictimai köməkçiləri, polisin ştatdankənar əməkdaşları aiddirlər. Hal-hazırda bu birliklərdən bəzilərinin (profilaktika şuraları) fəaliyyəti artıq dayanmaq üzrədir, digərlərinin isə (drujinalar) ixtisarı gedir.

İxtisaslaşdırılmış subyektlərə ictimai-dövləti orqanlar kimi fəaliyyət göstərən müşahidəçi, inzibati, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar aiddir. Bunlara yeni statusun verilməsi məsələsi yerli özünüidarəetmənin formalaşmasından sonra həll olunacaq.



downloaded from KitabYurdu.az

## Hüquq-mühafizə funksiyasının həyata keçirilməsində cinayət profilaktika subyektləri.

Hüquq-mühafizə orqanları qanunların icrasına nəzarəti həyata keçirir, onların pozulduğu halda qanunla müəyyən edilmiş qaydada tədbirlər görür, günahkar şəxsləri hüquqi məsuliyyətə cəlb edirlər. Bu daxili işlər, milli təhlükəsizlik, prokurorluq, kömrük, ədliyyə orqanları habelə, ədalət mühakiməsini həyata keçirən məhkəmələrdir. *Daxili işlər orqanları* - əməliyyat axtarış, inzibati-yurisdiksiya, cinayət-prosessual fəaliyyətini və cinayətlərlə, hüquq pozuntuları ilə mübarizə üzrə fəaliyyətin digər növlərini həyata keçirirlər. Bunun üçün onların tərkibində xidmətlər və bölmələr yaradılır, o cümlədən kriminoloji profilaktika üzrə ixtisaslaşmış bölmələr yaradılır.

Bilavasitə profilaktika funksiyalarını yetkinlik yaşına çatmayanların qanun pozuntularının qarşısının alınması üzrə bölmələr həyata keçirirlər. Onların fəaliyyət obyekti azadlıqdan məhrumetmə yerlərindən buraxılan; azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum olunan; xüsusi təhsil-tərbiyə ocaqlarından qayıdan; narkotik maddələrdən istifadə edən, sərxoşluq edən, cinayət xarakteri olmayan hüquq pozuntuları törədən yeniyetmələr və əxlaqsız və ya davranışında cinayət törətmə ehtimalı daşıyan yetkinlik yaşına çatmayanların digər kateqoriyalarıdır.

Polis uçotunda dayanan çətin yeniyetmələrə bilavasitə tərbiyəvi profilaktik təsirin göstərilməsi ilə yanaşı, bu bölmələr onların sosial mikromühitinin sağlamlaşması üzrə, uğursuz ailələrin onlara ziyanedici təsirini aşkar edib aradan qaldırılması üzrə böyük iş aparırlar. Polis tərəfindən həyata keçirilən cinayətlərin sosial- kriminoloji qarşıalınması sistemində əhaliyə daha yaxın olan sahə müvəkkillərinin xidməti mərkəzi yer tutur.

Cinayətlərə, habelə onların törədilməsi ehtimalını daşıyan hərəkətlərə operativ reaksiya verməsində polisin növbətçi hissələri böyük rol oynayırlar.

Digər bölmələrin fəaliyyətlərinin nəticələri əsasən bu xidmətin səmərəli işləməsindən asılıdır. Küçələrdə və digər ictimai yerlərdə ictimai asayişin qorunmasını təmin edən patrul-nəzarət xidməti də böyük qarşıalma potensialına malikdir. Patrul xidməti apararkən bu xidmətin əməkdaşları, vəziyyətdən asılı olaraq ya bilavasitə hüquqazidd hərəkətin qarşısını alır, yaxud kriminal təhlükə barədə növbətçi hissələrə, əməliyyat axtarışı və digər xidmətlərə dərhal siqnal verirlər.

Avtomotonəqliyyatla bağlı cinayətin qarşısının alınmasına yönələn kompleks tədbirləri Dövlət Yol Polisi idarəsi həyata keçirir.

Müəssisədənkənar mühafizə bölmələrinin fəaliyyəti oğurluqların, banditizm və quldurluq kimi cinayətlərin qarşısının alınması məqsədinə xidmət edir.

Daxili İşlər orqanlarının istintaq aparatları, cinayət işlərinin istintaqı zamanı cinayətin səbəb və şəraitini aşkar edir, onların aradan qaldırılması barədə təqdimatlar göndərir, hüquqi maarifləndirmə və tərbiyədə iştirak edirlər.

Yanğın təhlükəsizliyi orqanları yanğınların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması üzrə profilaktik iş aparırlar.



downloaded from KitabYurdu.az

*Milli təhlükəsizlik orqanları* casusluğun, terror fəaliyyətinin, mütəşəkkil cinayətkarlığın, korrupsiyanın, silahın və narkotik maddələrin qanunsuz dövriyyəsinin, qaçaqmalçılığın və digər cinayətlərin qarşısının alınması (profilaktikası, aradan qaldırılması) üzrə tədbirləri həyata keçirirlər, onların səlahiyyətinə aid olan dindirmə və ibtidai istintaqı aparırlar.

*Kömrük orqanları:* qaçaqmalçılığın, kömrük ödənişlərinin verilməsindən qəsdən boyunqaçırma faktlarının; kütləvi qırğın silahının, hərbi texnikanın və sursatın istehsalı üçün istifadə olunan əmtəənin, elmi-texniki informasiyanın və xidmətlərin qanunsuz ixracının; xalqın mədəni və tarixi sərvətlərinin ölkəyə qaytarılmaması və digər cinayətlərin qarşısının alınması üzrə tədbirləri həyata keçirirlər.

*Sərhəd qoşunları* (birinci növbədə onların əməliyyat-axtarış aparatları) dövlət sərhəddində rejimin, sərhədboyu rejimin və nəzarət-buraxılış məntəqələrində rejimin pozulması ilə bağlı cinayətlərin qarşısını alırlar.

*Ədliyyə orqanlarının* tərkibində olan *notariatın* bazar iqtisadiyyatında keçid dövründə rolu artmışdır. Bu mülki hüquq münasibətlərinin yeni subyektlərinin yaranması; əmtəənin, xidmətlərin maliyyə vəsaitlərinin azad dövriyyəsinin gücləndirilməsi; müqavilə təcrübəsinin genişləndirilməsi ilə bağlıdır.

Hüquqi amilləri, əqdləri təsdiq edərək, irsi və mülkiyyət hüquqlarını möhkəmləndirərək notariuslar müxtəlif hüquq pozuntularının, xüsusən iqtisadi sahədə olan qanun pozuntularının qarşısının alınmasına kömək edirlər.



downloaded from KitabYurdu.az

## Nəzarət funksiyasının həyata keçirilməsində cinayətlərin profilaktikasının subyektləri.

Xüsusi - kriminoloji qarşıalma subyektlərinin arasında *prokurorluq orqanlarının* yeri onların statusu ilə müəyyən edilir. Prokurorluq orqanları dövlətin adından ölkə ərazisində qüvvədə olan qanunların eyni cür və dürüst icra və tətbiq edilməsinə nəzarəti həyata keçirirlər. Bu nəzarətin arasında birinci növbədə nazirliklər, idarələr, icrə hakimiyyəti orqanlarının, yerli idarəetmələrin, onların vəzifəli şəxslərinin qanunların icrası üzərində nəzarətin həyata keçirilməsi böyük yer tutur.

Protest vermək, cinayət və inzibati işləri qaldırmaq yolu ilə həyata keçirilən nəzarətin nəticəsində mülkiyyət, özəlləşdirmə, torpaq, vergi, xarici iqtisadi əlaqələr, maliyyə-kredit sahəsində qanunvericiliyin pozulması faktları aşkar edilir və aradan qaldırılır, bu isə iqtisadi əlaqələrin sabitləşməsinə xidmət edir, təsərrüfat, vəzifə cinayətlərin şərait və səbəblərini kökündən qırır.

Son zamanlar prokurorluğun hüquq-müdafiə rolu gücləndirilib və vətəndaşların siyasi, əmək, mülkiyyət və digər hüquqlarına qəsd edən cinayətlərin qarşısının alınması üzrə böyük iş görülüb.

Cinayətlərin qarşısının alınmasına əməliyyat-axtarış, dindirmə, ibtidai istintaq fəaliyyətini aparan orqanlar üzərində qanunların icrasına nəzarətin həyata keçirməsi gömək edir. Bu zaman prokurorluq nəzarəti qanunazidd fəal hərəkətlərə (məsələn, profilaktik tədbirlərin keçirilməsi zamanı vətəndaşların hüquqlarının pozulması) və yaxud hərəkətsizliyə (profilaktika tədbirlərinin görülməməsi) reaksiya verir.

Cinayətlərin residivinin qarşısının alınması üçün cəzaçəkmə yerlərində onların rəhbərliyinin qanunvericiliyə əməl olunmasına nəzarətin böyük əhəmiyyəti var.

Prokurorluğun digər xəbərdaredici fəaliyyətinin istiqamətlərindən biri də məhkəmələrdə işlərə baxılarkən qanunçuluğa riayət edilməsinə, cəza növlərinin təyin edilməsinə nəzarətdir.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın qarşısının alınmasının sosial-iqtisadi və təşkilati əsasları.

Hüquq-mühafizə orqanlarının və ixtisaslaşdırılmış ictimai birliklərin çətin yeniyetmələrin, polis uçotunda duranların asudə vaxtının təşkili üzrə məqsədyönlü səyləri ancaq elə şəraitdə müsbət nəticələr verə bilər ki, cəmiyyət, dövlət, onun təhsil-tərbiyə strukturları böyüyən nəslin həyat təminatlı məsələlərinə, inkişafına lazımi diqqət yetirsinlər. Bunun üçün zəruri vəsaitlər ayrılmalı, uşaqların vəziyyətinin yaxşılaşdırılması və hüquqlarının müdafiəsi, işsizliyin aradan qaldırılması üzrə hərtərəfli işlənilmiş sosial siyasət həyata keçirilməlidir.

Həmçinin iqtisadi, mülkiyyət əleyhinə cinayətlərin qarşısının alınması tədbirləri o zaman nəticəli olar ki, onlar iqtisadi, maliyyə, nəzarət mexanizmlərinin normal işi şəraitində görülsünlər.

Məlumdur ki, bu gün toxunulan istiqamətdə müəyyən addımlar atılmaqdadır - hüquq-mühafizə orqanlarında struktur dəyişiklikləri aparılır, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək məqsədilə yeni qurumlar formalaşdırılır və s.

Məlum olduğu kimi, bazar iqtisadiyyatına keçid uzun illər formalaşmış, idarəetmə və iqtisadi mexanizmlərin , qurumların dağılması və yeni, əvvəllər məlum olmayan münasibətlərin formalaşması ilə müşayiət olunur. Mülkiyyətin yeni formalarının meydana gəlməsi, özəlləşdirmə, torpaq islahatı kimi problemlərin ortaya çıxması qeyd olunan dövrü xarakterizə edən xüsusiyyətlərdən olmaqla bərabər, müvafiq hüquqi nizamasalmanın olmasını da tələb edir.

Bank sisteminin genişlənməsi, müxtəlif xarakterli yeni müəssisələrin, şirkətlərin, assosiasiyaların, firmaların və s. yaranması cəmiyyətin iqtisadi mexanizmini şübhəsiz ki, mürəkkəbləşdirir. Cəmiyyətdə baş verən proseslərin sosial-iqtisadi mahiyyəti və təyinatı baxımından yeni yaranan münasibətlərin hüquqi bazasının zəif olması nəticəsində ayrı-ayrı sahələrdə, xüsusən bank fəaliyyətində özbaşınalıqlar, vəzifədən sui-istifadə halları, cəmiyyətin iqtisadi əsasına, təsərrüfat sisteminə ağır zərbə endirən müxtəlif xarakterli, ictimai təhlükəli əməllər təzahür edir.

Cinayətkarlığa qarşı mübarizənin bütün cəmiyyətin vəzifəsi olması, hər cür kriminal təzahürə qarşı barışmaz vətəndaşlıq mövqeyinin zəruriliyi demokratik dövlət quruculuğu yolunda vacib şərtlərdən olmasını çoxları tərəfindən lazımi səviyyədə qəbul edilmədiyindən, cinayətkarlığa qarşı mübarizənin səmərəli ideoloji əsasını yaratmaq hələ mümkün deyil. Əvvəllər profilaktika sisteminin xalq drujinaları, yoldaşlıq məhkəmələri və başqa bu kimi qurumları, geniş ictimaiyyəti cəmiyyətdə asayişin, hüquq qaydalarının qorunmasına cəlb edirdisə, bu gün artıq bu profilaktika sistemi, qeyd edildiyi kimi dağılmış, onun əvəzinə isə keyfiyyət və kəmiyyət baxımından olduqca mürəkkəb məzmun alan müasir cinayətkarlığa qarşı mübarizə üçün müvafiq səmərəli sistem formalaşdırılmamışdır.



downloaded from KitabYurdu.az

Yuxarıda qeyd etdiyimiz kimi, cinayətkarlıqla mübarizə işindəki uğursuzluqlar bu ciddi problemə proqramsız və sistemsiz münasibətlə bağlıdır. Təəssüf doğuran haldır ki, cəmiyyətin yeni sistemə sosial iqtisadi transformasiyası ilə xarakterizə olunan bu ağır keçid dövründə cinayətkarlığa qarşı mübarizənin proqramı yoxdur. Halbuki, belə bir proqramın hazırlanması Azərbaycan Respublikası Prezidentinin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı ilə hüquq mühafizə orqanları qarşısında bir vəzifə kimi qoyulmuşdur.*

Bütün bü tədbirlər uzunmüddətli proqramların hazırlanıb, həyata keçirilməsini nəzərdə tutur. Məsələn, iqtisadiyyat sahəsində müasir texnologiyalar əsasında istehsalın inkişafı, düşünülmüş struktur və investisiya strategiyası, mülkiyyətin ədalətli bölüşdürülməsi, milli valyutanın möhkəmləndirilməsi, inflyasiyanın azaldılması və digər iqtisadi münasibətlərin təkmilləşdirilməsi vacib məsələ kimi xüsusi əhəmiyyət kəsb edir.

Cinayətkarlığın qarşısının alınması üçün təşkilati tədbirlərdən aşağıdakılar vacibdir:

1. Cinayətkarlığın qarşısının alınması üzrə ixtisaslaşmış strukturların yaradılması (xidmətlər, bölmələr) və ya bu məsələləri başqa funksiyaları yerinə yetirən subyektlərin üzərinə qoyulması.
2. Keyfiyyətli informasiya təminatının təşkili. Bu həm hüquqi (və ya kriminoloji), həm də iqtisadi, siyasi, sosial, demoqrafik, sosial-psixoloji, tibbi və s. informasiya olmalıdır.
3. Qarşıalmanın planlaşdırılması. Bu dövlət proqramları; başqa sahəyə aid olan dövlət proqramlarının daxilində ayrıca bölmələrində nəzərdə tutulmuş tədbirlər; hüquq mühafizə orqanlarının strukturunda olan xidmətlərin cari iş planlarıdır.
4. Hərtərəfli əməkdaşlıq, işgüzar görüşlər, məsləhətləşmələr zamanı təcrübə mübadiləsi.
5. Cinayətkarlığın qarşısının alınması fəaliyyətinin təşkili üçün maddi-texniki, maliyyə, kadr təchizatı və s.
6. Bu fəaliyyətin həyata keçirilməsi üçün kadrların hazırlanması, ixtisasının artırılması.

---

* Ç.Mustafayev. Müasir şəraitdə cinayətkarlığa qarşı mübarizənin bəzi problemləri. "Qanunçuluq" jurnalı. № 10, 1997.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsasları.

Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarına hüququn müxtəlif sahələrinin normaları daxildir.

Bu fəaliyyətin məzmunu və əhəmiyyətini, ədalət, humanizm, qanunçuluq prinsiplərinə uyğun olaraq İnsan hüquqlarının Deklarasiyasına, Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta, Qanunçuluğun qorunması üzrə vəzifəli şəxslərin davranış Kodeksinə, Cinayətin qurbanlarının və vəzifədən sui-istifadələr barədə ədalət mühakiməsi prinsiplərinin Deklarasiyasına və digər beynəlxalq aktlara əsaslanır.

Profilaktik tədbirlərin hüquqi təminatı üçün Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələri də böyük əhəmiyyət kəsb edir. Məsələn, AR Konstitusiyasının 12-ci maddəsinə uyğun olaraq "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir".

13-cü maddəyə uyğun olaraq "Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz".

15-ci maddəyə uyğun olaraq "Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

25-ci maddəyə uyğun olaraq "İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

33-cü maddəyə uyğun olaraq "Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz".

46-cı maddənin 2-ci bəndinə uyğun olaraq "Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz", 3-cü bəndinə uyğun olaraq "Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz".

63-cü maddəyə uyğun olaraq "Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır".

67-ci maddəyə uyğun olaraq "Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir".

Cinayətkarlığın qarşısının alınmasının hüquqi əsaslarını Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin maddələri də təşkil edir. Məcəllənin bir sıra maddələrinin sanksiyalarında bir neçə cəza növünün verilməsi (cərimə, islah işləri və azadlıqdan məhrumetmə), məcburi tibbi xarakterli müalicənin tətbiq edilməsi kriminogen amillərə böyük profilaktiki təsiri göstərir.

Bunlardan əlavə, islah-əmək qanunvericiliyinin cəzaçəkmə yerlərindən azad etmə qaydası, azadlığa buraxılanların əmək və məişətinin düzəlməsi, onlar



downloaded from KitabYurdu.az

üzərində nəzarətin aparılması qaydalarını tənzimləyən normalar cinayətin qarşısının alınmasının hüquqi əsaslarını təşkil edir.

Beləliklə, cinayətkarlığın qarşısının alınmasının hüquqi tənzimlənməsi üçün hüququn bütün sahələrinin normaları böyük rol oynayır.



downloaded from KitabYurdu.az

# Altıncı fəsil.

# Qərb kriminologiyasında cinayətkarlığın səbəblərinə dair təlimlər.

**Qərbdə kriminologiyanın inkişafı tarixi. Cinayətkarlığın səbəblərinə dair regional təlim. Cinayətkarlığın səbəblərinə dair sosioloji təlim. Müasir xarici kriminologiyanın əsas istiqamətləri. Cinayətkarlıqla mübarizənin nəzəriyyəsində və təcrübəsində kriminoloji və sosioloji irsdən müsbət və yaradıcı istifadənin imkanları.**

## Qərbdə kriminologiyanın inkişaf tarixi haqqında.

Qərb kriminologiyası cinayətkarlığın səbəbləri və cinayətkarlığa təsir tədbirlərinin işlənilməsinin müxtəlif nəzəriyyələrini özündə birləşdirir. Bunlar iki böyük qrupa - bioloji və sosioloji səmtləşmədə olan nəzəriyyələrə bölünür.

***Bioloji səmtləşdirmənin kriminoloji nəzəriyyələri.***

20-ci illərdə alman alimləri eyni genotipi olan əkiz cinayətkarları müayinə edərək, cinayətkar davranışının mexanizmində təbii təmayüllərin həlledici yer tutmasını sübut etməyə cəhd göstərmişlər. Lakin sonralar bu metod şübhə altına alınmışdır, çünki o əkizlərin eyni cinayətlərin törədilməsini irslə və ya tərbiyəsinin eyni şəraitləri ilə bağlı olmasını izah etmirdi. Bu metodla yanaşı biokimya analizinin metodikasından da istifadə edirdirlər.

Cinayətkarın endokrin sisteminin öyrənilməsi göstərmişdir ki, məhkumların 1/3 daxili sekresiya vəzlərinin xəstəliyi ilə bağlı emosional cəhətdən qeyri sabitdirlər.

60-cı illərdə xromosom meyilliliyinin tədqiqatı gedir. Lakin sonrakı tədqiqatlar bu məlumatları təsdiq etmir və genotip nəzəriyyəsinin tərəfdarları qalmır. Amma onların bir qismi klinik kriminologiyaya daxil olur.

### Cinayətkarlığın səbəblərinin psixiatrik konsepsiyaları.

20-ci əsrin əvvəllərində amerikalı kriminoloqlar cinayətkarların əqli inkişafını tədqiq edərək belə nəticəyə gəlmişlər ki, məhkumların 70 %-i kəmağıldırlar. Lakin sonrakı tədqiqatlar bu nəticələri təkzib etmişdir. Müəyyən olunmuşdur ki, cinayətkarların çoxu ünsiyyətə həvəslə getmir, öz fikirlərini çətinliklə izah edir və bu çox vaxt əqli geri qalmaqla bağlı deyil, məsuliyyətdən boyun qaçırmaq üçün istifadə edilir.

Cinayətkarlığın analizinə psixiatrik yanaşmanın inkişafına yeni istiqaməti Z.Freydin tədqiqatları verir. Z.Freydin nəzəriyyəsinin əsasını insana irsən keçən üç təbii təmayül təşkil edir: ***o, mən və məndən üstün***.

**O** iki instinkdən ibarətdir: özünüqoruma və dağıtma (həm xaricə, həm daxilə yönəlmiş ola bilər). **Mən** şüur və ağıllılıqdır, **onun** üstündə hakimiyyəti var.



downloaded from KitabYurdu.az

**O məndən** üstün olanın nəzarəti altından çıxanda cinayətlər törədir.*

**Klinik kriminologiyada** 19-cu əsrdə **cinayətkarın təhlükəli vəziyyəti konsepsiyası** işlənilir. Bunun məzmunu ondan ibarətdir ki, cinayətkarı cəzalandırmaq yox, cinayətə artmış meyl vəziyyətindən çıxarmaq lazımdır.

Klinik təsiretmə ardıcıl olaraq aşağıdakı mərhələlər üzrə həyata keçirilir: diaqnoz, proqnoz, yenidən tərbiyə etmə. Burada psixoanaliz, elektroşok, cərrahiyyə metodikasından istifadə olunur. Bu istiqamətin alimləri tərəfindən işlənilən cinayətkarlığa təsiretmə metodları cinayətkarların müəyyən olunmamış müddətə cəzalandırılması ilə bağlıdır. Yəni cinayətkar həkimlərin, psixiatrların komissiyasının onun təhlükəli vəziyyətinin keçməsi barədə rəyi verilənədək azadlıqdan məhrum edilir. Bu praktika 70-80-ci illərdə bir sıra ölkələrdə, o cümlədən, ABŞ-da geniş yayılır. Lakin bu metodika cəmiyyətin sağlamlaşdırılmasına gətirib çıxarmır və 80-ci illərdən cinayət cəzasının təyin edilməsinin ənənəvi praktikasına maraq yaranır.

---

* Z.Y. Freyd. Mən və o. Şüursuzluğun psixologiyası. M, 1989, s. 431, 437



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın səbəblərinə dair regional təlim.

Regional təlim ərazi vahidliyi, iqtisadi həyatı, sosial şəraiti, mədəniyyəti, sosial psixologiyası bir olan regionun cinayətkarlığının vəziyyətini təhlil edir.

Müəyyən olmuşdur ki, cinayətkarlığın ərazi fərqləri onlarda gedən proseslərin xüsusiyyətləri ilə bağlıdır. Bunlar aşağıdakıların nəticəsidir:

1. Sosial-iqtisadi, sosial-mədəni, təşkilati-idarəetmə, hüquqi xarakterli təzahürlərin regional spesifikasının;
2. Bu təzahürlərin regionlardakı dinamikasının xüsusiyyətlərinin;
3. Bir regionda baş verən təzahürlərin qarşılıqlı təsirinin spesifikasının.

Cinayətkarlığın regional fərqlərinin əsas xarakteristikalarını sosial-iqtisadi proseslər təşkil edir. Sosial-iqtisadi dəyişikliklər cinayətkarlığa təsirini birdən yox, müəyyən müddətdən sonra göstərir. Çünki cinayətkarlığı bilavasitə iqtisadi proseslər yox, onların idarəetmədə, cinayətkarlığın qarşısının alınması işində nəzərdə tutulmadığına görə , yarandığı mənfi nəticələri doğurur.

Bundan başqa cinayətkarlığa coğrafi amilin də təsir etməsi müəyyən olunmuşdur. Hələ Monteskye yazırdı ki, ekvatora yaxınlaşdıqca cinayətkarlıq böyüyür, qütblərə yaxınlaşdıqca isə sərxoşluq artır.*

1825-ci ildə H.Şampnef qeyd edirdi ki, Fransanın cənubi rayonlarında şimali rayonları ilə müqayisədə cinayətkarlığın strukturunda mülkiyyət cinayətləri daha çoxdur.

Rus kriminoloqları müəyyən ediblər ki, cənubi rayonlara daha çox tamah məqsədilə edilən iqtisadi cinayətlər və ya onlara bərabər digər zorakılıqla edilən təhlükəli cinayətlər xasdır. Cinayətkarlığın belə vəziyyəti dövlət orqanlarının, bankların və digər idarələrin yerləşdiyi paytaxt şəhərlərə də məxsusdur.

* Monteskye "Qanunların ruhu", M, 1955.



downloaded from KitabYurdu.az

## Cinayətkarlığın səbəblərinə dair sosioloji təlim.

Sosioloji kriminologiyanın əsasını 19-cu əsrdə A.Ketli, Q.Tard və digərləri qoymuşlar. 20-ci əsrdə sosioloji kriminologiya əsasən ABŞ-da inkişaf edir.

***Anomiya konsepsiyası.***

Bu konsepsiyanın əsas ideyası ondan ibarətdir ki, cinayətkarlığın səbəbi cəmiyyət tərəfindən insanları istiqamətləndirən dəyərlərlə və onlara çatmaq üçün imkanlar arasında olan ziddiyyətdir. Bu uyğunsuzluq ona gətirib çıxarır ki, ümumi qaydalarla bu dəyərlərə çata bilməyən insan, onları təkzib etməyə başlayır və nəyin bahasına olursa olsun onlara çatmağa cəhd göstərir. Cavanlar tərbiyəçilərinin onlara tədris edilən təlimlər əsasında qurduqları ideal dünyadan real həyata düşəndə, öyrəndiklərinin illyuziya olmasını görüb təəsüflənir, pis yola düşürlər.**

Bu nəzəriyyə R.Kennediyə güclü təsir etmiş və onun təşəbbüsü ilə yetkinlik yaşına çatmayanların cinayətlərinin qarşısının alınması barədə qanun qəbul edilmişdir. Dövlət və fərdi fondlardan gənclərin imkanlarının genişləndirilməsi üzrə proqram üçün milyonlarla dollarlar ayrılmışdır. Nəticədə cavanların cinayətkarlığının tempi müəyyən qədər azalmışdır.

***Stiqma nəzəriyyəsi.***

F.Tannenbaum cinayətkar davranışın problemlərini öyrənərkən belə nəticəyə gəlir ki, cəmiyyətin cinayətlərə düzgün reaksiya verməməsi ən böyük əhəmiyyətli kriminogen amillərdən biridir.**

Bu konsepsiya stiqma nəzəriyyəsinin əsasını təşkil edir. “Stiqma” latın dilindən damğa deməkdir. Bu nəzəriyyənin müəllifləri aksioma kimi tarixdən olan faktı götürürlər: bir vaxtlar cəza növü kimi yayılmış cinayətkarların damğalanması onları cəmiyyətdən təcrid edirdi və bu cəza əksinə olaraq cavab reaksiyası kimi yeni, daha ağır cinayətləri doğururdu.

Cinayətkarlarla cinayətkar olmayanların arasında olan fərqləri axtararkən, “ağ yaxalıqlıların” cinayətkarlığının fenomeni açılmışdır. Cəmiyyətin yuxarı təbəqələrinin nümayəndələri tərəfindən törədilən oğurluq, vəzifədən sui-istifadə etmə, korrupsiya, təsərrüfat və iqtisadi cinayətlərin faktları analiz edilərkən, belə bir nəticə əldə edilmişdir ki, bunlar öz ictimai təhlükəlilik dərəcəsinə və ziyanın məbləğinə görə cəmiyyətin aşağı təbəqələrinin nümayəndələri tərəfindən törədilən cinayətlərdən qat-qat üstündür. Lakin birincilər çox vaxt cəzasız qalır, ikincilərə isə məhkəmə sistemi cinayətkar damğası vurur və bununla onların cəmiyyətdən təcrid olunmasına və cinayət yoluna düşməsinə səbəb olur.

Buradan praktiki nəticə çıxarılmışdır ki, bir çox işlərə cinayət damğasını vurmaqdansa, cərimə sanksiyalarından geniş istifadə olunması daha məqsədəuyğundur.

* Merton R. Sosial Structure and Anomi (American Sosiological Review, 1938. №3, P.672-682


downloaded from KitabYurdu.az

** F.Tannenbaum. Crime and the Commutiny. New- York, 1938

Bu tövsiyyələr bir sıra ölkələrdə həyata keçirilmiş və müsbət nəticə vermişdir; ölkələrin çoxunda qısa müddətli azadlıqdan məhrumetmə ləğv edilmiş, digərlərində - cinayətkarların cəmiyyətdən tam ayrılmamaq şərtilə həbsə alınma praktikası yaranmışdır (yəni məhkumları istirahət günləri evə buraxırlar, onlar ictimai həyatda iştirak edirlər, təhsil alırlar və s.).

**Differensial assosiasiya nəzəriyyəsi.**

E.Saterlendin irəli sürdüyü differensial assosiasiya nəzəriyyəsinin əsas prinsipləri bundan ibarətdir ki, uşağın tərbiyəsi alicənab cəmiyyətdə baş verirsə, onda o qanunauyğun davranışın standartlarını dərk edir. Əgər uşaq cinayətkar elementlərlə əlaqə saxlayırsa, onda o müvafiq şüur və hərəkətləri götürür. Saterlend həm də qeyd edir ki, cinayətkar düşüncələr, vərdişlər qeyri-rəsmi ünsiyyət zamanı keçir, müəllimlərin, valideynlərin isə rəsmi ünsiyyəti çətin dərk olunur.*

Nəzəriyyənin elmi əhəmiyyəti onda olmuşdur ki, cinayətkarlığın səbəblərinin və profilaktika tədbirlərinin əsasına təlim fenomeni qoyuldu. Yəni peşəkar  cinayətkarların cavan qanun pozucularını şagird kimi yetişdirməsi prosesi analiz edilir, türmə cinayətkarlıq məktəbi kimi öyrənilir. Bunun əsasında kriminoloji təcrübə mübadiləsinin qarşısının alınması üçün məhkumların qruplara bölünməsi və ayrı saxlanılması tövsiyyələr hazırlanır.

**Cinayətkarlığın səbəblərinin öyrənilməsinin viktimoloji istiqaməti.**

Cinayətkarlığın səbəblərinin öyrənilməsinin viktimoloji istiqamətinin əsasını 1941-ci ildə H.Hentinq qoymuşdur. Viktimoloqların əsas ideyası ondan ibarətdir ki, cinayət davranışının motivasiyasına cinayətin qurbanının davranışı təsir edir. O cinayətkar davranışı yüngülləşdirə və ya əksinə ağırlaşdıra bilər.

Viktimlik bir sıra amillərdən asılıdır: a) şəxsi xarakteristikalardan; b) vəzifəli şəxsin hüquqi statusundan - yəni onun vəzifəsi cinayətkar qəsdə məruz qalması təhlükəsini daşıya bilər; v) vəziyyətin xüsusiyyətindən, vaxtından, yerindən.

Beləliklə, viktim amillərə təsir edərək cəmiyyət viktimliyin aşağı düşməsinə nail olub, cinayətkarlığa təsir göstərə bilər. Burada şəxslərə kriminogen vəziyyətə düşəndə necə davranış etməyin öyrədilməsi; vəzifəli şəxslərə mühafizə üsullarının öyrədilməsi; viktimli vəziyyətlərin qarşısının alınması; zərərçəkənlərin reabilitasiya məsələləri mühüm əhəmiyyət kəsb edir.



downloaded from KitabYurdu.az

* E. Saterlend. "Kriminologiyanın prinsipləri" Monoqrafiyası.

## Müasir xarici kriminologiyanın əsas istiqamətləri.

20-ci əsrin birinci yarısında Qərb Avropasında və ABŞ-da cəmiyyətəzidd hallarla mübarizədə əsas yer polisin gücünə verilirdi.

70-ci illərdə cinayətkarlığa nəzarət anlayışı geniş məna alır. Cinayətkarlığa nəzarət artıq tək polisin, ədliyyənin fəaliyyətini deyil, həm də sosial inkişaf, həyat səviyyəsinin yüksəlməsi, tədqiqatlar üzrə proqramların tətbiq edilməsini əhatə edirdi.

Cinayətkarlığa nəzarət nəzəriyyəsinin və praktikasının öz yüksəlişləri və enmələri olub. Bu illərdə klinik kriminologiyanın irəli sürdüyü sosial islahatlar və qeyri cəzalandırıcı təsir praktikası xüsusi maraq doğururdu.

Lakin 80-cı illərdə aydın olur ki, cinayətkarlıqdan yaxa qurtarmaq ümidləri bir ilyuziyadır və yenə də ənənəvi tədbirlərə (polis çubuğu və türmə kamerası) maraq bərpa edilir.

Böyük Britaniyada M.Tetçerin hökuməti və ABŞ-da R.Reyqanın administrasiyası cinayətkarlıqla mübarizədə əsas gücü polis qüvvələrinin gücləndirilməsinə və türmə sisteminin genişlənməsinə yönəldirlər.

80-cı illərdə polisə ayrılan xərclər üç dəfə artır, lakin bununla belə cinayətlərin sayı da iki dəfə artır.

Polisin səlahiyyətləri genişlənir, cinayətlərin açılması sayı isə aşağı düşür. Bundan başqa cəmiyyətin gözündə polisin ənənəvi nüfuzu da düşür.

Aydın olur ki, cinayətkarlığı hücumla yox, xüsusi tədbirlər tətbiq etmək şərtilə uzunmüddətli mühasirənin təşkili yolu ilə dəf etmək olar.

Nəzəri konsepsiyalar arasında aparıcı yeri neoklassisizm tutur. İsveçrədə hüquq qanunvericiliyinin islahatları aparılaraq, cəzalandırıcı tədbirlər görülür, türmələrin sayı artır. Lakin həmin İsveçrə Avropada cinayətkarlığın səviyyəsi üzrə lider olur.

Onda yapon həmkarlarına baxıb, avropalı və amerikalı polislər kobud üslubdan əl çəkirlər. 80-cı illərin axırında Qərbi Avropa ölkələrinin əksəriyyətində polis əsas gücünü yetkinlik yaşına çatmayanlarla tərbiyə, əhalinin cinayətkarlardan səmərəli mühafizə üzrə məsləhətləşdirmə işinə yönəldir.

90-cı illərdə inkişaf etmiş ölkələrdə kriminal fenomenə qarşıdurmada sistemlik prinsipi xüsusi əhəmiyyət alır. Bu prinsip polis və türmə tədbirlərinə kriminalın nisbi stabilliyinin təmin edilməsində qarant rolunu ayırır.



downloaded from KitabYurdu.az

## Cinayətkarlıqla mübarizənin nəzəriyyəsində və təcrübəsində kriminoloji və sosioloji irsdən müsbət və yaradıcı istifadənin imkanları.

Xarici ölkələrdə aparılan cinayətkarlıqla mübarizənin müasir təcrübəsinin analizi göstərir ki, kriminoloji konsepsiyalardan ən çox işlənilən əsasən aşağıdakılardır:

1. Cinayətkarlığa nəzarət doktrinası;
2. Anomiya nəzəriyyəsi;
3. Differensial assosiasiya nəzəriyyəsi;
4. Viktimoloji nəzəriyyə.

Digər nəzəriyyələr xaricdə populyardır, lakin cinayətkarlıqla mübarizə təcrübəsinə onların təsiri azdır. Məsələn, xaricdə həbsetmə cəzasının tətbiqi azalır, lakin bunun əsasını stiqma nəzəriyyəsi yox, iqtisadi amillər təşkil edir (türmələr dolur, böhran gedir).

Klinik kriminologiya sahəsində tədqiqatlar davam edir. Psixoloqların, psixofizioloqların elmi işlərinin nəticələrini cəmiyyət böyük ümidlə izləyir.

Fundamental funksiyaları isə müasir dövrdə klassik istiqamət yerinə yetirir. Klassik tədbirlərin tətbiq edilməsi (polis nəzarəti, cinayət məsuliyyətinə cəlbedilmə, azadlıqdan məhrumetmə) cinayətkarı müəyyən çərçivədə saxlamağa imkan verir. Bu istiqamətin evolyusiyasının ehtimal olunan mərhələləri bunlardır:

1. Cinayətkarlıqla mübarizənin məqsədlərinə adekvat olan cəzalandırıcı məhkəmə təcrübəsinin işlənilməsi;
2. Azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza növlərinin inkişafı;
3. Təhlükəli cinayətkarların təcridetmə müddətlərinin uzadılması;
4. Azadlıqdan məhrumetmə metodlarının humanistləşməsi (türmələrdə insan üçün normal məişət şəraitininin yaradılması).



downloaded from KitabYurdu.az

# Xüsusi hissə.

## Yeddinci fəsil.

## Mülkiyyət əleyhinə edilən cinayətlər və onların qarşısının alınması.

**Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətlərin kriminoloji xarakterizəsi. Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətləri doğuran hallar. Mülkiyyət əleyhinə edilən cinayətlərin qarşısının alınmasının ümumi sosial və xüsusi kriminoloji tədbirləri.**

### Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətlərin kriminoloji xarakterizəsi.

Mülkiyyət əleyhinə tamah məqsədli cinayətkarlıq- tamah motivi əsasında, özgənin əmlakı hesabına əsassız varlanma məqsədilə, vəzifədən sui-istifadə etmədən, iqtisadi sahədə olan münasibətləri və təsərrüfat əlaqələrini pozmamaq şərtilə törədilən, özgənin mülkiyyətinin bilavasitə qeyri-qanuni yolla əldə edilməsindən ibarət olan cinayətlərin məcmuusudur.

Bu birinci növbədə oğurluq, quldurduq, soyğunçuluq, dələduzluq, hədə-qorxu ilə tələb etmədir.

Tamah məqsədli cinayətlərin aşağıdakı üç xüsusiyyəti var:

1. Bu özgə əmlaka qəsdlərdir.

Mülki Məcəlləyə əsasən əmlaka aiddir: əşyalar, o cümlədən pullar və qiymətli kağızlar, əmlak hüquqları; informasiya; intellektual fəaliyyətin nəticələri, o cümlədən onlara olan hüquqlar.

Tamah məqsədli cinayətlərdə əsasən əşyalara qəsd edilir. Hədə-qorxu ilə tələb etmə əmlaka olan hüququn verilməsi tələbi ilə bağlıdır.

Cinayətkar üçün həm fiziki, həm də hüquqi şəxslərin əmlakı özgə ola bilər. Əmlakın mülkiyyətçisi dövlət, təşkilat, birlik, şəxsiyyət ola bilər (burada fərqi yoxdur şəxs əmlakı istifadə edir və yaxud idarə edir).

2. Tamah məqsədi - müqəssirin xeyrinə özgə əmlakın ödənişsiz qanunazidd yolla alınması. Burada varlanmaq, maddi qazanc əldə etmək motivi var.

3. Tamah məqsədli qəsd təsərrüfat fəaliyyətindən kənarda və yaxud müqəssirin istehsalatda, maddi dəyərlərin dövriyyəsi sahəsində olan vəziyyətindən istifadə etmədən törədilər. Yəni bura müqəssirə xidmət yerində etibar edilmiş əmlakın mənimsəmə və ya israf etmə yolu ilə oğurlanması aid deyil.

Praktiki olaraq tamah məqsədli mülkiyyət əleyhinə cinayətlər peşəkar cinayətkarlar və cinayətkar mühitin digər nümayəndələri tərəfindən törədilir. Bu növ cinayətlərin tərkibində yetkinlik yaşına çatmayanların və gənclərin əməllərinin xüsusi çəkisi böyükdür.



downloaded from KitabYurdu.az

Mülkiyyət əleyhinə tamah məqsədli cinayətkarlığın bir neçə əsrlik tarixi ərzində ona xas olan əməllərin törədilmə təcrübəsi yığılmış, cinayətlərin törədilmə üsulları, vərdişləri, ənənələri möhkəmlənmiş və inkişaf etmişdir.

Mülkiyyət əleyhinə tamah məqsədli cinayətlər kütləvi xarakter daşıyır, cinayət statistikasının məlumatlarından göründüyü kimi ümumi cinayətkarlıqda onların xüsusi çəkisi ən yüksəkdir.

Belə ki, 1997-ci ildə dövlət əmlakının və ya ictimai əmlakın talanması üzrə 1310 cinayət hadisəsi qeydə alınmışdırsa, xüsusi mülkiyyətdə olan əmlakın talanması üzrə 3494 cinayət hadisəsi qeydə alınmışdır. O cümlədən:

oğurluq - 2351 (1996-cı ilə nisbətən - 423 hadisə azdır);
soyğunçuluq - 178 (1996-cı ilə nisbətən - 64 hadisə azdır);
quldurluq - 230 (1996-cı ilə nisbətən - 57 hadisə azdır);
dələduzluq - 735 (1996-cı ilə nisbətən - 150 hadisə çoxdur).*

Məlumatlardan göründüyü kimi tamah məqsədli cinayətlərin ənənəvi növlərinə (oğurluq, soyğunçuluq, quldurluq) nisbətən son illər dələduzluq cinayətlərinin sayı xeyli artmışdır.

Bu növ cinayətlərin böyük ictimai təhlükəliliyi var və onların törədilməsi nəticəsində vətəndaşlara, dövlətə, təşkilatlara külli miqdarda maddi ziyan vurulur. Buna görə göstərilən cinayətkarlığın öyrənilməsi, onunla mübarizə üzrə konkret tədbirlərin işlənib hazırlanması kriminologiyanın mühüm işidir.

**Oğurluqlar.** Mülkiyyət əleyhinə cinayətlərin içində ən geniş yayılanı oğurluqlardır. Bu növ cinayətlərin strukturunda vətəndaşların əmlakının (xüsusilə mənzillərdən) oğurluqları üstünlük təşkil edir.

Lakin hüquqi şəxslərin əmlakına edilən qəsdlərin də ictimai təhlükəliliyi az deyil. Müəssisələrdən hazır məhsulun, anbarlardan istehlak əmtəəsinin, mexanizmlərin, müxtəlif dəzgahların, banklardan pulların, muzeylərdən qiymətli əşyaların oğurlanması dövlətə külli miqdarda maddi ziyan vurur, onun iqtisadi əsasını qırır. Bundan başqa, o da nəzərə alınmalıdır ki, belə oğurluqlar, xüsusilə də mühafizə olunan obyektlərdən, mütəşəkkil cinayətkarlığa xas olan üsullarla, əvvəlcədən dəqiq hazırlıq, kəşfiyyat, öz adamlarını bu strukturlara yeridilməsi, satış kanallarının təmin edilməsi yolu ilə törədilir. Buna görə bu növ cinayətlərin açılma faizi aşağıdır.

**Quldurluq və soyğunçuluq** - mülkiyyət əleyhinə cinayətlərin geniş yayılmış növüdür. Bu növ cinayətlər törədildiyindən az qeydə alınır. Çünki qəsdlərə məruz qalmış vətəndaşlar əmindirlər ki, hüquq-mühafizə orqanları cinayətin açılması üçün lazımi tədbirlər görməyəcək və yaxud cinayətkar aşkar olunduğu halda ona qarşı lazımi dəlillər yığıla bilməyəcək. Buna görə onlar cinayət barədə hüquq-mühafizə orqanlarına çox vaxt məlumat vermirlər.

Quldurluq və soyğunçuluqlar qrup halında törədildiyinə görə, zərəçəkənin əsk təsirini dəf etmək çətin olmur, bu da 65% hallarda silah işlətməməyə imkan verir. Silah işlədildiyi halda isə, bu bıçaq və ya 52% odlu silah olur.

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə cinayətkarlıq haqqında (DİN-in məlumatlarına əsasən). B, 1998.



downloaded from KitabYurdu.az

**Dələduzluq və etibar edilmiş əmlakın mənimsənilməsi** kriminoloji cəhətdən yaxındırlar. Dələduzluğun digər mülkiyyət əleyhinə cinayətlərdən fərqli olaraq son illər kəskin artma meyli müşahidə olunur.

**Hədə-qorxu ilə tələb etmə.** Bir neçə növü var:

1. Açıq-açığına mülkiyyətçidən fiziki işkəncə vermək, əmtəəni məhv etmək və ya zədələmək, anbarları, dükanları yandırmaq qorxusu altında nağd pulun alınması;
2. Müəyyən faizə borclu adamdan borc pulun "alınması";
3. Məhkəmə vəzifələrinin öz üzərinə götürülməsi - sahibkarlar arasında əmlak-maliyyə münaqişələrinin həll edilməsi və bu xidmətə görə müəyyən ödənişin tələb edilməsi.
4. Son vaxtlar ən təkmilləşmiş forması - sahibkar strukturların müdafiəsi üçün daimi olaraq qeyri-leqal və ya leqal "örtüyün" təşkil olunması və buna görə onlardan infilyasiyadan və sahibkarlıq əməliyyatlarının genişlənməsindən, digər cinayətkar qruplaşmaların qəsdlərindən asılı olaraq dəyişilən tariflə mütəmadi pul ödənişinin alınması.
5. Sahibkardan mütəşəkkil cinayətkarlığın nəzarəti altında olan və yaxud özünün yaratdığı strukturun nümayəndəsi olan müəyyən subyektlə müəyyən məbləğə əmlak və ya maliyyə əqdinin bağlanmasının tələb edilməsi.



downloaded from KitabYurdu.az

## Mülkiyyət əleyhinə edilən tamah və tamah zorakı xarakterli cinayətləri doğuran hallar.

Cinayətlərin bir çox növlərindən fərqli olaraq mülkiyyət əleyhinə cinayətkarlıq bilavasitə sosial-iqtisadi sistemlə, onun münasibətləri ilə bağlıdır. Çünki hər bir formasiyanın əsasını mülkiyyət münasibətləri təşkil edir.

Bu əlaqələrin xarakterinə dövlət və ictimai həyatın müxtəlif sahələri, onların vəziyyəti, inkişafı, istiqamətləri, məzmunu və s. təsir göstərir. Bunların arasında aşağıdakılar xüsusilə vacibdir:

1. Mülkiyyətə dair dövlət siyasətinin, fikirlərinin, konsepsiyaların formalaşması sahəsi - müəyyən mülkiyyət formalarına və müəyyən mülkiyyətçilərə qarşı eyni cür və yaxud seçmə yolu ilə təhlükəsizlik və müdafiə məsələlərinin həll olunması və s;

2. Dövlətin təcrübi fəaliyyət sahəsi - yəni mülkiyyətə dair dövlət qərarlarının, ideyalarının, konsepsiyalarının həyata keçirilməsi üzrə səlahiyyətli orqanların, təşkilatların, vəzifəli şəxslərin fəaliyyəti; insanın tutduğu mövqeyindən, əmlakının məbləğindən, təbəqəsindən, məşğuliyyət növündən asılı olmayaraq onun insan və vətəndaş hüquqlarına münasibət;

3. Mədəniyyət, elm, təhsil, mənədi tərbiyə, maarifçilik, kütləvi informasiya sahələri, yəni mülkiyyətə dair fikirlərin formalaşmasına, cəmiyyətə və insanlara fəal təsir göstərməyə imkan yaradan sahələr - bunlar mülkiyyət formasından və mülkiyyətçidən (dövlət, təşkilat, fiziki şəxs) asılı olmayaraq mülkiyyətə dair humanist, vətəndaş dəyərlərini yaxud da əksinə eqoist, təbəqə, tamah maraqlarını formalaşdırır.

Xüsusi əhəmiyyət kəsb edən sahələrə həm də mülkiyyətə, onun müdafiəsinə dair sosial, qanunvericilik və qanuntətbiqedici sahələr; göstərilən cinayətkarlıqla mübarizənin təşkili və həyata keçirilməsi aiddir.

Bunlardan başqa mülkiyyət əleyhinə cinayətkarlığın səbəblərinin yaranmasına mülkiyyətə dair, özgənin əmlakına dair xalqın və dövlətin tarixi boyu yaranmış ənənələr, vərdişlər, milli-demoqrafik və ərazi xüsusiyyətləri kimi kateqoriyalar təsir göstərir.

Müasir tarixi mərhələ bazar münasibətlərinin yaranması və inkişafı ilə xarakterizə edilir. Göstərilən mərhələyə keçid əvvəlki sosial-iqtisadi, mülkiyyət münasibətlərinin dağılması əsasında mümkün olmuşdur. Bu isə mülkiyyət əleyhinə tamah məqsədli cinayətkarlığın keyfiyyət və kəmiyyət göstəricilərini dəyişdirmişdir.

Birincisi, bu kökündə cinayətkarlıq səbəblərini daşıyan bazar tipli sosial-iqtisadi əlaqələrin qəbul edilməsi ilə bağlıdır. Bunların bir hissəsi aşağıdakılardır:

əhalinin mülkiyyət üzrə differensiallaşması və yoxsulluq səviyyəsinin yüksəlməsi, cəmiyyətin az bir hissəsinin varlılara və əksər hissəsinin kasıblara bölünməsi, işsizliyin artması; maaşların verilməsinin gecikdirilməsi, müəssisələrin işinin dayanması;

cəmiyyətin və təsərrüfat fəaliyyətinin kriminallaşması;

dövlət nəzarəti sisteminin zəifləməsi.



downloaded from KitabYurdu.az

Bunlarla yanaşı bazar münasibətlərində mülkiyyət əleyhinə cinayətkarlığın mütləq mövcud olan digər səbəblərindən insanların istismarı; ilkin mərhələdə kapitalın kriminal üsulla yığılması, sonradan isə - əməyin qiymətdən düşməsi, əlavə gəlirin əldə olunması; imkanların qeyri-bərabərliyi; heç bir cinayət qarşısında durmayan, yalana və zorakılığa keçən rəqabət; pulun hakimiyyəti; mədəniyyət və mənəvi dəyərlər sahəsində alverçiliyin yayılması.

Bütün bunlar mülkiyyət əleyhinə cinayətkarlığın fundamentini təşkil edən, özgənin əmlakına qəsd edən, cinayətləri və cinayətkarları yaradan obyektiv mövcud olan neqativ iqtisadi, siyasi, sosial və mənəvi hallardır.

İkincisi, mülkiyyət əleyhinə cinayətkarlığın kompleks səbəblərinin yaranması əvvəlki sosial-iqtisadi sistemin cinayətkarlığının səbəblərinin hələ də mövcud olması ilə bağlıdır.

Üçüncüsü, bazar münasibətlərinə keçid zamanı mülkiyyət əleyhinə cinayətkarlığa əkstəsir göstərə biləcək lazımi tədbirlərin görülməməsi ilə bağlıdır. Xüsusilə də burada xarici təcrübə nəzərə alınmamışdır.

Yuxarıda göstərilən üç hal tamah məqsədli cinayətkarlığa parlayıcı impuls olmuşdur. Xüsusən bu hədə-qorxu ilə tələb etmənin inkişafını təhlil edəndə özünü aydın büruzə verir.

İslahatlar dövrü hədə-qorxu ilə tələb etmə ticarət, məişət xidməti, avtonəqliyyatla yüklərin daşınması, kiçik və orta sahibkarlıq, mənzildəyişmə və digər sahələri əhatə etmişdir. Bütün bunlar leqal biznesdir. Lakin hədə-qorxu ilə tələb etmə qeyri-leqal biznesə - fahişəliyə, qumar oyunlarına, saxta, yaxud lisenziyasız şərab-araq məhsulların hazırlanması və satışına, kölgəli iqtisadiyyata hökmranlıq edir.

İslahatlar dövrünün ilkin mərhələsində hədə-qorxu ilə tələb etməklə məşğul olan cinayətkar qruplaşmaların inkişafına belə hallar şərait yaradır: cinayətkar gəlirlərin leqallaşdırılması; kəskin üsullar, xüsusilə, “vergini” ödəməkdən imtina edən sahibkarlara qarşı terror aktları; müvafiq orqanların vəzifəli şəxsləri ilə korrupsiya əlaqələri; reketlə mübarizədə hüquqi bazanın çatışmamazlıqları; hüquq-mühafizə və məhkəmə orqanlarının fəaliyyətinin lazımi qədər səmərəli olmaması. Bu səbəblər çox vaxt ona gətirib çıxarır ki, qeyri-qanuni əqdlərlə məşğul olmayan sahibkarlar hədə-qorxu ilə tələb etməklə rastlaşdıqda az halda müdafiə üçün dövlət orqanlarına müraciət edirlər.

Saxta bank və maliyyə sənədlərinin istifadə edilməsi, dələduzluq əməliyyatlarının törədilməsi üçün yaradılmış müxtəlif fondların, müəssisələrin fəaliyyətinin təhlili göstərir ki, dələduzluq mütəşəkkil cinayətkarlıq üçün çox cəlbedici cinayətkarlıqdır. Bu da göstərilən kriminal sənətin yaxşı gəlir gətirməsi ilə əlaqədardır. Cəld və bacarıqla keçirilmiş bir fırıldaq əməliyyatın gəliri həm onun hazırlığına sərf olunmuş xərcləri örtür, həm də digər cinayətlərdən (məsələn, oğurluqdan) əldə edilmiş gəlirdən qat-qat artıq gəlir gətirir. Bütün bunlar digər cinayətə - etibar edilmiş əmlakın mənimsənilməsinə də aiddir.

Belə cinayətləri törətmiş şəxslərin xarakterizəsi spesifikdir. Bu cinayətlərin hazırlığı və çox vaxt bilavasitə törədilməsi ilə iqtisadiyyatı, maliyyə və idarəetmə işini, hüququ, istehsalatın xüsusiyyətlərini, müəyyən müəssisənin və ya sahənin təsərrüfat fəaliyyətini yaxşı bilən, maliyyə-əmlak əməliyyatlarının



downloaded from KitabYurdu.az

aparılması üzərində dövlət strukturlarının nəzarətinin çatışmamazlıqları barədə məlumatı olan şəxslər məşğul olur.

Əsrin ən mühüm cinayətlərinə aid olan dələduzluq faktlarından başqa artıq ənənəvi olmuş və qumar oyunlarında, mənzil dəyişməsində və alınmasında və s. aldatmalarla bağlı olan dələduzluqlar da törədilməkdə davam edir.

Bütün bunlardan başqa  tamah məqsədli cinayətkarlıq sərxoşluq, tüfeyli həyat tərzi ilə sıx əlaqədədir. Buna görə cinayətkarlığın göstərilən növünün dinamikası dövlətin spirtli içkilərin istehsalı və dövriyyəsi sahəsinə aid siyasətinə çox həssasdır.



downloaded from KitabYurdu.az

# Mülkiyyət əleyhinə edilən cinayətlərin qarşısının alınmasının ümumi sosial və xüsusi kriminoloji tədbirləri.

Mülkiyyət əleyhinə cinayətlərin qarşısının alınması tədbirlərinin bir hissəsini ümumi xarakterli tədbirlər - iqtisadi və sosial, digər hissəsini isə - təşkilati və xüsusi tədbirlər təşkil edir.

Bu məqsədlə iqtisadiyyatın genişləndirilmiş istehsalat rejimində işləyə biləcəyini təmin edən tədbirlərin (monitorinq və proqnozlaşdırmadan istifadə etməklə, iqtisadi vəziyyətin parametrlərini və meyarlarını müəyyən etməklə), maliyyə sabitliyini təmin edən, iqtisadi münasibətlərin, bazarın inkişafı və möhkəmləndirilməsi üzrə digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Belə tədbirlərin içinə həm də əhali üçün əlverişli həyat səviyyəsinin yaradılması, onun yoxsulluq səviyyəsinin maksimal hədlərinə düşməsinə imkan verilməməsi, əhaliyə təhsil, mədəniyyət, tibbi, məişət, kommunal və digər xidmətlərin göstərilməsinin təşkili ilə bağlı məsələlər də daxildir.

Xüsusi tədbirlərə aiddirlər: cəmiyyətin və təsərrüfat, maliyyə fəaliyyətinin bütün sahələrinin kriminallaşmasına imkan verməyən iqtisadi və hüquqi şəraitin yaradılması; iqtisadi təhlükəsizlik mövqeyindən maliyyə və təsərrüfat məsələləri üzrə qəbul olunan qərarların ekspertizası, habelə bu məqsədlə qanunverici və digər normativ aktların hazırlanması dövrü onların mütləq ekspertizadan keçirilməsi.

Bütün bu tədbirlər dövlətin iqtisadi təhlükəsizliyi strategiyasının əsaslarıdır. Bunların əsasında cinayətkarlıqla mübarizə üzrə dövlət proqramları hazırlanmalı və burada mülkiyyət əleyhinə cinayətkarlıqla mübarizəyə yönəlmiş aşağıdakı xüsusi tədbirlər əksini tapmalı və həyata keçirilməlidir:*

1. Bədii, tarixi və digər mədəni sərvətlərin oğurluğunun bütün növlərinin qarşısının alınması üzrə; mədəni sərvətlərin uçotu, saxlanması, istifadə olunması, xaricə çıxarılması və xaricdən qaytarılması qaydalarına düzgün riayət olunması üzrə; bu sahədə məsuliyyəti nəzərdə tutan qanunvericiliyin möhkəmləndirilməsi üzrə kompleks əməliyyat-axtarış tədbirlərinin görülməsi.
2. İstehsal edən zavodlarda nəqliyyat vasitələrinə fərqlənmə işarəsinin qoyulması üzrə müasir texnologiyanın tətbiq edilməsi.
3. Oğru yığıncaqlarının, qanunda oğruların fəaliyyətinin, cinayət qruplaşmaların liderlərinin və fəal iştirakçılarının ifşa olunması üzrə əməliyyatların keçirilməsi yolu ilə mütəşəkkil cinayətkarlığa əks-təsirin göstərilməsi.
4. Saxta ödəniş sənədlərini istifadə etməklə pul vəsaitlərinin oğurlanmasına dair cinayət işlərində və əməliyyat materiallarında keçən fiziki və hüquqi şəxslər barədə informasiya bankının yaradılması.
5. Banklar tərəfindən qeyri-dövlət sahibkar strukturların kreditləşdirilməsi sahəsində qanunazidd fəaliyyətin və oğurluqların qarşısının alınması üzrə tədbirlərin görülməsi.

---

* A.İ.Dolqova . Kriminologiya. M,1997, s. 480-481



downloaded from KitabYurdu.az

6. Neftayırma, qaz, qiymətli metalların emalı müəssisələrində korrumplaşmış vəzifəli şəxslərin və mütəşəkkil cinayətkar qrupların kriminal fəaliyyətinə qarşı tədbirlərin görülməsi.

7. İntellektual mülkiyyət obyektlərinin qeyri-qanuni istifadə olunmasına qarşı mübarizənin təşkili üzrə tədbirlər sisteminin işlənib hazırlanması.

8. Saxta pulların, maliyyə sənədlərinin və qiymətli kağızların aşkar olunması üzrə tədbirlərin görülməsi, onların istehsalının və dövriyyəsinin aradan qaldırılması.

9. Banklara və kredit təşkilatlara cinayətkar kapitalların düşməsinə və mütəşəkkil cinayətkarlığın onlara təsir etməsinə qarşı müdafiə sisteminin təşkil olunması.

Mülkiyyət əleyhinə cinayətkarlıqla mübarizə probleminə həm də aşağıdakı sosial tədbirlər aiddir:

1) hüquq-mühafizə orqanlarının fəaliyyəti barədə, əhalinin özünümüdafiə üsulları barədə hüquqi təbliğat;
2) sosial-reabilitasiya mərkəzlərinin maddi bazasının yüksəldilməsi üzrə tədbirlərin işlənməsi;
3) yeniyetmələrin və cavanların, işsizlərin və kimsəsizlərin, qaçqınların və məcburi köçkünlərin, əvvəllər məhkum olunmuşların və daimi gəliri olmayan digər şəxslərin sosial məşğulluğunun təmin edilməsi üzrə tədbirlərin işlənməsi və həyata keçirilməsi;
4) belə şəxslərə sosial köməyin göstərilməsi üzrə mərkəzlərin yaradılması;
5) sərxoşluq və narkomaniya əleyhinə təbliğatın aparılması; alkoqoliklərin, narkomanların reabilitasiyası üzrə mərkəzlərin işinin gücləndirilməsi.



downloaded from KitabYurdu.az

# Səkkizinci fəsil.

## Zorakılıqla bağlı cinayətlər və onların xarakterizəsi.

**Zorakılıqla bağlı ağır cinayətlərin quruluşu, dinamikası və s. kriminoloji xarakterizəsi. Zorakılıqla bağlı ağır cinayət törədənlərin şəxsiyyətinin kriminoloji xarakterizəsi. Zorakılıqla bağlı ağır cinayətlərin səbəbləri, bu cinayətlərin baş verməsinə kömək edən hallar. Zorakılıqla bağlı ağır cinayətlərin qarşısının alınmasına yönələn tədbirlər sistemi.**

## Zorakılıqla bağlı ağır cinayətlərin quruluşu, dinamikası və s. kriminoloji xarakterizəsi.

Zorakılıqla bağlı cinayətkarlıq dedikdə elə bir cinayətlərin yığımı nəzərdə tutulur ki, onlarda zorakılıq təkcə məqsədə çatmaq vasitəsi kimi deyil, motivləşmənin elementi kimi çıxış edir.

Buna görə belə cinayətlərin arasına quldurluq, soyğunçuluq, insanların girov götürülməsi, terrorizm və s. cinayətlər daxil olmur. Çünki bunlarda instrumental zorakılıq tətbiq edilir, yəni ancaq hansısa məqsədə (məsələn, siyasi, tamah məqsədləri) çatmaq üçün bir vasitə kimi istifadə olunan zorakılıq.

Zorakılıqla bağlı cinayətlərin diapazonu çox genişdir. Bu fəsildə onun ən təhlükəli növlərindən olan şəxsiyyət əleyhinə olan zorakılıqla bağlı cinayətlər öyrənilir. Belə cinayətlərdə qəsd etmə obyekti kimi insanın həyatı çıxış edir. Məsələn, qəsdən öldürmələr; ananın yeni doğulmuş uşağını öldürməsi; affekt vəziyyətində törədilən öldürmə; zəruri müdafiə həddini aşmaqla və yaxud cinayət törətmiş şəxsin saxlanılması zamanı zəruri həddi aşmaqla öldürmə; ehtiyatsızlıq üzündən öldürmə; özünü öldürməyə çatdırma. Bunlardan əlavə insanın səhhətinə qəsdən edilən cinayətlər: qəsdən bədənə ağır xəsarət yetirmə; qəsdən bədənə az ağır xəsarət yetirmə; affekt vəziyyətində bədənə ağır və ya az ağır (orta dərəcəli) xəsarət yetirmə; zəruri müdafiə həddini aşmaqla bədənə ağır və ya orta dərəcəli xəsarət yetirmə; bədənə yüngül xəsarət yetirmə; işgəncələr; döymələr; ehtiyatsızlıq üzündən bədənə ağır və ya orta dərəcəli xəsarət yetirmə; ölümlə və yaxud bədənə xəsarət yetirməklə hədələmə. Habelə zöhrəvi xəstəliyə bilərəkdən yoluxdurma; qanunsuz abort etmə; xəstəyə kömək göstərməmə; insanları təhlükəli vəziyyətdə qoyma cinayətləri də insanların səhhətinəqəsd edən cinayətlərə aiddirlər, lakin bunlar zorakı xarakter daşımırlar.

İnsanın azadlığına, şərəf və ləyaqətinə qəsd edən cinayətlərə insanın oğurlanması; qanunsuz olaraq həbs edilməsi; qanunsuz psixiatrik xəstəxanaya yerləşdirilməsi aiddir. Bu cinayətlərdə zorakılıq hansısa maddi məqsədə (məsələn, mülkiyyəti ələ keçirmək və s.) çatmaq üçün istifadə olunur.

İnsanın azadlığına qəsd edən zorakılıqla bağlı cinayətlərə həmçinin, cinsi toxunulmazlığa qarşı cinayətlər; zorlama; seksual xarakterli hərəkətlərə məcbur etmə də aiddir.

Şəxsiyyət əleyhinə edilən cinayətlər - insanların həyatına, səhhətinə, azadlığına, şərəf və ləyaqətinə, cinsi toxunulmazlığına, cinsi azadlığına,



downloaded from KitabYurdu.az

konstitusiya ilə müəyyən edilən hüquq və azadlıqlarına, ailə münasibətlərinə, yetkinlik yaşına çatmayanların normal tərbiyəsinə qəsd edən, cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli, təqsirli, cəzalanmalı olan əməllərdir.

Yeni Cinayət Məcəlləsinin layihəsində şəxsiyyət əleyhinə olan cinayətlər bölməsinə daxil olan normaların aşağıdakı adda, beş fəsildə qruplaşdırılması təklif edilir:

- həyat və səhhət əleyhinə edilən cinayətlər;
- şəxsi azadlıq, şərəf və ləyaqət əleyhinə edilən cinayətlər;
- cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə edilən cinayətlər;
- insanın və vətəndaşın konstitusiya ilə müəyyən olunan hüquq və azadlıqları əleyhinə edilən cinayətlər;
- ailə əleyhinə və yetkinlik yaşına çatmayanların tərbiyəsi əleyhinə edilən cinayətlər.

Şəxsiyyət əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən normaların təklif olunan sistemi bu normalarda nəzərdə tutulan cinayətlərin ziyan yetirdiyi bilavasitə obyektə əsasən müəyyən edilmişdir.

Qüvvədə olan cinayət məcəlləsi ilə müqayisədə Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına uyğun olaraq hazırlanan Cinayət Məcəlləsinin layihəsində şəxsiyyət əleyhinə edilən cinayətlərin sistemi özünün əhatəliliyinə, tamlığına görə, qorunan sosial dəyərlərə verilən əhəmiyyət baxımından, normaların yarımqruplar üzrə bölgüsünə görə daha uğurlu sayılmalıdır.

Bütün hallarda cinayətin obyektini ictimai münasibətlər təşkil etdiyindən, şəxsiyyət əleyhinə edilən cinayətlərdə də müəyyən qrup ictimai münasibətlərin ümumiləşdirilmiş ifadəsi olan şəxsiyyət cinayətlərin xüsusi obyekti kimi çıxış edir. Cinayət hüquq nəzəriyyəsi insanı sadəcə bioloji varlıq deyil, həm də sosial varlıq - mövcud ictimai münasibətlərin məcmusu hesab edir.

İnsanın istər həyatına və ya səhhətinə, istərsə də azadlığına, şərəf və ləyaqətinə, yaxud da Konstitusion hüquq və azadlığına və s. qəsd edilsin, eyni vaxtda insana, onun şəxsiyyətinə qəsd edilmiş olur.

Şəxsiyyət bir tərəfdən kriminal qəsddən ziyan çəkən hər bir fərdin sosial tərəfini, onun bağlı olduğu sosial mövqe və əlaqələrin məcmusu kimi, reallıq kimi, digər tərəfdən bu reallığı əks etdirən, qanuna daxil edilən anlayış, kateqoriya kimi mövcud olur.*

Şəxsiyyət əleyhinə cinayətlərin tərkibində insanın həyat və sağlamlığına qarşı edilən ağır cinayətlərin xüsusi çəkisi ən böyükdür. 70-ci illərdən başlayaraq onların sayının artması, 1991-1997-ci illərdə isə həm də keyfiyyət dəyişiklikləri qeyd olunur.

---

* F.Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. Bakı, 1997, s. 7-8



downloaded from KitabYurdu.az

Şəxsiyyətin həyat və səhhəti əleyhinə edilən ağır cinayətlərin dinamikasının sərxoşluqla həmişə sıx əlaqəsi olub. Çox vaxt ağır cinayətlər məişət münaqişəsi zəminində spirtli içkilərin təsiri altında, yaxud da onların alınmasına vəsait əldə etmək üçün törədilir. Son bir neçə il ərzində ağır cinayətlərin keyfiyyət dəyişiklikləri mütəşəkkil cinayətkarlığın güclənməsi, müəyyən ödənişə görə cinayət törədən şəxslərin, peşəkar cinayətkarların sayının artması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, qəsdən öldürmələrin, habelə insanın həyat və səhhəti əleyhinə edilən cinayətlərin latent hissəsi də az deyil. Bu növ cinayətlər üçün cinayətin açılma faktı böyük əhəmiyyət kəsb edir. Çünki bundan cinayətin ixtisaslaşdırılması asılıdır: yəni bu cinayətin qəsdən öldürmə, yaxud ehtiyatsızlıq üzündən öldürmə; zəruri müdafiə həddini aşmaqla öldürmə, yaxud anlaqsızlıq vəziyyətində öldürmə kimi qeydə alınması.

Belə amillərin təsiri nəticəsində rəsmi cinayət statistikası çox vaxt real vəziyyəti düzgün əks etdirmir.

Adam öldürməyə görə məsuliyyətin həllində, hərəkətlə (hərəkətsizliklə) baş verən ölümdən ibarət nəticə arasında səbəbli əlaqə müəyyən edilir. Cinayət-hüquq elmi adam öldürmə işləri üzrə səbəbli əlaqənin müəyən edilməsində aşağıdakı cəhətləri nəzərə almağı tövsiyyə edir:

a) səbəbli əlaqə, müəyyən hallarda sadəcə hərəkətlə (hərəkətsizliklə) baş vermiş ölümdən ibarət nəticə arasında araşdırılmır. Əməlin törədilməsində bəzən şəxsin təkcə bədən hərəkətləri kifayət etmir. O, həm də belə hərəkətləri müəyyən mexanizmlərə, təbiətin kortəbii qüvvələrinə, heyvanların hərəkətinə, digər fiziki və kimyəvi qanunauyğunluqlara qoşur. Bu yolla sanki cinayət törədən şəxs öz fiziki imkanlarını genişləndirərək başqasını qanunsuz həyatdan məhrum edir. Buna görə də adam öldürmə işləri üzrə səbəbli əlaqə müəyyən edilərkən şəxsin qeyd edilən vasitələrə və qanunauyğunluqlara qoşulan hərəkəti (hərəkətsizliyi) ilə ölümdən ibarət baş verən nəticə arasında müəyyən edilir;

b) subyektin hərəkəti (hərəkətsizliyi) o halda ölümün səbəbi sayıla bilər ki, belə hərəkət zərərçəkənin ölümünün zəruri şərti mövcud olsun. Ancaq belə zəruri hərəkətin olmaması nəticəni inkişafdan qoyur, onun baş verməsini mümkün etmir;

v) kriminal nəticənin zəruri şərti kimi çıxış edən subyektin hərəkəti o halda baş vermiş ölümün səbəbi sayıla bilər ki, belə nəticə hərəkətdən zəruri olaraq törənmiş olsun. Ölümdən ibarət nəticə təsadüfi hadisələrin kəsişməsindən doğursa, subyektin hərəkəti isə belə nəticə ilə zahirən əlaqədə olarsa və onu müşayiət edərsə, belə hərəkət məlum nəticənin səbəbi sayıla bilməz.*

---

* F.Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. Bakı, 1997, s. 14



downloaded from KitabYurdu.az

90-cı illərdə zorakılıqla bağlı ağır cinayətlərin açılma faizinin aşağı düşməsi ilə əlaqədar ölüm törədib aşkar olunmamış, yaxud cəzasını tapmamış şəxslərin sayı artmışdır. Bu sahədə yaxın adamlarına qarşı (qohumları, ailə üzvləri, qonşuları, dostları) törədilən məişət cinayətləri daha tez açılır. Günahkar əsasən alkoqollu içkilərdən istifadə edən, əxlaqsız həyat tərzi sürən və bir qayda olaraq, hüquq-mühafizə orqanlarına tanış olan şəxslər olur. Muzdlu icraçılar tərəfindən (sifarişli ölümlərdə) törədilən qəsdən öldürmələrin isə faizi həmişə aşağı olub. Bundan başqa itkin düşmə faktlarının arxasında çox vaxt latent öldürmələr durur.

Belə ki, 1997-ci il ərzində qeydə alınmışdı:

1359 xuliqanlıq cinayəti (bu 1996-cı ilə nisbətən 183 cinayət çoxdur);

449 qərəzli qətl və qəsdlər (1996-cı ilə nisbətən 96 cinayət azdır);

304 qərəzli ağır bədən xəsarətləri (1996-cı ilə nisbətən 54 cinayət azdır);

66 zorlama və zorlamaya cəhdlər (1996-cı ilə nisbətən 7 cinayət azdır).

Bunlardan açılmamışdır:

qərəzli qətllər və qəsdlər - 33

qərəzli ağır bədən xəsarələri - 13*

Ağırlaşdırıcı hallarda edilən qəsdən öldürmələrin çox hissəsi açılmamış qalır və cinayət statistikasında başqa ixtisaslaşdırma ilə gedir (məsələn, ağırlaşdırıcı hal olmadan öldürmələr; ölümlə nəticələnən qəsdən bədənə ağır xəsarət yetirmə).

Şəxsiyyətin həyat və səhhətinə qarşı cinayətlərin arasında ən ağırı öldürmələrdir.

Müasir dövrdə zorakılıqla bağlı cinayətlərin yeni növləri yaranmışdır - bu insanların oğurlanması, girov götürülməsidir.

Zorakılıqla bağlı cinayətkarlıq müəyyən bir bütövlük təşkil edir. Onun ayrı-ayrı hallarına qarşı seçmə yolu ilə aparılan mübarizə səmərəsiz olur. Bu halda zorakılıqla bağlı cinayətkarlığın ayrı-ayrı növləri itir, yaxud onların sayı azalır, digərlərinin isə miqyası genişlənir. Məsələn, bir vaxt zorakılıqla bağlı cinayətkarlıqda küçələrdə, parklarda qəsdən bədənə ağır xəsarət yetirmələrinin xüsusi çəkisinin artmasına cavab olaraq xarici sosial nəzarət tədbirləri görülmüş, ictimai yerlərdə daxili işlər orqanlarının əməkdaşlarından patrul təşkil edilmişdir. Bu qeydə alınmış cinayətkarlığın strukturunda küçə cinayətkarlığının xüsusi çəkisini xeyli azaltmışdır.

Bununla yanaşı, statistika mənzillərdə və digər bağlı yerlərdə törədilmiş zorakılıqla bağlı cinayətkarlığın səviyyəsinin artmasını əks edirdi. Qeydə alınmış bədənə yüngül xəsarət yetirmə, döymələr, işgəncələr faktlarının sayı da kəskin artmışdır.

1991-1997-ci illər ərzində həyat və səhhət əleyhinə zorakılıqla bağlı cinayətlərin törədilməsinə yetkinlik yaşına çatmayanlar və gənclər intensiv cəlb olunurlar.

Müasir dövrdə qəsdən öldürmə törədib aşkar olunmuş şəxslər arasında ali və orta təhsili olanların sayı artmışdır.

Çox vaxt zorakılıqla və tamah məqsədilə bağlı cinayətlər qarışıq törədilir. Məsələn, zorakılıq tətbiq etməklə varlı adamı möhkəm döyəndən sonra tamah



downloaded from KitabYurdu.az

məqsədilə ondan bahalı şeylərinin alınması. Əmlak və digər mühüm problemlərin həlli zamanı zorakılığın tətbiq edilməsi faktları da artmışdır.

İslahatlar dövrü yeni sosial qrupların yaranması ilə xarakterizə edilir - bu daimi gəliri olmayanlar, işsizlər, qaçqınlar, miqrantlardır.

90-cı illərdə odlu silahı tətbiq etməklə törədilən qeydə alınmış qəsdən öldürmələrin sayı xeyli artmışdır. Bu ilk növbədə sifarişli öldürmələr, cinayətkar qruplaşmaların üzvlərinin toqquşmaları zamanı öldürmələrdir və s.**

Şəxsiyyət əleyhinə zorakılıqla edilən cinayətlər arasında cinsi toxunulmazlığa qəsdlər xüsusi yer tutur, onların arasında isə ən böyük ictimai təhlükəliliyi zorlamalar daşıyır. Zorlamalar, digər cinsi zorakılıqla bağlı cinayətlər kimi yüksək latentlidirlər. Cinayət statistikasında onların yalnız az bir hissəsi əks olunur.

Burada cinayət işlərinin qaldırılmasının prosessual xüsusiyyətlərini də nəzərə almaq lazımdır: onlar zərəçəkənin şikayəti əsasında qaldırılır (ixtisaslaşdırılmış tərkiblər istisna olmaqla); zərəçəkənlərə və şahidlərə cinayətkarın qohumları tərəfindən psixi, fiziki, maddi təzyiqlər edilir.

Öldürmələrə, qəsdən bədənə ağır xəsarət yetirmələrə nisbətən zorlamalarda qrup şəklində törədilən cinayətlərin xüsusi çəkisi yüksəkdir; onların əksəriyyəti şəhərlərdə törədilir. Zorlamaların 35 faizi əvvəllər cinayət törətmiş şəxslər tərəfindən edilir. Digər zorakı cinayətlərə analoji olaraq zorlamaların 2/3 hissəsi sərxoşluq vəziyyətində olan şəxslər tərəfindən törədilir. Onların çoxu yaşayış üçün yararlı olmayan yerlərdə, keçidlərdə, liftdə, çardaqda, zirzəmidə, yaxud da zərərçəkənin evində, həyətində törədilir. Zorlamaların törədilmə yerinin seçilməsi cinayətkarın şəxsiyyətinin xüsusiyyətindən asılıdır.

Zərəçəkənlərin şəxsiyyəti də müəyyən xüsusiyyətlərlə xarakterizə edilir. Zorlamalarda digər zorakı cinayətlərdən fərqli olaraq zərərçəkənlərin təxminən 45%-i cinayətkarla tanış olan şəxslər olur.

Burada yetkinlik yaşına çatmayan zərərçəkənlərin də sayı çoxdur, hətta ayrı-ayrı regionlarda bu 55% təşkil edir. Pozğun hərəkətlərin qurbanı oğlanlardan çox 11-14 yaşlı qızlar olur. Bir cinayət işinə orta hesabla 3 qurban düşür.

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə cinayətkarlıq haqqında (DİN-in məlumatlarına əsasən). B, 1998.

** A.İ.Dolqova. Kriminologiya. M, 1997, s. 446-447



downloaded from KitabYurdu.az

# Zorakılıqla bağlı ağır cinayət törədənlərin şəxsiyyətinin kriminoloji xarakterizəsi.

Zorakılıqla bağlı ağır cinayətlər törətmiş şəxsləri aşağıdakı qruplara bölmək olar:

1. Zorakılıqla bağlı ağır cinayətlər müəyyən qədər formalaşmış fikirləri, səmtləri olan şəxslər tərəfindən törədilir. Çox vaxt bu hərbi xidmətdə olmuş, bəzi hallarda hətta hərbi münaqişələrdə iştirak etmiş, yaxşı ixtisas hazırlığı almış, silahla yaxşı davranan və ondan cinayətlərin törədilməsi vaxtı istifadə edən cavan adamlardır.

2. Həyat və səhhət əleyhinə cinayətlər əvvəlki sosial statusunu itirmiş, obyektiv və ya subyektiv amillərin təsiri nəticəsində daimi gəliri olmayan, işsizlər kateqoriyasına keçmiş şəxslər törədir. Bunların 15% pozulmuş, daimi olaraq spirtli içkilərdən istifadə edən, əvvəllər məhkum olunmuş (hətta bir neçə dəfə) şəxslərdir. Bir qayda olaraq onların yaşı 40-dan yuxarıdır. Belə davranışla onlar uzun müddətdir ki, xarakterizə olunurlar.

Daimi gəliri olmayan şəxslərin böyük hissəsini kriminoloji baxımdan imkanlı sosial qruplara və təbəqələrə əvvəllər aid olmuş şəxslər (dövlət qulluqçuları, rəhbərləri; ali təhsili olanlar) təşkil edir. Bunlara məcburi köçkünlər, miqrantlar da aiddir.

3. Son illər zorakılıqla bağlı ağır cinayətləri törətmiş şəxslər arasında xaricdən imkanlı görsənən sosial qrup və təbəqələrin nümayəndələri böyük yer tutur. Sahibkarların kriminogenliyi artmaqdadır. Lakin bu sosial qrupun sayının az olmasını nəzərə alaraq, ümumi aşkar olunmuş cinayətkarların içində onların xüsusi çəkisi hələ ki, böyük deyil.

4. Zorlamaları törətmiş şəxslər. Bunların yaş xarakteristikaları müxtəlifdir. 18-24 yaşlı şəxslərin cinayətkar fəallığı ən yüksəkdir (45%), 20-22% yetkinlik yaşına çatmayanlar, təxmini bu qədər də 30 və ondan yuxarı yaşlı şəxslər təşkil edir; 19% 25-29 yaşlıların payına düşür.

Qəsdən öldürmə və ağır bədən xəsarətləri yetirmiş şəxslər arasında (65%) 30 yaşlı və ondan yuxarı yaşlı şəxslər təşkil edir, yetkinlik yaşına çatmayanların faizi isə 7% çox olmur. Bu 90-cı illərin göstəriciləridir. 80-cı illərdə zorlama edənlərin 2/3 hissəsini 21 yaşına kimi olan şəxslər təşkil edirdi, ən yüksək cinayətkar fəallığı isə 15-17 yaşında olan yeniyetmələr göstərirdi. Beləliklə, on il ərzində zorlama edən şəxslərin tərkibi “böyümüşdü”.

Təhsil səviyyəsinə görə zorlama törətmiş şəxslər öldürmə və qəsdən bədənə ağır xəsarət yetirmə törədən şəxslərdən fərqlənmirlər. Bunların 65%-i orta və orta ixtisas təhsilli, 18% - orta peşə təhsilli, 2%-i ali peşə təhsillilərdir.

Pozğunluq hərəkətləri törədən şəxslər isə daha yüksək təhsil səviyyəsi və sosial statusu ilə fərqlənirlər. Onlar öz qanunazidd hərəkətlərini təklikdə, ayıq vəziyyətdə törədirlər. Belə şəxslər uşaqlarla bağlı iş olan təhsil, səhiyyə, mədəniyyət, idman müəssisələrinə düzəlməyə can atırlar. Onların iş fəaliyyəti yaxşı istehsalat göstəriciləri ilə xarakterizə edilir.

Zorakılıqla bağlı ağır cinayətlərin törədilməsində cinayətkarların psixofizioloji xüsusiyyətləri, o cümlədən anlaqsızlığı müəyyən rol oynayır.



downloaded from KitabYurdu.az

Qəsdən öldürmə, bədənə xəsarət yetirmə, seksual xarakterli cinayət törətmiş şəxslərin təxminən 65 faizini psixikasında müəyyən anormallıq var.

F.Səməndərov zorakılıqla bağlı cinayətləri belə açıqlayır.

Qısqanclıq hissləri bəzən şəxsin psixi xəstəliyi ilə bağlı güclənərək onu qətl cinayətini törətməyə vadar edə bilər. Belə halda təqsirkarın əməli törədərkən anlaqlı olub olmaması aydınlaşdırılır.

Qısqanclıq motivi tərəflərin birinin (qadının yaxud da kişinin) xəyanət aktının bilavasitə təsiri altında yarandıqda belə vəziyyət şəxsi güclü ruhi həyəcan vəziyyətinə sala bilər.

İntiqam - zərərçəkənin etdiyi yamanlıq və ya toxunan hərəkətlərinə görə təqsirkarda yamanlıq etməyə dair yaranan dərk olunmuş daxili tələbatdır. İntiqam insan qəlbinin ən qədim ehtiraslarından biri kimi özünümühafizə instinkti ilə bağlıdır.

Qətl cinayətin subyektiv səbəbi kimi çıxış edən intiqam hissi zərər çəkənlə qatil arasında şəxsi münasibətlər zəminində meydana gələn münaqişə ilə bağlanır. Təqsirkar danışıq yolu ilə yaranmış münaqişəni həll etməyi rədd edir, bunu zorakı xarakterli cinayət yolu ilə həll etməyi üstün tutur.

Çox halda tanış və qohumların əhatəsində təqsirkarın ünvanına yönəldilən alçaldıcı hərəkətlər - onda onu tanıyanların gözündə ictimai mövqeyini, nüfuz və hörmətini itirəcəyi qorxusu altında intiqam hissi yaradır.

Qətl cinayətləri üzrə məhkəmə təcrübəsindən öyrənilən işlər göstərir ki, təqsirkarda intiqam hissinin yaranması bir sıra hallarda birgə yaşayış qaydalarına uyğun olmayan rəftara irad tutma təsiri altında, müəyyən hallarda təqsirkarda spirtli içkilərə olan aludəlik meylləri ilə əlaqədar irad tutma ilə, bir qism başqa hallarda isə təsadüfi faydalı məsləhətin təqsirkar tərəfindən şəxsi - ləyaqəti alçaldıcı hərəkət kimi qiymətləndirilməsi ilə bağlı olmuşdur.

Müəyyən hallarda təqsirkarı qətl cinayətinə vadar edən motivin intiqam motivinə bənzəyişi olsa da, belə motiv zərərçəkənin hüquqi baxımından pislənməsi mümkün olmayan davranışı əsasında yaranan hallarda, qətl cinayəti xuliqanlıq niyyəti ilə törədilən əməl kimi qiymətləndirilməlidir.

Zərəçəkənin intiqam motivi doğuran davranışına həm bilavasitə qətl cinayətindən öncə, həm də qətl cinayətindən çox əvvəl yol verilə bilər. Qətl cinayəti zərərçəkənin intiqam motivi doğuran davranışından bilavasitə sonra törədilən hallarda, belə cinayətin fizioloji affekt vəziyyətində, yaxud da müdafiə həddini aşmaqla baş verib verməməsi diqqətlə araşdırılmalıdır. Qəsdən adam öldürmə cinayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, bəzən təqsirkarı qətl cinayətinə vadar edən intiqam motivi zərərçəkənin bilavasitə sonrakı hərəkətləri ilə, yaxud da ağır təhqiredici davranışı ilə bağlı olur.

Tamah motivi - qanunsuz varlanmağa, maddi cəhətdən faydalanmağa hüquqi əsası olmayan şəxsin faydalanmağa doğru istiqamətlənən daxili səyləridir.

Fikrimizcə, adam öldürmədə tamah motivi sözün geniş mənasında maddi faydalanmanı nəzərdə tutur. Təcrübədə tamah motivi ilə adam öldürmə, adətən ən çoxu əmlakın və ya pulun ələ keçirilməsi ilə bağlı olsa da, belə motivi ancaq əmlakı və pulu ələ keçirməyə müncər etmək düzgün olmazdı.



downloaded from KitabYurdu.az

Adam öldürmədə tamah - bu ancaq maddi sərvətə malik olma deyildir, həm də müəyyən maddi məsrəfləri əldən verməkdən xilas olmaq (verməmək, yaxud da gələcəkdə qanuni əsaslarla əldən veriləcək sərvətlərin əldə saxlanmasına yönələn tələbatla bağlıdır).

Əməlin tamah motivi ilə qətl əməli kimi qiymətləndirilməsi üçün zərərçəkənin kim olmasının əhəmiyyəti yoxdur. Zərərçəkən əmlakın sahibi ola bilər, başqa halda əmlak onun əməli idarəçiliyində ola bilər, habelə təqsirkarı öldürməklə ələ keçirmək istədiyi əmlak zərərçəkənin mühafizəsində ola bilər. Təqsirkar zərərçəkəni öldürməklə əmlaka olan hüquqa malik olmaq məqsədi güdə bilər. Təqsirkar zərərçəkəni öldürməklə vərəsəliyin açılacağını, bu yolla əmlaka nail olacağını, mənzili ələ keçirəcəyini, aliment vermək öhdəçiliyinə son qoyulacağını zənn edir.

Muzdla qətlə yetirmə də tamah motivi ilə adam öldürmə kimi qiymətləndirilir. 60-70-ci illərdə respublikamızda muzdla qətlə yetirmə əməlləri nadir hallarda qeydə alınırdı. Lakin 90-cı illərdən başlayaraq belə əməllərə tez-tez təsadüf edilir. Pulla tutulan şəxslər tərəfindən adamların qətlə yetirilməsi şübhəsiz, tamah motivi ilə qəsdən öldürmə kimi qiymətləndirilir. Lakin belə qətli "sifariş" verən və maliyyələşdirən şəxsin əməli tamah motivi ilə törədilən qətldə iştirakçılıq üstündə yaransa da, zərərçəkənin öldürülməsinin "sifarişçinin" intiqam, qısqanclıq və sair motivlərlə bağlı olması istisna edilmir.

***Xuliqanlıq hissi - azğınlıqla, qatı eqoizmlə bağlı şəxsdə yaranan daxili tələbatdır.***

Xuliqanlıq motivinin yaranmasında sosial əhatənin, təqsirkarla kontaktda olan şəxslərin elə ciddi rolu olmur. Sanki təqsirkar öz təşəbbüsü ilə, mühitlə, insanlarla münaqişəyə girir. Xuliqanlıq motivinin yaranmasında təqsirkarı münaqişəyə çəkən amil kimi zərərçəkənin davranışını nə əxlaqi, nə də ki hüquqi baxımdan pisləmək mümkün olmur. Xuliqanlığın şərti olaraq motivsiz cinayət hesab edilməsi, əslində təqsirkarın kənar səbəb olmadan cinayət törətməsi təsəvvürü ilə bağlıdır.

Xuliqanlıq hissi ilə cinayət törədənlərin şəxsiyyətinin məhdudluğu, qatı eqoizmi, şəxsiyyətə və insan ləyaqətinə inkari münasibəti, qanun-qaydaya, birgə yaşayış normalarına laqeydliyi, azğınlığı və təşərliyi, onunla ictimai əhatə arasında adi ünsiyyətdə belə münaqişə yaradır. Bu da özünü zərərçəkənin ciddi əhəmiyyət verilməyən davranışına adekvat olmayan reaksiyasında - təqsirkarın zərərçəkəni döyməsində, onun bədəninə xəsarət yetirməsində və ya onu öldürməsində ifadə olunur.


downloaded from KitabYurdu.az

Ümumiyyətlə bütün hallarda adam öldürmə qəddarlığı və amansızlığı təcəssüm etdirir. Lakin qanunvericilik sadəcə "amansızlığ"ı deyil, "xüsusilə amansızlıq"la törədilən qətl əməllərini ağırlaşdırıcı hallarda törədilən adam öldürmənin növü kimi müəyyən edir. Qətl cinayətinin edilməsində amansızlıq ilk növbədə cinayətin edilməsində seçilən üsulun xarakterində özünü biruzə verir. Adam öldürmədə təqsirkarın seçdiyi belə üsul zərərçəkənə və başqa adamlara (xüsusən zərərçəkənin yaxınlarına) əzab və işgəncə verir. Burada cinayətin törədildiyi üsul təqsirkarın şəxsiyyətini son dərəcə mənfi mövqedən xarakterizə edir.*

## Zorakılıqla bağlı ağır cinayətlərin səbəbləri, bu cinayətlərin baş verməsinə kömək edən hallar.

Kriminoloji tədqiqatların məlumatları göstərir ki, zorakılıqla bağlı cinayətkarlığın ictimai təhlükəliliyinin artmasına aşağıdakı amillər təsir göstərmişdir:

1) əvvəlki dəyərlərin və mənfi prinsiplərin yenidən qiymətləndirilməsi və buna görə kütləvi şüurun pulların hakimiyyətini qəbul etməsi, onu yeganə dəyər kimi götürməsi; insan həyatının yüksək maddi göstəricilər olmadığı halda qiymətdən düşməsi;

2) əxlaqla əxlaqsızlıq, ədəblə ədəbsizlik arasında olan hədlərin silinməsi;

3) əhalinin maddi səviyyəsinə görə differensiallaşması ilə bağlı cəmiyyətdə sosial münaqişəliliyin dərəcəsinin və miqyasının artması (yoxsulluq həddində olanların, işsizlərin sayının artması).

Əhalinin böyük hissəsi məcburi olaraq daimi gəliri olmayanların sırasına keçir (məsələn, ştatların ixtisarına, müəssisənin bağlanmasına və s. görə iş yerinin itirilməsi nəticəsində). Bunların çoxu xırda kommersiya ilə məşğul olmağa, kommersiya təşkilatlarında işləməyə məcbur olurlar. Burada onlar mütəşəkkil cinayətkar qruplaşmaların nəzarəti altına düşür, hədə-qorxu ilə tələb etmə, şantajla toqquşur, qeyri-qanuni yolla əldə edilmiş malı satmaq üçün almağa məcbur edilirlər, yəni cinayətkarlığın caynağına düşürlər, qanunu pozurlar, yaxud da həyat və sağlamlığı əleyhinə cinayətkar qəsdlərin qurbanı olurlar.

Nəticədə cəmiyyətdə qanunun zəifliyi, hüquqi özbaşınalıq, hüquq-mühafizə orqanlarına müraciət etmənin əhəmiyyətsizliyi barədə təsəvvürlər yayılır və möhkəmlənir.

İnsanlar sevimli işlə məşğul ola bilmədiklərinə, ixtisası üzrə iş tapa bilmədiklərinə görə hüquq və əxlaq normalarını pozan şəxslərə səmtləşməyə məcbur olurlar.

* F.Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. Bakı, 1997, s.20-22, 28-30, 32-33, 52.



downloaded from KitabYurdu.az

Professor V.Luneyev zorakılıqlarla bağlı cinayətkarlığın belə motivləşmələrini seçir:

1) siyasi;
2) tamah məqsədilə;
3) zorakı-eqoistcəsinə - məsələn, xuliqanlıq, qisas, qısqanclıq, şəxsi düşmənçilik, narazılıq, seksual meyllər;
4) fərdi-anarxist - qanunçuluğunun tələblərini inkar etmə, cinayətkarın başa düşdüyü şəxsi azadlığını bağlayan, ona müəyyən fəaliyyətlə məşğul olmağa mane olan vəzifələrin rədd edilməsi;
5) arsızcasına - məsuliyyətsiz - insanın real gerçəkliyi üstdən əks etməsi nəticəsində yaranır;
6) qorxaqcasına-cəsarətsiz motivlər.*

Cinayətin motivini həmişə dəqiq müəyyən etmək mümkün olmur. Hərdən bir cinayətin arxasında kompleks motivlər durur. Belə ki, maddi gəliri əldə etmə motivi (tamah məqsədi) arsızcasına-məsuliyyətsiz, siyasi və digər motivlərlə birlikdə ola bilər. Məsələn, qəsdən öldürmə, bədənə ağır xəsarət yetirmə, insan oğurluğu, xəstəyə kömək göstərilməməsi, özünü öldürməyə çatdırma cinayətlərində tamah məqsədli və zorakılıq motivləri qarışıq olur - cinayətkar düşmənçilik, qisas, qısqanclıq məqsədlərini rəhbər tutaraq həm də zərərçəkənin əmlakının oğurlanması və ya gələcəkdə vərəsəlik üzrə onun alınması məqsədlərini güdür.

Qısqanclıq motivi ilə qəsdən adam öldürmədə hər bir halda belə motivin yaranması səbəbi araşdırılmalıdır. Qısqanclıq cinslər arasındakı münasibətlərdə hələ də rast olunan eqoizmin təzahür formalarından biridir. Belə motiv tərəflərin qidalandığı diqqət və rəğbət hissini, müəyyən dəyərin itiriləcəyi qorxusu altında yaranır. Qısqanclıq - kişi və ya qadının bir-birinə sadiq olmasına şübhə etməsi, yaxud da yol verilmiş xəyanətlə əlaqədar yaranan əzabverici hissdir.

Özündə etibarsızlıq, şübhə, kin və eqoistlik kimi ünsürləri təcəssüm edən qısqanclıq qətl cinayətlərini doğuran, habelə nisbətən geniş yayılmış subyektiv amillərdəndir.*

Ayrı-ayrı hallarda - insanın oğurlanması, qanunsuz azadlıqdan məhrum edilməsi, qanunsuz psixiki stasionara yerləşdirilməsi və şəxsiyyət əleyhinə digər cinayətlərdə siyasi motivləşmə olur.

Son dövrdə milli motivləşmə ortaya çıxmışdı - insanın həyat və sağlamlığı əleyhinə, onun azadlığı, şərəf və ləyaqəti əleyhinə cinayətlərin milli mənsubiyyətinə görə törədilməsi, hətta bu halda xüsusi qəddarlığın göstərilməsi.

Qətləyetirmə milli, irqi və ya dini zəmində törədildikdə, zərərçəkənin milli, irqi və dini mənsubiyyəti adam öldürmə cinayətini doğuran motivə çevrilir.

Qan intiqamı ilə adam öldürmə ibtidai icma cəmiyyətinin adət və ənənələrinə, əxlaqına söykənən qəbilə, tayfa münasibətlərində sadə bərabərliyi təmin edən talion prinsipi ilə bağlı olmuşdur.

---

* В.В. Лунеев. Преступное поведение, мотивация, прогнозирование, профилактика. М, 1980, с. 51-71



downloaded from KitabYurdu.az

Talion prinsipi vurulan ziyana uyğun ziyanın yetirilməsini müəyyən etmiş, bu yolla qəbilə və tayfaarası münasibətlərin müəyyən müvazinətdə saxlamaq və nizamlamaq mümkün olmuşdur.

Qədim dünyanın insan qrupları arasında olan qarşılıqlı əlaqələrin spesifik üsulu kimi talion inkişafın bu mərhələsində bütün insan qrupları üçün tənləşdirici universal adətlərdən olmuşdur.

Talion prinsipi "həyata görə həyat, gözə görə göz, ziyana görə ziyan…" müəyyən edir. Talion ümumi formada belə ifadə olunurdu: "başqaları sənin və yaxınların barəsində necə hərəkət edirsə, sən də onların barəsində belə hərəkət et". Talionla bağlı adətlər fərdlərin hərəkətlərini onlardan asılı olmayaraq standartlaşdırırdı.

Cavab hərəkət reaksiyasına yol verilərkən fərdin şəxsiyyəti, onun taleyi nəzərə alınmırdı. Məsələn, atanın təqsirinə görə onun övladları, nəvələri, nəticələri, kötükcələri və s. sonradan gələn varislər cavab verməli olurdu. Burada qorunması yeganə müqəddəs hesab edilən cəhət yetiriləcək ziyanın, ziyan vuran hərəkətlə eyni bərabər olmasının gözlənilməsi idi. Qan intiqamı ilə qəsdən adam öldürmə də talion adətlərinin tərkib hissəsi kimi belə "bərabərliyə" istinad edir.

Belə ki, əgər biri digərinin yetkinlik yaşında olan övladını öldürürdüsə, digər tərəfin də belə hərəkət etmək üçün mənəvi borcu yaranırdı. Əgər öldürənin övladı zərərçəkən yaşda deyildirsə, qan intiqamını almağı özünə borc hesab edən şəxs uşağın böyüyüb məlum yaş həddinə çatmasını gözləməli idi.

Qan intiqamına əsasən adamöldürmə tarixən "ləyaqəti ucaldan" əməl hesab edilmişdir. Təsəvvürlərdə haqlılıq və haqsızlıq, təqsirlilik və məsuliyyət haqqında məsələnin məğzi cavab hərəkətinin həyata keçirilməsinin nə qədər adekvat olmasına müncər edilirdi.*

Kriminoloji tədqiqatlar göstərir ki, qəsdən öldürmələrin, bədənə ağır xəsarət yetirmələrin hər dördündən biri cinayətkarın öz qurbanını alçaltmaq arzusu ilə bağlı olur, insanın həyat və səhhəti əleyhinə ağır cinayətlərin hər altısından birində isə cinayətkar başqa insana zorakılıq göstərməklə özünü təsdiq etməyə, öz mənliyini göstərməyə, həyatda itirilmiş dayağı tapmağa, öz qüvvəsinə inamsızlıq hissini azaltmağa cəhd edir.

Çox vaxt insanın cinsi azadlığı və toxunulmazlığı əleyhinə cinayətlərdə, xüsusilə zorlamalarda, seksual motiv yox, başqa insanı hədsiz dərəcədə alçaltmaq və ona əzablar vermək yolu ilə öz vacibliyini təsdiq etmə ilə bağlı zorakı-eqoistcəsinə motiv üstün olur.

Zorakılıqla bağlı ağır cinayətlərin situasiyadan asılılığı da artır. Son vaxtlar belə cinayətlərin 55% əvvəlcədən hazırlanıb düşünülməmiş və plansız törədilir; cinayətkarın bu vaxta artıq mənəvi-hüquqi baxışları və təsəvvürləri pozulmuş olur və o qərarı hansısa situasiyanın təsiri altında impulsiv olaraq qəbul edir.

Formalaşmış fikirləri, dəyərləri, səmtləri olan şəxslər tərəfindən zorakılıqla bağlı cinayətlər, xüsusilə də qəsdən öldürmələr tamah məqsədli motivləşmə əsasında törədilir. Onlar cinayətkar fəaliyyəti yüksək maddi səviyyə və həyat tərzinin təmin edilmə vasitəsi kimi şüurlu seçir, bunu özünə peşə hesab edir, sifarişlə qəsdən öldürmələr törədirlər.



downloaded from KitabYurdu.az

Sosial statusunu itirmiş, daimi gəliri olmayan şəxslər həm xüsusi təhlükəli, həm də məişət cinayətləri törədirlər.

Axırıncıların törədilməsində zorakı-eqoistcəsinə (hərdən tamah məqsədi ilə motivə qarışan) motivləşmə olur. Belə cinayətlərin 15%-də zərərçəkən qohumlar və ailə üzvləri, əsas isə - düşmənçilik və ya spirtli içkilərin təsiri olur. Son illər bu şəxslərin davranışına hüquq-mühafizə orqanlarının nəzarətinin zəifləməsi, onlarla profilaktik işin aparılmaması ilə bağlı belə şəxslərin ictimai təhlükəliliyi artmış, bu isə onların ağır cinayət törətməsinə səbəb olmuşdur.

Əvvəllər əhalinin imkanlı təbəqələrinə aid olan şəxslər sosial statusunu itirdiyinə görə, onlar üçün həyatının mənası itir, mənəvi prinsipləri dağılır, onlar spirtli içkilərə, narkotik maddələrə qurşanırlar.

Onların zorakılıqla bağlı cinayətləri - qəsdən öldürmələri, bədənə ağır xəsarət yetirmələri, döyməklə işgəncə vermələri və s. törətməsi çox vaxt situasiyadan asılı olur və özünü təsdiq etməyə cəhd göstərmək əsası daşıyır. Zərərçəkənləri isə - həm yaxın ətrafı, həm də tanış olmayan, təsadüfi adamlar olur (təsadüfi savaşda zor tətbiq etmə).

Daimi gəliri olmayan cavanların 5%-i cinayətkar fəaliyyətdən əldə olunan vəsaitlə dolanırlar. Bu əsasən hədə-qorxu ilə tələb etmə, reketdir. Onlar qəsdən öldürmələri, bədənə ağır xəsarət yetirmələri cinayətkar fəaliyyətlə bağlı törədirlər. Zərərçəkənləri - əvvəlki cinayətkar qəsdlərin obyektləri (məsələn,tələb olunan pulları verməyə imtina edənlər), cinayətkar fəaliyyətdə həmkarlar və ya rəqiblərdir.

Sahibkarlar zorakılıqla bağlı cinayətləri əsasən sərxoşluq vəziyyətində törədir. Motiv - öz mənliyini göstərmək (külli miqdarda pullarına arxayın olub). Onlar hesab edir ki, çoxlu pulun olması onların cəzasız qalmağını və nəzarətsizliyini təmin edir. Bunların cinayətlərinin 5%-də tamah məqsədi olur - öz işini genişləndirmək, maliyyə vəziyyətini gücləndirmək üçün əlavə vəsaitin əldə edilməsi məqsədilə cinayət törədilir.

Seksual xarakterli cinayətlərdə cinsi tələbatdan başqa, özünütəsdiqetmə, arvadından, zərərçəkəndən qisas almaq; həmyaşıdına oxşamaq arzusu; sərxoşluq motivləri olur. Bəzi hallarda zorlamağa qəsdlərin əsasında qeyri-sağlam ailə münasibətləri də olur.

Zorlamaların törədilməsinə çox vaxt zərərçəkənin davranışı da vadar edir. Belə cinayətləri törədən şəxslərdə əksər hallarda psixiki çatışmamazlıqlar olur (homoseksualizm, psixopatiya, xroniki alkoqolizm və s.) Onlar çox vaxt öz kriminal fəallığını uşaqlara yönəldir, bu isə problemin sosial vacibliyini artırır.

Bu cür cinayətlərin törədilməsinə əksər hallarda tibbi, psixoloji, psixiatrik müalicənin çatışmamazlıqları səbəb olur.

Bunlardan başqa kütləvi informasiya vasitələrində erotik mövzuya geniş yer ayrılması anomaliyası olan şəxslərə, həmçinin yeniyetmələrə kriminoloji cəhətdən təhrik etmə təsiri göstərir.



downloaded from KitabYurdu.az

## Zorakılıqla bağlı ağır cinayətlərin qarşısının alınmasına yönələn tədbirlər sistemi.

Dövlət tərəfindən əsas mənəvi prinsiplərin, dəyərlərin və hüquqi normaların işlənməsi və bunların kütləvi informasiya vasitələri, incəsənət və ədəbiyyat sənətlərinin vasitəsilə əhalinin şüuruna yeridilməsi mənəvi-psixoloji mühitin sağlamlaşmasına təsir göstərərək yüksək maddi vəziyyətə çatmaq üçün neqativ və qeyri-qanuni üsulları inkar edən ictimai fikirlərin yaranmasına gətirib çıxarır.

İnsanın həyat və səhhəti, şərəf və ləyaqəti, azadlığı, cinsi toxunulmazlığı əleyhinə cinayətkarlıqla mübarizə vətəndaşlarda aşağı dərəcəli hüquqi tərbiyə olduğu təqdirdə qeyri mümkündür. Vətəndaşlar ən geniş yayılmış cinayətlərin hüquqi cəhətdən düzgün qiymətləndirilməsini bacarmalı, münaqişələri qanuni üsullarla həll etmə yollarını öyrənməlidirlər.

Cinayətlərin vaxtında açılması və müqəssirlərə qarşı qanunla müəyyən edilmiş ölçülərin götürülməsi də çox vacibdir. Cəzasızlıq, cinayətkarlığın gücü, hüquq-mühafizə orqanlarının ələ alınması barədə təsəvvürlərin geniş yayılması zorakılıqla bağlı cinayətlərin artmasına gətirib çıxarır.

Dövlət səviyyəsində vətəndaşlara psixoloji köməyin göstərilməsi, şəxsiyyətin psixi inkişafında əyintilərin diaqnostikası sisteminin yaradılması zorakılıqla bağlı cinayətkarlığın qarşısının alınmasına müsbət təsir göstərər.

Məişətdə törədilən bu növ cinayətlərin qarşısının alınması üçün ailəyə və uşaqlara lazımi kömək göstərə biləcək məsləhətxanaların, hüquqşünasları, sosioloqları, psixoloqları cəlb edən mərkəzlərin açılması çox vacibdir.

İşsizliyin azalması və onun neqativ təsirlərinin nəticəsinin aradan qaldırılması böyük əhəmiyyət kəsb edir. Bunun üçün əhalinin məşğulluq mərkəzlərinin işi gücləndirilməlidir.

Risk qruplarına düşmüş şəxslərin davranışı üzərində nəzarətin təşkil olunması üçün hüquqi əsasların işlənilməsi, bu kateqoriyalı şəxslərlə profilaktik işin aparılması - insanın həyat və səhhəti əleyhinə zorakılıqla bağlı ağır cinayətlərlə (xüsusilə də məişət cinayətkarlığı ilə) təsiredici mübarizə tədbirləridir. Risk qrupuna aşağıdakı şəxslər aiddir:

uzun müddət daimi gəliri olmayan şəxslər. Birinci növbədə, onların hansı vəsaitlə dolandıqlarının müəyyən edilməsi üçün, işə düzəlməyə kömək göstərilməsi üçün və s. hüquqi əsaslar olmalıdır;

işsizlər;

sistematik olaraq spirtli içkilərdən istifadə edənlər;

əvvəllər məhkum olunmuş, əxlaqsız və qanunazidd həyat tərzi sürənlər (xırda xuliqanlıq törədənlər);

daimi yaşayış yeri olmayan, tüfeyli və dilənçi həyatla yaşayanlar;

işləməyən və oxumayan yetkinlik yaşına çatmayanlar və 18 yaşlı cavanlar.

Son vaxtlar sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın təhlükəliliyi, habelə sahibkarların viktimliyi, yəni cinayətkar qəsdlərin qurbanı olmaq riski artmışdır.



downloaded from KitabYurdu.az

Bu problem iki tərəfdən həll olunmalıdır: bir tərəfdən - sahibkarlıqdan kriminalın kökündən çıxarılması; digər tərəfdən - sahibkarların etibarlı müdafiəsinin təmin olunması.

Bu baxımdan cinayətkarlıqla mübarizənin gücləndirilməsi, hüquq-mühafizə orqanları əməkdaşlarının ixtisasının təkmilləşdirilməsi, bu sahədə korrupsiya ilə mübarizənin kəskinləşdirilməsi, əhalinin hüquq-mühafizə orqanları ilə əməkdaşlığının təşkil olunması aktualdır.

İnsanın azadlığı və toxunulmazlığı çoxsəpkili anlayışdır. Bu anlayış həm də şəxsiyyətin cinsi toxunulmazlığını və cinsi azadlığını əhatə edir. Başqa sözlə, kiminlə və hansı formada seksual tələblərin təmin edilməsi yetkin şəxsin hüququdur.

Ölkəmizdə cinsi münasibətlərin normal ukladı ümumbəşəri əxlaqa söykənir, bu sahədə hüquqa və hüquq bərabərliyinə Azərbaycan Respublikasının Konstitusiyası ilə təminat verilir.

Cinayət hüququ heç də insanların cinsi (seksual) münasibətlərinin pozitiv təmsilçisi sayılmır, o ancaq cəmiyyətdə cinsi əxlaqın prinsiplərinə və insanların təbii birgə yaşayış qaydalarına açıq zidd olan əməllərin törədilməsini qadağan edir.*

Cinsi toxunulmazlıq əleyhinə cinayətlərin qarşısının alınmasında əxlaqi-cinsi tərbiyə işinin genişləndirilməsi, uşaqların və yeniyetmələrin pornoqrafik informasiyaya buraxılmaması, yüksək mənəvi keyfiyyətlərin formalaşmasının nəzərdə tutan sosial-pedaqoji tədbirlərin təşkil olunması mühüm əhəmiyyət kəsb edir.

Göstərilən kateqoriyalı cinayətlərlə mübarizənin digər istiqamətlərindən biri də psixi çatışmamazlıqları (o cümlədən davranışında seksual xarakterli pozuntuları) olan şəxslərin reabilitasiyası və onların ictimai təhlükəli hərəkətlərinin profilaktikasıdır.

Sifarişli öldürmələrlə mübarizədə mütəşəkkil və peşəkar cinayətkarlıqla mübarizənin xüsusi tədbirlərinin həyata keçirilməsi aktualdır.

* F.Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. Bakı, 1997, s. 172



downloaded from KitabYurdu.az

# Doqquzuncu fəsil

# İqtisadiyyat sahəsində cinayətkarlıq və onun qarşısının alınması.

**İqtisadiyyatda baş verən cinayətlərin kriminoloji xarakterizəsi. İqtisadiyyatda baş verən cinayətlərin səbəbləri və belə cinayətlərin baş verməsinə kömək edən şərait. İqtisadiyyatda baş verən cinayətlərin qarşısının alınması.**

## İqtisadiyyatda baş verən cinayətlərin kriminoloji xarakterizəsi.

İqtisadi cinayətkarlığın müxtəlif anlayışları var, lakin ilk dəfə ictimaiyyət onu "ağyaxalıqlı cinayətkarlıq" fenomenindən tanıdı. Bu fenomeni 1940-cı ildə amerika kriminoloqu E.Saterlend açmışdır. O "ağyaxalıqlı cinayətkarlığı" "yüksək sosial statusu olan hörmətli şəxslər tərəfindən öz peşə vəzifələri çərçivəsində və onlara göstərilən etimaddan sui-istifadə edərək törədilən qanunpozuntularının kompleksi" kimi müəyyən etmişdir.*

İkinci dünya müharibəsi vaxtında qara bazarın problemlərini ABŞ-da M.Klayrd öyrənmişdir. O göstərmişdir ki, qiymətlərin və paylanma normalarının müəyyən edilmiş məhdudiyyətlərinin pozulması nəticəsində istehlakçılar və vergiödəyicilər cinayətkarlığın digər növlərindən olan itkilərdən qat-qat üstün maliyyə itkilərinə məruz qalmışlar.

Kriminoloqlar 1976-cı ildə müəssisələrin və korporasiyaların daxilində baş verən cinayətkarlığı tədqiq edərək belə bir məlumatlar almışlar ki, bu cinayətlərin 85%-i mülkiyyət əleyhinə cinayətlərin üzərinə düşür.

İsveçdə məşhur kriminoloq B.Svensson 1983-cü ildə iqtisadi cinayətkarlığı təsərrüfat fəaliyyətində sistematik olaraq törədilən qanunsuz hərəkət kimi müəyyən edilməsini təklif etmişdir.

Müasir dövrdə iqtisadiyyatda aparılan islahatlar nəticəsində iqtisadi cinayətkarlıqda da ciddi dəyişikliklər baş vermişdir. Mülkiyyətin yeni formalarının yaranması, iqtisadiyyatın bazar münasibətləri şəraitində işləməsi, dünya bazarına çıxış iqtisadiyyatda kriminal vəziyyətin mürəkkəbləşməsi ilə müşahidə olunur.

Kriminoloqlar iqtisadi cinayətkarlığın belə bir anlayışını da vermişlər ki, bu "təsərrüfat fəaliyyəti üçün istifadə olunan mülkiyyətə, iqtisadi proseslərin müəyyən edilmiş idarəetmə qaydasına və vətəndaşların iqtisadi hüquqlarına iqtisadi münasibətlər sistemində müəyyən funksiyaları yerinə yetirən şəxslər tərəfindən edilən tamah məqsədli qəsdlərin məcmusudur".

---

* E.X. Saterlend. Ağ yaxalıqlı insanların cənayətləri cinayət sayılırmı? Cinayətkarlığın sosiologiyası. M, 1966, s. 54



downloaded from KitabYurdu.az

Praktiki olaraq, iqtisadi cinayətkarlıq - cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkiblərin bir neçə onluğunun mürəkkəb məcmusudur. Bura oğurluqlar, valyuta sərvətləri ilə qanunsuz əqdlər, saxta əskinasların və ya qiymətli kağızların hazırlanması və dövriyyəyə buraxılması, gəlirlərin vergitutmadan gizlədilməsi, istehlakçıların aldadılması, xarici valyuta şəklində olan vəsaitlərin gizlədilməsi, ticarətdə qanunsuz sahibkarlıq, qaçaqmalçılıq, təhlükəsizlik tələblərinə cavab verməyən əmtəənin buraxılması, satışı və s. cinayətlər daxildir.*

Beləliklə, iqtisadi cinayətkarlığın yüksək ictimai təhlükəliliyi onun cəmiyyətin institutlarına neqativ təsirindən, dövlətin iqtisadi əsaslarının sarsıdılmasına yönəldilməsindən ibarətdir.

İqtisadi cinayətkarlığın aşağıdakı əsas xüsusiyyətləri var:

1. İqtisadi hüquqpozuntularının latentliyi yüksəkdir.

Məhkəmə-istintaq praktikasının qanunvericilikdə edilən yeniliklərin tətbiq edilməsinə dair lazımi təcrübəsinin olmaması çox vaxt elə bir vəziyyətə gətirib çıxarır ki, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına ziyan vurulması aşkar göründüyü halda, hüquqi qərarın qəbul edilməsi çətin olur.

İqtisadi cinayətlərin çoxu vətəndaşların və vəzifəli şəxslərin ərizələri ilə aşkar olunmur. Onlar əmlakın idarə edilməsi və onun qorunması üçün mülkiyyətçinin vəkil etdiyi şəxslər tərəfindən törədilir.

Düzdür bir sıra yeni yaranmış cinayətlərin latentliyi aşağıdır. Bu bank kreditlərinin alınması zamanı dələduzluq, saxta ödəniş sənədlərindən istifadə olunması, əhalidən vəsaitlərin yığılması, saxta pulların hazırlanması və s.cinayətlərdir.

Buna baxmayaraq, iqtisadi cinayətkarlığın templəri ümumi xarakterli cinayətkarlığı ötür. Respublikada 1997-ci il ərzində Daxili İşlər Nazirliyinin iqtisadi sahədə cinayətkarlığa qarşı mübarizə idarəsinin xətti üzrə 1681 cinayət qeydə alınmışdır. Bunların çoxunu maliyyə-təsərrüfat sahəsində törədilən talamalar və müxtəlif növ fırıldaq əməliyyatları təşkil edir.

Belə ki, dövlət əmlakını və ya ictimai əmlakı talamasına görə 1039 nəfər cinayətkar məhkum olunmuşdur. O cümlədən:

1) Oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq yolu ilə:

- həmin müəssisənin, təşkilatın öz işçiləri tərəfindən - 402 nəfər (bu 1996-cı ilə nisbətən 309 nəfər çoxdur);
- kənar şəxslər tərəfindən - 81 nəfər (bu 1996-cı ilə nisbətən 586 nəfər azdır);

2) Mənimsəmə, israf etmə və ya qulluq mövqeyindən sui-istifadə etməklə - 256 nəfər (bu 1996-cı ilə nisbətən 150 nəfər azdır);

3) Xüsusilə külli miqdarda talama yolu ilə - 286 nəfər (1996-cı ilə nisbətən 53 nəfər çoxdur).

Xarici iqtisadi əlaqələr sahəsində qaçaqmalçılıqla məşğul olduqlarına görə 167 nəfər məhkum olunmuşdur ki, bu da 1996-cı ilə nisbətən 72 nəfər çoxdur.

* A.İ. Dolqova. Kriminologiya. M., 1997, s. 484



downloaded from KitabYurdu.az

Ticarət sahəsində alıcıların və sifarişçilərin aldadılmasına görə 15 nəfər məhkum olunmuşdur ki, bu da 1996-cı ilə nisbətən 4 nəfər çoxdur.

Bununla yanaşı, törədilən cinayətlərin 2/3 müxtəlif səbəblərə görə rəsmi statistikada əks olunmur.

2. İqtisadi cinayətkarlığın cəmiyyətə vurduğu ziyanın məbləği olduqca böyükdür.

Belə ki, 1997-ci il ərzində dövlət əmlakının və ictimai əmlakın talanmasına görə dövlətə - 155940 mln. manat ziyan vurulmuşdur.

O cümlədən törədilmişdir:

Xüsusilə külli miqdarda - 65772 mln. manat; mənimsəmə, israf və sui-istifadə etmə yolu ilə - 487 mln manat; vəzifə və təsərrüfat cinayətlərinin nəticəsində - 11799 mln. manat ziyan vurulmuşdur.

Bu məbləğdən iş məhkəməyə göndərilməzdən əvvəl qaytarılmış zərərin miqdarı (müsadirə edilib zərər çəkmiş təşkilata qaytarılıb və həmçinin könüllü ödənilib):

- dövlət əmlakının və ictimai əmlakın talamasına görə - 65763 mln. manat;

Bundan başqa,

- vəzifə və təsərrüfat cinayətlərinə görə - 9644 mln. manat.

Ziyanın ödənilməsini təmin etmək məqsədilə əmlaka həbs qoyulub:

- dövlət əmlakının və ictimai əmlakın talamasına görə - 574 mln. manat
- vəzifə və təsərrüfat cinayətlərinə görə - 539 mln. manat.*

3. İqtisadi cinayətkarlıq digər cinayətkarlığa nisbətən əhalinin böyük hissəsini cəlb edir, yarımkredit mentaliteti formalaşdırır.

Respublika məhkəmələrinin alıcıları və sifarişçiləri aldatma cinayətləri üzrə uzun illər ərzində məhkəmə təcrübəsinin ümumiləşdirilməsi sübut edir ki, bu cinayəti ilk dəfə törətmiş və kiçik miqdarda zərər vurmuş şəxslər cinayət məsuliyyətinə cəlb olunaraq, cəzalandırılmışlar. Belə ki, CM-nin 154-cü maddəsinin 1 hissəsi ilə məsuliyyətə cəlb olunan şəxslərin 88%-nin vurduğu zərər 3 rublu aşmamışdır (1992-ci ilə qədərki qiymətlər nəzərdə tutulur).

Ədəbiyyatda haqlı olaraq qeyd olunur ki, müəyyən vəzifə və ya peşə fəaliyyəti ilə əlaqədar cinayətlərə görə cinayət məsuliyyəti müəyyən edilərkən, qanunverici orqan bu istehsalat sahələrində çalışanların sayını nəzərə almalıdır. Qeyd olunan iqtisadi göstəricilərin nəzərə alınması, alıcı və sifarişçiləri aldatmağa görə cinayət məsuliyyətini müəyyən edən normanın səmərəli olmasına mənfi təsir göstərmişdir. Cinayət qanununun sosial şərtləndirilməsini təhlil edərkən, müəlliflərdən N.F.Kuznetsova alıcı və sifarişçiləri aldatma cinayət tərkibinin qanunvericilik konstruksiyasını praktiki mülahizələrə görə tənqid edir. Müəllif qeyd edir ki, "ölkədə hər gün 400 milyona yaxın alqı-satqı müqaviləsi bağlanır. Əgər hər yüz hadisədən birində alıcı və sifarişçi aldadılarsa, hər gün bu növ cinayətlərlə əlaqədar 4 milyon cinayət işi qaldırılmalıdır. Konkret sosioloji tədqiqatlar: xüsusilə ərzaq məhsullarının alqı-satqısı ilə əlaqədar, bu rəqəmlərin dürüst olmasını sübut edir.

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə cinayətkarlıq haqqında (DİN-nin məlumatlarına əsasən). B, 1998



downloaded from KitabYurdu.az

Ekspert hesablamalarına görə hər gün ölkəmizdə 1 milyona qədər alqı-satqı müqaviləsi bağlanır. Keçid dövrünün yaratdığı obyektiv çətinliklər, işsizlik, qaçqınların iqtisadi problemləri gündəlik çörək pulu qazanmaq məqsədilə küçədə, meydanlarda, "tolkuçkalar"da və başqa izdihamlı yerlərdə ərzaq məhsulları, gündəlik tələbat malları ilə alver edən şəxslər ordusunu günü-gündən artırır. Bu baxımdan, əgər gündəlik alqı-satqı müqavilələrinin yalnız 1 faizində istehlakçının aldadılması baş verirsə, hər gün Azərbaycanda 10.000 cinayət işi qaldırıla bilər.*

4. İqtisadi cinayətkarlıq təbiətinə görə tamamilə mütəşəkkil xarakter daşıyır. Hətta əgər xarici ölkələrin çoxunda mütəşəkkil cinayətkarlıq qumar oyunlarına və narkobiznesə, fahişəliyə, silah satışına nəzarət edirsə, MDV ölkələrində o bütün iqtisadiyyatı nəzarətdə saxlayır.

Müxtəlif növ iqtisadi cinayətlərin belə xasiyyətləri var ki, onlar əksəriyyətdə cəmiyyətin maraqlarına zidd olaraq varlanma məqsədilə iqtisadi, idarəetmə, digər əlaqə və münasibətləri təşkil edən və onlardan istifadə edən qruplar və digər kriminal birləşmələr tərəfindən törədilir.

Müasir dövrdə qeyri-leqal sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ya keçirilən əməliyyatların hesabatdan gizlədilməsi və müvafiq olaraq gəlirləri göstərməmək üçün saxta firmalardan istifadə edən təsərrüfat subyektlərin sayı artır.

İqtisadi cinayətkarlığın böyük bir hissəsini vergi cinayətkarlığı təşkil edir. Burada cinayətlərin aşağıdakı növləri mövcuddur:

1. Mühasibat hesabatı sənədlərində müəssisələrin maliyyə- təsərrüfat fəaliyyətinin tamamilə və ya qismən göstərilməməsi (əqdlərin sənədləşdirilməməsi, əmtəə-maddi dəyərlərin üstəgəlməməsi, pul mədaxilinin kassaya keçirilməməsi).
2. Vergitutma bazasının məbləğinin azaldılmasına imkan yaratmaq üçün iqtisadi göstəricilərin dəyişdirilməsi (alınmış xammalın, yanacağın, istehsal xərclərinə aid olan xidmətlərin qiymətlərinin yüksəldilməsi, vergilərin hesablanması zamanı vergi tariflərinin aşağı salınması, vergi güzəştlərindən qeyri-qanuni istifadə edilməsi).
3. Vergitutma obyektinin dəyişdirilməsi (realizə edilən məhsulun qiymətinin aşağı salınması, onun məbləğinin azaldılması və s.).
4. İqtisadi göstəricilərin hesabat qaydasının pozulması.
5. Maliyyə-təsərrüfat fəaliyyətinin vergi orqanlarının nəzarətindən qaçırılması (vergi orqanlarında uçota durmamaq; vergi orqanlarına xəbər vermədən banklarda əlavə hesabların açılması).

İqtisadi cinayətkarlığın miqyasının dəqiq kəmiyyət ölçüsü mümkün olmadığından, onun inkişafının proqnozu ekspert qiymətlərinə əsaslanır. İqtisadiyyatda kriminal vəziyyət elə bir həddə çatmışdır ki, onun qarşısının alınması strateji əhəmiyyət kəsb edir.

---

* Ə.Ələkbərov. İstehlakçıların aldadılması cinayətlərinin sosial şərtləndirilməsi və ictimai təhlükəliliyi haqqında. Qanunçuluq. № 1. 1998.



downloaded from KitabYurdu.az

Kriminoloqlar belə proqnoz verirlər ki, yaxın vaxtda iqtisadi cinayətkarlığı kökündən qırmaq qeyri-mümkündür. Cinayətkarlar iqtisadi səmtli cinayətlərin törədilməsinin yeni üsullarını axtaracaqlar. Xüsusilə kredit-maliyyə sahəsində, sığorta, investisiya və xeyriyyə fondlarında kölgəli biznesin fəallaşmasının ehtimalı var. Sanksiyasız kompyüter və telekommunikasiya şəbəkəsinə girmək yolu ilə veksellərlə, kredit kartlarla dələduz əməliyyatlar arta bilər.

Kapitalların fərdi şəxslərin əlində yığılması, o cümlədən keçmişdə kriminal təcrübəsi olanlarda, qanunazidd üsullardan və metodlardan istifadə edərək kapitalların cəmləşdirilməsinə gətirib çıxaracaqdır. Bu isə mütəşəkkil və iqtisadi cinayətkarlığın birləşməsi deməkdir.

Eyni zamanda fiziki şəxslərin əmlakına və gəlirlərinə vergilərin qaldırılması əhalinin həyat səviyyəsinin aşağı düşməsi ilə yanaşı sosial gərginliyi kəsginləşdirə bilər. Buna cavab olaraq vergiödəyicilər vergilərin ödənilməsindən boyun qaçıracaq.

İstehsalatın aşağı düşməsi, işsizliyin artması, əhalinin gəlirlər üzrə təbəqələşməsi, sosial sahəyə ayrılan xərclərin ixtisarı iqtisadi cinayətkarlığın dinamikasına təsir edəcək, kriminal təhlükəni yüksək səviyyədə saxlayacaq.

Belə vəziyyəti proqnoz edib, onun qarşısının alınmasına hazırlaşmaq lazımdır.



downloaded from KitabYurdu.az

## İqtisadiyyatda baş verən cinayətlərin səbəbləri və belə cinayətlərin baş verməsinə kömək edən şərait.

İqtisadi cinayətlərin qarşısının alınması üzrə hüquq-mühafizə orqanlarının səmərəli fəaliyyəti yalnız bu cinayətlərin səbəb və şəraitinin aşkar edilməsinə dair elmi tövsiyyələrə əsaslandığı halda mümkündür.

Keçmiş SSRİ-də dövlət-monopoliyalı iqtisadiyyatın islahatlandırılması 1987-ci ildə "Fərdi əmək fəaliyyəti haqqında", sonra isə "SSRİ-də koopersiya haqqında" Qanunların qəbul edilməsindən başlanır. Bu qanunlar ilk dəfə olaraq ölkənin əhalisinə işgüzar təşəbbüslə çıxış etməyə imkan yaradır.

1992-ci ildə respublika müstəqilliyini əldə etdikdən sonra "Mülkiyyət formaları haqqında", "Müəssisələr haqqında", "Sahibkarlıq haqqında" və s. Qanunların qəbul edilməsi cəmiyyətin yeni sosial və iqtisadi vəziyyətlərinin formalaşmasına yol açır.

İqtisadi islahatların normativ bazasını iqtisadi qanunvericilik adlandırırlar. Belə ki, vergi sistemini, iqtisadiyyatın müxtəlif sahələrindəki təsərrüfat fəaliyyətini tənzimləyən yeni qanunlar qəbul edilib və işləyir, cinayət, mülki, inzibati qanunvericilik təkmilləşdirilib.

Lakin cinayət, mülki, inzibati və təsərrüfat hüquqlarının indiki vəziyyəti müasir iqtisadi və hüquq-mühafizə təcrübəsinin tələblərinə cavab vermir. Bu isə cinayət yolu ilə əldə edilmiş kapitalların leqallaşdırılmasına, onların qanuni dövriyyəyə buraxılmasına, "çirkli pulların" yuyulmasına və əhalinin kiçik bir hissəsi tərəfindən ümummilli mülkiyyətin talan edilməsinə şərait yaradır.

Cəmiyyətin iqtisadi bazisinin islahatlandırılması dövlətin kəskin tənzimlənmə mexanizminin olmaması vəziyyətində təbii olaraq sosial mühiti, o cümlədən cinayətkarlığı da, dəyişdirir.

İslahatların aparılması zamanı siyasi-ideoloji və sosial-iqtisadi amillər bir tərəfdən, cinayət qruplaşmaların tez bir zamanda varlanmasına imkan yaratmış, digər tərəfdən isə onların neqativ nəticələri ilə mübarizədə hüquq-mühafizə orqanlarının imkanlarını zəiflətmişdir.

Cinayətkar qruplaşmalar şəxsi qanunsuz varlanmaları üçün qanunvericilikdə olan boşluqlardan istifadə edərək aşağıdakı təsiretmə üsullarını tətbiq edirlər:

1. İnfiltrasiya - öz adamlarının dövlət, hüquq-mühafizə, nəzarətedici orqanlarına və kommersiya strukturlarına yönəldilməsi;
2. Korrupsiya, dövlət, idarəetmə və məhkəmə orqanlarının vəzifəli şəxslərinin ələ alınması;
3. İri sənaye və kommersiya strukturlarının rəhbərləri ilə sözləşmə;
4. Dövlət və idarəetmə orqanlarının korrumplaşmış vəzifəli şəxsləri tərəfindən təzyiqlər, yanlış informasiyanın yayılması;
5. Aksiyaların və payların alınması, hədə-qorxu ilə əmlak və mülkiyyət hüquqlarının zəbt edilməsi;
6. Terror və lazımsız adamların fiziki aradan götürülməsi.



downloaded from KitabYurdu.az

İqtisadiyyatda kölgəli sektorun genişlənməsinə, bu sahədə cinayətkar hərəkətlərin fəallaşmasına və onun mütəşəkkil cinayətkarlıqla birləşməsinə gətirib çıxaran təşkilati-hüquqi və hüquq-mühafizə fəaliyyətinin çatışmamazlıqları aşağıdakılardır:

1. Təsərrüfat və maliyyə dövriyyəsinə daxil olan vəsaitlərin yaranma mənbələrinin qanuni olmasının bir çox hallarda yoxlanılmaması;
2. Hüquqi bazanın iqtisadi islahatlara uyğun gəlməməsi. Sahibkarlığın müdafiəsi və dəstəklənməsi üçün işləyən mexanizmin olmaması. Antiinhisar və vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət sisteminin işlənilməməsi.
3. Sosial tənzimləyici kimi hüquq-mühafizə orqanlarının imkanlarının şişirdilməsi. Cinayətkarların hədə-qorxularından vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə dair problemlərdən məhkəmələrin uzaq olması. Qanunsuz gəlirlərin aşkar olunmasına müvafiq orqanların hazır olmaması.

Korrupsiya hər bir ölkənin milli, siyasi, iqtisadi və sair şəraitinə uyğun olaraq müxtəlif formalarda təzahür edir. Statistik məlumatlar, hüquq-mühafizə orqanlarının fəaliyyəti və beynəlxalq təcrübə göstərir ki, korrupsiya ilk növbədə rüşvətxorluğun, vəzifədən sui-istifadə hallarının, bank-malliyyə sahəsində törədilən cinayətlərin, eləcə də dövlət əmlakının müxtəlif sahələrdə və üsullarla talanmasının artması ilə bağlı olub daha çox vəzifə və iqtisadi xarakterli cinayətlərlə bilavasitə əlaqədardır.

Keçmiş Sovetlər İttifaqında korrupsiya və rüşvətxorluğa qarşı proqram üzrə mübarizənin təşəbbüskarı məhz Azərbaycan olmuşdur. 1970-1980-cı illərdə korrupsiya və rüşvətxorluğa qarşı ardıcıl mübarizədə gizli “sexlər”, korrupsiya və rüşvətxorluqla bağlı çoxsaylı cinayətlərin açılması, yüksək vəzifələrdə çalışan şəxslərin məsuliyyətə cəlb edilməsi o vaxt təkcə Sovetlər Birliyində deyil, bütün dünyada belə əks-səda doğurmuşdu.

Azərbaycan Respublikası Prokurorluğunun Milli Təhlükəsizlik və Daxili İşlər nazirlikləri, “İnterpolun” Azərbaycandakı milli mərkəzi bürosu və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyəti nəticəsində bank-maliyyə sistemində korrupsiya və rüşvətxorluqla məşğul olan bir qrup şəxslər ifşa edilib cinayət məsuliyyətinə cəlb olunmuşlar. Respublikada geniş əks-səda doğuran “Mərhəmətbank”, “Vahidbank”, “Azərbaycan-Ukrayna” cəmiyyəti, “Aleksbank” və s. banklar haqqında istintaq edilmiş cinayət işlərini buna misal göstərmək olar.

Azərbaycan Respublikası Prokurorluğu tərəfindən bu sahədə yoxlama aparılarkən respublika Beynəlxalq və Əmanət banklarından 1994-1995-ci illərdə kredit almış bir sıra özəl müəssisə və bankların rəhbər işçilərinin xüsusilə külli miqdarda dövlət vəsaitini mənimsəmələri faktı aşkar edilərək başlanmış cinayət işi üzrə 15 nəfər cinayət məsuliyyətinə cəlb edilmiş, beynəlxalq bankdan götürülmüş 18,9 milyon ABŞ dolları məbləğində kreditin valyuta ilə ödənilməsi təmin olunmuşdur.

Qeyd etmək lazımdır ki, idxal-ixrac əməliyyatları kriminal meylli kommersiya qurumları tərəfindən getdikcə daha çox istifadə edilir. Belə ki, ixrac



downloaded from KitabYurdu.az

zamanı qiymətlərin az, idxal zamanı isə çox göstərilməsi, bunun nəticəsində yaranmış vəsaitlərin xaricdə açılmış birgə müəssisələrin hesablarına yerləşdirilməsi, gələcəkdə alınacaq mallara görə qabaqcadan ödənilməsi bəhanəsi ilə pulun götürülməsi, uydurma xidmətlərin ödənilməsi, mal satışından əldə edilən pulun valyuta şəklində respublikaya qaytarılmaması, kredit kartları vasitəsilə vəsaitin xaricə axıdılması və s. yollarla valyuta vəsaitinin xaricə aparılması faktları qarşısı tam alınmamış ciddi problem olaraq qalır.

Respublikada korrupsiyaya və rüşvətxorluğa şərait yaradan hallardan biri də dövlət idarə, müəssisə və təşkilatları tərəfindən debitor və kreditor borcların süni surətdə yaradılması ilə bağlıdır. Belə ki, bir sıra təşkilatlar fiziki və hüquqi şəxslərə olan borcları qaytarmağa maliyyə imkanları olduğu halda bunu vaxtında etmirlər və nəticədə kreditorları məcburiyyət qarşısında qoyub külli miqdarda rüşvət aldıqdan sonra müqavilə öhdəliklərini icra edirlər.

Eyni mənzərə müxtəlif dövlət və özəl təsərrüfat qurumları arasında görülən işlərə görə hesablamalar zamanı borcların qarşılıqlı məqbulu prosesində də müşahidə olunur ki, bu halların qarşısı nəzarətedici orqanların fəaliyyətinin gücləndirilməsi, onların öz daxili strukturlarında korrupsiyaya qarşı real mübarizə mexanizminin yaradılması və həyata keçirilməsi ilə alınmalıdır. Sözsüz ki, prokurorluq digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətində bu sahəni də unutmamalı, onu diqqət mərkəzində saxlamalıdır.*

* N.Həsənov. Korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluq və digər hüquq-mühafizə orqanları arasında olan münasibətlər. Qanunçuluq. № 1. 1998.



downloaded from KitabYurdu.az

## İqtisadiyyatda baş verən cinayətlərin qarşısının alınması.

İqtisadiyyatda baş verən cinayətlərin qarşısının alınması hüquqpozucuların şəxsiyyətinin düzəlməsinə və cinayətlərin törədilməsinə səbəb olan halların təsirinin azaldılmasına (neytrallaşdırılmasına) yönəlmiş iqtisadi, təşkilati-istehsalat, texniki, hüquqi, tərbiyəvi tədbirlər sisteminin həyata keçirilməsini nəzərdə tutur.

İqtisadi təsirlərə ümumsosial səviyyəli tədbirlər də aiddir. Bunlardan, işsizliyin səviyyəsinin aşağı salınmasına, əhalinin sosial təbəqələşməsinin qarşısının alınmasına yönələn tədbirləri xüsusilə qeyd etmək lazımdır. Cəmiyyətin təbəqələşməsi potensial huquq pozucular, yəni daimi gəliri olmayan şəxslərin təbəqəsini yaratmışdır. Buna görə, insanların həyat səviyyəsinin yüksəldilməsi iqtisadi inkişafın ilk şərtidir.

Hüquq-mühafizə orqanları, xüsusilə iqtisadi sahədə cinayətkarlıqla mübarizə üzrə strukturlar tərəfindən iqtisadi hüquq pozuntularının səmərəli qarşısının alınması yalnız qanunçuluğa riayət edilməsinə təminat verən müasir hüquq-qanunverici bazanın yaradıldığı təqdirdə mümkündür. Bunun üçün ilk növbədə dövlətin iqtisadi təhlükəsizliyinin strategiyası işlənməli, "Korrupsiya ilə mübarizə haqqında", "Cinayətkar gəlirlərin leqallaşdırılmasına görə məsuliyyət haqqında", "Mütəşəkkil cinayətkarlıqla mübarizə haqqında" Qanunlar qəbul edilməlidir.

Dövlət strategiyasının əsas məqsədi vətəndaşların həyatı və inkişafı üçün, cəmiyyətin sosial-iqtisadi, hərbi-siyasi stabilliyi və dövlətin ərazi bütövlüyünün qorunması üçün əlverişli şərait yaradan dövlətin iqtisadi inkişafının təmin edilməsidir.

Konkret tədbirlərə gəldikdə isə, iqtisadi cinayətkarlıqla mübarizə aparan strukturlar dövlət vəsaitlərindən, investisiyalardan qeyri-qanuni istifadə edilməsi, maliyyə, nağd və valyuta bazarlarında, xarici iqtisadi əlaqələrdə fırıldaq əməliyyatlar, strateji əhəmiyyətli xam-malın qaçaqmalçılığı, dələduzluq və istehlak bazarında qanunsuz sahibkarlıq faktları ilə kəskin mübarizə aparmalıdırlar.

İqtisadi cinayətkarlığın vəziyyəti barədə rəsmi və əməliyyat informasiyasının ümumiləşdirilməsinə və öyrənilməsinə xüsusi diqqət yetirilməlidir. Xalq təsərrüfatının ən kriminogen sahələrində kriminal vəziyyətin inkişafı proqnoz edilməli və proqnozun nəticələri təkliflərin hazırlanması üçün cinayətlərin neytrallaşması üzrə qanunverici, icra orqanlarına göndərilməlidir.

Kredit-maliyyə sahəsində iqtisadi cinayətlərin qarşısının alınması üçün "Məlumatların informasiya bankları haqqında" qanunun qəbul edilməsi böyük rol oynaya bilər. Bu qanun hüquq-mühafizə orqanlarına ilkin kapitalın yaranmasının qanuniliyini, maliyyə-kredit münasibətlərinin subyektləri tərəfindən aparılan əməliyyatların qanuniliyini, maliyyə-kredit münasibətlərin subyektlərinin əvvəllər bağlanmış əqdləri insaflı yerinə yetirmələrini yoxlamağa imkan yaradardı.



downloaded from KitabYurdu.az

Hüquq-mühafizə orqanlarının bir-biri ilə, habelə nəzarətedici, yoxlayıcı və yerli orqanlarla, ictimai təşkilatlarla, təsərrüfat subyektlərinin təhlükəsizlik və mühafizə xidmətləri ilə əlaqələrinin yaradılması da çox aktualdır.

Beləliklə, iqtisadi cinayətkarlığın qarşısının alınması üçün iqtisadi, maliyyə nəzarətinin qurulması, iqtisadi cinayətlərə görə qanuni məsuliyyətin təmin edilməsi mühüm məsələlər kimi qarşıda dururlar.



downloaded from KitabYurdu.az

# Onuncu fəsil.

# Peşəkar cinayətkarlıq və onun qarşısının alınması.

**Peşəkar cinayətkarlığın anlayışı və onun kriminoloji xarakterizəsi. Müasir cinayətkarlıqda kriminal peşəkarlıq. Peşəkar cinayətlərin təsnifi. Peşəkar cinayətkarlığın səbəbləri və şəraiti. Peşəkar cinayətkarlığın qarşısının alınması.**

## Peşəkar cinayətkarlığın anlayışı və onun kriminoloji xarakterizəsi.

*Peşəkar cinayətkarlıq* - kriminal peşəkarlığı olan şəxslər tərəfindən əsas və ya əlavə gəlirin əldə edilməsi məqsədilə törədilən cinayətlərin yığımıdır.

Kriminal peşə - cinayətlərin törədilməsi və gizlədilməsi üçün zəruri olan müəyyən spesifik kriminal hazırlığı (ixtisaslaşmanı) nəzərdə tutan fəaliyyətdir.

Kriminal peşəkarlığın aşağıdakı xüsusiyyətləri var:

a) cinayət subyekt üçün yaşama vasitəsinin mənbəyidir;

b) son məqsədə çatmaq üçün lazımi bilikləri və vərdişləri tələb edir;

v) cəmiyyətə zidd mühitlə müəyyən əlaqələri şərt kimi qoyur;

q) cinayətkar məşğuliyyətin sabit növünü müəyyən edir (əsasən eyni cür cinayətlərin törədilməsi).

Kriminal peşəkarlığa xas olan şəxsləri peşəkar cinayətkar adlandırırlar. Lakin bu şəxslərin bütün cinayətləri peşəkar cinayətkarlığa daxil olmur. Bura yalnız yuxarıda göstərilən xüsusiyyətləri olan cinayətlər daxildir. Məsələn, əgər peşəkar oğrular restoranda xuliqanlıq hərəkətləri törədilərsə, bu halda xuliqanlıq peşəkar cinayətkarlığın elementi kimi qiymətləndirilmir.

*Kriminal peşəkarlıq* - sabit və düşünülmüş, təşkil olunmuş sosial tüfeylilik növüdür. O cinayətlərin keyfiyyətlə hazırlanmasına, törədilməsinə və izlərinin gizlədilməsinə, həmçinin cinayət məsuliyyətindən boyun qaçırmağa, daimi maddi gəlirin əldə edilməsinə imkan yaradır.

Bir qayda olaraq, peşəkar cinayətkarlar birinci cinayətlərini yetkinlik yaşına çatmayan dövrdə törədirlər. Subyektin cinayətkar peşəsinin təkmilləşməsi, eyni zamanda cinayət dünyasında məşhurluq və nüfuz qazanması ilə bağlı olan müəyyən həyat yolunun keçməsi kriminal karyer kimi başa düşülür.

Kriminal peşəkar öz peşəsi ilə fəxr edir, özünəməxsus kriminal təfəkkürə malik olur. Çox vaxt bu hətta ümumtəhsil səviyyəsindən də asılı olmur. Kriminal peşə həm sınaq və səhvlər metodu ilə əmələ gəlir, həm də təcrübəli cinayətkarların xüsusi təlimi nəticəsində yaranır.



downloaded from KitabYurdu.az

Bundan başqa peşəkar cinayətkarların formalaşmasında cəzaçəkmə yerlərində olan məhkumların birləşmələri böyük rol oynayır. Cinayətkar təcrübə ünsiyyət və qarşılıqlı əlaqə prosesində keçir. Zəruri hallarda təcrübi məşğələlər təşkil olunur. Məsələn, kilidaçanların, odlu və soyuq silahın hazırlanması, fiziki hazırlıq, əlbəyaxa vuruşmanın öyrədilməsi, kart və digər qumarbazlıq metodları üzrə məşğələlər.*

Peşəkar cinayətkarlığın öyrənilməsi bir çox çətinliklərlə də bağlıdır. Bu birinci növbədə müvafiq cinayətlərin seçilməsini və onlar barədə məlumatların ümumiləşdirilməsini tələb edir.

Peşəkar cinayətkarların şəxsiyyət xarakterizələrini, onların fəaliyyətini bilmədən şəxsiyyətin düzəlməsinə dair sosial proqramları hazırlamaq, cinayətkarlıqla mübarizəni səmərəli təşkil etmək mümkün deyildir.

* A.İ. Dolqova. Kriminologiya. M, 1997, s. 620



downloaded from KitabYurdu.az

## Müasir cinayətkarlıqda kriminal peşəkarlıq.

Peşəkar cinayətkarların çoxu gündəlik həyatda məvacibdən asılı olmayaraq, vaxt sərfetməsini tələb etməyən ixtisasları seçir, yaxud özlərini əlillik alınmasına imkan verən hansısa xroniki xəstəliyə vururlar.

Bunların bəziləri kommersiya strukturlarında formal olaraq qeydiyyatda gedir, digərləri isə qeyri-leqal vəziyyətə keçərək regionları gəzir, cinayətlər törədirlər.

Tamah məqsədilə törədilən cinayətlərin sayının artması, onların açılmasının aşağı düşməsi, latentliyinin yüksək səviyyəsi, kriminal peşəkarlıqla bağlıdır. Hər il orta hesabla bandalarda iştirakçıların 70-80%-i residivistlər və cinayət törətmiş digər kriminal ünsürlər təşkil edir. Onların səyi nəticəsində bandalar öz cinayət təcrübələrini artırır və təkmilləşdirirlər.

Nəticədə peşəkar və mütəşəkkil cinayətkarlıqların biri-birləri ilə qarışma prosesi gedir.

"Qanunda oğruların" cinayətkar tayfalarında son 10-15 il ərzində tayfanın himayəsində olan şəxslərin, öz üzvlərinin həm fiziki, həm də hüquqi müdafiədən ibarət oğurluq təhlükəsizliyi funksiyası inkişaf tapmışdır.

Bunun üçün birləşmələrin başçıları və fəal iştirakçıları dövlət məmurları ilə korrupsiya əlaqələri yaradır, təcrübəli vəkillər tutur, həkimlərlə, jurnalistlərlə, yazıçılarla, kinorejissorlarla, kommersantlarla, bankirlərlə və digər "lazımlı" adamlarla işgüzar əlaqələr yaradırlar. Bunlar maddi maraq əsasında və yaxud (şəxsin fiziki mühafizəyə götürüldüyü halda) əvəzsiz olaraq görülür.

Buna görə, peşəkar cinayətkarlar oğru və digər kriminal birləşmələrə daxil olaraq və ya onların himayəsi altında həm təzə cinayətkarları qanunazidd sənətə öyrədir, həm də cinayətkar strukturların başçılarına sabit maddi gəlir gətirirlər.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar oğru klanların cinayətkar fəaliyyətinin xarakteri dəyişmişdir.

Bununla yanaşı "obşak" vəsaitlərinin formalaşmasının və istifadəsinin xarakteri də dəyişmişdir. "Obşak" - yerlidən tutmuş regionlararası səviyyəyə kimi olan oğru birləşmələrin klanlarının yaranması və cinayətkar fəaliyyətin inkişafı üçün nəzərdə tutulmuş cinayətkar və digər kriminal yolla əldə etdikləri pul vəsaiti, qiymətli əşyalar, valyuta və digər sərvətlərin kassasıdır.

Əgər əvvəllər "obşak" həbsə alınanlara və məhkumlara, onların ailələrinə kömək göstərilməsi, ayrı-ayrı hallarda isə cinayətlərin təşkili və törədilməsi, yaxud da məmurların ələ alınması üçün nəzərdə tutulurdusa, 80-cı illərin sonunda o müəyyən kriminal maliyyə sisteminə çevrilərək geniş spektr alır.

"Obşak" vəsaitlərinin bir hissəsi həm qeyri-leqal, həm də ki, leqal biznesə qoyulur. Oğru birləşmələrinin çoxunda "obşak" vəsaitlərinin leqallaşdırılması kriminal kommersiya fəaliyyətinə istiqamət götürür.

"Obşak" aşağıdakı mənbələrdən formalaşır:



downloaded from KitabYurdu.az

1. Ənənəvi cinayətkar sənətlərdən yığılan haqlar - məsələn, oğurluq pulların və qiymətli əşyaların bir hissəsi, narkotik maddələrin, silahın dövriyyəsindən əldə edilmiş maddi vəsaitlərin payı və s.;
2. Kazino və oyun evlərindən əldə olunmuş gəlirlər (25-35%);
3. Maliyyə-kommersiya, bank strukturlarından pul, məhsul, daş-qaş formasında haqlar (əsasən gizli reketlə alınır), habelə təsərrüfat subyektlərinin haqqı (gəlirlərin 14%, günahı olanlardan isə 20-30% ola bilər);
4. "Oğru" klanları tərəfindən yaradılmış və ya nəzarətə götürülmüş maliyyə-kommersiya strukturlarının gəlirlərindən vəsaitlər.

Bir qayda olaraq cinayətkar birləşmələrdə kriminal cinayətkarlıq çoxtərəfli xarakter alır, çünki cinayətkar strukturun hər bir üzvünün müxtəlif kriminal ixtisasları olur. Məsələn, reketçi lazım olanda qatil, oğru isə quldur və ya soyğunçu ola bilər.

Yalnız cinayətkar strukturun tərkibində peşəkar-cinayətkar həm ətraf kriminal mühitdən, həm hüquq-mühafizə orqanlarından qorunur, eyni zamanda da öz cinayətkar təcrübəsini təkmilləşdirir.

Əvvəllər peşəkar cinayətkarlar təkbaşına "işləməyə" üstünlük verirdilər. Lakin son vaxtlar onlar iştirakçı kimi kriminal bilikləri və vərdişləri olmayan şəxsləri istifadə etməyə başlayıblar.

Bundan başqa, axır vaxtlar peşəkar cinayətkarların arasında xüsusi hərbi, hüquq, idman və digər peşə sahiblərinə tez-tez rast gəlmək olar. Onlar öz biliklərini həm kriminal məqsədlərə çatmaq üçün istifadə edir (məsələn, şəxsən cinayət törədir), həm də məsləhətçi kimi çıxış edirlər, cinayətlərin törədilməsinə yeni üsulları və metodlar gətirirlər. Məsələn, qatillərin bəziləri əvvəllər hərbi qurumların xüsusi təyinatlı bölmələrində qulluq etmiş; bəzi peşəkar dələduzlar vaxtı ilə dövlət maliyyə-bank sistemində işləmişlər.

Əgər əvvəllər cinayətkar peşələrin çoxu kustar yolla əldə olunurdusa, indiki dövrdə bunların bəzilərinə, xüsusi mərkəzlərdə (məktəblərdə) öyrədirlər. Məsələn, xarici ölkələrdə peşəkar qatillərin vərdişlərinin öyrədilməsi üçün qatillər mərkəzləri mövcuddur.



downloaded from KitabYurdu.az

## Peşəkar cinayətlərin təsnifi.

Peşəkar cinayətkarlığın ənənəvi növlərinə cib oğurluqları, avtomaşın oğurluqları, seyflərdən və ya elektron mühafizə sistemi olan yerlərdən oğurluqlar, dələduzluq, əntiq əşyaların oğurlanması, muzdlu öldürmələr və s. aiddir. Öz növbəsində, peşəkar oğrular, dələduzlar və peşəkar cinayətkarların digər kateqoriyaları daha sıx ixtisaslaşma əsasında fərqlənirlər.

Kriminal ixtisaslaşma - eyni tipli tamah məqsədli cinayətlərin keyfiyyətli hazırlanması üçün tələb olunan peşəkar vərdişlərin və qabiliyyətlərin yığımıdır.

Məsələn, dələduzlar arasında kart dələduzları (qumarbazlar), “kukla ustaları”, yəni əşyaları və ya pulları onlara bənzər hazırlanmış müqəvva ilə dəyişdirirlər.

Oğurluq peşəsi ən köhnəlmiş peşədir, lakin onu hazırkı vaxtda bir sıra obyektiv və subyektiv amillər yaşadır. Məsələn, cibə girən oğruların ifşa edilməsi və tutulması ilə məşğul olan cinayət axtarışının xüsusi bölmələrinin ixtisara salınması; cib oğurluğundan zərərçəkənlərin az hallarda hüquq mühafizə orqanlarına müraciət etmələri və s.

Son zamanlar kriminal ixtisaslaşmaların yeni növləri yayılmışdır: reketlik (xüsusən də onun gizli formaları), silahın, narkotik maddələrin, əntiq malların satışı, dələduzluq, qaçaqmalçılıq, muzdlu qətllər (qatillik), yəni cinayətkar peşənin sabitliyini təmin edən ən gəlirli ixtisaslaşmalar.

Dələduzluğun ənənəvi növlərindən artıq elektron-hesablama texnikasından istifadə edən növlərə keçid müşahidə olunur.

Peşəkar cinayətkarlar hüquqa zidd hərəkətlərdə bilavasitə iştirak edənlərə və kölgədə qalaraq onlara xidmət göstərənlərə bölünürlər. Hazırkı zamanda belə ixtisaslaşmaların sayı artmışdır: bu oğurluq malın satıcıları, sutenyorlar, odlu və soyuq silah saxlayanlar və s.



downloaded from KitabYurdu.az

## Peşəkar cinayətkarlığın səbəbləri və şəraiti.

Cinayətkar dünyanın inqilabdan əvvəlki, sovet dövrünün və müasir dövrünün vəziyyətinin öyrənilməsi göstərir ki, peşəkar cinayətkarlığın forması və intensivliyi bütün mərhələlələrdə iqtisadi inkişafdan və hüquq-mühafizə fəaliyyətindən asılı olub.

Göstərilən proseslərdə nisbətsizliklərin yaranması peşəkar cinayətkarlığın artmasına gətirib çıxarmışdır. Həyat səviyyəsi aşağı olanda, hüquq-mühafizə fəaliyyətinin xarakteri sərt formalarda həyata keçiriləndə, törədilən cinayətlərin xarakteri də kobud və sərt olur.

Cəmiyyətdə gedən gizli kriminogen proseslər həmişə peşəkar cinayətkarlığın artması ilə nəticələnib. Belə ki, bir vaxtlar mülkiyyət əleyhinə olan cinayətlərin kəskin artması cinayətkar dünyanın peşəkar elitasına müəyyən gəlirlər əldə etməyə, həm də onları qeyri-leqal və hətta leqal biznesə qoymağa imkan yaratmışdır. Bu isə cinayətkar mühitin gələcəkdə peşəkarlaşmasına səbəb olmuşdur.

Oğru ideyası cinayətkar mühitin adət-ənənələrinin tərkib hissəsidir. Onun təbliğatı neqativ normaların, adətlərin, cəmiyyətəzidd həyat tərzinin leqal-rəsmi yayılmasından ibarətdir. Bu da öz növbəsində həm peşəkar, həm də mütəşəkkil cinayətkarlığın inkişafına təsir edir.

Təbliğat əhalinin geniş təbəqələrindən gizli, əsasən bədii əsərlərin vasitəsilə aparılır. Bu onun başlanğıc mərhələsidir. Növbəti, daha fəal mərhələ isə dövlətdə müvafiq ictimai şəraitlər olanda, məsələn, liberal-demokratik, liberal-anarxist rejimlərdə başlanır. Onda təbliğat artıq kütləvi informasiya vasitələrində, sonra da kinoda, dramaturgiyada aparılır.



downloaded from KitabYurdu.az

## Peşəkar cinayətkarlığın qarşısının alınması.

Elmin və texnikanın müasir inkişafını nəzərə alaraq, peşəkar cinayətkarlığın vəziyyətinin uğurlu və operativ analizi üçün peşəkar cinayətkarların izlənməsi və elektron uçotunun aparılmasının təmin edilməsi məqsədəuyğundur.

Belə uçotun peşəkar cinayətkarın saxlanıldığı cəzaçəkmə yerlərində də təmin edilməsi zəruridir.

Bunlarla yanaşı köhnə, özünü doğrultmuş metodlardan olan, peşəkar cinayətkarların aşkar edilməsi, saxlanılması və ifşa olunması metodları da yaddan çıxarılmamalıdırlar. Bu ilk növbədə hüquqi-təşkilati tədbirləri, xüsusən, daxili işlər orqanlarında kriminal ixtisaslaşmaların istiqamətlərinə uyğun xüsusi bölmələrin yaradılmasını tələb edir (məsələn, cib oğurluqları, dələduzluq və peşəkar cinayətkarlığın digər növləri ilə mübarizə üzrə).

Hüquq mühafizə və məhkəmə orqanlarının qanun əsasında işgüzar qarşılıqlı əlaqələri də ciddi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, peşəkar cinayətkarlıqla mübarizənin, onun xüsusiyyətlərini nəzərə alan hüquqi bazası olmalıdır. Məsələn, cinayətkarlığın bu növünə aid cəza təyin edilərkən, hansısa tətbiq edilən maddənin maksimal sanksiyasından asılı olmayaraq, müqəssirin ifşa olunduğu bütün cinayətlərə görə nəzərdə tutulan cəzaların tam üstəgəlməsi məqsədəuyğundur. Məhkəmənin belə qərarı bir çox, xüsusən də başlayan peşəkar cinayətkarlara ayıldıcı təsir göstərə bilər. Digər tərəfdən bu təhlükəli kriminalları cəmiyyətdən təcrid etməyə imkan yaradır.

Lakin peşəkar cinayətkar keçdiyi yoldan düzgün həyat nəticələri çıxartdığı halda, ona qarşı müddətdən əvvəl azadetmə tətbiq edilməsi də gec deyil.

Bilmək vacibdir ki, son 8-10 il ərzində peşəkar cinayətkarlığın artması bəzi kriminal peşələrin (məsələn, qumarbazlıq, sutenyorluq, fahişəxanaların saxlanması, oğurluq malların satışı və s.) leqallaşmasının təhlükəsini yaradır. Bu da cinayətkar gəlirlərin, parnobiznesin leqallaşması ilə mübarizənin kəskin aparılmadığı halda ola bilər.

Bütün bunlardan başqa, peşəkar cinayətkarlığın inkişafının elmi əsaslandırılmış proqnozlarını alıb, onların təcrübədə uçotunun aparılması zəruridir. Bu proqnozları kütləvi informasiya vasitələri ilə əhalinin geniş təbəqələrinə çatdırıb, göstərilən təhlükəli təzahürə qarşıdurma üçün geniş sosial baza yaratmaq lazımdır.



downloaded from KitabYurdu.az

# On birinci fəsil.

# Mütəşəkkil cinayətkarlıq və onunla mübarizə tədbirləri.

**Mütəşəkkil cinayətkarlığın anlayışı və onun xarakterizəsi. Mütəşəkkil cinayətkarlığın sosial təhlükəliliyi, meylləri, inkişafının proqnozu. Mütəşəkkil cinayətkarlığın meydana gəlməsinin və inkişafının determinantları. Cinayətkar birliklərin iştirakçılarının şəxsiyyəti. Mütəşəkkil cinayətkarlığın qarşısının alınmasının xüsusi kriminoloji tədbirləri.**

## Mütəşəkkil cinayətkarlığın anlayışı və onun xarakterizəsi.

Ümumi hissədə qeyd olunduğu kimi, kriminal gəlirlərin çoxaldılması və hakimiyyət dairələrinə təsirin gücləndirilməsi məqsədilə mütəşəkkil cinayət qruplarının, cinayətkar təşkilatların və cinayətkar birliklərin qanunazidd fəaliyyətinin sıx əlaqəsi mütəşəkkil cinayətkarlığı təşkil edir.

*Mütəşəkkil cinayətkar qrupun* sadə quruluşu var. Bir qayda olaraq, bura başçı (və ya başçılar), fəal iştirakçılar və iştirakçı-icraçılar, habelə təhrikçilər daxildir. Ayrı-ayrı hallarda bura qrupun başçılarının və üzvlərinin təhlükəsizliyini təmin edən korrumplaşmış vəzifəli şəxslər daxil ola bilər. Yaxud da onlar məsləhətçi kimi, konkret cinayətlərin törədilməsinə səbəb olan digər hərəkətlərdə iştirak edə bilərlər.*

Cinayətkar qrupların üzvlərinin mütəşəkkilliyi və sıxlığı kriminal birləşməyə sabitlik gətirir, soyuq və odlu silahla silahlanma isə onu quldur dəstəyə (bandaya) çevirir.

*Cinayətkar qruplaşmalar* - mütəşəkkil cinayətkar qrupların bir növüdür.

*Cinayətkar qruplaşma* - ciddi nizam-intizamı və cinayətkar hərəkətlərin planlaşdırılması ilə fərqlənən, bir (və ya bir neçə) başçısı olan, cinayətlərin törədilməsi üçün əvvəlcədən birləşmiş şəxslərin sıx birliyidir.

Belə birləşmələrin fəaliyyətinin öyrənilməsi göstərir ki, onların sayı 3-7 nəfərdən 20-30 nəfərədək olur, cinayətlər isə yerli səviyyədə, yəni şəhərin, vilayətin, respublikanın bir və ya bir neçə inzibati rayonlarında törədilir.

Cinayətkar qruplaşmaların daha çox yayılmış cinayətkar hərəkətlərinə reket, quldur qəsdlər, muzdlu qətllər, qrup şəklində olan qərəzli və xüsusilə qərəzli xuliqanlıqlar, qanunazidd avtobiznes, narkotik maddələrin dövriyyəsinin təşkili və s. aiddir. Bunlar bir sistemi - vahid cinayətkar fəaliyyəti təşkil edir.

Cinayətkar qruplaşmanın fəaliyyətinin bu mərhələsində kommersiya elementləri, ticarətin, sadə istehsalatın, daşınmaz əmlakın əldə olunması yolu ilə cinayətkar gəlirlərin leqallaşdırılması, vergilərdən yayınma halları ortaya çıxır.



downloaded from KitabYurdu.az

* A. İ. Dolqova. Kriminologiya. M, 1997, s. 597

Kriminal təsir sahələrinin bölüşdürülməsi, kriminal-rəqabət mübarizəsi, konspirasiyaya, başçıların və fəal iştirakçıların təhlükəsizliyinin təmin edilməsinə dair tələblərin güclənməsi, cinayətkar gəlirlərin leqallaşdırılması ilə bağlı hərəkətlərin fəallaşması, beynəlxalq əlaqələrə çıxış gələcəkdə kriminal gəlirlərin artımını təmin edə biləcək cinayətkar təşkilatların yaranmasına səbəb olur.

Cinayətkar təşkilatlar cinayətkar qruplaşmaların, digər mütəşəkkil qrupların, kommersiya təşkilatlarının, idarələrin, müəssisələrin simbiozudur.

Kommersiya-maliyyə, kommersiya-təsərrüfat strukturlarına daxil olan şəxslər (rəhbərlər istisna olmaqla), kimə işlədiklərini çox vaxt bilmirlər, çünki bu təşkilatlar, idarələr və müəssisələr əsasən leqitim, cinayət birliyin rəsmi örtüyü olurlar. Cinayətkar təşkilatın rəhbəri, bir qayda olaraq, özünü sahibkar və ya kommersant kimi göstərir.

Bu strukturların əsas funksiyası - qanunazidd yollarla və üsullarla əldə edilmiş gəlirlərin leqallaşdırılması, cinayətkar fəaliyyəti təmin etmək və yaşatmaq üçün onların artırılmasıdır.

Ayrı-ayrı hallarda kommersiya-kriminal strukturlarının rəsmi fəaliyyət başçılarına və onlarla əlbir olanlara əhali arasında müəyyən nüfuz qazanmağa və cinayətkar təşkilatın rəhbər heyətinin təhlükəsizliyinin təmin edilməsi üçün şərait yaratmağa köməklik edir. Buna müasir ictimai-siyasi, ictimai-iqtisadi və hüquqi şəraitlər səbəb olur.

Cinayətkar qruplaşmaların üzvləri, əsasən əvvəllər məhkum olunmayanlar, qanunazidd yolla əldə edilmiş maddi vəsaitlərin leqallaşdırılması üçün başçının göstərişinə əsasən axtarış və yaxud mühafizə büroları yaradırlar. Bu kommersiya strukturları, cinayətkar təşkilatın rəhbərinin adından hərəkət edərək, rəsmi olaraq vətəndaşlara müəyyən işdə məsələn, avtomaşınların axtarışında, borcların alınmasında, xuliqanların, avaraların cəzalandırılmasında köməklik göstərirlər. Bütün bünlar hüquq-mühafizə orqanlarından fərqli olaraq, tez və operativ təşkil olunur.

Belə büroların fəaliyyətini sadə vətəndaşların cinayətkardan müdafiə kimi göstərərək, hər bir “alicənab” hərəkətlər barədə qəzetlərdə yazaraq, televiziya ilə göstərərək, cinayətkar klanların başçıları əhali arasında nüfuz qazanırlar, bu isə digər tədbirlərlə ümumilikdə onların və yaxınlarının təhlükəsizliyini təmin edir.

Kommersiya fəaliyyətinin göstərilən növü cinayət yolu ilə əldə olunmuş vəsaitlərdən əlavə həm də “detektivlərin” gəzdirməyə və saxlanmasına rəsmi icazəsi olan silahı leqallaşdırır. Bundan başqa müxtəlif cür xüsusi texniki vasitələrdən, məsələn, portativ kinofotoavadanlıq, qulaqasma avadanlığı və s. leqallaşdırılır.

Mütəşəkkil cinayətkarlıqla mubarizənin təcrübəsi göstərir ki, axtarış-mühafizə büroları hüquq-mühafizə orqanlarına qarşı əks-kəşfiyyat fəaliyyət aparan cinayətkar təşkilatların leqal filialları olur. Eyni zamanda, bu həm də hazır vəziyyətdə olan silahlanmış dəstədir.



downloaded from KitabYurdu.az

Cinayətkar təşkilatların kriminal fəaliyyətlərinin əsas istiqamətləri aşağıdakılardır:

*kriminal-kommersiya fəaliyyəti* - bank-maliyyə dələduzluqları, kommersiya-istehsalat fəaliyyəti, kriminal özəlləşdirmə, vergi qanunvericiliyinin pozulması və s;

*reket* - burada onun formaları cinayətkar qruplaşmadakılara nisbətən daha gizli və pərdəlidir. Məsələn, kommersiya əqdlərindən, ayrılan kredit və ssudalardan müəyyən faizin alınması; silahın, narkotik maddələrin satışı; fahişəliyin təşkili;

küllü miqdarda pul almaq məqsədilə insanların oğurlanması (kidnepinq);

quldurluq, soyğunçuluq, muzdlu qətllər;

müxtəlif üsullardan və metodlardan istifadə etməklə (korrumplaşmış əlaqələrədək) hüquq-mühafizə orqanlarına, kriminal rəqiblərə əkstəsir göstərmək yolu ilə cinayətkar təşkilatların üzvlərinin təhlükəsizliyi üzrə tədbirlərin təşkili və həyata keçirilməsi;

beynəlxalq cinayətkar fəaliyyət - qaçaqmalçılıq, maliyyə fırıldaqları, məsələn, xarici borcların satmaq üçün alınması və onların söndürülməsi zamanı sonrakı fırıldaq hərəkətlər;

peşəkar cinayətkarlardan, həmçinin ayrı-ayrı kommersantlardan və digər şəxslərdən "obşak" vəsaitlərinin yığılması;

saxta pulların hazırlanması.

Kriminal fəaliyyətin başqa istiqamətləri də ola bilər. Bu əsasən cinayətkar təşkilatın rəhbərinin və onun əlaltılarının kriminal təcrübəsindən, xarici şəraitdən asılıdır.

F. Səməndərov kriminal dəstənin, mətəşəkkil dəstənin və kriminal təşkilatın xarakterizəsini belə verir.

Kriminal dəstə - birgə icraçılıq və mürəkkəb iştirakçılıq formalarından fərqli olaraq iştirakçılar arasında daha sabit kriminal əlaqələrlə xarakterizə olunur. Qüvvədə olan cinayət qanunvericiliyi üzrə kriminal dəstənin qabaqcadan əlbir olan dəstə, habelə mütəşəkkil dəstə kimi növləri fərqləndirilir.

İştirakçılığın kriminal dəstə formasında dəstə üzvləri arasında cinayətin birgə törədilməsinə dair əvvəlcədən razılıq olur. Razılıq adətən qəsd obyekti ilə, cinayətin predmeti ilə bağlı olur.

Cinayətin qabaqcadan əlbir olan bir qrup şəxsin iştirakçılığı ilə törədilməsi qüvvədə olan cinayət qanununun bəzi normalarına cinayət tərkibinin ünsürü kimi daxil edilmişdir. Qeyd edilən normalar qabaqcadan əlbir olan dəstənin hər hansı formada iştirakçılığını deyil, qabaqcadan əlbir olan dəstənin cinayətin obyektiv cəhətinin icrasında birgə iştirakçılığını nəzərdə tutur.

Məsələn, əgər cinayətin obyektiv cəhəti bir nəfər tərəfindən törədilirsə, digər iştirakçılar isə başqa funksiyaları yerinə yetirirsə, məsuliyyət "qabaqcadan əlbir olmuş bir qrup şəxs" əlaməti üzrə deyil, iştirakçılıq üstündə yaranacaqdır.

Mütəşəkkil dəstə qabaqcadan əlbirlik əsasında yaranan iştirakçılığın daha təhlükəli formasıdır. Mütəşəkkil dəstə bir neçə cinayəti törətmək üçün qabaqcadan razılığa gəlmiş iki və ya daha artıq şəxsin birliyidir.



downloaded from KitabYurdu.az

Son illərdə ölkənin iqtisadi və təsərrüfat həyatında baş verən cinayətlərin bir qismi mütəşəkkil dəstə tərəfindən törədilir. Xüsusən iqtisadi böhranın davam etdiyi şəraitdə dövlət əmlakının oğurlanması getdikcə sabit xarakter alır və mütəşəkkil dəstə tərəfindən törədilən bu qəbildən olan cinayətlərdə fabrik, zavod, idarə və müəssisə rəhbərlərinin iştirakı olması hallarına getdikcə tez-tez təsadüf edilir.

Mütəşəkkil dəstə qabaqcadan yaranan birlikdə törədilməsi qət edilən cinayətin planlaşdırılması ilə, iştirakçılar arasında vəzifə bölgüsünün aparılması ilə, cinayəti etmə üçün seçiləcək üsulun, habelə cinayətin reallaşdırılması üzrə ediləcək hərəkətlərin dairəsinin müəyyən edilməsi ilə xarakterizə olunur. Qabaqcadan əlbirlik əsasında fəaliyyət göstərən dəstədən fərqli olaraq mütəşəkkil dəstədə cinayətin iştirakçıları arasında cinayətin törədilməsi ilə bağlı razılıq dərəcəsi yüksək olur.

Mütəşəkkil dəstə ancaq CM-nin 63-cü maddəsinin 2-ci hissəsinə tərkib əlaməti kimi daxil edilmişdir. Zənn edirik ki, iştirakçılığın bu forması həyat əleyhinə edilən cinayətlərə, habelə oğurluğa görə məsuliyyət müəyyən edən normalara məsuliyyəti ağırlaşdıran halı olan tərkib əlaməti kimi daxil edilərsə, məsuliyyətin fərdiləşdirilməsi prinsipinin tələbləri baxımından ədalətli olardı.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanununun mənasına görə, əgər cinayət mütəşəkkil dəstə tərəfindən törədilərsə, (mütəşəkkil dəstəni cinayət tərkibinin əlaməti kimi nəzərdə tutan CM-nin 63-cü maddəsinin 2-ci hissəsi istisna olmaqla) məsuliyyət CM-nin 37-ci maddəsinin 3-cü hissəsi ilə yaxud da "…qabaqcadan əlbir olmuş bir qrup şəxs …" tərəfindən cinayətin törədilməsi əlaməti üzrə həll edilmişdir.

<u>Kriminal təşkilat</u> (təşkilat cinayətkar birlik)-iştirakçılığın ən təhlükəli formasıdır. Kriminal təşkilat aşağıdakı əlamətlərlə xarakterizə olunur: a) təşkilat iki və ya daha artıq şəxsdən ibarət olur; b) təşkilatda mütəşəkkillik olur; v) təşkilat üçün sabitlik xarakterik hal olur; q) birlik xüsusi məqsədlə yaranır.

Mütəşəkkillik kriminal təşkilatın vacib əlamətlərindəndir. Bu əlamətə görə birliyin üzvləri arasında müəyyən təşkilati əlaqə olur. Çox halda belə əlaqə tam məxfiliklə xarakterizə olunur. Kriminal təşkilatı müəyyən rəhbərliyə və qarşılıqlı öhdəliyə malik olan iştirakçıların birliyi yaradır. Birlik xüsusi kriminal fəaliyyət üçün uyğunlaşan təşkilati formadır. Təşkilat bir növ cinayətin edilmə alətinə çevrilir.

Sabitlik uzun müddətli kriminal əlaqəni nəzərdə tutur. Bu əlaqə onu göstərir ki, törədilməsi qət edilən əməllə bağlı kriminal fəaliyyət üçün iştirakçıların az-çox uzun müddətə təşkil olunması tələb olunur.

Mütəşəkillik və sabitlik kriminal təşkilatı iştirakçılığın digər oxşar formalarından fərqləndirən mühüm keyfiyyət əlamətidir.

Kriminal təşkilat həm də xüsusi məqsədlə xarakterizə olunur. Ədəbiyyatda nisbətən geniş yayılmış belə bir fikir vardır ki, kriminal təşkilat hər hansı cinayət əməlini deyil, ancaq qanunda göstərilən müəyyən növ cinayətləri - xüsusi təhlükəli dövləti cinayətləri etməyə yönəldilmiş təşkilati fəaliyyətlə əlaqədar əməlləri (mad.65), banditizmi (mad.70), islah-əmək müəssisələrinin işini pozan



downloaded from KitabYurdu.az

əməlləri (mad.70-1), habelə kontrabandanı (mad.71) - törətmək üçün yaradıla bilər.

Problemin tədqiqi ilə məşğul olan bəzi kriminalist alimlərin fikrincə kriminal təşkilat ancaq xüsusi təhlükəli dövləti cinayətləri törətmək məqsədilə yaradılır. Nə banditizm tərkibində, nə də ki, islah əmək müəssisələrinin işini pozan əməllərə görə məsuliyyət müəyyən edən normada kriminal təşkilat forması nəzərdə tutulmur.

Başqa qrup müəlliflərin fikrincə kriminal təşkilat yalnız dövlət əleyhinə olan cinayətləri törətmək məqsədilə deyil, həm də başqa cinayətləri də törətmək üçün yaradıla bilər. Ümumiyyətlə, qanunvericilikdə kriminal təşkilatın yaradılmasına yönələn təşkilati fəaliyyətin dövləti cinayətlər fəslindəki normalara (mad.57, 65, 70-1) bitmiş cinayət kimi daxil edilməsi, bu cinayətlərin yüksək sosial təhlükəliliyi ilə bağlıdır.

Zənn edirik ki, qanunun başqa normalarından kriminal təşkilata dair göstərişin olmaması heç də digər cinayətlərin məsələn, narkobiznesIə bağlı əməllərin, habelə hədə-qorxu gəlməklə əmlakı ələ keçirmə kimi əməllərin (reket) iştirakçılığın bu forması ilə törədilməsini istisna etmir.

Lakin təklif olunan variantda məsuliyyətin həlli, faktiki qabaqcadan əlbir olan dəstə ilə, habelə mütəşəkkil dəstə ilə cinayətkar təşkilat arasında fərqi aradan qaldırır. Bu da cinayət qanunda qeyd olunan məsələlərin hüquqi tənzimi ilə bağlı boşluğun mövcud olmasından irəli gəlir. Qüvvədə olan qanunda hətta əməlin cinayətkar təşkilat tərəfindən törədilməsi halı məsuliyyəti ağırlaşdıran hallar sırasına belə daxil edilməmişdir. Görünür gələcəkdə yeni CM hazırlanarkən qeyd edilən qüsurlar aradan qalldırılacaqdır.

Kriminal təşkilatın üzvlərinin fəaliyyəti obyektiv cəhətdən müəyyən əlamətlərlə xarakterizə olunur. Cinayətkar təşkilatın hər bir üzvü onun sıralarına daxil olmaq faktı ilə birliyin yaranmasına öz “xidmətini” göstərmiş olur. Belə hərəkəti ilə şəxs özünü faktiki təşkilatın sərəncamına verir, ona ayrılan vəzifəni icra etməyə hazır olur.

Təşkilatın üzvlüyünə daxil olarkən şəxs şifahi, yazılı formada habelə başqa şərti hərəkətlərlə razılıq verir. Təşkilatın xarakterindən, quruluşundan, daxildə məxfiliyin olub-olmamasından asılı olaraq təşkilata daxil olmağa dair təklif bütövlükdə təşkilat tərəfindən, yaxud onun üzvlərinin bir hissəsi tərəfindən qəbul edilə bilər.

Kriminal təşkilat üzvlərinin bilavasitə fəaliyyəti müxtəlif ola bilər: iştirakçının konkret hərəkəti birbaşa məqsədə daxil olan cinayətin icrasına yönələ bilər; maneələri aradan qaldırmaqla icrasının fəaliyyətinə kömək edə bilər; təşkilat üzvlərini gizlədə bilər və s. Başqa sözlə, hər bir üzv təşkilat tərəfindən ümumi kriminal planın reallaşdırılmasına özünün şəxsi “töhfəsini” verir.

Kriminal təşkilatın fəaliyyəti onun üzvlərinin fəaliyyəti ilə üzvi surətdə bağlı olur. Bu da kriminal təşkilatın fərqli xüsusiyyətlərini təşkil edir və onu iştirakçılığın müstəqil forması kimi fərqləndirməyə imkan verir. Kriminal təşkilat cinayət törədən alət olur. Üzvlər isə sadəcə təşkilatın tərkib hissəsi olmur, həm də bu alətin hərəkətverici qüvvəsi olur.



downloaded from KitabYurdu.az

Təşkilatın hər bir üzvünün hərəkəti təşkilatın törətdiyi cinayətlə bağlı baş verən zərərli nəticə ilə səbəbli əlaqədə olur. Belə əlaqə şəxs kriminal təşkilatın üzvlüyünə daxil olduğundan yaranır.

Kriminal təşkilat ümumi kriminal məqsədlə bağlı olan şəxslərin birliyidir.

Kriminal təşkilatın üzvlərinin istər təşkilata daxil olma hərəkəti, istərsə də təşkilatın törətdiyi kriminal əməllə bağlı yol verdiyi fəaliyyəti ancaq düzünə qəsdlə əlaqədar olur. Qəsdin məzmunu kriminal təşkilatın məqsədilə müəyyən edilir. Kriminal təşkilata daxil olan hər bir şəxs, bu təşkilatın məqsədini dərk etməli və belə məqsədə nail olmaq üçün istifadə ediləcək metodların xarakterini anlamalı və belə məqsədə nail olunmasını arzu etməlidir.

Kriminal təşkilatın üzvləri birlik tərəfindən törədilən və onun məqsədilə bağlı olan hər bir cinayətə görə məsuliyyət daşıyır. Təşkilatın üzvünün bu və ya başqa cinayətin törədilməsində iştirak etməməsi, onu məsuliyyətdən azad etmir. Çünki, belə təşkilata üzvlük faktı, təşkilatın kriminal fəaliyyətinin determinantına çevrilir.*

"Qanunda oğrular" cinayətkar birlik hesab olunurlar. Bu peşəkar cinayətkarlar, cinayət dünyasının tanınmış liderləri, kriminal həyat tərzinin və mənəviyyatının fəal ideoloqlarıdır.

Cinayətkar birliklər daimi və müvəqqəti hərəkətdə olanlara bölünürlər.

Kriminal strukturun yaranma mexanizmi ayrı-ayrı regionlarda, habelə ölkə miqyasında gedən neqativ sosial proseslərdən asılıdır.

Bir neçə kriminal təşkilatın könüllü olaraq, müqavilə bağlamaq yolu ilə birləşməsi *kartel* adlandırılır. Gərgin kriminal - rəqabət mübarizəsi nəticəsində güclü cinayətkar təşkilatın zəif olanı udması *sindikatın* yaranmasına gətirib çıxarır.

Kartelə daxil olan cinayətkar təşkilatlar öz müstəqilliyini saxlayırlar, lakin kriminal fəaliyyətdə onlara müəyyən çərçivələr qoyulur, nə vaxt müstəqil və ya birgə hərəkət etmələri müəyyən edilir (məsələn, hüquq-mühafizə orqanlarına əks təsir göstərəndə).

Sindikata daxil olan cinayətkar təşkilatlar nisbətən müstəqildirlər, lakin kriminal istehsalat prosesi zamanı onlar müəyyən qaydalara ciddi riayət etməyə və mərkəzə tabe olmağa borcludurlar.

Kartel tipli cinayətkar birlik kimi bir neçə regionlararası cinayətkar təşkilatlar fəaliyyət göstərirlər. Sindikat tipli cinayətkar birliklər isə bundan başqa beynəlxalq fəaliyyətlə də məşğul olurlar.

*Müvəqqəti cinayətkar birliklər* - konkret qanunazidd məqsədlərin işlənib hazırlanması və həll olunması üçün cinayətkar birləşmələrin rəhbərləri tərəfindən yaradılan koordinasiya mərkəzləridir.

Belə birliklərin bir növünü cinayətkar təşkilatların və birliklərin başçılarının və fəal iştirakçılarının oğru yığıncaqları təşkil edir.

---

* F.Y. Səməndərov. Cinayət hüquq. Cinayət və cəza məsələləri. B, 1994, s. 218- 223



downloaded from KitabYurdu.az

Kriminal yığıncaqlarda həll olunan əsas məsələlər aşağıdakılardır:

cinayət dünyasında, kriminal biznes və kommersiyada, habelə cəmiyyətin sosial-siyasi, sosial-iqtisadi həyatında keçiriləcək kriminal siyasətin işlənməsi (məsələn, kriminal xidmətlərə görə qiymətlərin, borcların qaytarılması üzrə tədbirlərdən təşkilatın iştirakçılarının gəlirlərinin hesablanma faizinin müəyyən edilməsi);

rəqiblərə qarşı tədbirlərin müəyyən edilməsi;

hüquq-mühafizə orqanlarına əkstəsirin, vəzifəli şəxslərin ələ alınmasının təşkili;

"obşak" vəsaitlərindən istifadə olunması məsələləri;

namizədlərə "qanunda oğrular" titulunun verilməsi;

ayrı-ayrı oğrulara, liderlərə, habelə kommersantlara, hüquq-mühafizə orqanı əməkdaşlarına qarşı sanksiyaların müəyyən edilməsi.

Beləliklə, cinayətkar birlik - cinayətkar fəaliyyətin koordinasiyası və qaydaya salınması, regionlararası məsələlərin həlli, cinayətkar sturukturların müasir şəraitə uyğunlaşmasına kömək göstərilməsi üçün cinayətkar təşkilatların liderləri tərəfindən yaradılan kriminal birləşmələrdir.



downloaded from KitabYurdu.az

## Mütəşəkkil cinayətkarlığın sosial təhlükəliliyi, meylləri və inkişafı.

Dünyanın kriminoloji təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrin çoxunda mütəşəkkil cinayətkarlıq qanunazidd peşənin ənənəvi növlərinə - reketə, narkotik maddələrin, silahın satışına, fahişəliyin təşkilinə əsaslanır.

MDB ölkələrinin əksəriyyətində keçid dövrü ilə bağlı olaraq kriminal-kommersiya fəaliyyətinin ən geniş yayılmış növləri - maliyyə-bank fırıldaqları, xüsusən də dövlət kreditlərinin, fondların vəsaitlərinin təyinatı üzrə istifadə olunmamasıdır. Bununla həm də kommersantların, bankirlərin cinayətkar mühitin liderlərinin sifarişli öldürülmələri bağlıdır. Səbəb isə fırıldaqlar nəticəsində alınmış küllü miqdarda gəlirlərin bölüşdürülməsi zamanı yaranan narazılıqlardır.

İnterpolun məlumatına görə, Rusiya və MDB-nin digər ölkələrindən İsveçrə banklarına çirkli pulların axını ilbəil artmaqdadır.

Dövləti, o cümlədən siyasi məsələlərin həllinə təsir göstərmək, dövlət hakimiyyəti orqanlarını nəzarət altına götürmək üçün mütəşəkkil cinayətkarlıq hakimiyyət dairələrində, nazirliklərdə, idarələrdə, onların yerli orqanlarında öz mövqelərini tutmağa meyl göstərir.

Mütəşəkkil cinayətkarlıqla aparılan mübarizə işinin təcrübəsi göstərir ki, korrumplaşmış əlaqələrin yaradılması, öz adamlarının dövlət strukturlarına yeridilməsi - kriminal problemlərin kompleksini həll etməyə imkan verən cinayətkar təşkilatların və birliklərin sabit funksiyasıdır.

Bütün bunlar böyük ictimai təhlükəlilik kəsb edir. Son illər mütəşəkkil cinayətkarlığın inkişafında aşağıdakı meyllər müşahidə olunur:

cinayətlərin törədilməsində mahirliyin və konspirasiyanın miqyasının genişlənməsi. Məsələn, ölüm hadisələri təsadüf kimi, özünə sui-qəsd kimi maskalanır, itkin düşənlərin sayı artır;

müxtəlif cür dələduzluqların, o cümlədən, bank, kommersiya fırıldaqların, qeyri-qanuni mülki əqdlərin (mənzilin, mülkün özəlləşdirilməsində) sayının artması;

cəza çəkmə yerlərinə təzyiqin gücləndirilməsi - peşəkar cinayətkarlar özlərini hakimiyyətin özbaşınalığının günahsız qurbanları kimi göstərərək, hüquq-mühafizə orqanlarının nüfuzunu aşağı salmağa çalışırlar;

cinayətkar həyat tərzinin, xüsusən də sosial tüfeyliliyin, cinayətkar adət-ənənələrin ictimai informasiya vasitələrilə təbliğinin fəallaşması.

Məlumatlara əsasən, Rusiya Federasiyasının ərazisində 7 min cinayətkar birlik fəaliyyət göstərir. Bunlardan 50 cinayətkar təşkilatın fəaliyyəti regionlararası və beynəlxalq səviyyəyə çıxıb və xüsusilə böyük ictimai təhlükəlilik kəsb edir.



downloaded from KitabYurdu.az

## Cinayətkar birliklərin iştirakçılarının şəxsiyyəti.

Bu və ya digər cinayətkar birliyin fəaliyyəti, cinayətlərin törədilməsinin xarakteri əsasən onun başçısının şəxsiyyətindən, zehnindən, kriminal təcrübəsindən asılıdır.

Bir qayda olaraq, cinayətkar hərəkətlərin çoxu pərdələnmiş və qeyri-leqal xarakter daşıyır. Cinayətkar birliyin iştirakçıları yaşayış yerlərində özlərini qanuna tabe olan vətəndaşlar kimi aparırlar. Birinci növbədə bu başçıya və onun yaxın ətrafına aiddir.

Cinayətkar təşkilatın başçısı təşkilatın üzərində ümumi rəhbərliyi həyata keçirir və tərkib hissələrə qarşı neytral qalaraq öz xəttini ayrı-ayrı strukturlara başçılıq edən köməkçilərin vasitəsilə aparır.

Bəzi cinayətkar birliklərdə cinayətkar fəaliyyətin müxtəlif istiqamətləri üzrə, o cümlədən kommersiya, maliyyə, iqtisadi və digər sahələr üzrə müşavirləri olur.

Cinayətkar təşkilatın sabitliyi və təhlükəsizliyi əsasən rəhbər və mühafizə-döyüşçü hissələri əhatə edir.

Tədqiqatların məlumatına görə, cinayətkar birliyin başçısının 30-40 yaşı olur. Onun əksər hallarda orta təhsili olur, lakin natamam ali, yaxud da ali təhsilin olması da istisna deyil.

Cinayətkar təcrübə təkcə təhsildən asılı olmur. Onun həm də sosial, sosial-psixoloji əsasları var. Kriminal bacarıqlar, istedad, üstəgəl peşəkar cinayətkarlarla ünsiyyət (xüsusən də cəzaçəkmə yerlərində), böyük kriminal gələcəyi olan cinayətkar liderin tipini yaradır.

Məlumatlara görə, başçının kriminal təcrübəsi, məhkumluğu olur. O, cinayətkar fikirlərin və baxışların bir növ generatorudur, kompromisə getməyən rəqibdir, ixtiraçıdır, şöhrətpərəstdir. Alicənablıq pərdəsi altında çox vaxt ədalətsizliyini, yalançılığını, qisasçılığını, qəddarlığını gizlədir. Lazım gəldikdə isə ünsiyyətli olur, əlaqələr yaratmağı bacarır, təşəbbüs göstərir, kriminal şəxsləri, həmçinin dövlət nümayəndələrini, hüquq-mühafizə orqanlarının əməkdaşlarını öz təsiri altına salır.

Cinayətkar birliyin başçısının şəxsiyyətinin öyrənilməsi cinayətkar strukturun fəaliyyətinin istiqamətləşməsinin səbəbini başa düşməyə imkan verir.



downloaded from KitabYurdu.az

## Mütəşəkkil cinayətkarlığın meydana gəlməsinin və inkişafının determinantları.

Əsrin əvvəlində mütəşəkkil cinayətkarlığın ən geniş inkişaf etmiş formaları "qanunda oğruların" başçılıq etdikləri quldur dəstələr (bandalar) və şaykalar idi. Onların cinayətkar fəaliyyətinin istiqamətlənməsi konkret sosial-iqtisadi vəziyyətdən və əhalinin imkanlı olmasından asılı idi. Cinayətkarlığın bu növünü əsasən tamah məqsədli cinayətlər, xüsusən də oğurluq, quldurluq və soyğunçuluq təşkil edirdi.

Sosializm dövründə mütəşəkkil cinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanlarının rolu və xidməti fəaliyyəti sadə forma və üsullara endirilmişdir.

Hüquq-mühafizə orqanları Cinayət Məcəlləsinin banditizmə və cinayətkar birləşmələrin yaradılmasına görə cinayət məsuliyyətini nəzərdə tutan maddələrini az hallarda tətbiq edirdilər. Çünki onların özlərinə qarşı cinayətkar qruplaşmaların fəaliyyət göstərməsini "qoyduqlarına" görə xidməti təhqiqat aparılırdı və çox vaxt bu intizam məsuliyyətindən tutmuş işdən çıxarılma cəzaları ilə nəticələnirdi. Belə nəticələrdən boyun qaçırmaq üçün hüquq-mühafizə orqanlarının işçiləri cinayət işlərini nisbətən az ağır cinayətlərə, məsələn, oğurluğa, quldurluğa, soyğunçuluğa görə məsuliyyəti nəzərdə tutan maddələrlə qaldırırdılar.

Cəza çəkmə yerlərində xidməti işçilərə və məhkumlara hücum çəkmək məqsədi ilə yaradılan cinayətkar qruplaşmaların təşkil etməsinə və ya onlarda iştirak etməyə görə cinayətkarları intizam qaydasında cəzalandıraraq cərimə təcridxanasına yerləşdirirdilər.

Beləliklə, mütəşəkkil cinayətkarlıqla mübarizə lazımi cinayət-hüquqi üsullarla aparılmırdı. Cinayət-hüquqi cəzanın törədilən cinayətlərin ağırlığına uyğun gəlməməsi təhlükəli cinayətkarlar üçün bir növ sosial tənəffüs olmuşdur.

Məhz bu dövrdə də partiya-təsərrüfat nomenklaturasının vəzifəli şəxslərindən ibarət "toxunulmazların" sosial təbəqəsi yaranır. Onların kölgəli iqtisadiyyatın işbazlarına və cinayətkar qrupların və təşkilatların ayrı-ayrı rəhbərlərinə qoşulması cinayət məsuliyyətindən boyun qaçırmağa, cinayətkar fəaliyyətinin miqyasının genişlənməsinə, cinayətkar kapitalların leqallaşdırılmasına imkan yaratmışdır.

90-cı illərin əvvəlindən cinayətkar birləşmələrin başçıları və fəal iştirakçıları, sosial-siyasi qarışıqlıqdan, bazar münasibətlərinin yaranmasından, hüquqi bazanın olmamasından istifadə edərək qanunazidd fəaliyyətlərini daha da genişləndirirlər.

Əhali arasında sosial neqativ normaların, cinayət dünyasının adət ən-ənələrinin təbliğatı cinayətkar davranışının formalaşmasının və cinayət istiqamətli, cəmiyyətəzidd qrupların yaradılmasının sosial-kriminal əsası olmuşdur.

Kriminal ideologiyanın təbliğatı, hüquq-mühafizə sisteminin təcrübəli əməkdaşlarının söylədiklərinə görə, həm ayrılıqda şəxsiyyətə, həm də bütöv qruplara, əhalinin müxtəlif təbəqələrinə güclü sosial-psixoloji təsir göstərir. Bu



downloaded from KitabYurdu.az

məqsədlərə çatmaq üçün mütəşəkkil cinayətkarlığın başçıları qulluqlarında olan yazıçıların, jurnalistlərin, kütləvi informasiya vasitələrinin və mədəniyyət işçilərinin xidmətindən geniş istifadə edirlər.

Mütəşəkkil cinayətkarlığın kök salmasında cəza çəkmə yerlərində olan məhkumların cinayətkar qruplaşmaları da müəyyən rol oynayırlar.

Mütəşəkkil cinayətkarlıqla mübarizənin təcrübəsi göstərir ki, cinayətkar qruplaşmaların kriminal fəaliyyəti qeyri-qanuni metodlarla və üsullarla mütəşəkkil cinayətkarlığın azadlıqdan məhrum etməyə məhkum olunmuş nümayəndələrinin həyat şəraitini yüngülləşdirir. Eyni zamanda məhkumların cinayətkar qruplaşmalarının üzvləri azadlığa buraxılandan sonra cinayətkar birləşmələrin başçıları tərəfindən cinayətlərin (xüsusən ağır cinayətlərin) icraçısı kimi qulluğa götürülürlər. Korrumplaşmış əlaqələr də daim saxlanılır. Bununla yanaşı korrumplaşmış şəxslərin böyük hissəsi cəzasız qalır. Bu da, birincisi, qanunvericilikdə olan boşluqlarla, ikincisi isə mütəşəkkil cinayətkarlığın liderləri ilə əlaqədə olan və ya onlardan qorxan məhkəmə təcrübəsi ilə bağlıdır. Belə ki, çox vaxt məhkəmələr tərəfindən korrupsiyanın ən geniş yayılmış növündən olan - rüşvətxorluğa görə istintaq orqanları tərəfindən ifşa olunmuş vəzifəli şəxslərin yarısı məhkum olunur.

Beləliklə, mütəşəkkil cinayətkarlığın meydana gəlməsinin və inkişafının determinantları aşağıdakılardır:

mütəşəkkil cinayətkar qurumların hakimiyyətin qanunvericilik, icra və məhkəmə qollarının nümayəndələri, biznesmenlərlə, kommersantlarla, kütləvi informasiya vasitələrinin nümayəndələri ilə birləşməsi;

vətəndaşların və cəmiyyətin bir sıra konstitusiya hüquq və maraqlarının dövlət tərəfindən zəif qorunması;

bazar iqtisadiyyatının və şəxsi mülkiyyət münasibətlərinin hüquqi cəhətdən lazımi qaydada təmin edilməməsi, bu sahəni tənzimləyən qanunların qəbul olunmaması;

əhalinin çox hissəsinin hüquqi savadsızlığı;

məsul vəzifəli şəxslərin lobbistləşməsi.



downloaded from KitabYurdu.az

## Mütəşəkkil cinayətkarlığın qarşısının alınmasının xüsusi kriminoloji tədbirləri.

Cinayətkarlığın bu gün cəmiyyət üçün təhlükəliliyinin artması həm də onun mütəşəkkil forma alması ilə izah olunur. Cinayətkar aləm ona qarşı mübarizə qarşısında möhkəm dayanmaq məqsədilə ciddi təşkilatlanır. Bu məqsədlə çox mürəkkəb cinayətkar birləşmələr, qurumlar formalaşdırılır. Bu da öz növbəsində cinayətkarlığa qarşı mübarizə işini xeyli çətinləşdirir. Odur ki, bu gün artıq cinayətkarlığa qarşı mübarizə probleminin tərkib hissəsi kimi bu mübarizəyə qarşı cinayətkar aləmin müqaviməti problemi öyrənilməli, bu müqavimətin mexanizmi, onun xüsusiyyətləri, formalaşma imkanları ciddi tədqiq edilməlidir.

Mütəşəkkil cinayətkarlığa qarşı ayrı-ayrı dövlətlərdə müxtəlif dövrlərdə bu barədə qəbul olunmuş qərarlar əsasında mübarizə aparılsa da, hələ də cinayətkarlığın bu mürəkkəb formasına qarşı mübarizədə də əsaslı dönüşə nail olmaq mümkün olmamışdır. Məsələn, İtaliyada, ABŞ-da, Yaponiyada və başqa ölkələrdə bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsinə, xüsusən qanunların qəbul edilməsinə baxmayaraq, mafioz strukturlar hələ də yaşayır, nəinki yaşayır, hətta təşkilati cəhətdən daha da möhkəmlənir, dövlətin məcburetmə tədbirlərindən yayınmaq məqsədilə daha çevik fəaliyyət göstərirlər. Bunu Rusiya təcrübəsində daha yaxşı müşahidə etmək olar. Bu ölkədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məsələsinin son bir neçə il ərzində qaldırılması, bu cür təhlükəli cinayətkar təşkilatlanmaya qarşı mübarizənin aparılması niyyəti ilə müvafiq dövlət hüquqi tədbirlərin həyata keçirilməsinə baxmayaraq, mütəşəkkil cinayətkarlıq geniş vüsət almaqdadır. Çünki istər Rusiyada, istərsə də keçmiş SSRİ məkanına daxil olan başqa dövlətlərdə də mütəşəkkil cinayətkarlıq fenomeninə müasir elmi cəhətdən əsaslandırılmış münasibət hələ də formalaşdırılmamışdır.

Cinayətkarlığın bu ağır formasına qarşı mübarizə işində çətinliklərin və çatışmazlıqların olmasını bəzi kriminoloqlar qanunvericilik bazasının zəif olması, digərləri isə sosial-iqtisadi problemlərin dərinləşməsi ilə izah edirlər. Hər iki səbəb eyni vaxtdan mövcuddur. Nəzərə almaq lazımdır ki, bu sosial bəlaya qarşı mübarizə istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi ölkədə olan sosial-iqtisadi problemlərin həlli istiqamətində görülməli işlərlə eyni vaxtda, əlaqəli şəkildə, bir-birini tamamlayaraq aparılmalıdır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, cəmiyyətdə həyata keçirilən islahatlar üçün əsas hüquqi baza olan Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir. Öz ruhuna görə demokratik olan bu əsas Qanun hüquqi dövlət quruculuğu istiqamətində çox ciddi və vaxtında atılmış bir addımdır. Konstitusiyanın qəbul edilməsi tələb edir ki, cəmiyyətdə qüvvədə olan və qəbul ediləcək bütün qanunların onunla müvafiqliyi təmin edilsin. Bu məqsədlə ayrı-ayrı qanunlara dövrün və zamanın tələbləri nəzərə alınaraq əlavələr və dəyişikliklər edilir, yeni qanunlar hazırlanır.*

* Ç. Mustafayev. Müasir şəraitdə cinayətkarlığa qarşı mübarizənin bəzi problemləri. Qanunçuluq. № 10. 1997.



downloaded from KitabYurdu.az

Mütəşəkkil cinayətkarlıqla mübarizə xüsusi təşkilati, qarşıdurma və hüquq-mühafizə tədbirlərin kompleksinin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur. Bunların arasında kriminoloji vəziyyətin ümumi analizinə, kriminoloji proqnoza əsaslanan cinayət-hüquqi, cinayət- prosessual, cinayət-icraçı, maliyyə, əməliyyat-axtarış və digər tədbirlər vacib yer tutur. Qeyd etmək lazımdır ki, bu xüsusi tədbirlər olmalıdır, çünki mübarizənin əsas obyekti-mütəşəkkil cinayətkar birləşmələr və mürəkkəb cinayətkar fəaliyyətdir. Onlar eyni zamanda cinayətkar kapitalların dövriyyəsinin və leqallaşdırılmasının qarşısının alınması məsələsini də həll etməlidirlər.

Sovet dövründə Daxili İşlər Nazirliyinin sistemində yaradılmış 6-cı şöbələr əsasən mütəşəkil cinayətkarlığın gözəçarpan hissəsi olan reketçi qruplaşmalarla mübarizə aparırdılar. Göstərilən kriminal təzahürün gizli hissəsi ilə mübarizənin aparılması üçün kifayət qədər vəsait ayrılmırdı. Bu həm də bir sıra vəzifəli şəxslərə sərfəli deyildi və böyük səs-küyə səbəb olurdu.

Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk günlərdən qanunçuluğun, dövlət intizamının möhkəmləndirilməsi ön plana çəkilmiş, fəal hüquq-mühafizə siyasəti apararaq, əlaqədar orqan və təşkilatlardan cinayətkarlıqla, onun mütəşəkkil formaları ilə, korrupsiya və rüşvətxorluqla mübarizənin qətiyyətlə gücləndirilməsi tələb edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı bu yönümdə mübarizənin daha məqsədyönlü və mütəşəkkil aparılmasına təkan vermiş, əsas proqram sənədi olmuşdur. Fərmana əsasən DİN sistemində mütəşəkkil cinayətkarlıqla və korrupsiya ilə mübarizə aparan müvafiq institut yaradılmışdır.

Sonrakı dövrlərdə də cinayətkarlıqla mübarizə üzrə beynəlxalq təcrübəyə uyğun qanunvericilik bazası genişləndirilmişdir.

Bu məqsədlər üçün dövlət vəsaiti ayrılmış, maddi-texniki baza möhkəmləndirilmişdir.

Mütəşəkkil cinayətkarlıqla mübarizənin daha da səmərəli aparılması üçün kompleks proqramlar, bunlardan öncə isə bu mübarizənin hüquqi əsasının yaradılması üçün "Mütəşəkkil cinayətkarlıqla mübarizə haqqında", "Korrupsiya ilə mübarizə haqqında" qanunlar qəbul edilməlidir.

Belə qanunlar və ya ayrıca normalar bütün inkişaf etmiş ölkələrin qanunvericiliyində mövcuddur.

Bizim kriminoloji vəziyyət üçün ABŞ-nın "RİKO" adlı dövlət qanunlarının öyrənilməsi böyük əhəmiyyət kəsb edə bilər.

Qanunların əsas hissəsini cinayətkar birləşmələrin üzvlərinin həm ayrı-ayrı cinayətlərə görə, həm də cinayətkar qruplaşmaların (təşkilatların, birliklərin) təşkilinə, onlara rəhbərliyə və iştiraka görə məsuliyyəti müəyyən edən normalar təşkil edir.

Oqayo ştatının federal qanununa əsasən, "hədə-qorxu ilə tələb etmənin, fahişəliyin, oğurluğun, qumarın, narkotik maddələrin, spirtli içkilərin, silahın qanunsuz dövriyyəsinin, dələduzluğun və daimi gəlir əldə edilməsi məqsədilə



downloaded from KitabYurdu.az

törədilən digər cinayətlərin bilavasitə həyata keçirilməsində və ya təşkilində iştirak edən 5 və ya daha çox şəxsdən ibarət cinayətkar struktur cinayətkar sindikat hesab olunur".

Hal-hazırda "RİKO" qanunları və onlara uyğun hazırlanmış digər qanunlar hüquq-mühafizə orqanları tərəfindən geniş tətbiq edilir və qanunçuluğun qorunmasında böyük rol oynayırlar.

Yapon cəmiyyətində cinayətkar təşkilatların gözəçarpan mövqe tutması, onların ölkənin siyasi həyatına təsir göstərməsi mütəşəkkil cinayətkarlıqla mübarizəyə yönəlmiş qanunverici tədbirlərin gücləndirilməsi zərurətini ortaya çıxartmışdı. 1992-ci ildə cinayətkar təşkilatların üzvlərinin qeyri-qanuni hərəkətlərinə qarşı mübarizə haqqında Qanun qəbul edilir. Yapon hüquqi təcrübəsində ilk dəfə olaraq qanunda "cinayətkar təşkilat" və "cinayətkar təşkilatın üzvləri" anlayışları verilir, təşkilatın cinayətkar kimi müəyyən edilməsinə əsas verən hallar sadalanır. Təşkilatın cinayətkar kimi müəyyən edilməsi isə ona qarşı inzibati və siyasi tədbirlərin tətbiq edilməsini nəzərdə tutur. Belə ki, polis qanuna uyğun olaraq təşkilatın fəaliyyətinin məhdudlaşdırılması üzrə tədbirlər görməlidir, cinayətkar tərəfindən vətəndaşlara qarşı zorakılığın, hədə-qorxu ilə tələb etmənin tətbiqinə qarşı səmərəli əks-təsir göstərməlidir. Bundan başqa qanunda cinayətkar təşkilatın daşınmaz əmlakın alınması üzrə əqdlərinin təcrid etməsi, onun maliyyə fəaliyyətinin nəzarətə götürülməsi, bank əmanətlərinin "dondurulması", güzəştli şərtlərlə ona kreditlərin verilməsinin qadağan edilməsi nəzərdə tutulur. Cinayətkar təşkilatın üzərində polis müşahidəsi qoyula bilər, polis həm də təşkilatın fəaliyyətini dayandıra bilər.

Respublikamızda da mütəşəkkil və transmilli cinayətkarlıqla beynəlxalq mubarizənin təşkili üzrə müəyyən tədbirlər görülür. Azərbaycan Respublikası Beynəlmiləl Polisin (İnterpolun) üzvüdür. Bir sıra MDB ölkələri ilə "MDB dövlətləri ərazisində mütəşəkkil cinayətkarlıqla mübarizə Bürosunun" işində fəal iştirak edir.

Hal-hazırda beynəlxalq cinayətkar təşkilatlarla müqavilələrə əsaslanan konkret mübarizəyə keçid aktualdır.



downloaded from KitabYurdu.az

# On ikinci fəsil

## Residiv cinayətkarlıq və onun qarşısının alınması.

**Residiv cinayətlərin anlayışı. Residiv cinayətlərin səciyyəsi, quruluşu və dinamikası. Residiv cinayətkarlığın səbəbləri (doğuran hallar). Residivistlərin şəxsiyyətinin kriminoloji xarakteristikası. Residiv cinayətlərin qarşısının alınması.**

## Residiv cinayətlərin anlayışı.

Residiv cinayətkarlıq cinayətin subyektinin xüsusi xarakterizəsinə görə seçilmiş ümumi cinayətkarlığın tərkib hissəsidir.

Residiv latın mənşəli söz olub qayıdan, təkrar olunan mənasını ifadə edir. Qüvvədə olan qanunvericilik
"residiv" terminini işlətmir. Azərbaycan Respublikasının 1922-ci il CM-nin 25-ci maddəsində, habelə 1924-cü ildə qəbul edilən cinayət qanunvericiliyinin əsas başlanğıclarının 31-ci maddəsində residivist və residiv termini işlədilirdi. Qüvvədə olan qanunvericilikdə isə ancaq xüsusi təhlükəli residivist adı çəkilir.

Residiv cinayət əvvəllər törədilən cinayətə görə məhkum edilən şəxsin (cəzanı çəkib qurtarmamış, yaxud da cəzanı çəksə də məhkumluluğu ödənilməmiş, yaxud da götürülməmiş olan hallarda) yenidən cinayət etməsinə deyilir.

Residiv üçün xarakterik olan əlamətlər aşağıdakılardır:

1) residiv şəxsin iki və ya daha artıq müstəqil cinayət törətməsi ilə yaranır;
2) residiv yaradan cinayətlərin əsasında konkret cinayətlər durur;
3) residivi yaradan cinayətlər müxtəlif vaxtlarda törədilir;
4) təkrar cinayətlərdən fərqli olaraq residiv cinayətlər əvvəl törədilən cinayətə görə məhkumluğun olmasını tələb edir.

Məhkumluq faktı şəxsin müəyyən cinayətə görə mühakimə edilməsini, törədilən cinayətə görə hökmlə cəza təyin edilməsini və onun icraya yönəldilməsini nəzərdə tutur. Cəza çəkilən müddətdə, habelə cəza çəkildikdən sonra müəyyən müddət şəxs məhkum olunan şəxs sayılır. Beləliklə, cəzanın çəkildiyi müddətdə, habelə, cəza çəkildikdən sonra yaranan məhkumluq müddəti ərzində şəxsin yeni cinayət törətməsi - cinayətlərin residivliyini yaradır.

Əvvəl törədilən cinayətin məhkumluqla bağlı hüquqi nəticəsi aradan qalxmamış yenidən törədilən cinayət leqal residiv yaradır. Qüvvədə olan cinayət qanunvericiliyi residiv anlayışını leqal residivlə əlaqələndirir. Əvvəl törədilən cinayətə görə yaranmış məhkumluq qanunla müəyyən edilən qaydada ödənildikdə, yaxud da götürüldükdə, sonradan törədilən cinayət residivlik yaratmır.*

---

* F.Y. Səməndərov. Cinayət hüquq. Cinayət və cəza məsələləri. B, 1994, s. 268-269



downloaded from KitabYurdu.az

Cinayətlərin residivi onların yığımından və təkrarlanmasından onunla fərqlənir ki, yeni cinayət əvvəllər törədilənlərə qarşı qanunla nəzərdə tutulmuş ölçülər götürüləndən sonra törədilir.

Residiv cinayətkarlığın yüksək ictimai təhlükəliliyi ondan ibarətdir ki, o cinayətkarlığın sabitliyini göstərir, bir sıra şəxslərin özlərini cəmiyyətdə qəbul olunmuş normaya uyğun aparmaq istəmədiyini, onlara qarşı görülmüş tədbirlərə baxmayaraq, öz problemlərinin həllində kriminal yola üstünlük vermələrini sübut edir. O həm də cinayət törədən şəxslərə səmərəli təsir göstərə bilməyən hüquq-mühafizə sisteminin çatışmamazlıqlarını, məhkumların düzəlməsi və yenidən tərbiyə olunması məqsədinə çata bilməyən cəzanın zəif təsirini sübut edir.

Residivin cinayət-hüquqi anlayışı belədir: "əvvəllər qəsdən törədilən cinayətə görə məhkumluğu olan şəxs tərəfindən qəsdən törədilən cinayət residiv hesab olunur."

Cinayət Məcəlləsinə əsasən cinayət törədən şəxslər, cinayətin az ağırlığına görə, onun ictimai təhlükəliliyindən asılı olaraq, şəxsin günahını boynuna aldığına görə, cinayət məsuliyyətindən azad oluna bilərlər. Bütün bu hallarda, habelə birinci cinayətə görə azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza təyin edilərkən, Cinayət Məcəlləsinə görə, şəxs residivist hesab olunmur. Lakin kriminoloqlar belə şəxsi residivist hesab edirlər, çünki onlar təkcə cinayət davranışı faktını deyil, həm də əvvəlki cinayətlər aşkar olunandan və onlara qarşı ölçülər götürüləndən sonra, onun yenidən təkrar olunmasının səbəbini tədqiq edirlər.

Buna görə, residivin kriminoloji anlayışına əvvəllər cinayət törətmiş şəxsin bütün cinayətləri aiddir. Yəni bura belə cinayətlər daxildir: məhkumluğu götürülmüş və ödənilmiş şəxslərin; məhkumluğu ödənilməmiş şəxslərin; cəza çəkən şəxslərin; qeyri-reabilitasiya əsaslarla məsuliyyətdən azad olunmuş şəxslərin; ilk cinayət işinin ibtidai istintaqı və ya məhkəmə baxışı zamanı yeni cinayət törətmiş şəxslərin cinayətləri.

Bunlardan başqa residivin penitensiar anlayışı da var. Bu residivə növbəti cinayətin azadlıqdan məhrumetmə cəzasını çəkəndən sonra və yaxud cəza çəkmə yerlərdə törədilməsi aiddir.



downloaded from KitabYurdu.az

## Residiv cinayətlərin səciyyəsi, quruluşu və dinamikası.

Cinayətkarlığa xas olan ümumi xarakteristikalarla yanaşı residiv cinayətkarlığın onu ilkin cinayətkarlıqdan fərqləndirən spesifik xarakteristikaları var. Bunlar aşağıdakılardır:

*təkrarlıq* - axırıncı cinayətdən əvvəl olan, barəsində cinayət-hüquqi təsir tədbirləri görülən cinayətlərin sayı;

cinayətlərin sayı ilə müəyyən edilən *residivin ictimai təhlükəlilik dərəcəsi.* Belə ki, *təhlükəli və xüsusi təhlükəli* residiv seçilir.

Cinayətlərin residivi *təhlükəli* hesab olunur: əvvəllər qəsdən edilən cinayətə görə iki dəfə azadlıqdan məhrum edilmiş şəxs tərəfindən qəsdən cinayətin törədilməsi və buna görə onun azadlıqdan məhrum edilməsi; əvvəllər qəsdən edilən ağır cinayətə görə məhkum edilmiş şəxs tərəfindən ağır cinayətin törədilməsi.

Residiv aşağıdakı hallarda *xüsusi təhlükəli* hesab olunur:

a) qəsdən edilən ağır cinayətə və ya orta ağırlıq dərəcəsi olan cinayətə görə əvvəllər üç dəfə və ya daha çox azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxs tərəfindən qəsdən cinayətin törədilməsi və buna görə onun azadlıqdan məhrum olunmaya məhkum edilməsi;

b) qəsdən edilən xüsusilə ağır cinayətə və ya ağır cinayətə görə əvvəllər iki dəfə azadlıqdan məhrumetməyə məhkum edilmiş şəxs tərəfindən qəsdən ağır cinayətin törədilməsi;

v) qəsdən ağır və ya xüsusilə ağır cinayətə görə əvvəllər məhkum edilmiş şəxs tərəfindən xüsusilə ağır cinayətin törədilməsi.

*Ümumi və xüsusi residiv.* Xüsusi residiv eyni tərkibi olan cinayətlərin təkrar törədilməsi ilə xarakterizə edilir, residivistlərin yüksək ictimai təhlükəlilik, peşəkarlıq səviyyəsini göstərir.

Cinayətlərin törədilməsinin təkrarlanmasını göstərən *residivistlərin cinayətkarlığının intensivliyi*- yəni axırıncı və növbəti cinayət arasında vaxt dövrüdür (məsələn, əvvəlki cinayətə görə cəzanı çəkib azadlığa çıxandan sonra bir il ərzində cinayət törədən residivistlərin sayı);

residivistlərin kriminal fəallığının dinamikasının xarakteri - yəni müəyyən ağırlıq dərəcəsi olan cinayətlərin törədilməsindən başqa ağırlıq dərəcəli cinayətlərə keçid;

əvvəlki cinayətə görə şəxsə qarşı tətbiq edilən tədbirlərin xarakteri ilə bağlı olan residivin növü.

Residivin növü, məsələn, aşağıdakılardan müəyyən edilir:

əvvəllər əmək-islah müəssisələrində cəza çəkmiş və yenidən cinayət törətmiş şəxslərin sayından;

şərti olaraq müddətdən əvvəl azad olunandan sonra cəzanın çəkilməmiş hissəsinin dövrü, islah əmək işlərinin çəkməsi dövrü, hökmün icrasının təxirə salınma dövrü növbəti cinayət törətmiş şəxslərin sayından;

əvvəlki cinayət işinin istintaq dövrü cinayət törətmiş şəxslərin sayından;

*kriminoloji residiv*- amnistiya, ictimai məzəmmət və digər qeyri-reabilitasiya əsasları ilə cinayət məsuliyyətindən azad olunan şəxslərin sayından.



downloaded from KitabYurdu.az

F.Səməndərov residivin növlərini belə xarakterizə edir.

**Ümumi residiv** törətdiyi cinayətə görə məhkum olunan şəxsin yenidən əvvəlki cinayətlə eyni, yaxud da eyni növlü olmayan cinayət törətməsi ilə yaranır. Ümumi residivi yaradan cinayətlərin xüsusi, yaxud da bilavasitə obyektləri müxtəlif olur. Belə əməllər təqsirin müxtəlif forması ilə də törədilə bilər. Məsələn, xuliqanlıq üstündə məhkum edilən şəxs (mad.207) yenidən əmlakı gizli yolla oğurlayır; vəzifə saxtakarlığına görə məhkumluğu olan şəxs (mad.172), yenidən avtonəqliyyatın hərəkət təhlükəsizliyini pozaraq qəzaya yol verir (mad. 208) və s.

Ümumi residiv qüvvədə olan cinayət qanununun normalarına tərkib əlaməti kimi daxil edilməmişdir. Buna görə də ümumi residiv az-çox cinayət törədənin şəxsiyyətini xarakterizə edir və cəza təyinində məhkəmə tərəfindən nəzərə alınır.

**Xüsusi residiv** - etdiyi cinayətə görə məhkum edilən şəxsin yenidən əvvəlki cinayətlə eyni, yaxud da eyni növdən olan cinayət törətməsi ilə yaranır.

Xüsusi residiv ya bir maddədə göstərilən cinayəti etmək üstündə məhkum edilən şəxsin yenidən eyni cinayəti etməsini, yaxud da qanunun müxtəlif maddələrində nəzərdə tutulan xarakterinə görə yaxın olan cinayətlərdən birini törədərək məhkum edilən şəxsin bunlardan digərinin yenidən törətməsini nəzərdə tutur. Məsələn, əvvəllər zöhrəvi xəstəlik yaymaq üstündə məhkum edilən şəxsin (114-cü maddənin 1-ci hissəsi) yenidən zöhrəvi xəstəlik yayması (114-cü maddənin 3-cü hissəsi); xuliqanlıq üstündə məhkum edilən şəxsin (mad.207) yenidən döymə cinayətinə yol verməsi (mad.108) və s.

Xüsusi residiv qanunun bir sıra normalarında birbaşa nəzərdə tutulmasa da o daha geniş anlayışa malik olan "təkrarlıq" əlaməti ilə əhatə olunur.

Eyni yaxud da eyni növdən olan cinayətlərin törədilməsi ilə yaranan xüsusi residiv (eləcə də cinayətin təkrar törədilməsi əlaməti) cinayət tərkibində nəzərdə tutulmursa, xüsusi residivə görə məsuliyyətin həllində ümumi hissənin 37-ci maddəsinin 1-ci hissəsinə istinad etməklə axırıncı dəfə törədilən əmələ görə məsuliyyət müəyyən edən norma ilə əməl tövsif edilir.

Məhkumluğun sayına görə də residiv cinayətlərin iki növü fərqləndirilir:

1) sadə residiv;
2) mürəkkəb (dəfələrlə edilən) residiv.

**Sadə residiv** o halda yaranır ki, hər hansı cinayətə görə bir dəfə məhkum edilən şəxs yenidən cinayət törətmiş olsun.

**Mürəkkəb residiv** əvvəl törədilən cinayətlərə görə iki və daha artıq məhkumluğu olan şəxsin yenidən cinayət törətməsini nəzərdə tutur.

Sadə residivlə müqaisədə mürəkkəb residiv daha yüksək təhlükəliliklə xarakterizə olunan kriminal fəaliyyətlə bağlıdır. Mürəkkəb residiv onu törədənin şəxsiyyətinin zərərli meyllərlə, cəmiyyətə zidd yönəlişlə əlaqədar olduğunu göstərir.

Məhkumluqla bağlı törədilən cinayətlərin təhlükəlilik dərəcəsinə görə də residivin iki növü fərqləndirilir:


downloaded from KitabYurdu.az

1) penitensiar residiv;
2) xüsusi təhlükəli residiv.

**Penitensiar residiv** azadlıqdan məhrumetmə yerlərində cəza çəkən yaxud cəzaçəkmiş şəxsin (əgər məhkumluq götürülməmiş, yaxud da ödənilməmişdirsə) yenidən azadlıqdan məhrumetmə növündə cəza təyin edilən cinayət törətməsi ilə yaranır.

Cinayət qanununun bəzi normaları islah-əmək koloniya növünün təyin edilməsinin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqini, müəyyən hallarda penitensiar residivlə əlaqələndirir. Belə ki, CM-də ciddi rejimli islah-əmək koloniyaları həm də penitensiar residivistlərin cəzaçəkmə yeri kimi müəyyən edilir. Eləcə də CM-nin 50-ci maddəsinə görə başqa məhkumlardan fərqli olaraq, azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslər (yaxud da cəza çəkmiş, lakin məhkumluğu üzərindən götürülməyən şəxsin) yenidən törətdikləri cinayətə görə azadlıqdan məhrum edildikdə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiqi üçün onların hökmlə müəyyən edilən cəzanın üçdə iki hissəsini çəkmək tələbi qoyulur.

İllər üzrə penitensiar residivin vəziyyətini xarakterizə edən göstəriciləri öyrənməklə və müqayisə etməklə, onun vəziyyətində baş verən tərəddüdləri şərtləndirən səbəblərin dərk edilməsinə səy edilir, islah-əmək müəssisələrinin funksional fəaliyyətinə qiymət verilir, bu idarələrin fəaliyyətinin təkmilləşdirilməsinə yönələn tədbirlər hazırlanır və həyata keçirilir.

**Xüsusi təhlükəli residivi** yaradan cinayətləri törədən şəxs xüsusi təhlükəli residivist kimi tanınır.

Xüsusi təhlükəli residivist kateqoriyası ilk dəfə 1958-ci ildə qəbul edilən cinayət qanunvericiliyi Əsaslarında işlədilmişdir. Əsasların 23-cü maddəsində xüsusi təhlükəli residivistlərə 10 ildən artıq müddətə azadlıqdan məhrumetmə növündə cəza təyin etmənin mümkün olduğu, habelə 44-cü maddədə isə onların barəsində cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin tətbiq edilmədiyi qeyd edilirdi.

Şəxsin xüsusi təhlükəli residivist hesab edilməsi üçün Əsaslarda heç bir formal kriteriya nəzərdə tutulmurdu. Xüsusi təhlükəli residivist kimi tanınmanın şərtləri isə respublikaların cinayət qanunu ilə müəyyən edilirdi. Respublikaların CM-nin uyğun maddələrində xüsusi təhlükəli residivistə verilən anlayışlar arasında xeyli fərqlər mövcud olmuşdur. Bu da xüsusi təhlükəli residivistlər tərəfindən törədilən cinayətlərə qarşı mübarizənin uğurlu təşkilinə mənfi təsir göstərirdi. Buna görə də SSR İttifaqı dövlətinin "Cinayət qanunvericiliyi Əsaslarına əlavə və dəyişiklik edilməsi haqqında" 1969-cu il 11 iyul tarixli Qanunu ilə xüsusi təhlükəli residivistin vahid anlayışı müəyyən edildi. Əsaslara xüsusi təhlükəli residivist kimi tanınmanın şərtlərini nəzərdə tutan 23-cü maddə daxil edildi.

Xüsusi təhlükəli residivistin anlayışını nəzərdə tutan əsasların 23-cü maddəsinin mətni respublikamızın CM-nin 24-cü maddəsinə daxil edilmişdir.

Qanunda xüsusi təhlükəli residivistə verilən anlayış iki meyara - cinayətin ağırlığına və müəyyən cinayətlərə görə şəxsin məhkumluğunun sayına əsaslanır.



downloaded from KitabYurdu.az

Törədilən cinayət nə qədər ağır olarsa, şəxsin xüsusi təhlükəli residivist kimi tanınması üçün bir o qədər az sayda məhkumluq tələb olunur. Yaxud da əksinə, törədilən cinayətin təhlükəliliyi nə qədər az olarsa, şəxsin xüsusi təhlükəli residivist hesab edilməsi üçün məhkumluluğun sayı o qədər çox olmalıdır. Qüvvədə olan Qanun 1-ci halda, şəxsin xüsusi təhlükəli residivist hesab edilməsinə cinayətin ictimai təhlükəliliyini, 2-ci halda isə məhkumluğun sayı meyarını ön plana çəkir. Buna uyğun olaraq qanun şəxsin xüsusi təhlükəli residivist hesab edilməsi üçün onun ikinci, üçüncü, dördüncü cinayətə görə məhkumluğunu tələb edir.

CM-nin 24-cü maddəsinin 1-3-cü bəndi şəxsin xüsusi təhlükəli residivist hesab edilməsi üçün onun "…əvvəllər azadlıqdan məhrum edilməyə məhkum olması" tələbini qoyur. SSRİ Ali Məhkəməsi Plenumunun 1976-cı il 25 iyun tarixli qərarında verilən izahata əsasən əvvəllər azadlıqdan məhrum edilməyə məhkum olmuş şəxs barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə islah-əmək idarələrində çəkilməli olan azadlıqdan məhrum etmə cəzası təyin edilən şəxsdir. Hökmlə təyin edilən cəzanın çəkilməsindən asılı olmayaraq (hökm çıxarıldıqdan sonra şəxs cəzanın icrasından boyun qaçıra bilər, hökmün icrası dayandırıla bilər və s.) şəxs əvvəllər azadlıqdan məhrum olunmağa məhkum edilən şəxs sayılır.

Ali Məhkəmənin qeyd olunan plenumunun qərarında deyilir ki, əgər şəxs axırıncı dəfə bir deyil, bir neçə cinayət edərsə burada cinayətlərin və ya hökmlərin cəminə görə təyin edilən cəzanın müddəti deyil, belə şəxsin xüsusi təhlükəli residivist kimi tanınmasına əsas verən cinayətə görə təyin edilmiş azadlıqdan məhrum etmə müddəti əsas tutulmalıdır.

CM-nin 24-cü maddəsinin 4-cü bəndində ancaq bu maddənin birinci hissəsinin 2-ci və 3-cü bəndlərində sadalanan cinayətlərdən hər hansı birinə görə azadlıqdan məhrum etmə yerlərində cəza çəkmiş şəxsin yenidən cinayət törətməsi nəzərdə tutulur. Eləcə də koloniya məntəqələrində olan, habelə islah-əmək idarələrindən kənarda olsa da konvoy mühafizəsi altında olan məhkumlar tərəfindən edilən cinayət də azadlıqdan məhrum etmə yerlərində törədilən cinayət hesab olunur. Məhkum konvoy məhafizəsi altından qaçdıqdan sonra cinayət törədərsə, belə əməl azadlıqdan məhrum etmə yerlərində törədilən cinayət kimi qiymətləndirilmir.

CM-nin 50-2-ci maddəsinə əsasən məcburi əməyə cəlb etməklə azadlıqdan məhrum etmə yerlərindən şərti azad olunan və xalq təsərrüfatı tikintilərinə göndərilən məhkumlar tikintidə işlədikləri dövrdə yenidən qəsdən törətdiyi cinayətə görə azadlıqdan məhrum edilməyə məhkum olduqda, onlar CM-nin 24-cü maddəsinin 1-ci hissəsinin 4-cü bəndinə əsasən xüsusi təhlükəli residivist kimi tanına bilməzlər.

CM-nin 24-cü maddəsində nəzərdə tutulan "ölçülər" müəyyən maddi məzmuna malikdir. Onlar cinayət törədənin şəxsiyyətinin təhlükəliliyinin əsas meyarı kimi çıxış edir, şəxsin cinayət etməyi peşəyə çevirmək meylini əks etdirir. Bununla belə şəxsin xüsusi təhlükəli residivist kimi tanınması məsələsi həll edilərkən qanunda göstərilən bu ölçülərə formal münasibət bəslənilməməlidir. Bunlar ümumi xarakterli tələblərdir.



downloaded from KitabYurdu.az

Şəxsin xüsusi təhlükəli residivist kimi tanınması üçün həm də hər bir halda konkret işin xüsusiyyətlərindən irəli gələn fərdi, konkret əsaslar da müəyyən edilməlidir. Bura işin faktiki halları ilə və cinayəti törədənin şəxsiyyəti ilə bağlı hallar daxildir. Buna görə də xüsusi təhlükəli residiv kimi tanıma məsələsi həll edilərkən cinayətin baş verdiyi şərait, əməlin xarakteri və təhlükəlilik dərəcəsi, cinayətin motiv və məqsədi, kriminal niyyətin həyata keçirilmə dərəcəsi, cinayəti törədənin şəxsiyyəti, cinayəti ağırlaşdıran və yüngülləşdirən hallar nəzərə alınır.

Məhkəmə şəxsi xüsusi təhlükəli residivist kimi tanımağı qət etdikdə, gəldiyi qərarı hökmdə əsaslandırmalıdır.

Şəxsin xüsusi təhlükəli residivist kimi tanınması onun üçün bir sıra hüquqi nəticələr doğurur:

1) xüsusi təhlükəli residivist hesab edilən şəxs yenidən cinayət törətdikdə qanunda nəzərdə tutulan hallarda onun əməli daha ağır məsuliyyət müəyyən edən norma ilə tövsif olunur; əgər belə əlamət tərkibdə nəzərdə tutulmazsa, məhkəmə xüsusi təhlükəli residivlik amilini məsuliyyəti ağırlaşdıran hal kimi (təkrarlıq əlaməti üzrə) nəzərə alır;

2) xüsusi təhlükəli residivistlər azadlıqdan məhrumetmə cəzasına məhkum edildikdə cəzalarını xüsusi rejimli islah-əmək koloniyalarında çəkirlər; onlara təyin edilən azadlıqdan məhrumetmə müddətinin hamısı, yaxud bir hissəsi həbsxanada çəkilmək üçün müəyyən edilə bilər. Məhkəmə onlara təyin edilən cəzaların daha yüngül rejimli koloniyalarda çəkməyi təyin edə bilər;

3) cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül olan cəza ilə əvəz etmə xüsusi təhlükəli residivistlər barəsində tətbiq edilmir;

4) azadlıqdan məhrumetmə yerlərindən buraxılmış xüsusi təhlükəli residivistlər üzərində inzibati nəzarət müəyyən edilir;

5) xüsusi təhlükəli residivistlərin məhkumluğu qanunla müəyyən edilən qaydada məhkəmə tərəfindən götürülür (mad.53).

Yuxarı instansiya məhkəməsi hesab etsə ki, şəxsin xüsusi təhlükəli residivist kimi tanınması kifayət qədər əsaslandırılmır, o qismən dəyişiklik etməklə, hökmdən xüsusi təhlükəli residivist kimi tanımaya dair göstərişi çıxarır.

Qanunda göstərilən şərtlər mövcud olsa da məhkəmə kifayət qədər əsas olmadan şəxsi xüsusi təhlükəli residivist kimi tanımaqdan imtina edirsə, yuxarı instansiya məhkəməsi nəzarət qaydasında bir il ərzində qüvvəyə minmiş hökmə yenidən baxır.*

Residiv cinayətkarlığın analizinin metodikası, onun kəmiyyət və keyfiyyət göstəricilərinin öyrənilməsini nəzərdə tutur. Residiv cinayətkarlığın dərəcəsi əvvəllər cinayət törətmiş şəxslər tərəfindən törədilən cinayətlərin sayından və belə şəxslərin sayından müəyyən edilir. Bununla yanaşı, residiv cinayətkarlığın müxtəlif qarşılıqlı təsiredici amillərin təsiri altında dəyişdiyinə görə, onun müəyyən dövrlər (onilliklər, beşilliklər, ayrı-ayrı illər) üzrə dinamikasının öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Həm də residiv cinayətkarlığın daha çox inkişaf tapdığı regionların öyrənilməsi, yəni onun coğrafi analizi də vacibdir.

* F.Y. Səməndərov. Cinayət hüquq. Cinayət və cəza məsələləri. B, 1994, s. 269-274



downloaded from KitabYurdu.az

Residiv cinayətkarlığın faktlar üzrə və şəxslər üzrə əmsalı ilə əks olunan residiv cinayətkarlığın intensivliyi regionun həcmindən asılı olaraq 100 min və ya 10 min əhaliyə olan residivistlərin sayından hesablanır.

Residiv cinayətkarlığın əmsalı bu və ya digər regionun residiv cinayətkarlıqla pozulmasının dərəcəsini göstərir və əsasən müxtəlif əhali sayı olan regionların müqayisəsi üçün istifadə olunur. Daha böyük əhəmiyyəti əvvəllər məhkum olunan əhalinin sayına hesablanan residiv cinayətkarlığın xüsusi əmsalı kəsb edir.

Residiv və ilkin cinayətkarlığın nisbəti cinayətkarlığın təhlükəliliyinin göstəricisidir.

Müxtəlif növ cinayətlərin müxtəlif residiv təhlükəliliyi var və buna görə onun öyrənilməsi üç səviyyədə aparılmalıdır: ümumilikdə cinayətkarlığın, onun ayrı-ayrı növlərinin ( məsələn, tamah, zorakı) və ayrıca konkret cinayətlərin (oğurluq, quldurluq və s. ) səviyyələrində.

Beləliklə, residiv cinayətkarlığın kəmiyyət parametrlərinin öyrənilməsindən onun keyfiyyət göstəricilərinin öyrənilməsinə keçirik.

Residivistlərin tərkibində bir neçə dəfə cinayət törədən şəxslərin payının artması onun ictimai təhlükəlilik dərəcəsinin böyüməsini sübut edir. Eyni tərkibli cinayətləri törədən şəxslərin payının artması - residiv cinayətkarlığın peşəkarlaşmasını, xüsusi təhlükəli residivistlərin payının artması isə residiv cinayətkarlığın artıq dərəcədə əlverişsiz meyllərinin göstəricisidir.

Residiv cinayətkarlığın bütün dəyişiklikləri ilə yanaşı dəyişilməz bir əsas prinsip qalır - nə qədər törədilən cinayətlərin ağırlıq dərəcəsi yüksəkdirsə, o qədər də residiv təhlükəlilik yüksəkdir. Belə ki, qəsdən ölümə sui-qəsdlər törədən şəxslərin sayında qəsdən bədənə ağır xəsarət yetirən şəxslərin sayına nisbətən residivistlərin sayı daha çoxdur; qəsdən bədənə ağır xəsarət yetirənlərin sayında isə xuliqanların sayına nisbətən residivistlərin payı yüksəkdir və s. Eləcə də quldurluq edənlərin sayında soyğunçuluq edənlərin sayına nisbətən residivistlərin payı çoxdur, axırıncıların sayında isə, onların payı oğurluq törədənlərin sayından nisbətən çoxdur.

Bu da residivistlər tərəfindən törədilən cinayətlərin xüsusi ictimai təhlükəliliyini sübut edir.

Bunlardan başqa, son vaxtlar silahla, narkotiklərlə, banditizmlə bağlı olan residiv təhlükəli cinayətlərin artması tendensiyası müşahidə olunur. Eyni zamanda qanunsuz valyuta əməliyyatlarında, saxta əskinasların və qiymətli kağızların hazırlanmasında, dələduzluqda və digər yüksək kriminal peşəkarlıq tələb edən cinayətlərdə iştirak edən residivistlərin sayı artır.

Beləliklə, həm statistika, həm də cinayət materiallarının öyrənilməsi residiv cinayətkarlığın keyfiyyət göstəricilərinin dəyişilməsini, onda daha aydın peşəkarlıq və mütəşəkkilliyin özünü büruzə verməsini sübut edir.

Kriminoloji tədqiqatlar göstərir ki, əvvəl məhkum olunan şəxslər öz peşəkarlığına və yüksək mütəşəkkilliyinə görə özünün və iştirakçıların ifşa olunmaqdan hərtərəfli qorunma mexanizmini işləyib, məsuliyyətdən daha asan boyun qaçıra bilirlər. Buna görə də residiv cinayətkarlığın latentliyi yüksək olur.


downloaded from KitabYurdu.az

Yeni siyasi - hüquqi və iqtisadi münasibətlərin xüsusiyyətləri ilə bağlı olaraq kriminal istiqamətli birləşmələrin strukturlarının yenidənqurulması, onların iqtisadi cinayətkarlığın liderləri ilə inteqrasiyası gedir. Residivistlər onlara cinayətkarlığın ən sərfəli sahələrinin - özəlləşdirmə ilə bağlı, ticarət nöqtələrinə nəzarət, sahibkarlıq və bank fəaliyyətində dələduzluq, qaçaqmalçılıq və digər iqtisadi cinayətkarlıq növləri ilə bağlı sahələrin açılmasına kömək edirlər.

## Residivistlərin şəxsiyyətinin kriminoloji xarakteristikası.

Residivistlərin birinci dəfə cinayət törədən şəxslərdən fərqi əsasən bunlardır:

1. Konkret hərəkətlərdə və fikirlərdə özünü büruzə verən residivistlərin mənəvi-hüquqi pozğunluğunun dərəcəsi;

2.Şəxsiyyətin sosial mühitinin xüsusilə mənfi xarakteristikaları.

Bütün bunlar hətta onların cəmiyyətə zidd davranışına dövlət və cəmiyyət tərəfindən müvafiq hüquqi qiymət veriləndən, hüquqi tədbirlər görüləndən sonra da qarşılıqlı əlaqəyə girərək yeni cinayətlərin törədilməsinə mənbə olurlar.

Residivistlər tərbiyəvi təsirləri çətinliklə qavrayır, cinayətkarlığın keyfiyyət xarakteristikalarına mənfi təsir göstərir, onun ictimai təhlükəlilik, peşəkarlıq və mütəşəkkillik dərəcəsini artırırlar.

Residivistlər cəmiyyətə öz cəmiyyətəzidd davranış formalarını gətirərək, mənəvi cəhətdən qeyri-sabit şəxslərə pozucu təsir göstərir, onları cinayətkar fəaliyyətə cəlb edirlər.

Residivistlərin mühitində onların tipologiyasına uyğun olan qruplara differensiyası var.

Birinci qrupun nümayəndələri ardıcıl-kriminogen alttipə aiddirlər. Bu ən kinli, təhlükəli, çox vaxt peşəkar cinayətkarların kateqoriyasıdır. Onlar cinayətin törədilməsi üçün əlverişli olan vəziyyəti sadəcə istifadə etmir, onu özləri yaradır, maneələri fəallıqla keçir, ifşa olunmaqdan və cəzadan qorunma sistemini işləyirlər.

Situativ-kriminogen alttipli residivistlərə pozğunlaşmış, çox vaxt tamah məqsədilə ümumi cinayət xarakterli, qəsdən olmayan, primitiv cinayətləri törədən şəxslər aiddir. Bunlar əsas həyat mövqelərini itirmiş, alkoqolizm, psixi əyintilərin təsiri nəticəsində şəxsiyyəti dağılmış şəxslərdir. Onlar azadlıqdan məhrumetmə şəraitinə öyrəşdiyinə görə, cəza qarşısında qorxu hissini itirdiyinə görə cinayətlərə asanlıqla gedirlər.

Situativ residivistlərə az məhkumluğu olan, qarışıq residiv xarakterli, münaqişə və sərxoşluq vəziyyətinin təsiri altında əsasən xuliqanlıq və digər zorakı cinayətləri törədən şəxslər aiddir. Bu tip qeyri-sabitliyi ilə fərqlənir.



downloaded from KitabYurdu.az

## Residiv cinayətkarlığın səbəbləri (doğuran hallar).

Keçid dövrünün iqtisadi problemləri, mülkiyyət münasibətlərinin dəyişilməsi bütünlükdə cinayətkarlığın və xüsusən, residiv cinayətkarlığın meyllərinə və xarakterinə təsir göstərən qarşılıqlı təsiredici subyektiv və obyektiv amillərin kompleksini ortaya çıxartmışdır.

Residiv cinayətkarlığın səbəb və şəraitləri ilkin cinayətkarlıqdan fərqli olaraq iki qarşılıqlı əlaqədə olan amillərin blokundan ibarətdir.

*Birinci bloka* - birinci cinayətin törədilməsinə səbəb olmuş ilkin amillər aiddir. Bunlar həm residivistlər, həm də ilkin cinayətkarlar üçün eynidir. Tədqiqatlar göstərir ki, cinayət törətmiş şəxslərdə kriminogen vəziyyətlərin varislik yolu ilə keçməsinə səbəb olan sosial şərait və mühit dəyişilməmiş qalır və yaxud daha da pisləşir.

Şəxsiyyətin uşaqlıqda və yetkinlik yaşında formalaşmasının artıq dərəcədə neqativ şəraitləri onda elə möhkəm neqativ iz qoyurlar ki, bu iz sonradan çətinliklə silinir, yaxud şəxs heç bir təsiri yaxın buraxmır. Xüsusən də əvvəllər məhkum olunmuş şəxslərin davranışında cavanlıq dövründən qalan ən mənfi xasiyyətindən yaşlı dövrün hansısa fəal-pozitiv xasiyyətinə doğru köklü dönüş demək olar ki, müşahidə olunmayıb.

Bundan başqa, ölkədəki siyasi və iqtisadi vəziyyətlə bağlı əhalinin həyat şəraitində yaranmış neqativ dəyişikliklər (işsizlik, müflisləşmə, miqrasiya, qaçqınlar) qanunauyğun hərəkətləri olan əhaliyə təsir etməklə yanaşı, daha kəskin surətdə cinayətlər törətməsinə və cəza çəkməsinə görə sosial mövqelərini itirmiş şəxslərə təsir göstərir.

Residivistlərin cinayətkarlığına səbəb olan ikinci blok amillər aşağıdakılardır:

1. Penitensiardan sonrakı adaptasiyanın əlverişsiz keçməsinə təsir edən amillər;
2. Hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətində olan nöqsanlarla bağlı amillər.

Birinci qrupa əmək və yaşayış problemləri aiddir. Son vaxtlar cəza çəkmiş şəxslərin işlə təmin olunma problemi daha kəskinləşmişdir. Bu, birincisi belə şəxslərin aşağı dərəcəli ixtisasları ilə bağlıdır (çox vaxt istehsalatda işləməyə yaramırlar); ikincisi, onlar ictimai istehsalatdan kənarda olan yüngül mənfəət güdürlər; üçüncüsü, sahibkarlıq strukturlarında işə düzəlmək üçün geniş imkanların açılması, müsbət amillər istisna olmaqla, bu sahələrə cinayət davranış normalarının gətirilməsi qorxusunu yaradır.

Statistik məlumatlar göstərir ki, son vaxtlar residivistlərin əlaqələri gölgəli iqtisadiyyat işbazları ilə genişlənmişdir. Bir çox sahibkarlar öz hüquqi savadsızlığına və hüquqi-mənəvi mövqelərinin zəifliyinə görə şəriklərini, işçilərini düzgün seçməmişlər. Bunların arasına əvvəllər məhkum olunmuş şəxslər də düşmüşdür. Residivistlər firmanı şəxsi qanunsuz varlanma üçün, yaxud rəqiblərə, müştərilərə, şefə təsir edib onu özündən asılı vəziyyətə qoymaq üçün istifadə etmişlər, təsərrüfat və maliyyə fəaliyyətinə nəzarəti ələ almışlar.



downloaded from KitabYurdu.az

Residivistlərin qeydiyyatsız qalmaları, uzun müddət yaşamamağa görə mənzil sahəsini itirmələri, onların yaşayış problemini yaradır, müəyyən yaşayış yeri olmayan şəxslərin sırasını doldurur, bu isə cəzanın effektini aşağı salır, yenidən tərbiyə olunma məqsədini yoxa endirir.

Beləliklə, mənəvi cəhətdən pozulmuş cinayətkarların kontingenti öz mühitindən və ya ona yaxın olan mühitin şəxsləri hesabına yaranır. Belə şəxslər mütəşəkkil cinayət qrupları üçün böyük əhəmiyyət kəsb edir. Cinayətkar mühit mütəşəkkilləşir, oğurluq ənənələri əsasında birləşir, onun təsir sahələri genişlənir, dövlət səviyyəsinə çıxır.

Cinayət dünyası güclənib hüquq-mühafizə orqanlarına təsir göstərir (əməkdaşlara, şahidlərə, zərərçəkənlərə). Hüquq-mühafizə orqanlarında kadr axını gedir, işçilərin peşəkarlıq səviyyəsi aşağı düşür, onların səhvləri və nöqsanları isə artır.

Bütün bu hallar residiv cinayətkarlığa səbəb olan amillərin kompleksini tamamlayır.

Törədilən cinayətlərə vaxtında reaksiya verilməməsi, dəlillərin zəif əks olunması, cəza növlərinin seçilməsində səhvlər, halların tam və hərtərəfli tədqiqi barədə qanunun tələblərinin pozulması - bütün bunlar əvvəlki cinayətlərin istintaqı zamanı təkrar cinayətləri törədən şəxslərin sayının artmasına səbəb olmuşdur.

Prokurorluq və məhkəmə orqanlarının sənədlərinin öyrənilməsi göstərir ki, bir sıra hallarda cəza növü seçilərkən müqəssirlərin sosial pozğunluğu, əvvəlki məhkumluqlarının sayı və xarakteri nəzərə alınmır. Hökmün icrasının təxirə salınması səhvən əvvəllər məhkum olunmuş, iş və yaşayış yerində mənfi xarakterizə edilən şəxslərə qarşı tətbiq edilir.

Məhkumların sayının artması və onların saxlanılmasına büdcə vəsaitlərinin çatmaması qanun tələblərinin pozulmasına gətirib çıxarır. Koloniyalara spirtli içkilər, narkotik maddələr, pullar və digər qadağan olunmuş şeylər keçirilir. Bu da islah-əmək müəssisələrin işçilərinin qanunpozuntularına yol verməsi ilə əlaqədardır. Bütün bunlar cinayət icrası sisteminin cəza çəkən şəxslərə tərbiyəvi təsirini yoxa endirir və residiv cinayətkarlığın artmasına səbəb olur.



downloaded from KitabYurdu.az

## Residiv cinayətkarlıqla mübarizənin xüsusiyyətləri.

Residiv cinayətkarlıqla mübarizə çoxaspektli xarakter daşıyır və bu mübarizədə birinci dərəcəli əhəmiyyəti ölkədəki ümumi vəziyyətin sağlamlaşmasına, iqtisadi islahatların müvəffəqiyyətlə aparılmasına, millətlərarası gərginliyin aradan qaldırılmasına mənəvi-psixoloji mühitin yaxşılaşmasına və kriminoloji vəziyyətə əlverişli təsir göstərə biləcək digər amillər kəsb edir.

Cəzaların təyin edilməsi və onların icrasının səmərəli sistemi residiv cinayətkarlığın qarşısının alınması məqsədinə qulluq edir, çünki cinayətkarın yenidən tərbiyə olunması ədalət mühakiməsinin prosesi zamanı başlanılır.

Qanuna əsasən, cəza təyin edilərkən müqəssirin şəxsiyyəti nəzərə alınmalıdır. Cinayətlərin bir-neçə dəfə törədilməsi, cinayətlərin residivi məsuliyyəti ağırlaşdıran hallar hesab olunurlar. Bütün bunlar şəxsiyyətin cinayət törətməkdən əvvəl olan sosial əhəmiyyətli davranışının nəzərə alınması deməkdir. Əgər şəxs əvvəllər cinayət törədibsə, bu onun yüksək dərəcəli ictimai təhlükəliliyini sübut edir və qanunvericilik ona qarşı sərt cəza növlərinin tətbiq edilməsini nəzərdə tutur.

Şəxsin xüsusi təhlükəli residivistlərə aid edilməsi yuxarıda göstərilənlərdən başqa daha da sərt nəticələr daşıyır: 15 ilədək azadlıqdan məhrumetmə cəzasının təyin edilməsi ehtimalını; türmədə və ya xüsusi rejimli koloniyada cəzanın çəkməsini; şərti olaraq müddətdən əvvəl azadlığa buraxılma və cəzanın daha yüngül cəza ilə əvəz olunmasının tətbiq edilməməsini; azadlığa çıxandan sonra mütləq inzibati nəzarətə götürülməsini nəzərdə tutur.

Cinayətlərin təkrar törədilməsi əsasən birinci cinayətə necə reaksiya verilməsindən asılıdır.

Qoyulan məqsədlərə çatmaq üçün cəza maksimal dərəcədə fərdiləşməli, törədilən əməlin xarakteri və şəxsiyyətin xüsusiyyətləri nəzərə almalıdır. Azadlıqdan məhrumetmə hökmü çıxarılarkən, müəyyən fərq qoyulmalıdır, xüsusilə də cəmiyyətdən ayrılmamalı olan şəxslər arasında və əksinə residivistlərə qarşı ciddi tədbirlər tətbiq edilməlidir.

Müasir cinayətkarların, xüsusən də residivistlərin mütəşəkkilliyinin və peşəkarlığının artması zərərçəkənlərə, şahidlərə, hüquq mühafizə orqanları əməkdaşlarına fiziki və psixi təsirin göstərilməsinə, kölgəli ədliyyənin yaranmasına və inkişafına gətirib çıxarır. Nəticədə cəza tədbirlərinin seçilməsi zamanı yol verilən səhvlərin sayı artmış; cinayət törədən əvvəllər məhkum olunmuş şəxslər həbsə alınmamış; bir neçə dəfə məhkum olunanlara cəza təyin edilərkən onların sosial pozğunluq dərəcəsi, əvvəlki məhkumluqları nəzərə alınmamış; hökmün təxirə salınması və ya islah-əmək işləri tətbiq edilmişdir.

Cinayətlərin residivinə mənfi təsir göstərən belə çatışmamazlıqların aradan qaldırılması hüquq-mühafizə sisteminin sağlamlaşması və təkmilləşməsinin nəticəsi olmalıdır.

Bütün bunlar islah-əmək müəssisələrinin sisteminə də aiddir. Cinayət cəzasının icrası sisteminin kökündən dəyişdirilməsi cinayət, cinayət-prosesual qanunvericiliyin təkmilləşdirilməsindən sonra mümkündür.



downloaded from KitabYurdu.az

İslah-əmək müəssisələrində vəziyyətin sağlamlaşmasına aşağıdakılar qulluq edir: nəzarətedici xidmətin sayının artırılması, xüsusi təhlükəli cinayətkarların, rejimi kobud pozanların ayrıca saxlanılması üçün koloniyaların nəzdində xüsusi sahələrin yaradılması; müəssisələrin nəzdində çevik (xüsusi təyinatlı) bölmələrin yaradılması və s.

Saxlanma rejimi, əmək, ümumtəhsil və peşəkar hazırlıq, tərbiyə işi məhkumların düzəlməsi və yenidən tərbiyə olunmasına faydalı təsir göstərir. Bunlardan başqa koloniya və həbsxanaların heyəti tərəfindən məhkumların cəza çəkən zaman cinayət törətməsinin qarşısını almaq üçün bir sıra tədbirlər görülür (nəzarət, mühafizə, təhlükəsizlik tədbirləri).

Cəza çəkəndən sonra residiv cinayətlərin törədilməsinin ehtimalı əsasən cəmiyyətin normal sosial həyatına fəal daxil olmasının mümkünlüyündən asılıdır. Bu proses sosial reabilitasiya adlanır.

Cəzasını çəkmiş şəxslərin sosial reabilitasiyası belə şəxslərə qarşı sosial köməyin müxtəlif formalarını, onların iqtisadi həvəsləndirilməsini, məşğulluğunu və işlə təmin olunmasını nəzərdə tutur. Ölkənin müxtəlif regionlarında sosial-psixoloji və narkoloji xidmətləri olan reabilitasiya mərkəzlərinin yaradılması olduqca vacib məsələdir. Digər tərəfdən sosial reabilitasiyanın bir hissəsi olan sosial nəzarət də əsas rol oynayır.

Sosial nəzarətin növü olan inzibati nəzarət daxili işlər orqanları tərəfindən aparılır. İnzibati nəzarət bir sıra hüquqi həddlərlə bağlıdır: digər regionlara gedişin qadağan olunması, müəyyən saatdan sonra evdən çıxmamaq, bəzi yerləri ziyarət etməmək, daxili işlər orqanlarında mütəmadi olaraq qeydiyyatdan keçmək və s.

Sosial nəzarətin və sosial köməyin gücləndirilməsi profilaktik işin individual metod və formalarının təkmilləşdirilməsi və yenilərinin işlənilməsi ilə bağlıdır. Burada hüquq-mühafizə və digər dövlət orqanlarının və ictimai təşkilatların qarşılıqlı əlaqəsi əsas rol oynayır.

Residiv cinayətkarlıqla mübarizənin planlaşdırılmasına iki cür yanaşmaq olar:

1. Cinayətkarlıqla mübarizəni ümumi proqrama daxil etmək;
2. Residiv cinayətkarlıqla mübarizəni vahid məqsəd kimi nəzərdə tutan proqramın, xüsusi planın işlənib hazırlanması.

Bu və ya digər yolun seçilməsi qarşıya qoyulan məqsədlərdən asılıdır.



downloaded from KitabYurdu.az

# On üçüncü fəsil.

# Yetkinlik yaşına çatmayanların cinayətkarlığı.

**Yetkinlik yaşına çatmayanların cinayətkarlığının vəziyyəti, dinamikası, quruluşuna və motivlərinə görə kriminoloji xarakterizəsi. Yetkinlik yaşına çatmayanların cinayətlərinin yayılmasının region üzrə xüsusiyyətləri. Yetkinlik yaşına çatmayan cinayətkarların şəxsiyyətlərinin xüsusiyyətlərinin kriminoloji xarakterizəsi. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəbləri. Yetkinlik yaşına çatmayanların cinayətlərinin qarşısının alınması.**

## Yetkinlik yaşına çatmayanların cinayətkarlığının vəziyyəti, dinamikası, quruluşuna və motivlərinə görə kriminoloji xarakterizəsi.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığının müstəqil tədqiqat obyekti kimi ayrılmasına onun cinayət qanununda verilmiş kriminoloji xarakteristikası əsas verir. Cinayət Məcəlləsində göstərilən şəxslərin cinayət məsuliyyəti və cəza növləri əks olunub, onların cinayətkarların xüsusi demoqrafik qrupuna seçilməsi üçün yaş meyarları müəyyən olunub. Bu yaş meyarının aşağı həddi - 14 yaş, yuxarı həddi isə - 18 yaşdır. Lakin yaş psixologiyasının və cinayət siyasətinin tələblərinə uyğun müəyyən edilmiş bu hədlər şərti xarakter daşıyır. Çünki cinayət məsuliyyətini nəzərdə tutan yaşa çatana kimi yeniyetmələr 3-6 dəfə artıq ictimai təhlükəli hərəkətlər törədirlər.

Cinayət məsuliyyətinə cəlb etmək üçün zəruri olan yaş həddi müəyyən edilərkən yetkinlik yaşına çatmayanın şüur səviyyəsi, ətraf sosial mühitdə baş verən hadisələri dərk etmək və buna uyğun düşünülmüş hərəkət etmək qabiliyyəti nəzərə alınmışdır. Şəxsdə davranışının sosial təhlükəliliyini dərk etmək qabiliyyəti tərbiyə prosesində və həyat müşahidələri nəticəsində tədricən formalaşır. Özgəsinin malını götürmə, daş atma başqasının gözünə dəyər, odla ehtiyatlı ol, dalaşma kimi tövsiyyələrdə müəyyən növ əməllərin sosial təhlükəliliyi tədricən ailədə, məktəbdə, əhatədə yeniyetməyə təlqin edilir. Belə təlim hələ kiçik yaşlarından yeniyetmələrdə həyat əleyhinə, səhhət əleyhinə, mülkiyyətə, ictimai qaydaya yönələn əməllərin ictimai təhlükəliliyini dərk etməyə kömək edir. Artıq müəyyən yaş həddinə çatdıqda şəxsdə tədricən həyat təcrübəsi toplanır, öz əməlini dərk etmək, bu və ya başqa şəraitdə davranış variantı seçmək qabiliyyəti yaranır.

Cinayətin subyekti olmaq üçün tələb olunan yaş həddi hazırda qüvvədə olan qanunla müəyyən edilmişdir. CM-nin 10-cu maddəsində deyilir: "Cinayət törədərkən 16 yaşı tamam olmuş şəxslər cinayət məsuliyyətinə cəlb edilirlər. 14 yaşından 16 yaşınadək cinayət törətmiş şəxslər yalnız adam öldürməyə, səhhətin pozulmasına səbəb olan qəsdən bədənə xəsarət yetirməyə, zorlamağa, quldurluğa, soyğunçuluğa, oğurluğa, qərəzli və ya xüsusilə qərəzli xuliqanlığa, dövlət əmlakını, ictimai əmlakı və ya vətəndaşların şəxsi əmlakını ağır nəticələrə səbəb olmaqla qəsdən məhv etməyə və ya zədələməyə, odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri oğurlamağa, narkotik maddələri



downloaded from KitabYurdu.az

oğurlamağa, habelə qatarın qəzaya uğramasına səbəb ola biləcək hərəkətləri qəsdən etməyə görə cinayət məsuliyyətinə cəlb edilirlər".

Bəzi cinayətlər vardır ki, burada hərəkətlərin xüsusi xarakteri ilə əlaqədar olaraq cinayətin subyekti olmaq üçün daha artıq yaş həddi tələb olunur. Məsələn, yetkinlik yaşına çatmayanları cinayət fəaliyyətinə cəlb etmək (maddə 215), yetkinlik yaşına çatmayanları sərxoşluğa cəlb etmək (maddə 215-3), həqiqi hərbi qulluğa növbəti çağırışdan boyun qaçırma (maddə 73) cinayətlərinin, habelə hərbi cinayətlərin subyektləri (CM-nin xüsusi hissəsinin 11-ci fəsli) olmaq üçün ən azı 18 yaşa çatmaq tələb olunur.

Qanunvericilik CM-nin 10-cu maddəsinin 2-ci hissəsinə daxil olan cinayətlərə görə subyekti 14 yaşdan müəyyən edərkən bu cinayətlərin ağırlığını deyil, onların daha çox məişət xarakterli olmalarını, habelə 14 yaşa çatmış şəxslərin belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətlərinə malik olmalarını nəzərə almışdır. Bu cinayətlərin təhlükəliliyi və gündəlik məişətdə onların baş verməsi yetkinlik yaşına çatmayanların onların sosial təhlükəliliyini dərk etməsinə imkan verir. Təsadüfi deyildir ki, burada sadalananan 24 cinayətdən 23-ü ancaq qəsdən törədilən cinayətdir. Sadalanan cinayətlər təqsirin qəsd formasını nəzərdə tutduğundan yetkinlik yaşına çatmayan şəxslər belə əməllərin ilk növbədə mənəviyyatla pisləndiyini və yolverilməz olduğunu bildiyi halda, belə əmələ düşüncəli surətdə gedir və onu törədir.

Qanun səhhətin pozulmasına səbəb olmayan xəsarətə (maddə 106, 2 his.), səhhətin pozulmasına səbəb olmayan döyməyə (maddə 108, 1 his.), xuliqanlığın sadə növünə (maddə 207, 1-ci hissə) görə cinayət məsuliyyətini 14 yaşdan deyil , 16 yaşdan müəyyən edir. Bu da təsadüfi deyildir. Çünki, 14 yaşa çatmış şəxs uşaq şıltaqlığından, azğınlığından irəli gələn hərəkətlərlə xüliqanlıq sayılan cinayət arasında, dalaşma ilə cinayət sayılan döymə arasında hələ kifayət qədər fərq qoya bilmir.

Məcəllənin 10-cu maddəsinin 2-ci hissəsində yetkinlik yaşına çatmayanların 14 yaşdan etibarən cinayət məsuliyyəti daşıya biləcəkləri cinayətlərin dairəsi dəqiq müəyyən edilmişdir. Burada göstərilməyən hər hansı başqa cinayətə görə 14 yaşdan 16 yaşınadək olan şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Əgər 14 yaşından 16 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxs CM-nin 10-cu maddəsinin 2-ci hissəsində adları çəkilməyən cinayətlərdə iştirak etmiş və bu zaman 14 yaşdan məsuliyyət daşıya bilən əməllər törətmişdirsə, belə vəziyyətdə yalnız 14 yaşdan etibarən cinayət məsuliyyəti nəzərdə tutulmuş əmələ görə yaranır. Məsələn, 14 yaşdan 16 yaşa qədər olan şəxs banditizmdə iştirak etmişdirsə, onu banditizm üstündə cinayət məsuliyyətinə almaq olmaz. Lakin onun banditizmdə iştirakı oğurluq, soyğunçuluq, quldurluq, adam öldürmə, bədənə ağır və ya az ağır xəsarət yetirmə və s. ifadə olunmuşsa, faktiki olaraq etdiyi bu əməllərə görə məsuliyyət daşımalıdır.

Qüvvədə olan cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayan şəxslərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə almaqla onların məsuliyyətinin həllinə yol verir. Hər bir konkret halda, yetkinlik yaşına çatmayanların msuliyyətinin həddinə və xarakterinə təsir edən hallar aydınlaşdırılarkən, ilk növbədə onların



downloaded from KitabYurdu.az

əqli yetkinlik dərəcələrinin müəyyən edilməsinə, öz hərəkətlərini idarə etmək qabiliyyətlərinin vəziyyətinə diqqət yetirilməlidir. Əgər şəxsdə əqli geriliyin olduğu, hərəkətlərini tamamilə dərk edə bilməməsi halları müşahidə edilirsə, bu məsələnin qəti aydınlaşdırılması ilə bağlı ekspertiza təşkil edilməlidir.

Qeyd etmək lazımdır ki, əqli gerilik səviyyəsi psixi xəstə vəziyyətlə bağlı deyildir. Buna görə də belə vəziyyətdə şəxsin anlaqlı olub-olmaması məsələsini bütün hallarda anlaqsızlığın ölçüləri əsasında həll etmək mümkün olmur. Təsadüfi deyildir ki, 1991-ci ildə qəbul edilən cinayət qanunvericiliyinin Əsaslarının 60-cı maddəsinin 2-ci hissəsində deyilir: "Psixi xəstə vəziyyətlə bağlı olmayan, lakin psixi inkişafdakı gerilik nəticəsində öz hərəkətinin faktiki hallarını, yaxud da ictimai təhlükəli xarakterini dərk etməyə, habelə ona rəhbərlik etməyə qadir olmayan şəxslər qanunla müəyyən edilən yaş həddinə çatsalar da cinayət məsuliyyətinə alına bilməzlər".

CM-nin 10-cu maddəsinin 2-ci hissəsinin göstərişinə görə, 18 yaşına çatmayanlar tərəfindən törədilən cinayət ağırlığına görə böyük ictimai təhlükəli hesab edilməyən cinayətlər qrupuna aiddirsə və məhkəmə şəxsin cinayət cəzası tətbiq etmədən islah olunacağını mümkün sayırsa, onun barəsində məcəllənin 56-cı maddəsində nəzərdə tutulmuş tərbiyəvi xarakterli tədbirlər tətbiq edir.

Beləliklə, qanun cinayət törətmiş yetkinlik yaşına çatmayanların cəzadan azad edilməsinin iki əsasını müəyyən edir:

1) törədilən cinayət ağırlığına görə böyük ictimai təhlükə törətməyən cinayətlərdən olsun;
2) cinayət cəzası tətbiq etmədən şəxsin islah olunması mümkün sayılsın.

Yetkinlik yaşına çatmayan şəxsin cəzadan azad edilməsi üçün məhkəmə ilk növbədə törədilən cinayətin böyük ictimai təhlükə törətməyən cinayətlər qrupunda olmasını aydınlaşdırmalıdır. Daha sonra işin vəziyyətini və təqsirkarın şəxsiyyətini araşdıraraq cinayət cəzası tətbiq etmədən şəxsin islah olunacağının mümkün olub-olmaması aydınlaşdırılır.

Yetkinlik yaşına qədər olan dövrdə şəxsdə həyat idealının və onun həyata başıxlarının, mənəvi varlığının, fiziki və intellektual qüvvələrinin formalaşması prosesi gedir. Onlarda ictimai borc, vicdan, şərəf və ləyaqət, yoldaşlıq və dostluq haqqında təsəvvürlər dayaz və səthi, qətilik, sürətlilik, mətanət və mərdlik və sair bu kimi mənəvi sima üçün xarakterik xüsusiyyətlər isə hələ ictimai həyat üçün tələb olunan səviyədə püxtələşməmiş olur. Bu da, ilk növbədə yetkinlik yaşına çatmayanlarda həyat təcrübəsinin az olması, təlim və tərbiyənin tamamlanmaması və onların hələ intellektual yetkinliyə çatmamaları ilə əlaqədardır.

Yetkinlik yaşına çatmayanlarda iradə zəifliyi müvazinətin tez pozulmasında, xarici təsirə qarşı daha tez reaksiya verilməsində özünü göstərir. Onlarda hisslər sürətlə əmələ gəlir və qüvvətlə cərəyan edir, öz davranışlarına nəzarət etmək qabiliyyətləri zəifləyir. Buna görə də yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin ictimai təhlükəliliyi heç də həmişə onların şəxsiyyətinin təhlükəliliyini müəyyən edən meyar kimi qiymətləndirilə bilməz. Törədilən cinayətin yetkinlik yaşına çatmayanın cəmiyyətə zidd meylləri ilə, yaxud da yaş-psixoloji xüsusiyyətləri ilə əlaqədar olduğunu müəyyən etmək



downloaded from KitabYurdu.az

üçün əməlin hər hansı şəraitdə edildiyi, şəraitin münaqişəli olub-olmaması, yetkinlik yaşına çatmayanın göstərilən neqativ təsirin xarakteri və intensivliyi və sair bu kimi hallar nəzərə alınmalıdır.

Yetkinlik yaşına çatmayan şəxsdə cinayət etmək "qabiliyyəti" yaradan şəraitin öyrənilməsi əməlin motiv və məqsədinin, təqsiri formasının, habelə şəxsiyyətin təhlükəlilik dərəcəsinin müəyyən edilməsinə və beləliklə də onun cəzadan azad edilməsi məsələsinin düzgün həllinə və ya cəzanın ədalətli fərdiləşdirilməsinə kömək edir.

İştirakçılıqla törədilən cinayətlərin tədqiqi göstərir ki, çox halda yetkinlik yaşına çatmayanlar qrup daxilində öz mənliklərini, şəxsi statuslarını qorumaq xatirinə, yanlış prinsiplərə əsaslanan "dostluq və yoldaşlıqdan doğan tələblər xatirinə", yaxud da onu qəbul etmiş qrupda "qorxaq" kimi tanınmamaq xatirinə istər-istəməz bu və ya başqa cinayətdə iştirakçı olur.

Məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, yetkinlik yaşına çatmamışlar müəyyən hallarda yaşa dolmuş cinayətkarların təhriki ilə cinayət yoluna qədəm qoyurlar. Xüsusən dəfələrlə cinayət etməkdə təcrübəsi olan şəxslər müxtəlif vasitələrlə yetkinlik yaşına çatmayanların qəlbinə yol tapır, etibarını qazanır, sonra da onları cinayət etməyə təhrik edirlər. Yetkinlik yaşına çatmayan ona göstərilən "qayğı" və "diqqət" əvəzində təhrikçinin sözündən çıxa bilmir, ürəyindən olmasa da cinayətdə iştirakdan imtina etməyə iradəsi çatmır. Yetkinlik yaşına çatmayanın cinayətə təhrik edilməsi bəzən hədə-qorxu və zorakılıq təsiri altında baş verir. Belə hallarda yetkinlik yaşına çatmayanların törətdiyi (iştirak etdiyi) cinayətin təhlükəliliyi heç də onun şəxsiyyətinin təhlükəliliyini müəyyən edən ölçü kimi qiymətləndirilə bilməz.

Müəyyən hallarda yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlərin bir qismi onların uşaq təbiətindən, azğınlıqla cinayətə fərq qoya bilməmələrindən irəli gəlir.

SSRİ Ali Məhkəməsi Plenumunun "Yetkinlik yaşına çatmayanların cinayətləri haqqında və onların cinayət fəaliyyətinə və cəmiyyətəzidd fəaliyyətə cəlb etməyə dair işlər üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 1976-cı il 3 dekabr tarixli 16 nömrəli qərarında deyilir ki, ayrı-ayrı hallarda uşaq azğınlığı ilə əlaqədar olan az əhəmiyyətli hüquq pozuntularına görə yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə alınmasına yol verilməməlidir. Qərarda daha sonra qeyd edilir ki, əgər valideynlərdən və onlarla birgə yaşayan şəxslərdən edilən oğurluğa görə, zərər çəkmiş şəxs yetkinlik yaşına çatmayanlar barəsində cinayət işi qaldırmaq haqda müvafiq orqanlara müraciət etməmişsə, onların mühakimə olunmasına yol verilməsin.

Qüvvədə olan cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların yaş və psixoloji xüsusiyyətlərini nəzərə alaraq cinayət məsuliyyəti və cəza məsələlərinin həlli ilə əlaqədar bir sıra güzəştli spesifik hallar müəyyən edir. Bunlar aşağıdakılardır:

- cinayətin sübyekti olmaq üçün aşağı yaş həddi şəxsin əqli yetkinlik dərəcəsi və psixoloji xüsusiyyətlərindən asılı olaraq müəyyən edilmişdir;



downloaded from KitabYurdu.az

- yetkinlik yaşına çatmayanların məsuliyyətə alınmasına səbəb olan cinayətlərin dairəsi məhduddur;
- qanunda göstərilən əsaslar mövcud olduqda yetkinlik yaşına çatmayanlar cinayət məsuliyyətindən azad edilir (CM-nin 49-cu maddəsi);
- yetkinlik yaşına çatmayanlar barəsində azadlıqdan məhrum etmədən islah işlərinin tətbiqinə məhdudiyyət qoyulur;
- cəzanın başqa tərbiyəvi xarakterli məcburi tədbirlərlə əvəz edilməsinin əlavə formaları nəzərdə tutulur (CM-nin 10-cu maddəsinin 3-cü hissəsi; 46-cı maddənin 3-cü hissəsi);
- azadlıqdan məhrum etmə cəzasının yetkinlik yaşına çatmayanlar barəsində maksimum həddi məhduddur (CM-nin 23-cü maddəsi);
- cinayətin yetkinlik yaşına çatmayanlar tərəfindən edilməsi məsuliyyəti yüngülləşdirən, yetkinlik yaşına çatmayanları cinayətə təhrik etmək və ya onların cinayətdə iştirak etməyə cəlb edilməsi isə məsuliyyəti ağırlaşdıran hallar hesab edilir (CM-nin 36 və 37-ci maddələrinin 6-cı bəndləri);
- cəzanın çəkilməsi üçün başqa, fərqli rejimlər nəzərdə tutulur (CM-nin 23-cü maddəsi);
- qanunda göstərilən əsaslar olduqda yetkinlik yaşına çatmayan şəxs şərti məhkum edilə bilər, onun barəsində cəza müəyyən edən hökmün icrası təxirə salına bilər (CM-nin 41 və 42-1-ci maddəsi);
- yetkinlik yaşına çatmayanların cəzadan şərti olaraq vaxtından əvvəl azadedilmə qaydasında və əsaslarında fərqlər müəyyən edilmişdir (CM-nin 51-ci maddəsi);
- yetkinlik yaşına çatmayan dövrdə törədilən cinayətlərə görə yaranan məhkumluq sonradan şəxsin xüsusi təhlükəli residivist kimi tanınmasına əsas ola bilməz (CM-nin 24-cü maddəsi).*

Bütün bunlara görə yetkinlik yaşına çatmayanların cinayətkarlığının vəziyyətinin, meyllərinin və genezisinin, cinayətkarların şəxsiyyətinin öyrənilməsi, bu yaşlı şəxslərə aid profilaktik və cinayət-hüquqi təsiretmə tədbirlərinin hazırlanması böyük çətinliklərlə bağlıdır.

Yetkin yaşda cinayət törətmiş şəxslər, bir qayda olaraq, sonradan çətin düzəlirlər və nəticədə böyüklərin və residivistlərin cinayətkarlığı üçün əsas rezerv təşkil edirlər.

Əksinə, ilk dəfə böyük ictimai təhlükəlilik dərəcəsi olmayan hüquq pozmaları törətmiş şəxsləri erkən ifşa edib, onlara qarşı vaxtında zəruri profilaktik tədbirlərin görülməsi, bu şəxslərdə cinayət xarakterli səmtləşmənin qarşısını ala bilər.

---

* F.Y. Səməndərov. Cinayət hüquq. Cinayət və cəza məsələləri. B, 1994, s. 171-178



downloaded from KitabYurdu.az

Yetkinlik yaşına çatmayanların cinayətkarlığı barədə çoxlu statistik materiallar yığılıb. Bu da öz növbəsində onun keyfiyyət və kəmiyyət göstəricilərinin dəyişikliklərinin, real vəziyyətinin qiymətləndirilməsinə böyük imkanlar yaradır.

Respublikada daxili sabitliyin qorunması sahəsində görülən tədbirlər yetkinlik yaşına çatmayanların cinayətkarlığının səviyyəsinin azalmasına imkan versə də, 1990-cı illə müqayisədə cinayətkarlıq hallarının artması müşahidə olunur.

Belə ki, 1997-ci il ərzində 14-17 yaşında olan cinayət törətmiş 716 şəxs aşkar edilmişdir. Bunlardan 469 nəfəri məhkum olunmuşdur. O cümlədən: 14-15 yaşında olanlardan - 50 nəfər (bu 1996-cı ilə nisbətən 16 nəfər çoxdur); 16-17 yaşında olanlardan - 419 nəfər (bu da 1996-cı ilə nisbətən 4 nəfər çoxdur).

Yetkinlik yaşına çatmayanların cinayətkarlığının kriminologiyada ən geniş yayılmış struktur təhlili qəsdən adam öldürmələr, bədənə ağır xəsarət yetirmə, zorlama, quldurluq, soyğunçuluq, oğurluq, xuliqanlıq kimi cinayət növləri üzrə aparılan təhlildir.

Hüquq-mühafizə orqanlarının statistik məlumatları göstərir ki, uzun müddət ərzində qəsdən ölümə sui-qəsdlərin, bədənə ağır xəsarət yetirmələrin, quldurluğun və xuliqanlığın daimi ixtisarı yetkinlik yaşına çatmayanların cinayətkarlığının xüsusi çəkisini 1966-1970-ci illərdə olan 25%-dən 1986-1990-cı illərdəki 15%-ə qədər salmışdır, yəni təxmini 2 dəfə. Lakin 1991-ci ildən məhz bu cinayət növləri üzrə intensiv artım müşahidə olunur.

Məsələn, 1997-ci ildə 1996-cı ilə nisbətən yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərdən qəsdən adam öldürmələr, soyğunçuluq, quldurluq, xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayət hadisələrinin sayı artmışdır.

Belə ki, 1997 -ci il ərzində yetkinlik yaşına çatmayanlar tərəfindən aşağıdakı növ cinayətlərin törədilməsinə görə məhkum olunmuşlar:

1. Dövlət əmlakının və ya ictimai əmlakın talanması - 35 nəfər (bu 1996-cı ilə nisbətən 39 nəfər azdır);
2. Qəsdən adamöldürmə - 18 nəfər (bu 1996-cı ilə nisbətən 1 nəfər çoxdur) ;
3. Qərəzli ağır bədən xəsarətləri - 28 nəfər (bu 1996-cı ilə nisbətən 2 nəfər azdır);
4. Zorlama - 2 nəfər (bu1996-cı ilə nisbətən 2 nəfər azdır);
5. Oğurluq - 161 nəfər (bu 1996-cı ilə nisbətən 24 nəfər azdır);
6. Soyğunçuluq-18 nəfər (bu 1996-cı ilə nisbətən 1 nəfər çoxdur);
7. Quldurluq- 20 nəfər (bu 1996-cı ilə nisbətən 12 nəfər çoxdur);
8. Xuliqanlıq - 40 nəfər (bu 1996-cı ilə nisbətən 23 nəfər çoxdur);
9. Narkotiklərlə bağlı cinayətlər - 26 nəfər (bu isə 1996-cı ilə nisbətən 10 nəfər çoxdur).*

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə cinayətkarlıq haqqında (DİN-nin məlumatlarına əsasən). B., 1998.



downloaded from KitabYurdu.az

Bundan əlavə odlu silahın əldə edilməsi və tətbiqi faktları, polis işçilərinə müqavimət göstərmə və tabe olmama faktları da artmışdır. Yetkinlik yaşına çatmayanların arasında əvvəllər böyük nəslə xas olan cinayət növləri geniş yayılmışdır - bu silahın və narkotik maddələrin satışı; sutenyorluq; sahibkarlara və xaricilərə qarşı quldur hücumlar; zor tətbiq etməklə insanların həyatına və səhhətinə sui-qəsdlər; valyuta sərvətləri və qiymətli kağızlarla fırıldaq hərəkətlər; kompüter cinayətləri; oğurluq malın satışı; reket və s. cinayətlərdir.

Yetkinlik yaşına çatmayanların zorakılıqla və tamah məqsədilə törədilən cinayətlərinin son illər ərzində olan həqiqi nisbəti, onların motivlərinin dəyişməsi böyük kriminoloji əhəmiyyət kəsb edir.

Nəzərə alsaq ki, statistika cinayətlərin törədilmə motivlərini əks etmir və onda bu cinayətkarlığın motivlərə görə quruluşunu seçmə tədqiqatların nəticəsində qurmaq olar. Məsələn, müəyyən olunmuşdur ki, yetkinlik yaşına çatmayanlar oğurluq törədərkən yalnız 2-3-cü halda tamah motivi üstünlük təşkil edir. Qalan hallarda isə - bu həmrəylik, qrup asılılığı və yaxud yaş arsızlığı ilə bağlı olan özünü təsdiqetmə motivləridir. Son vaxtlar tamah motivləri ölümə sui-qəsdlərin, bədənə ağır xəsarət yetirmələrin törədilməsində geniş yayılmışdır.
Seçmə tədqiqatların nəticələri göstərir ki, yetkinlik yaşına çatmayanların cinayətlərində son illər tamah motivləşmə praktiki olaraq əksər cinayət tərkiblərində mövcuddur, onun real xüsusi çəkisi isə başqa motivlərə nisbətən ən yüksəkdir (30-35%).

Tamah motivlərinin əsas predmetləri - xarici və yerli texnika (avtomaşınlar, videomaqnitofonlar, radio və fototexnika)-55%; valyuta, qiymətli kağızlar, pullar, qızıl, gümüş, daş-qaş-15%; defisit geyim-25% təşkil edirlər.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığında tamah xarakterli istiqamətləşmənin real artımını bu növ cinayətlərin konkret növlərinin dinamikası təsdiq edir. Bu cinayətkarlığın dinamikası iqtisadi çətinliklərlə, əhalinin bir hissəsinin həyat səviyyəsinin aşağı düşməsi, bir sıra məişət və maddi şəraitlərin itkisi ilə əlaqədar olaraq artmışdır.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığı əksər hallarda qrup xarakteri daşıyır. Cinayətlərin növündən, onların ərazi üzrə bölüşdürülməsindən və s. asılı olaraq yetkinlik yaşına çatmayanların cinayətkarlığının strukturunda qrup cinayətlərin payı 15-60% təşkil edir və böyüklərin cinayətkarlığında olan analoji göstəricilərdən 1-2 dəfə artıqdır.

Belə ki, 1997-ci il ərzində məhkum olunmuş yetkinlik yaşına çatmayanlardan qrup halında 374 nəfəri (o cümlədən böyüklərin iştirakı ilə) cinayət törətmişlər.*

Yetkinlik yaşına çatmayanlar tərəfindən fəal hərəkətlərin təklikdə törədilməsi, cəsarətliyinə, kəskinliyinə və hazırlığına görə cəmiyyət üçün yüksək ictimai təhlükəliliyi var. Belə hərəkətlər cinayətkarlıqla mübarizə nöqteyi-nəzərindən qrup cinayətlərə nisbətən çətin ifşa olunur.

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə Azərbaycanda məhkumetmə haqqında (Ədliyyə Nazirliyinin məlumatlarına əsasən). B., 1998.



downloaded from KitabYurdu.az

Lakin yetkinlik yaşına çatmayanların qrup şəklində cinayətlərin törədilməsi cəmiyyət üçün daha böyük neqativ nəticələr daşıyır. Yetkinlik yaşına çatmayanların qrup cinayətlərinin yüksək impulsivliyi, qəddarlığı, intensivliyi və situativliyi belə cinayətlərin nəticələrini daha da ağırlaşdırır.
Son illər ərzində qanunazidd hərəkətləri olan yetkinlik yaşına çatmayanların qruplarının böyüməsi prosesi gedir. Belə qrupların çoxu qarışıq yaş həddi olan iştirakçılardan tərtib olunur. Bu isə onların uzun müddət fəaliyyət göstərməyinə, fəallığına, cəsarətliyinin artmasına, motivləşmənin ağırlaşmasına səbəb olur.

Bundan əlavə yetkinlik yaşına çatmayanların qruplarının mütəşəkkil cinayətkarlığa tabe olma tendensiyası gedir. Bu qrupların sosial bazası işsizlərin, xırda bizneslə məşğul olan yeniyetmələrin, cəza çəkmə yerlərindən qayıdıb özlərinə cəmiyyətdə yer tapmayanların, aztəminatlı, yoxsullaşmış ailələrdən olanların hesabına dolur. Yetkinlik yaşına çatmayanlar kölgəli iqtisadiyyata kütləvi surətdə cəlb olunurlar. Mütəşəkkil cinayətkarlığın liderləri yetkinlik yaşına çatmayanları öz himayələrinə götürür, onların cinayətkar kimi formalaşmasını hazırlayırlar.

**Yetkinlik yaşına çatmayanların cinayətlərinin**



downloaded from KitabYurdu.az

## region üzrə xüsusiyyətləri.

Statistik müşahidələr göstərir ki, ayrı-ayrı regionlar arasında (respublikalar, vilayətlər) yetkinlik yaşına çatmayanların cinayətkarlığının səviyyəsində mühüm və çox sabit fərqlər var.*

Ərazi fərqlərinin təhlili zamanı həmişə bir fakt əks olunur ki, böyük sənaye mərkəzlərində, liman və kurort şəhərlərində yetkinlik yaşına çatmayanların cinayətkarlığının göstəriciləri ən yüksəkdir. Rayon və şəhərlərdə yetkinlik yaşına çatmayanların cinayətkarlığını müqayisə edərkən, tədqiqatçılar onun həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin oxşarlığını qeyd edirlər.

Kriminoloqlar yetkinlik yaşına çatmayanların cinayətkarlığının səviyyəsi ilə regionu xarakterizə edən əsas göstəricilər arasında - uşaqların və həddi-buluğa çatmayanların xüsusi çəkisi və ümumi sayı; işləməyən və oxumayan əmək qabiliyyətli yetkinlik yaşına çatmayanların payı; qaçqınların və məcburi köçkünlərin yüksək qatılığı; məhkum olmuş şəxslərin, məişət hüquqpozucularının (sərxoşlar, xuliqanlar və s.) payı; tibbi uçotda duran şəxslərin payı (alkoqoliklərin, ruhi xəstələrin və s.) - sabit asılılığın olmasını aşkar ediblər.

Ən sıx asılılıq yetkinlik yaşına çatmayanların cinayətkarlığının regional fərqləri ilə dağılmış ailələrin yayılması arasında müəyyən edilibdir. Məhz bu göstəriciyə görə, yetkinlik yaşına çatmayanların cinayətkarlığının ən yüksək və ən aşağı səviyyəsi olan regionların sayca ona uyğun boşanan və dağılmış ailələr olan regionlarla üst-üstə düşməsi müşahidə olunur.

Bütün bunlar yetkinlik yaşına çatmayanlarla tərbiyə-profilaktik işin aparılması istiqamətlərini seçərkən uğursuz ailələrin göstəricilərini vacib kriteriyası kimi götürülməsinə əsas verir.

---

* A.İ. Dolqova. Kriminologiya. M., 1997, s. 694

## Yetkinlik yaşına çatmayan cinayətkarların şəxsiyyətlərinin



downloaded from KitabYurdu.az

**xüsusiyyətlərinin kriminoloji xarakterizəsi.**

Tədqiqatlar göstərir ki, yetkinlik yaşına çatmayanlar arasında kişi cinsli şəxslərin xüsusi çəkisi onların müvafiq regionda yaşayan əhalinin müəyyən yaş qrupunda olan xüsusi çəkisindən artıqdır.

Əksinə, cinayət törədən qızların payı onların əhali arasında xüsusi çəkisindən azdır. 1997-ci il ərzində cinayət törətmiş 9 qız məhkum edilmişdir ki, bu da yetkinlik yaşına çatmayan cinayətkarların ümumi sayının 1,9 % -ni təşkil etmişdir.*

Maraqlıdır ki, qadın cinsli şəxslərin yetkinlik yaşına çatmayanların cinayətkarlığında xüsusi çəkisi qadınların cinayətkarlığında analoji göstəricilərlə müqayisədə 5-6 dəfə aşağıdır. Lakin onu da nəzərə almaq lazımdır ki, ictimai təhlükəli hərəkətlərin törədilməsində qızların qanunazidd fəallığı olduqca yuksəkdir.

Kriminoloqlar tərəfindən uzun illər ərzində məşğulluq növünə görə seçilən yetkinlik yaşına çatmayanların kontingentlərinin cinayətkar fəallığında gözə çarpan fərqlər qeyd olunur. Müasir dövrdə yetkinlik yaşına çatmayanların bütün sosial və peşəkar kateqoriyalarının biri-birlərinə yaxınlaşma prosesi intensiv gedir.

Bu əsasən cinayətkar hərəkətlərin sayının artmasına görə baş verir. Əvvəlki kimi ən yüksək kriminal fəallığı daimi gəlir mənbəyi olmayan yetkinlik yaşına çatmayanlar təşkil edir. Belə ki, 1997-ci il ərzində məhkum olunmuş yetkinlik yaşına çatmayanların arasında 354 nəfəri işləməyən və oxumayanlar olmuşdur.**

*,** AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə Azərbaycanda məhkumetmə haqqında (Ədliyyə Nazirliyinin məlumatlarına əsasən). B., 1998.



downloaded from KitabYurdu.az

# Yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəbləri və şəraiti.

Cəmiyyətdə gedən iqtisadi, ideoloji, mədəni-tərbiyəvi, demoqrafik, sosial-psixoloji proseslər uşaqların və yeniyetmələrin davranışının formalaşmasını, onun məzmununu və xarakterini müəyyən edir. Onlar müəyyən şəraitdə uşaqların və yeniyetmələrin ölümünü və xəstəliklərinin səviyyəsinin artmasına, boşanmalar, ətrafdakılara qarşı kobud münasibət, özünə sui-qəsdlər, sərxoşluq, fahişəlik, narkomanlıq və ümumilikdə cinayətkarlıq kimi neqativ hallara şərait yaradırlar.

Kriminoloqlar tərəfindən yetkinlik yaşına çatmayanların həyat və tərbiyəsi üçün neqativ şərait yaradan və bununla onların cinayət törətmələrinə səbəb olan aşağıdakı amillər tam öyrənilmişdir:

1) yetkinlik yaşına çatmayan əhalinin maddi-təminat səviyyəsinə, sosial statusuna görə sosial differensiallığı;
2) əmək haqqının ödənilməsi, maddi sərvətlərin bölüşdürülməsi prinsiplərinin pozulması (ailəsində ağır maddi vəziyyət, tərbiyəçi və pedaqoqların aşağı əmək haqqı və s.);
3) ayrı-ayrı qrup uşaqların və yeniyetmələrin təhsilində, tərbiyəsində və əməyində fərqlər;
4) ailələrinin dağılması;
5) əhalinin ayrı-ayrı qruplarının, o cümlədən valideynlərin və uşaqların (yeniyetmələrin) tərbiyəsi ilə məşğul olan digər şəxslərin alkoqolizmi, sinir-psixi, xroniki xəstəlikləri;
6) uşaqların və yeniyetmələrin müstəqilliyə subyektiv səmtləşmələri ilə sosioloji institutların (məktəb, ailə) qoyduğu hədlər arasında ziddiyyət;
7) uşaqların, yeniyetmələrin və onların valideyinlərinin mənəvi və maddi tələbatları ilə imkanları arasında olan ziddiyyət;
8) hüquqi mədəniyyətin aşağı səviyyəsi;
9) əsas tərbiyəvi funksiyaların lazımi peşə hazırlığı olmayan şəxslər tərəfindən həyata keçirilməsi;
10) uşaqların və yeniyetmələrin tərbiyəsi və düzəlməsi işi üzrə ixtisaslaşan sahələrin ehtiyatla və kadrlarla lazımi qədər təchiz olunmaması;

Kriminoloqlar yetkinlik yaşına çatmayanların cinayətkarlığının səbəbləri arasında tərbiyə işində olan çatışmamazlıqların öyrənilməsinə xüsusi diqqət yetirirlər.

Ölkədə gedən iqtisadi islahatlarla əlaqədar son illər ərzində yeniyetmələrin qanunazidd davranışının yaranmasına təsir edən səbəblərin kompleksində xeyli dəyişikliklər baş vermişdir.

Bu islahatlarla yanaşı baş verən sosial və iqtisadi xarakterli neqativ proseslər əvvəllər uşaqların və yeniyetmələrin həyat və sağlamlığını məqsədyönlü və etibarlı müdafiə edən, onların intellektual və mənəvi inkişafını təmin edən ailə bir sosial institut kimi gözə çarpan dərəcədə zəifləmişdir.



downloaded from KitabYurdu.az

İslahatlar dövrü ərzində əhalinin bir hissəsinin həyat səviyyəsinin aşağı düşməsi yoxsulluq səviyyəsində olan ailələrin sayını xeyli artırmışdır. Belə ailələrdə hökm sürən mürəkkəb psixoloji vəziyyət bu ailələrin dağılmasına, uşaqların və yeniyetmələrin evdən didərgin düşməsinə səbəb olmuşdur.

Yetkinlik yaşına çatmayan uşaqlar olan ailələrdə boşanmaların sayı, nigahdan kənar doğulanların və bunların nəticəsi olan natamam ailələrin sayı artmaqdadır. Bu ailələrdə olan uşaqlar, bir qayda olaraq, mürəkkəb iqtisadi və psixoloji vəziyyətə düşüb, cinayət yolunu seçirlər.

Sosial yetimlik problemi də artır. Müxtəlif dövlət təşkilatlarında tərbiyə olnunan uşaqların çoxunun valideyinləri var. Lakin onların bir qismi uşaqları tərbiyə etməkdən boyun qaçırır, bəziləri valideynlik hüququndan məhrum olunmuşdur, digərləri isə cəza çəkmə yerlərindədirlər.

Son illər belə bir meyl müşahidə olunur ki, aztəminatlı və çoxuşaqlı ailələr uşaqların saxlanılmasına böyük xərclər tələb olunduğuna görə, onları uşaq evlərinə verirlər.

Yetkinlik yaşına çatmayanların vəziyyətini ölkədə qaçqınların və məcburi köçkünlərin sayının artması da xeyli çətinləşdirmişdir. Belə ailələrdən olan yeniyetmələr maddi və məişət çətinliklərini çəkməklə yanaşı, həm də onların davranışının xarakterinə təsir göstərən ağır mənəvi-psixoloji vəziyyətdədirlər.

Valideynlərin sosial pozğunluğu, əxlaqa zidd həyat tərzi, spirtli içkilərə qurşanması belə ailələrdə yaşayan uşaqların həyatı üçün böyük təhlükə yaradır. Hər il məhkəmələrə valideynlik hüququndan məhrumetmə barədə, qəyyumluq və himayəçilik orqanlarına onlarla iş göndərilir.

Uşaqlarla kobud davranma halları da artmaqdadır. Ailələrdə, həmçinin məktəbəqədər müəssisələrdə, təhsil müəssisələrində, uşaq evlərində və internatlarda nəzakətsiz tərbiyə üsullarının, insan ləyaqətinin alçalması, fiziki və psixi zor tətbiqetmə hallarının işlənməsi müşahidə olunur. Göstərilən müəssisələrin maliyyələşdirilməsi üçün büdcə vəsaitinin çatışmamazlığı, onların sayının azalmasına, bir qisminin kommersiya təşkilatlarına verilməsinə gətirib çıxarmışdır.

Son illər bir sıra klublarda, idman bölmələrində, sağlamlıq düşərgələrində və sanatoriyalarda pullu xidmətlərin göstərilməsi maddi imkanların olmamasına görə yeniyetmələri bu yerlərdən uzaqlaşdırmışdır. Nəticədə uşaqların və yeniyetmələrin asudə vaxtının keçməsi kriminal xarakter alır.

Yetkinlik yaşına çatmayanların münasibətlərini tənzimləyən qanunvericilikdə də boşluqlar çoxdur. Yetkinlik yaşına çatmayanlar üzrə komissiyalar və inspeksiyalar, qəbuledici və bölüşdürücü məntəqələr, xüsusi təhsil-tərbiyə müəssisələri barədə 60-80-ci illərdən qalan qanunvericilik aktlarının müasir dövrə uyğunlaşdırılması zəruridir.



downloaded from KitabYurdu.az

## Yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınması.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizənin tədbirlər sistemi vətəndaşların lazımi həyat səviyyəsinin, firavanlığının, mədəniyyətinin, tərbiyəsinin və təhsilinin təminatına qulluq edən ümumsosial xarakterli tədbirlərə əsaslanır.

Yetkinlik yaşına çatmayanların cinayətkarlıqla mübarizə tədbirləri cinayətkarlıqla mubarizənin ümumi sisteminin bir tərkib hissəsi olaraq, aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Yetkinlik yaşına çatmayanların hüquqpozmalarının və nəzarətsizliyinin qarşısının alınması, ailəyə və uşaqlara sosial, iqtisadi və digər zəruri olan köməyin göstərilməsi üzrə dövlət proqramlarında dövlətin ailə, gənclər və cinayət siyasətinə uyğun olaraq kompleks tədbirlərin həyata keçirilir;
2. Müstəqil qanunvericilik bazası var - yetkinlik yaşına çatmayanların tərbiyə, onlara optimal həyat şəraitinin yaradılması, hüquqlarının və maraqlarının müdafiəsi, neqativ təsirlərin qarşısının alınması, cinayətkarlıqla mübarizənin təşkili məsələlərini tənzimləyən, bir-biri ilə bağlı olan beynəlxalq, konstitusiya və digər hüquqi aktların kompleksi;
3. Dövlət təhsil, tərbiyə, müalicə, hüquq-mühafizə və digər orqanların və müəssisələrin ixtisaslaşdırılmış fəaliyyəti, ictimai birliklərin və dini təşkilatların fəaliyyəti ilə təmin olunur;
4. Zəruri informasiya- analitik bazaya əsaslanır və maddi-texniki sahədə büdcədən maliyyələşdirilir.

Yetkinlik yaşına çatmayanların cinayətkarlığı ilə mübarizə müxtəlif səviyyələrdə və istiqamətlərdə, müxtəlif kontingentli uşaqlara və yeniyetmələrə qarşı planlaşdırılır və aparılır. İstiqamətinin xarakterinə görə bu tədbirlər yeniyetmələrin hüquqazidd davranışının, cinayətkar hərəkətlərinin, residivinin ehtimalının qarşısının alınmasına yönəlməlidir. Bütün bunlar xüsusi vasitələrin və metodların tətbiqini, yəni yetkinlik yaşına çatmayanların ailə, məktəb, əmək tərbiyəsində olan nöqsanların aradan qaldırılması, onların asudə vaxtının təşkili üzrə məqsədyönlü işin aparılmasını, cinayətkarlıqla mübarizə aparan orqanların fəaliyyətinin səmərəliliyinin artırılmasını tələb edir.

Ailənin və uşaqların sosial müdafiəsi müasir dövrdə sosial siyasətin ən vacib istiqaməti kimi qarşıda durur. Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə bu sahə səhiyyə və təhsil kimi sahələrlə bir sırada durur, onun sosial işçilərə, psixoloqlara, hüquqşünaslara və s. peşəkar hazırlanmış kadrlarla təchiz edilmiş müəssisələrdən ibarət geniş yayılmış şəbəkəsi var.

Ailənin və uşaqların sosial müdafiəsinin əsas məqsədləri - insana həyati problemlərinin həlli üçün kömək göstərilməsi, qanunla nəzərdə tutulmuş vəsaitlərin verilməsindən tutmuş psixoloji, hüquqi, sosial-məişət xidmətlərin göstərilməsidir.



downloaded from KitabYurdu.az

Bizim ölkədə indiyə kimi sosial xidmətlərin göstərilməsi yalnız qoca adamlara, əlillərə və yetim uşaqlara nəzərdə tutulurdu və onların stasionar müəssisələrdə yerləşdirilməsindən ibarət idi. Son dövr ərzində bu vəziyyət dəyişilmişdir. Yeni yaranan sosial xidmətlər uşaq kimsəsizliyinnin probleminin həlli, yetkinlik yaşına çatmayanların hüquqpozmalarının profilaktikası, uşaqların və yeniyetmələrin hüquqlarının müdafiəsi ilə məşğuldurlar.

Bundan başqa göstərilən məqsədlərə çatmaq üçün adi məktəblərdə özünü apara bilməyən, təcavüzlüyə, tüfeyliliyə meyli olan, valideynləri ilə yola getməyən yeniyetmələr üçün də açıq tipli xüsusi təhsil-tərbiyə müəssisələri açılmalıdır. Bu işə ictimai və xeyriyyə cəmiyyətləri, əmək kollektivləri, sahibkarlar, dini müəssisələr cəlb olunmalıdır ki, belə müəssisələrin maddi, kadr və maliyyə imkanlarının genişləndirilməsi üçün şərait yaransın.

Ailə siyasətinin işlənib hazırlanması, bu sahədə yaranan problemlərin həlli ilə 1998-ci ildə yaranan Qadınların məsələləri üzrə komitə məşğuldur.

Qeyd olunanlarla yanaşı yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyaların, daxili işlər orqanları sistemində olan qəbuledici-bölüşdürücü məntəqələrin fəaliyyətində də müasir dövrə uyğun dəyişikliklər edilməlidir.

Bir sıra islahatlar cəza-icra sistemində də aparılmalıdır. Koloniyalarda cəzasını çəkən yeniyetmələrə uzunmüddətli görüşlər, islah-əmək müəssisəsindən kənara əmək məzuniyyəti, qohumlarla telefon danışıqları, ərazidən kənarda yaşamağa hüquqlar verilməlidir.

Yetkinlik yaşına çatmayanların residiv cinayətkarlığının qarşısının alınmasının mühüm istiqamətlərindən biri xüsusi təhsil-tərbiyə müəssisələrindən və tərbiyə-əmək koloniyalarından qayıdan yeniyetmələrin sosial adaptasiyasının təminatı məsələsidir. Bu problemin həlli həmişə böyük çətinliklərlə bağlı olub, çünki bu müəssisələrdən qayıdanların çoxu yetim və kimsəsizlərdir. Bunların mənzil və işlə təmin olunma məsələləri əksər hallarda həll olunmaz olur. Buna görə, əhalinin məşğulluğu xidmətləri bu şəxslərə köməklik göstərməyə çalışmalıdırlar.

Qanunvericilik sahəsində də mühüm tədbirlər görülməlidir. Yetkinlik yaşına çatmayanların hüquqpozmalarının və cinayətkarlığının, kimsəsizliyinin qarşısının alınması, onların hüquqlarının müdafiəsi funksiyasını həyata keçirən dövlət orqanlarının sistemində dəyişikliklər edilməli və icra hakimiyyətinin bütün səviyyələrində müvafiq strukturlar yaradılmalıdır.



downloaded from KitabYurdu.az

# On dördüncü fəsil.

# Qadınların cinayətkarlığı və onun qarşısının alınması.

**Qadınların cinayətkarlığının vəziyyəti, quruluşu və dinamikası. Qadınlar tərəfindən törədilən cinayətlərin səbəbləri. Qadınlar tərəfindən törədilən cinayətlərin qarşısının alınması.**

## Qadınların cinayətkarlığının vəziyyəti, quruluşu və dinamikası.

Qadınların cinayətkarlığının kriminoloji xarakterizəsi, onların həyat tərzinin, fəaliyyətinin, sosial mövqelərinin və rollarının spesifikası ilə bağlıdır.

Eyni zamanda bu cinayətkarlıq ümumiyyətlə, cinayətkarlığı və onun dəyişikliklərini əks edir, onun tərkib hissəsi kimi çıxış edir.

Qadınların cinayətkarlığının aşağıdakı spesifik xüsusiyyətləri var:

1. On illiklər boyu qadınların sosial vəziyyəti dəyişsə də, qadınların cinayətkarlığının səviyyəsi (qeydə alınmış cinayətlərin tam sayı) həmişə kişilərin cinayətkarlığının səviyyəsindən 4-5 dəfə aşağı olub. Həm də ona baxmayaraq ki, ölkədə qadınların sayı kişilərin sayından çoxdur.

Son illər ərzində ifşa edilmiş cinayətkarların sayında qadın cinayətkarların xüsusi çəkisi artmaqdadır. Məsələn, 1997-ci il ərzində məhkum edilmiş şəxslərin 965-i qadınlardır, bu isə 1996-cı ilə nisbətən 185 nəfər çoxdur.*

2. Qadın cinayətkarlığının dəyişikliklərinin xarakteri çox vaxt kişilərin cinayətkarlığının dəyişikliklərinin xarakterinə uyğun gəlmir. Məsələn, qadınların zorakılıqla bağlı cinayətkarlığı həmişə nisbətən aşağı templərlə artıb.

3. Qadınların cinayətkarlığında tamah məqsədli və zorakı cinayətlərin, habelə digər cinayətlərin nisbəti kişilərin cinayətkarlığında olan müvafiq nisbətlərdən fərqlənir. Praktiki olaraq bütün zorakı cinayətləri, vəzifə və təsərrüfat cinayətlərinin bəzi növlərini törətmiş şəxslər arasında qadınların payı kişilərin payından az olub və bu fərq uzun müddət ərzində davam edib.

Qadınların cinayətkarlığının quruluşu kişilərin cinayətkarlığını təkrar etmir, o spesifikdir və məhz qadınlara xas cinayət növləri ilə müəyyən edilir.

Qadınların cinayətkarlığının quruluşunda tamah məqsədli cinayətlər, onların arasında isə - peşə fəaliyyəti ilə bağlı olan cinayətlər üstünlük təşkil edir. Uzun müddət qadınlar arasında mənimsəmə, israfçılıq və vəzifədən sui-istifadə etmə yolu ilə dövlət və ictimai əmlakın talan edilməsi cinayətləri ən çox yayılmış idi. İndiki zamanda da dövlət sektorunun böyük ixtisarına baxmayaraq, bu cinayətlərin sayı azalmamışdır.

---

* AR Dövlət Statistika Komitəsi. 1997-ci ildə Azərbaycanda məhkumetmə haqqında (Ədliyyə Nazirliyinin məlumatlarına əsasən). B., 1998.



downloaded from KitabYurdu.az

1991-1998-ci illər ərzində hədə-qorxu ilə tələb etmə, alıcıların aldadılması, əmlakın qəsdən zədələnməsi və ya məhv edilməsi, dələduzluq, oğurluq etmiş qadınların sayı 2-2,5 dəfə artmışdır.

Qəsdən bədənə ağır xəsarət yetirən qadın- cinayətkarların sayının artımı ifşa olunmuş qadın-qatillərin sayının artımından iki dəfə artıq olmuşdur. Bu cinayətlər ailə-məişət münasibətlərlə bağlı törədilir və bunlarda əsasən qadın özü qurban olur. Qadın-cinayətkarların qurbanları əksər hallarda onların ərləri, birgə yaşadığı adamlar, uşaqları, yaxın qohumları olur. Motiv kimi isə ailə münaqişələri, ailədən yaxa qurtarma, bəzi hallarda isə tamah məqsədi kimi çıxış edir.

Son 8 il ərzində oğurluq törətmiş qadınların sayının artma tempi kişilərinkinə nisbətən iki dəfə çox olmuşdur.

Zorakılıqla bağlı cinayətlər uzun müddət qadınlara xas deyildi və yalnız ailə-məişət sahəsində törədilirdi. Lakin 1991-1997-ci illərdə belə cinayətləri törətmiş qadınların sayı artmışdır. Bundan əlavə yeni doğulmuş uşağını öldürən qadınların da sayı artmışdır.

Quldurluq və ya soyğunçuluğun törədilməsində ifşa olunmuş şəxslər arasında qadınların payı həmişəki kimi azdır.

1991-1997-ci illər ərzində qrup şəklində, o cümlədən mütəşəkkil qrupun tərkibində, cinayətlərin törədilməsində ifşa olunmuş qadınların sayı, qadın residivistlərin sayı da xeyli artmışdır.

Onu da qeyd etmək lazımdır ki, son illər cinayətlər sərxoşluq və ya narkotik maddələrin təsiri altında törədilir.

Bütün bunlarla yanaşı, çox vaxt qadınların özləri də cinayətin qurbanı olurlar. Zorakılıqla bağlı ağır cinayətlərin qrupunda bir tərkib var ki, o əksər hallarda qadınlara qarşı törədilir - bu zorlamadır.

Müxtəlif regionlarda qadınların cinayətkarlığının dəyişiklikləri eyni cür getmir. Lakin ümumi bir qanunauyğunluq mövcuddur: cinayətkarlığın ümumi əmsalı yüksək olduğu yerdə, qadınların cinayətkarlığının əmsalı da yüksək olur.

Respublikada özünüöldürmə dərəcəsinə çatdırma cinayətindən zərər çəkən adətən qadınlar olur. Xüsusən nigah münasibətinə girən qadınların ailədə uyuşmaması, onun qaynana ilə, baldızı ilə, ərlə yaranan ixtilafları, bəzən qadının ər tərəfindən döyülməsinə, təhqir edilməsinə gətirib çıxarır. Böhtana, alçaldıcı hərəkətlərə, zorakılığa məruz qalan, haqqını müdafiə etməkdə acizliyini, tənhalığını hiss edən, ruhunu sakitləşdirmək üçün "dayaq" tapmayan qadın bəzən haqlı olduğunu sübut etməyin yeganə rolunu özünü öldürməkdə görür.

Həm də özünüöldürmə dərəcəsinə çatdırılan, yaxud özünü öldürməyə sui-qəsd dərəcəsinə çatdırılan qadınlar bunu özünü yandırmaqla, suda qərq etməklə, müxtəlif zəhərləyici kimyəvi maddələri qəbul etməklə, özünü asmaqla və s. yollarla həyata keçirirlər.

Kənd rayonlarında yandırmaqla öz həyatına qəsdetmə hallarına nisbətən daha çox təsadüf edilir. Azərbaycanda od tarixən müqəddəs hesab edilir. Özünü yandırmaqla öldürmədə, müəyyən mənada zərərçəkən təqsirsizliyini rəmzi formada ifadə etmiş olur.*

* F.Y. Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. B., 1997, s. 116



downloaded from KitabYurdu.az

Qadın-cinayətkarların kriminoloji xarakterizəsi spesifikdir.

Bir qayda olaraq, kişi cinayətkarlara nisbətən qadın- cinayətkarların arasında yaşlı nəsildən olan şəxslər çoxdur.

Cinayət törədən qadınların arasında 35 yaşından yuxarı olanların böyük faizi onların cinayətkar fəaliyyətinin spesifikası ilə müəyyən edilir, çünki əksər hallarda bu peşə vəzifələrinin yerinə yetirilməsi, yaxud da ailə münaqişələri ilə bağlı olur.

Yetkinlik yaşına çatmayanların xüsusi çəkisi ifşa olunmuş qadın cinayətkarların arasında hələ ki, azdır. Lakin bu rəqəm də artmaqdadır, bu da qadınların sosial statusunun, onların peşə məşğulluğunun, ailədəki vəziyyətinin dəyişməsi ilə bağlıdır. Qadınların sosial vəziyyətinin dəyişməsinə qadınlar arasında işsizlərin və daimi yaşayış yeri olmayanların sayının artması da səbəb olur.

İfşa olunmuş cinayətkar qadınların arasında həmişə fəhlə qadınlar böyük yer tutub. Qadın-sahibkarların qadın cinayətkarların ümumi kontingenti arasında payı böyük deyil, lakin bu rəqəm də artır. Şagirdlərin və tələbələrin payı stabil olaraq qalır. Qadın-cinayətkarların arasında ali təhsilli olanların sayı xüsusilə artmaqdadır.



downloaded from KitabYurdu.az

## Qadınlar tərəfindən törədilən cinayətlərin səbəbləri.

Qadınların və kişilərin cinayətkarlığının fərqlərini müəyyən edərkən, bir qayda olaraq, sosial səbəbləri və bioloji xarakterli səbəbləri göstərirlər.

A.Ketle qadınların cinayətkarlığının göstəricilərinin aşağı olmasını təkcə onların fiziki zəifliyi ilə deyil, həm də ictimai həyatdan uzaq olmaları, ailə vəzifələrinin çərçivəsində hərəkət etmələri ilə başa salırdı.*

Lakin sonralar da qadınların ictimai həyata, peşə fəaliyyətinə daxil olmalarına baxmayaraq, ümumi cinayətkarlıqda qadınların cinayətkarlığının xüsusi çəkisi aşağı qalıb və kişilərin cinayətkarlığının xüsusi çəkisindən çox az olub.

Ç.Lombrozo bu təzahürü başqa cür başa salırdı. O qadınların cinayətkarlığının kişilərinki ilə müqayisədə aşağı intensivliyini qadın orqanizminin və xarakterinin xüsusiyyətləri, qadın təbiəti, onların "bioloji cəhətdən geridə qalmaları"ilə bağlayırdı.**

Lakin elmin sonrakı inkişafı göstərir ki, qadınların cinayətkarlığının səbəblərini sosial həyatın şəraitlərində formalaşan hallar təşkil edir.

Qadınların cinayətkarlığının həm kəmiyyət, həm də keyfiyyət tərəfinə təsir edən aşağıdakılar olur:

1. Qadınların və kişilərin fəaliyyətinin əsas funksiyalarının yerinə yetirilməsindəki olan fərqlərə görə onların tarix boyu qoyulmuş həyat şəraitləri fərqlənir.

2. Sosial həqiqətin eyni neqativ prosesləri qadınların və kişilərin davranışına müxtəlif təsir göstərir, onların düşüncəsi bu prosesləri eyni cür əks etmir və bu da fərqli olan kriminogen təsirə gətirib çıxarır.

3. Göstərilən fərqlər qadınların və kişilərin cinayətkar davranışının xüsusiyyətlərini formalaşdırır və müvafiq olaraq cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərinə təsir göstərir.

Beləliklə, Konstitusiya ilə müəyyən edilmiş bərabər hüquqların daşımasına baxmayaraq, qadınların və kişilərin müxtəlif sosial rollarının olması onların cinayətkarlığının fərqlənməsinə səbəb olur.

Qadınların cinayətkarlığının kriminoloji xarakterizəsində olan dəyişikliklər cəmiyyətdə gedən sosial, iqtisadi, mənəvi dəyişikliklərlə bağlıdır. Ölkədə gedən və bilavasitə ailəyə təsir göstərən dəyişiklikləri qadınlar daha ağır qəbul edirlər. Çünki onlar ailə və uşaqlara görə böyük məsuliyyət daşıyırlar.

Sosial-iqtisadi həyatın yeni şəraitində qadınların ağır vəziyyətə düşməsinə həm də bu səbəb olmuşdur ki, onlar əvvəllər qadın sahələri kimi hesab olunan toxuculuq, tikiş, ayaqqabı, çörəkbişirmə və s. sahələrdə çalışırdılar.

Bu aşağı əmək haqqı olan sahələrdir və qadınların maaşının kişilərin maaşına nisbəti 60-80% təşkil edirdi.

---

* A. Ketle. İnsan və onun qabiliyyətlərinin inkişafı. SPb, 1865, s. 7-8

** Ç.Lobrozo, L. Laski. Siyasi cinayətkarlıq və inqlab. SPb, 1906.



downloaded from KitabYurdu.az

İslahatlar dövrü əhalinin böyük hissəsinin real gəlirlərinin aşağı düşməsi prosesi gedir. Bu isə qadınların, ümumiyyətlə ailənin vəziyyətinə öz təsirini göstərir. Qadınların davranışına cəmiyyətin təbəqələşməsi də xüsusi neqativ təsir göstərir.

Həyatın aşağı maddi səviyyəsi, müxtəlif mədəni və əyləncə dəyərlərdən istifadə etməyə imkanların olmaması qadınları əlavə gəlir axtarmağa vadar edir. Bu isə fahişəliyin, kriminal əlaqələrin yaranmasına gətirib çıxarır.

Qadınların tamah məqsədli cinayətkarlığının artması bilavasitə onların maddi vəziyyətinin ağırlaşması ilə bağlıdır.

Ailə-məişət sahəsində cinayət törədilməsinə gətirib çıxaran ən geniş yayılmış səbəblərdən biri də sərxoşluqdur. 20-30 il əvvəlkindən fərqli olaraq 90-cı illərdə qadınlar tərəfindən alkoqollu spirtli içkilərin istifadə edilməsi müntəzəm hal almışdır.

Hazırki bazar münasibətlərində qadınlar əsasən ikinci rolları oynayır, ən ağır işləri görürlər. Onlar əksər hallarda bazarlarda muzdla işləyirlər. Bu şəraitdə onlar reketçilərin qurbanı olur, qanunsuz vergitutmaya məruz qalırlar. Buna görə qadınlar özgənin əmlakının mənimsənilməsi, oğurlanması, dələduzluq, hədə-qorxu ilə tələb etmə, aldatma və ya etimaddan sui-istifadə yolu ilə maddi zərərin vurulması kimi cinayətləri törədir və çox vaxt özlərinə bəraət qazanmağa çalışırlar. Sahibkarlıqla məşğul olan qadınların sayı isə kişilərə nisbətən 5-6 dəfə azdır.

Kriminoloqlar başqa bir xüsusiyyəti qeyd edirlər ki, qadınların cinayətkar fəaliyyəti çox vaxt onların yaxın ətrafından asılı olur. Məsələn, özünə yaxın kişini itirmək "qorxusu" qadını cinayət törətməyə, uşağını öldürməyə vadar edir.

Qadının doğduğu uşağı doğum vaxtı, yaxud da bilavasitə doğumdan sonra öldürməsi sosial-psixoloji səbəblərlə bağlı olur. Belə cinayətin subyekti olan qadınlar bir qayda olaraq nigahdan kənar faktiki münasibətdən hamilə olur. Bu fakt qadınları iki tərəfdən neqativ təsirə məruz qoyur. Bir tərəfdən nigahdan kənar uşaq doğan qadının hərəkəti əhatənin gözündə rüsvayçı hesab edilir və o, ictimai rəyin təsirinə məruz qalır. Digər tərəfdən qadının həyatına onun kişi qohumlarının qəsd etmək təhlükəsi yaranır.

Faktiki münasibətdən uşaq doğan qadının kişi qohumları da ictimai rəyin mühakiməedici təsirinə məruz qalır. Belə neqativ mənəvi-psixoloji iqlimin təzyiqi altında bəzən kişilər tərəfindən faktiki münasibətdən uşaq doğan qadınların həyatına qəsd edilir.

Beləliklə, respublikamızda nigahdan kənar, faktiki münasibətdən uşaq doğan ana adətən ictimai rəyin tənəsindən, habelə həyatının təhlükə altına alınmasından qorxaraq dünyaya gətirdiyi övladına əl qaldırır, onu qətlə yetirir. Qadının yeni doğduğu uşağını qətlə yetirməsi həm də bu qəbildən olan qadınların müəyyən qisminin aldığı psixi travma ilə, yaxud da onlarda yaranmış psixi pozuntu vəziyyətlərlə əlaqədar olur. Belə psixi travma, yaxud da psixi pozuntu vəziyyəti qadını anlaqsız etmir, lakin az anlaqlı vəziyyətə salır.*

Cəza çəkən qadınlar üçün ailə böyük qarşıalma amili olur. Lakin cəza çəkdikdən sonra kişilərin çoxunun ailəsi qaldığı halda, qadın-cinayətkarların ailələri dağılır, yeni ailənin qurulması isə az hallarda mümkün olur. Beləliklə, cəza çəkən qadınların psixiki stereotipləri, sosial münasibətləri kişilərinkindən fərqli olaraq tez dağılır. Buna görə, qadınların və uşaqların sosial müdafiəsi üçün penitensiar sistemdə demokratik islahatlar aparılmalıdır.

* F.Y. Səməndərov. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Tövsif məsələləri. B., 1997, s. 70



downloaded from KitabYurdu.az

## Qadınlar tərəfindən törədilən cinayətlərin qarşısının alınması.

Qadınların cinayətkarlığının qarşısının alınması ümumiyyətlə cinayətkarlığın qarşısının alınmasının tərkib hissəsi olaraq, eyni zamanda qadınların hüquqlarının müdafiəsinə yönəlmiş xüsusi tədbirlər kompleksinin həyata keçirilməsini nəzərdə tutur.

Qadınların vəziyyətinə dair IV Beynəlxalq Konfransda (1995-ci ildə Pekində keçirilmişdir) belə strateji məqsəd qoyulmuşdur ki, "qadınların iqtisadi imkanlarının həvəsləndirilməsi, onların istehsal resurslarına bərabər buraxılmasını və xüsusi təhsil və tibbi təlabatlarının təmin edilməsi məqsədilə dövlət təxsisatları məqsədyönlü bölüşdürülməlidir."

Cinayətkarlıqla mübarizə üzrə dövlət proqamlarında böyük profilaktik əhəmiyyət kəsb edən, qadınların normal fəaliyyətini, ailənin müdafiəsini təmin edən həm ümumi, həm də xüsusi xarakterli tədbirlər nəzərdə tutulmalıdır.

Son vaxtlar daimi yaşayış yeri olmayan cinayətkar-qadınların sayı artmışdır. Mənzil qanunvericiliyinin çatışmazlıqları, özəlləşdirilmiş mənzilə azad sərəncam hüququ verən bəzi normalarda olan ziddiyyətlər, bu mənzillərin istifadəsinə ictimaiyyətin və dövlət strukturlarının nəzarətinin zəiflənməsi bir çox qadınların və onların ailələrinin evsiz qalmalarına səbəb olur.

Qadınlar tərəfindən törədilən cinayətlərin xasiyyəti, habelə qadın-cinayətkarlarla aparılan sorğular belə bir nəticə çıxarmağa əsas verir ki, əgər profilaktik iş ailə-məişət münasibətləri zəminində, əmək münasibətlərində münaqişə vəziyyətinin yarandığı momentində aparılsaydı, bir çox cinayətlər bəlkə də törədilməzdi. Bu həm də ictimaiyyətin, əmək kollektivinin işçilər arasında olan münasibətlərə nəzarətinin zəifləməsi ilə bağlıdır.

Hal-hazırda müxtəlif əsaslarla (eyni peşə sahiblərinin, qadınlarla və uşaqlarla iş üzrə, ailənin müdafiəsi üçün və s.) yaranan qadın təşkilatları qadınların müasir şəraitə uyğunlaşmasını asanlaşdırmaq məqsədilə kompleks tədbirlər işləyib hazırlayır və həyata keçirirlər.

Müasir dövrdə kadrların hazırlanması və ixtisasının artırılması sistemi də mühüm profilaktiki əhəmiyyət kəsb edir. Bu işə müxtəlif kontingentli qadınlar cəlb edilməlidir - əxlaqsız həyat tərzi sürən, cəza çəkmə yerlərində olanlar və s. Onları işlə təmin etmək üçün dövlət büdcəsində əhalinin məşğulluğu fondundan kiçik sahibkarlıq sahəsində yeni işçi yerlərinin yaradılması üçün vəsaitin ayrılması nəzərdə tutulmalıdır.

Qadınların cinayətkarlığının qarşısının alınması və aradan qaldırılması üzrə tədbirləri aşağıdakı qruplara bölmək olar:

1. Uzunmüddətli tədbirlər - qadınların həyat fəaliyyətinin bütün sahələrinin yaxşılaşdırılmasına və cəmiyyətdə olan mənəvi hal-əhvalın təkmilləşdirilməsinə yönələn milli proqramların hazırlanması. Burada cəmiyyətdə qanunçuluğun gücləndirilməsinə yönələn tədbirlər sisteminin, mövcud olan tədbirlərin qiymətləndirilməsi və onların üzərinə qoyulan nəzarət sisteminin, qadınların istehsalatda, ailədə hüquqlarının müdafiəsi sisteminin işlənilməsinə xüsusi diqqət yetirilməlidir.



downloaded from KitabYurdu.az

2. Qadınların davranışının formalaşmasının xüsusiyyətləri nəzərə alınmaqla tərbiyəvi tədbirlər sisteminin hazırlanması.

3. Qadınları cinayət törətməyə vadar edən amillərin aşkar edilməsi üçün onların istehsalatda, ailədə, məişətdə olan vəziyyətinin analizi.

4. Qadınlar tərəfindən ailə rollarının yerinə yetirilməsi üzərində sosial nəzarətin gücləndirilməsi.

5. Qadınlar tərəfindən törədilən konkret cinayətlərin qarşısının alınmasına yönələn tədbirlər. Burada qarşıdurma tədbirlərinin ümumi metodikası istifadə olunur.

6. Cinayətlərin törədilməsinə gətirib çıxaran müxtəlif hüquqpozmaların qarşısının alınmasına yönələn tədbirlər (məsələn, sərxoşluğa, narkotik maddələrə qurşanmasına qarşı).

7. Cəmiyyətəzidd həyat tərzi sürən qadınlara kömək göstərmək və onları bu yoldan çəkindirmək.

8. İslah-əmək müəssisələrində cəza çəkən qadınlara kömək göstərilməsi.

9. Cəzasını çəkib azadlığa çıxmış qadınlara həyata uyğunlaşmaq üçün kömək göstərilməsi.*

---

* A.İ. Dolqova. Kriminologiya. M., 1997, s. 686



downloaded from KitabYurdu.az

# On beşinci fəsil.

## Hərbi qulluqçuların cinayətləri və onların qarşısının alınması.

**Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlığın vəziyyəti. Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin səbəbləri. Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin qarşısının alınmasının əsas istiqamətləri.**

### Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlığın vəziyyəti.

Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlıq siyasətçilərin, hərbçilərin və geniş ictimaiyyətin diqqət mərkəzində olmalıdır - cinayətkarlıq nə qədər yüksəkdirsə, o qədər də xarici, siyasi və daxili problemlərin həlli üçün ordudan alət kimi istifadə olunma imkanları azalır.

Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlığa hərbi xidmətdə olanlar tərəfindən törədilən aşağıdakı cinayətlər daxildir:

1. Ümumi cinayətlər, yəni onların törədilməsində cinayət hüququ xüsusi subyekti - hərbçini müəyyən etmir və buna görə bu cinayətlər həm mülki şəxslər, həm də hərbçilər tərəfindən törədilə bilər;
2. Hərbi cinayətlər - xüsusi subyekti hərbçi olan cinayətlərdir. Burada obyekt də xüsusidir - hərbi qayda-qanun.

Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərə hərbi nizam-intizama qarşı, hərbi xidmətin keçmə qaydasına qarşı, hərbi texnikanın istismarı qaydasına, döyüş növbətçiliyinin aparılmasına, patrul, sərhəd və digər xüsusi xidmətlərin aparılmasına qarşı törədilən cinayətlər, habelə hərbi vəzifə cinayətləri aiddir.

Hüquq ədəbiyyatında zabitlər heyətindən olan şəxslərə və müddətdən artıq qulluqda olan hərbi qulluqçulara münasibətdə özbaşına getmə dedikdə, hərbi hissənin, müəssisənin və idarənin yerləşdiyi yaşayış məntəqəsini özbaşına buraxıb getmə, qulluq yerinə gəlməmədikdə isə, məzuniyyətdən, ezamiyyətdən və ya müalicə müəssisəsindən həmin yaşayış məntəqəsinə gəlməmə başa düşülür. Müddətdən artıq hərbi qulluqda olan sıravi və serjant heyətinə gəldikdə isə rəisin icazəsi olmadan hərbi hissənin yerləşdiyi ərazini bu şəxslərin özbaşına buraxıb getməsi özbaşına buraxıb getmə, vaxtında hərbi hissəyə gəlməməsi isə gəlməmək hesab olunurdu.

Məlumdur ki, hərbi hissə anlayışı onun yerləşmə ərazisi baxımından hissənin yaşayış məntəqəsində yerləşməsi anlayışı ilə üst-üstə düşmür. Hərbi hissə bir qayda olaraq, müəyyən ərazidə yerləşir və sərhədləri səlahiyyətli rəis tərəfindən müəyyən edilir. Həmin ərazidə hissənin bütün şəxsi heyətinin gündəlik hərbi qulluğu təşkil edilir. Hərbi hissə yaşayış məntəqəsinin ərazisində, həm də bu ərazidən kənarda yerləşə bilər. Hərbi hissənin ərazisi hasara alınır, orada nəzarət buraxılış postu yaradılır, kənar şəxslərin həmin əraziyə daxil olması qadağan olunur. Böyük yaşayış məntəqələrində bir neçə hərbi hissə də



downloaded from KitabYurdu.az

yerləşdirilə bilər. Ayrı-ayrı hallarda isə bir yaşayış məntəqəsində yerləşdirilən hərbi hissələrin sayı onlarca ola bilər. Bu zaman hərbi hissələrdən hər biri müstəqil birləşmədən ibarət olur və öz şəxsi heyətinin qulluq etdiyi əraziyə malik olur.

Hərbi hissəni özbaşına buraxıb getmə hərbi qulluqdan boyun qaçırmanın, hərbi xidmətkeçmə qaydaları əleyhinə olan cinayətlərin bir növüdür. Hərbi hissənin yerləşdiyi ərazini özbaşına buraxıb gedən hərbi qulluqçu hərbi qulluqdan boyun qaçırır, xidmətçəkmə qaydalarını pozur.

Qarnizon, yaşayış məntəqəsində və ya ondan kənarda daimi yaxud müvəqqəti yerləşmiş hərbi hissədən və ya müəssisədən ibarətdir. Hərbi hissəni və ya qulluq yerini özbaşına buraxıb getmə yolu ilə hərbi qulluqdan boyun qaçırma həm qarnizonun ərazisində, həm də onun ərazisindən kənarda törədilə bilər.

Döyüş şəraitində hissəni və ya qulluq yerini, hətta ən qısa müddətə özbaşına buraxıb getmə, silahların və hərbi texnikanın kollektiv səylə hərəkətə gətirilməsi şəraitində bölmənin və ya hissənin döyüş qabiliyyəti üçün ağır nəticələrə səbəb ola bilər. Döyüş şəraitində hərbi hissəni və ya qulluq yerini, hətta, bir nəfər hərbi qulluqçunun özbaşına buraxıb getməsi bölmənin yaxud hissənin qarşısında duran döyüş tapşırıqlarının yerinə yetirilməsi gedişinə mənfi təsir göstərə bilər.

Döyüş şəraiti dedikdə, döyüş əməliyyatlarına, düşmən qüvvələrinin və hərəkətlərinin xarakterinə, öz qoşununa, bilavasitə qonşuların qoşununun heyətinə təsir göstərən amil və şərtlərin məcmusu, hava şəraiti, yer və s. başa düşülür.

Döyüş şəraiti hərbi hissənin və ya bölmənin düşmənlə bilavasitə qarşı-qarşıya durması vəziyyətidir. Hərbi hissə (bölmə), məsələn, düşmənin hava hücumlarını dəf, kütləvi qırğın silahlarının nəticələrini ləğv etmək və s. üçün döyüş vəzifəsini yerinə yetirdiyi vaxtda arxada olduqda da döyüş şəraitində olur. Döyüş şəraiti, məsələn, müəyyən dövlətin silahlı dəstələrinin bu və ya digər məqsədlərlə dövlətin ərazisinə müdaxiləsi zamanı lokal silahlı münaqişələrlə, onun hava və dəniz hüdudlarının toxunulmazlığının pozulması ilə əlaqədar olan vaxtlarda dinc dövrdə də mövcud ola bilər.

Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "döyüş şəraitində" anlayışının təfsiri haqqında" özünün 4 noyabr 1992-ci il tarixli qərarında göstərir: "döyüş şəraitində" olma dedikdə, öndə və ya arxada olmasından asılı olmayaraq bilavasitə düşmənə (rəqibə) qarşıduran hərbi hissələrin və ya bölmələrin, habelə arxada olsa da döyüş tapşırığını yerinə yetirən hərbi hissələrin və ya bölmələrin vəziyyəti başa düşülür."

Öz xarakterinə görə, intizam batalyonlarına göndərməklə məhkum edilmiş hərbi qulluqçunun haupvaxtdan qaçması da qaçış hesab olunur. İntizam batalyonu hərbi hissədir, hərbi nizamnamələr ona da şamil edilir. İntizam batalyonuna göndərilməklə məhkum olunmuş şəxs hərbi qulluqçu və hərbi-xidmət münasibətlərinin subyekti olaraq qalır. Haupvaxtdan qaçan bu şəxs, hər şeydən əvvəl, hərbi qulluq çəkmənin müəyyən edilmiş qaydalarına qəsd edir.



downloaded from KitabYurdu.az

Dünyanın bütün ordularında cinayətkarlığın bu növlərinin hərbi cinayətkarlığın tərkibində payları təxminən bərabərdir.

Sosial şəraitdən asılı olaraq onların konkret nisbəti dəyişə bilər. V.V.Luneyev motivləşmə xarakterinə görə burada 6 qrup cinayətləri seçir:

1. Siyasi motivləşməyə görə - vətənə xəyanət, casusluq və s.;
2. Zorakı xarakterli - öldürmə, qəsdən bədənə xəsarət yetirmə, zorlama;
3. Tamah xarakterli - oğurluq, soyğunçuluq, rüşvətxorluq, vəzifədən sui-istifadə;
4. Anarxist motivləşmə - özbaşına hərbi hissəni tərk etmə, xuliqanlıq;
5. Ehtiyatsız - yüngüllük motivləşməsi - sürücülük qaydalarının pozulması, silahla davranma qaydalarını pozma;
6. Qorxaqlıq motivləşməsi - fərarilik, özünə bədən xəsarəti yetirmə, vətənə xəyanət və s.

Hərbi qulluqçular tərəfindən törədilən cinayətkarlığın strukturunda cinayətkarların hərbi rütbəsinə görə belə qruplar seçilir: zabitlərin, gizirlərin, serjantların cinayətkarlığı, sıravilərin cinayətkarlığı.

Ordu hissələrinin mənsubiyyətinə görə: Müdafiə Nazirliyinin hissələrində cinayətkarlıq; Daxili İşlər Nazirliyinin daxili qoşun hissələrində, MTN-nin sərhəd qoşunlarında cinayətkarlıq və s. Müdafiə Nazirliyində hərbi cinayətkarlıq Silahlı Qüvvələrin növünə görə - qurudakı hissələrin, hərbi-dəniz donanması hissələrinin və qoşun növlərinə görə - hərbi-desant qoşunlarının, tikinti qoşunlarının cinayətkarlığı kimi təhlil edilir.

Zabitlər tərəfindən ən çox səlahiyyətini aşma, vəzifədən sui-istifadə, rüşvətxorluq, silah və sursatın oğurlanması kimi cinayətlər törədilir.

Son illər hərbçilər tərəfindən törədilən cinayətlərdən qəsdən öldürmələrin, silah və sursatın oğurlanmasının, rüşvətxorluğun, dələduzluğun sayı artmışdır. Ən geniş yayılmış cinayət növü isə - hərbi xidmətdən boyun qaçırmadır.

Hərbi vəzifəli şəxslər tərəfindən rüşvətlər əsasən hərbi xidmətdən azad olunmaq, çağırışdan möhlət almaq üçün, köhnəlmiş hərbi texnikanın satışına görə alınır. Poqon gəzdirən cinayətkarların kontingenti də dəyişilmişdir: zabitlərin, o cümlədən baş zabitlərin (hissə komandirləri, onların müavinləri, qərargah zabitləri) xüsusi çəkisi xeyli artmışdır.

80-cı illərin əvvəllərində “andropov təmizləməsi” deyilən dövrdə həyatın müxtəlif sahələrində cinayətlərin aşkar olunması və qeydiyyatı prosesi fəal gedirdi. Statistika real sosial vəziyyəti əks etdirdi. Bu illər hərbçilərin cinayətlərinin 35% zorakı xarakterli “kazarma xuliqanlığı” adlandırılan cinayətlər (hərbçilər arasında nizam-intizam qaydalarının pozulması nəticəsində baş verən) təşkil edirdi.

Hərbi cinayətkarlığın indiki strukturunda 50% hərbi xidmətdən boyun qaçırma, 1,2% xüsusilə külli miqdarda törədilən oğurluqlar, 0,8% öldürmələr təşkil edir. Lakin bu struktur da dəyişməkdədir.

Bir həqiqət həmişə özünü doğruldur: əgər bir hərbi hissənin cinayətkarlıq strukturunda hərbi xidmətdən boyun qaçırmalar (özbaşına hərbi hissəni tərk etmə, fərarilik, özünə xəsarət yetirmə) üstünlük təşkil edirsə, hərbçilər arasında nizam-intizam qaydalarının pozulması və yaxud hərbi vəzifə cinayətləri qeydə



downloaded from KitabYurdu.az

alınmamışsa, onda bu hissədə əlverişsiz vəziyyətin olmasının əlamətidir. Yaxşı həyatdan heç bir əsgər qaçmaz. Əgər qaçmaların səbəbləri (çox vaxt bu tabeçilikdə olanlar barədə qayğının olmaması, döymələrlə bağlı olur) komandanlıq tərəfindən lazımi qiymət almır, onda hissədə köklü yoxlama aparılmalıdır.*

Hərbi kriminalın xarakterizəsinin xüsusi aspekti - hərbi mühitə mütəşəkkil cinayətkarlığın girişməsinin təhlilidir.

Kriminoloji analiz Silahlı Qüvvələrin və mütəşəkkil cinayətkarlığın aşağıdakı toqquşma yerlərini göstərir. Mütəşəkkil cinayətkarlığın maraq sahəsinə ilk növbədə silah və hərbi kadrlar düşür - hərbi anbarlardan odlu döyüş vasitələri yavaş-yavaş cinayətkarların əlinə keçir; cinayətkar qruplaşmalar hərbi cəhətdən ən yaxşı hazırlıq almış hərbçiləri öz toruna salırlar.

Cinayətkar dairələrin kütləvi qırğın silahına, radiaktiv və digər materiallara olan maraqları ictimai təhlükəsizlik üçün ciddi qorxu kəsb edir və xüsusi həyəcan doğurur.

Hərbi nəqliyyatın (əsasən hərbi aviasiya), hərbi daşınan və daşınmaz əmlakın, hərbi texnikanın ən yaxşı növləri ilə beynəlxalq ticarət də kriminal sahibkarlar üçün maraq kəsb edir.

Bütün dünyada mütəşəkkil cinayətkarların nəzarətə götürməyə cəhd göstərdikləri obyekt - dövlət sərhədidir. Sərhəddən narkotiklərin, silahın və digər malların qanunsuz keçirilməsinin təmin edilməsi üçün cinayətkar strukturlar bütün vasitələrdən istifadə edir: vəzifəli şəxsləri ələ almaqdan kütləvi iğtişaşlar və hərbi münaqişələrə kimi.

---

* A.İ. Dolqova. Kriminologiya. M., 1997, s. 577



downloaded from KitabYurdu.az

## Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin səbəbləri.

Hərbi qulluq qaydaları əleyhinə cinayətlər haqqında normalar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin hərbi cinayətlərə həsr edilmiş 11-ci fəsildə (240-244-cü maddələr) nəzərdə tutulur. Qoşun hissələrində ayrı-ayrı hərbi qulluqçular tərəfindən hərbi qulluqdan yayınma hallarına hələ də təsadüf edilir. Xüsusilə qulluq yerini və ya hərbi hissəni özbaşına qoyub getmə əməllərinə tez-tez təsadüf edilir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu özünün "Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarında həqiqi hərbi qulluğa növbəti çağırışdan, səfərbərlikdən boyun qaçırma, hərbi hissəni və ya qulluq yerini özbaşına buraxıb getmə və fərarilik haqqında" 20 may 1994-cü il tarixli 1 №li qərarında aşağıdakıları göstərmişdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil dövlətin mühüm atributlarından biri, onun ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən müdafiəsinin qarantıdır.

Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq müdafiə, hərbi quruculuq, Silahlı Qüvvələrin komplektləşdirilməsi məsələlərini tənzim edən qanunlar qəbul edilmiş, hərbi vəzifələrin əsasları, gənclərin hərbi qulluğa hazırlığı qaydası, hərbi xidmətə çağırışın və qəbulun, hərbi uçotun, hərbi qulluq çəkmənin, Silahlı Qüvvələrin döyüş hazırlığı və səfərbərlik qaydaları müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, "Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Vətəndaşlar qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçir. Silahlı Qüvvələrdə qulluq hər bir vətəndaşın şərəfli vəzifəsidir".

Lakin Silahlı Qüvvələr quruculuğu dövründə həqiqi hərbi qulluğa növbəti çağırışdan, səfərbərlik üzrə çağırışdan boyun qaçırmağa, fərariliyə, döyüş şəraitində hissəni özbaşına buraxıb getməyə və s. görə məhkum olunanların sayının artması narahatlıq doğurmaya bilməz.

Qanunun cəzanın fərdiləşdirilməsi haqqında tələblərinə məhkəmələr tərəfindən heç də həmişə əməl edilmir. Belə ki, cəzalar törədilmiş cinayətin bütün halları, cinayətkarın şəxsiyyəti nəzərə alınmadan təyin edilir ki, bu da öz növbəsində şərti cəzaların əsassız surətdə tətbiqinə, hökmlərin icrasının təxirə salınmasına gətirib çıxarır və bununla da cinayətin həmin növləri ilə mübarizənin zəifləməsinə şərait yaradır.

Cinayətin səbəb və şəraitinin natamam aşkar edilməsi isə bir qayda olaraq, onların daha da çox törədilməsinə şərait yaradır.*

Hərbi cinayətkarlığın səbəblərinin xarakterinə görə (həm forma üzrə, həm də məzmunca) bir sıra xüsusiyyətləri var. Formal tərəfə kriminogenliyin iki mənbəyi aiddir: biri - Silahlı Qüvvələrin daxilində olan, ikincisi - onun xaricində olan.

---

* N. İbrahimov. Hərbi qulluq qaydaları əleyhinə olan cinayətlərin bəzi növlərinin tövsifi. Qanunçuluq. 1998, № 9,10



downloaded from KitabYurdu.az

Hərbi təcrübə həmişə artıq gərginlik və ekstremal şəraitlə bağlıdır. Bundan əlavə, burada yüksək tələbkarlıq və əmrlərin icra olunmamasına görə məsuliyyət mövcuddur. Mülki adam üçün adi hərəkət (işdən çıxıb getmək, rəisin göstərişini yerinə yetirməmək) hərbçi üçün cinayət sayıla bilər. Hərbi kollektiv əsasən cavan kişilərin ən fəal kontingentindən ibarətdir. Hərbi məişətin xüsusiyyətlərinə görə onlar daim birgə olmağa məcburdurlar, bu isə şəxsi münaqişələrin ehtimalını qat-qat artırır, kriminogen gərginlik böyüyür və müəyyən şəraitdə bir sıra cinayətlərin törədilməsinə səbəb olur.

Silahlı Qüvvələri yaradanda və onların inkişafını təmin edəndə, dövlət xadimləri bu ordudaxili kriminoloji cəhətdən vacib olan vəziyyətin neytrallaşdırılması və ya təcrid edilməsi üçün tədbirlər görməlidirlər.

Kriminogenliyin ikinci qütbü olan cəmiyyət-hərbi cinayətkarlığı aşağıdakı hallar nəticəsində yaradır:

1. Neqativ sosial şəraitlər gəncləri pozur və kriminallaşdırır, onlar isə neqativ təcrübəni ordu mühitinə gətirir;
2. Silahlı Qüvvələrin lazımi qədər dövlət tərəfindən təmin edilməməsi (ideoloji, maddi, kadr, informasiya cəhətdən) hərbi mexanizmə dağıdıcı təsir göstərir.

Hərbi cinayətkarlığın səbəbli əlaqədən asılılığı aşağıdakılardan görünür:

1. Subyektiv, o cümlədən ideoloji amillərin vacibliyi. Hərbi xidmət böyük gərginlik, hərdən isə həyat və sağlamlıq üçün risk ilə bağlıdır. Bu şəraitdə maddi stimullar və ya yaxud cəza hədə-qorxusu çox vaxt səmərəli olmur (əsgərlər ölməkdən və ya döyülməkdənsə həbsxanaya düşməyi üstün tuturlar).

2. Ordudaxili vəziyyətin dövlət təminatından kəskin asılılığı (dolanmaq üçün lazımi vasitələri axtararkən hərbçilərin bütün təşəbbüsləri kriminogen xarakter daşıyır).

3. Həm xarici, həm də ordudaxili ictimai təhlükəli əməllərin mənbələrinin bir neçə əsrlik hərbi təcrübə nəticəsində işlənilmiş, təcridetmə mexanizminin olması (onların köməyi ilə dünyanın bir çox ordularında cinayətkarlığın aşağı səviyyəsi saxlanılır). Bu mexanizmin istifadə olunmaması kriminogen amil kimi izah edilir.

Cinayətkar-hərbçilərin aşağıdakı xüsusiyyətləri özünə diqqəti cəlb edir:
kişi cinsi (ordu mühitində çoxluq təşkil edən);
həqiqi hərbi xidmət hərbçilərinin cavan yaş həddi;
onların çoxunun aşağı təhsil səviyyəsi;
çoxunun yarımçıq və ya uğursuz ailələrdən çıxması;
çoxunda öz ailəsinin olmaması;
ehtiyata buraxıldıqdan sonra qayıda biləcək işi və ya başqa məşğuliyyət növünün olmaması.

Hərbçilərin spesifik və vacib sosial-demoqrafik xarakterizəsinə hərbi rütbə aiddir. Qoşunlarda cinayətkarların çoxunu (80%) sıravilər təşkil edir.

Xidmətin müddətinə peşəkar staj kimi baxmaq olar. Zorakılıqla bağlı cinayətlərin çoxu cinayətkarın və zərərçəkənin xidmət müddətlərində olan fərqlə bağlı olur.



downloaded from KitabYurdu.az

Hərbçilərin milli mənsubiyyətinə görə qarışıqlığı da az kriminoloji əhəmiyyət kəsb etmir. Vətəndaş cəmiyyətində orduya gətirilən milli ziddiyyətlər zorakılıqla bağlı cinayətlərin faktoru olur.

Hərdən hərbçilərdə cinayətkar davranışın çox spesifik motivləri olur:

1) qanunu pozmaqla komandanlığa pislik etmək niyyəti (o hesabla ki, cinayət, məsələn, oğurluq və ya hərbi texnikanın zədələnməsi-açılacaq, cinayətkar isə ifşa olunmayacaq);

2) azadlıqdan məhrum olunmaq, lakin nizam-intizam batalyonuna göndərilməmək məqsədi. Qanuna görə nizam-intizam batalyonuna göndərilmək daha yüngül cəzadır, lakin ordu mühitində bu əksinədir.

Hərbi cinayətkarlığı yaradan səbəbli əlaqələrin aşağıdakı halları seçilir:

ideoloji;

iqtisadi;

cəmiyyətin yetişən nəslinin təhsil və tərbiyəsinin çatışmazlıqları ilə bağlı olan;

Silahlı Qüvvələr üçün ayrılan xərclərin bilavasitə qanunsuz və ya təyinatı üzrə istifadə olunmaması ilə bağlı olan təşkilati-idarəetmə səbəbləri;

hərbi kadrların seçilməsinin və hazırlığının çatışmazlıqları, onların statusunun hüquqi tənzimlənməsinin nöqsanları;

hüquq-mühafizə, məhkəmə və penitensiar sistemin fəaliyyətinin çatışmazlıqları;

Silahlı Qüvvələrdə cinayətkarlıqla mübarizənin informasiya və elmi cəhətdən təminatının çatışmazlıqları.

1) İdeoloji qeyri-müəyyənlik həm orduda qulluq edən cavanlara, həm də çağırışçılara pozucu təsir göstərir. Silahlı Qüvvələr hansı idealları qorumağa borcludurlar? Mətbuatda ordu, onun baş zabitləri barədə gedən təhqiredici yazılar cavanlarda öz ideallarına şübhə yaradır, onları hərbi qulluqdan yayındırır. Şübhəli ideallara görə heç kim həyatından keçmək, çətinliklərə dözmək istəmir. Buna görə kütləvi informasiya vasitələri ilə ideoloji vətənpərvərlik işini aparıb cavanlarda ruh düşgünlüyünü aradan qaldırmaq, onları vətəni müdafiə etmək üçün müqəddəs borcunu yerinə yetirməyə səsləmək lazımdır.

2) Ordu lazımi qədər müasir silah və hərbi texnika ilə təchiz olunmur, hərbi hazırlıq optimal dərəcədə maliyyələşdirilmir, hərbçilərin məvacibləri onların tələbatını tam təmin etmir.

Bütün bunlar zabitlərin öz xidməti vəzifələrinə qarşı olan münasibətlərinə təsir göstərir. Cavan, enerjili və fəaliyyət qabiliyyətli zabitlər qoşunlardan tərxis olunurlar, kriminal strukturlara keçirlər və yaxud vəzifədə işləyərkən öz səlahiyyətlərindən istifadə edərək onlara lazımi ödənişli xidmətlər göstərirlər.

Əsgərlərə lazımi qədər maddi təminat normalarının verilməməsi onların arasında ərzaq və yaxud yeni geyim forması üstündə münaqişələr yaradır, bu isə nizamnamə qaydalarının pozulmasına gətirib çıxarır.

Hərbçilərin lazımi qədər maddi cəhətdən təmin edilməməsi silahın, döyüş sursatının, hərbi əmlakın oğurlanmasına və talan edilməsinə də şərait yaradır.

3) Yetişən nəslin - gələcək çağırışçıların tərbiyəsi - dövlətin fəaliyyətində xüsusi yer tutmalıdır.



downloaded from KitabYurdu.az

Lakin az maaş alan müəllimlər işə çıxmır, öz vəzifələrinə laqeyd yanaşır, uşaqlar isə ticarətə qoşulub dərsə gəlmir. Bu şəraitdə formalaşan mənəvi keyfiyyətlər hərbi xidmətin tələblərinə və vətənin müdafiəçisi sosial roluna uyğun gəlmir.

4) Ordu üçün ayrılan vəsaitin təyinatı üzrə istifadə olunmaması, talan edilməsi cinayətlərinin aşkar edilməsi üçün güclü nəzarət mexanizmi işlənilməlidir. Dünyanın bir çox ordularında olduğu kimi bizdə də bu funksiyaları hərbi polis və hərbi əks-kəşfiyyat yerinə yetirməlidirlər. Lakin hazırki vəziyyətdə nəzarət funksiyalarını çox vaxt peşəkar hazırlığı olmayan ordu zabitləri aparırlar. Onların xidməti asılılığı gizli cinayətlərin aşkara çıxarılmasına mane olur. Hərbi cinayətkarlıqla mübarizəni hərbi prokurorluq da daha sayıq olmalıdır.

5) Zabit və serjant heyətinin səriştəliyi və hərbi yararlığı kriminoloji əhəmiyyət kəsb edir.

Hərbi kollektivdə bir çox cinayətləri aşağıdakı tədbirlərin köməyi ilə aradan qaldırmaq olar:

obyektlərin mühafizəsinin düzgün təşkil olunması; cinayətlərin törədilməsinin ən çox ehtimalı olan yerlərdə patrulun qoyulması; xüsusi növbətçi xidmətlərin təşkili və onların qarşısında cinayətlərin açılması və aradan qaldırılması məqsədinin qoyulması; kriminoloji proqnoz və hüquq pozuntularının qarşısının alınması üçün tərbiyəvi tədbirlərin görülməsi; kollektivin möhkəmləndirilməsi.

Lakin çox vaxt bu tədbirlər görülmür. Buna görə zabitləri qınamaq olmaz axı onlara nə hərbi məktəblərdə, nə də akademiyalarda kriminologiyanı tədris etmirlər.

Xidməti vəzifələrinin normal icrası üçün hər bir mütəxəssis peşəkar hazırlıqla yanaşı öz hüquq və vəzifələrini yaxşı bilməlidir. Komandir hərbi hissədə neqativ faktların aşkar olunmasında maraqlı olmalı və əmin olmalıdır ki, bütün hallarda onu avtomatik günahkar bilib ilk növbədə məsuliyyətə cəlb etməyəcəklər. Komandirlərin vəzifələri nizamnamələrdə dəqiq müəyyən edilir. Nizamnaməyə görə isə komandir hər bir halda tabeliyində olanın əməlinə görə cavabdehdir, çünki o tabeliyində olanın keyfiyyətlərini öyrənməyə borcludur və onu lazımi səviyyədə tərbiyə etməli, cinayətin qarşısının alınması üçün əvvəlcədən tədbirlər görməli idi. Bu normalar təcrübədə mənfi nəticəyə gətirib çıxarır: neqativ hallar gizlədilir, yuxarıda duran rəislər aldadılır, hüquqpozucular bağışlanılır. Bütün bu nöqsanların aradan qaldırılması üçün hərbi nizamnamələrə, hərbi qurumların qanunaltı aktlarına müvafiq dəyişikliklər edilməlidir.

Hərbi cinayətkarlıq barədə rəsmi statistikanın ziddiyyətləri bu və ya digər informasiyanın obyektivliyində şübhə doğurur. Obyektiv informasiya olmadan isə cinayətkarlıqla mübarizə üçün səmərəli təsir tədbirlərinin hazırlanması mümkün deyil. Hal hazırda Silahlı Qüvvələrdə aparılan kriminoloji tədqiqatlar sistemli xarakter daşımır. Onların əsasında hazırlanan tövsiyyələr abstrakt xarakter daşıyır, eksperimental yoxlamadan keçmir, çoxu təcrübədə tətbiq olunmur.



downloaded from KitabYurdu.az

# Hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin qarşısının alınmasının əsas istiqamətləri.

Qədim zamanlardan hərbi cinayətkarlıqla mübarizəyə hakimiyyət dairələri böyük diqqət yetirib. Çünki tarixi təcrübə göstərir ki, dövlətçiliyin dağılması bir qayda olaraq, ordunun dağılmasından başlayır (nizam-intizam pozulur, hərbi qulluqdan boyun qaçırma halları artır, hərbi hissələr, hərbçilər üzərində idarəetmə səviyyəsi aşağı düşür).

Qoşunların döyüş hazırlığı təkcə xarici düşməndən müdafiə faktoru kimi deyil, həm də milli sağlamlığın və daxili sabitliyin göstəricisi kimi çox vacibdir.

Buna görə ilk növbədə ümumi qarşıalma tədbirləri diqqəti cəlb edir. Cəmiyyətin milli ideallarda və qanunda əks olunan milli təhlükəsizlik konsepsiyasının olmasında ehtiyacı var. Hərbi xidmətin nüfuzunun ideoloji tərəfdən təmin edilməsi - ordunun sağlamlaşdırılmasının zəruri şərtidir. Vətənpərvərlik, vətənə, torpağa məhəbbət - hər bir sağlam millətə xas olan hisslərdir. Dövlətin və milli ləyaqətin alçaldılma faktlarının qətiyyətlə qarşısı alınmalıdır. Bütün bunlar üçün vətənpərvərlik konsepsiyası işlənməli və dövlət ideologiyasının vacib elementi kimi təsdiq olunmalıdır.

Qoşunların yüksək döyüş hazırlığının təminatı dövlət siyasətini əsas tərkib hissəsi olmalıdır.

Silahlı Qüvvələrin təminatının müəyyən normaları var (maddi, kadr, ideoloji). Əgər cəmiyyətə qabiliyyət fəaliyyətli ordu lazımdırsa, bu normalar lazımi səviyyədə təmin edilməlidir. Məsələn, yanacağın çatışmazlıqları təyyarəçilərin uçma vərdişlərinin itirməsinə gətirib çıxarır, bu isə dinc dövrdə hava qəzalarına, döyüş şəraitində isə böyük itkilərə səbəb olur.

Demokratik dövlət quruculuğu ordu üzərində vətəndaş cəmiyyətinin nəzarətini nəzərdə tutur. Bizim üçün bu ciddi elmi və siyasi problemdir. Cəmiyyətin ən yaxşı qüvvələri onun həllinə yönəlməlidir. Bir vaxt ABŞ-də prezident komissiyası yaradılmış, onun nümayəndələri daimi olaraq hər bir hərbi hissədə öz fəaliyyətlərini aparmış və bu Amerika ordusunu qeyri-nizamnamə münasibətlərindən xilas etmişdir.

Bizim dövlət bir vaxtlar dünyada ən yaxşı sayılan təlim və tərbiyə sosial sistemini bərpa etməlidir. Sosial dəyərlər strukturunda fiziki və mənəvi sağlamlıq birinci yer tutmalıdır. Bu sahədə xarici təcrübə müəyyən maraq doğurur. Bir çox qərb ölkələrində istirahət və asudə vaxtın təşkili, sosial kömək üzrə departamentləri olan gənclər xidmətləri, tibbi-pedaqoji xidmətlər və himayəçilik xidmətləri səmərəli fəaliyyət göstərir. Bu xidmətlər bir çox yeniyetməni kriminal yola düşməkdən saxlamışdır. Silahlı Qüvvələr də bu prosesdə fəal iştirak etməlidir. Gələcək çağırışçıların hərbi xidmətə hazırlığının formaları müxtəlif cür ola bilər: məktəbdə ibtidai hərbi hazırlıq dərslərindən başlayaraq hərbi hissələrdə yeniyetmələr üçün idman bölmələrinin təşkilinə və məktəblilərin hərbi poliqonlarda hərbi oyunlara cəlb olunmasına kimi.

Qoşunlarda vəziyyətin sağlamlaşdırılması üçün radikal üslublardan biri hərbi hissələrin ixtisaslaşmasının müəyyən edilməsi ola bilər. Hərbi vahidlərin



downloaded from KitabYurdu.az

funksional ixtisaslaşması onların döyüş, təsərrüfat-istehsalçı və islah-nizamnamə funksiyalarının dəqiq bölüşdürülməsini nəzərdə tutur.

Hərbi bölmənin komandiri əsgərləri döyüşməyə öyrətməli, onlarda cəsurluq və digər döyüş keyfiyyətləri tərbiyə etməlidir. İndiki dövrdə isə komandir orduya çağırılmış oğruların və tənbəllərin düzəlməsi üzrə penitensiar fəaliyyətlə məşğul olur və hər bir belə kriminal tipə görə öz karyerasını qurban verməyə məcbur olur.

Belə çoxfunksionallığın mənfi effekti açıq-aşkardır. Hərbi əməliyyatlar dövrü qoşunların hərbi hazırlığının çatışmazlıqları aşkar olanda, hərbi hörmətin onsuz da yüksək olmayan nüfuzu kritik dərəcəyə düşür. Döyüş itkilərindən qorxan valideynlər uşaqlarını gizlədir, onları orduya getməyə buraxmır. Belə uğursuzluqlar cəmiyyətin döyüş ruhunu öldürür.

Çoxfunksionallıq hərbi xidmətə mənfi münasibətin səbəbi olur. Cavanların çoxu orduda təsərrüfat işlərinin görülməsini özünə alçaldıcı hesab edir və buna görə hərbi xidmətdən boyun qaçırır.

Bütün bu mənfi nəticələrin aradan qaldırılmasına hərbi hissələrin aşağıdakı qruplara bölünməsi imkan yarada bilər: 1)qvardiyaçı; 2) döyüşçü; 3) təsərrüfat-istehsalçı; 4) intizam hissələri.

Qvardiyaçı hissələr-hərbi elita olmalıdır. Onlar qısa bir müddət ərzində ən mürəkkəb döyüş tapşırıqlarını yerinə yetirməlidirlər. Belə hissələrdə xidmət müddəti ən aşağı olmalıdır (optimal- iki il). Bu hissələrə düşmək üçün çağırışçı müsbət xarakterizə edilməli, ibtidai hərbi və fiziki hazırlıq fənni üzrə imtahanı müvəffəqiyyətlə verməlidir.

Döyüş hissələri bir az aşağı mürəkkəblik dərəcəsi olan imtahanı vermiş çağırışçılardan komplektləşdirilə bilər. Belə hissələrdə xidmət müddəti bir az çox olmalıdır.

Təsərrüfat-istehsalçı hissələr çağırış imtahanını verməmiş, habelə fiziki və mənəvi keyfiyyətlərinin uyğunsuzluğuna görə döyüşçü hissələrdən keçirilmiş şəxslərdən komplektləşdirilə bilər.

İntizam hissələri - müxtəlif müddətli cinayət və ən ciddi intizam cəzalarının icra olunma yeridir (bir aydan dörd ilədək).

Belə bölünmə böyük maddi xərclər çəkmədən cəmiyyətin və ordunun uzun illərdir həll etməyə cəhd göstərdikləri bir sıra problemləri aradan qaldırardı.

Komandirlərin məsuliyyətini yalnız aşkar olunmamış hüquqpozuntulara görə müəyyən edilməsi ən möhkəm ordu xəstəliyini - cinayətlərin gizlədilməsini kökündən qırar. Ciddi pozuntulara görə hərbçilər döyüşçü bölmələrdən - təsərrüfat bölmələrinə, cinayətlərə görə isə - intizam bölmələrinə keçirilməlidirlər.

Hərbi xidmətin müddətində fərqlərin qoyulması çağırışçıların çağırış qabağı hazırlığına və döyüşçü hissələrin hərbçilərinin lazımi davranışına əlavə stimullar yaradar. Nə qədər keyfiyyətli qulluq edirsənsə, o qədər xidmət müddəti qısadır. Bu prinsip bir sıra ölkələrdə müvəffəqiyyətlə təcrübədən keçirilmişdir.

Hərbi islahatların vacib hissəsi - serjant statusunun möhkəmləndirilməsi, hərbi polisin yaradılmasıdır.



downloaded from KitabYurdu.az

Orduda cinayətkarlıqla mübarizənin elmi bazası ciddi dəyişikliklərə ehtiyac duyur. Bu fəaliyyətin informasiya təminatı üçün kriminoloji mərkəz yaradılmalı və onun elmi bölmələri aşağıdakı problemləri sistemli həll etməlidirlər:

1. Ordu cinayətkarlığını tədqiq etmək (qoşunlarda kriminal fenomenin strukturunu və real vəziyyətini aşkar etmək), mütəmadi onun dinamikasını izləmək;
2. Kriminogen və antikriminogen amillərin aşkar edilməsi, orduda kriminal fenomenin qanunauyğunluqlarının təhlili üçün cinayətkarlığın dəyişikliklərini sosial proseslərin inkişafı ilə tutuşdurmaq;
3. Cinayətkarlığa təsir etmək üçün səmərəli və qənaətli tədbirləri işləyib hazırlamaq, onların eksperimental yoxlamasını aparmaq və hərbi həyatda tətbiq etmək;
4. Xarici ölkələrin Silahlı Qüvvələrdə cinayətkarlıqla mübarizə təcrübəsini öyrənmək və yaymaq.



downloaded from KitabYurdu.az

# On altıncı fəsil

# Penitensiar cinayətlər və onların qarşısının alınması.

**Penitensiar cinayətlərin kriminoloji xarakteristikası. Penitensiar cinayətlərin səbəbləri. Penitensiar cinayətlərin profilaktikası.**

## Penitensiar cinayətlərin kriminoloji xarakteristikası.

Penitensiar cinayətkarlıq - penitensiar müəssisələrdə (islah-əmək müəssisələrində), azadlıqdan məhrumetmə yerlərində törədilən cinayətkarlıqdır.

Azadlıqdan məhrumetmə yerlərində və digər cinayət cəzalarının icrası dövrü cinayətkarlığın təhlilində kriminoloji əhəmiyyət kəsb edən cinayətkar davranışın səciyyəvi tipləri seçilir. Bu aşağıdakı penal (latın sözü roena - cəza) cinayətkar davranış tipləridir:

1. Cəzadan boyun qaçırma hüquqi qaydasına görə seçilir:*

a) Cinayət Məcəlləsinə görə cinayət kimi qəbul olunmuş (həbs etmə yerindən qaçış, koloniyada cəza çəkməkdən boyun qaçırma, müsadirə edilməli əmlakın gizlədilməsi və ya mənimsənilməsi və s.);

b) Cinayət Məcəlləsinin ümumi hissəsində nəzərdə tutulmuş (islah işlərindən boyun qaçırma, cərimənı ödəməkdən boyun qaçırma, vurulmuş ziyanı ödəmək borcunu yerinə yetirməmə);

v) qüvvədə olan Cinayət Məcəlləsində nəzərdə tutulmamış pozuntular (müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum olunmadan, ictimai məzəmmətdən boyun qaçırma və s.);

q) cinayət-hüquqi təsir tədbirlərinin icrasından boyun qaçırma (şərti məhkumetmədən, qərarın icrasının təxirə salınmasından və s.);

d) boyun qaçırmaq mümkün olmayan cəza növləri (vəzifədən azad olunma, hərbi rütbədən və ya xüsusi addan məhrum olunma).

2. Zorakı xarakterli cinayətkar davranış:

a) fiziki zorakılıq (qəsdən öldürmələr və bədənə ağır xəsarət yetirmələr, zorakılıqla xuliqanlıq və qarovula qarşı zor tətbiq etməklə qaçış və s.);

b) psixi təsirlə bağlı olan (hədə-qorxu, təhqir, böhtan, məcbur etmə və s.).

3. Tamah xarakterli cinayətkar davranış:

1) islah-əmək müəssisələrindən, oranın əməkdaşlarından oğurluqlar, hədə-qorxu ilə tələb etmələr, quldurluq və s;

2) məhkumlar tərəfindən məhkum olunmuşlardan.

---

* A. İ. Dolqova. Kriminologiya. M., 1997, s. 650-651



downloaded from KitabYurdu.az

4. İslah-əmək müəssisələrinin (İƏM) və onların əməkdaşlarının işinə mane olma:

 1) İƏM işini pozan hərəkətlər;

 2) müdiriyyət nümayəndələrinə müqavimət göstərmə;

 3) girov götürmə;

 4) İƏM və onların əməkdaşlarının əmlakının məhv edilməsi və ya zədələnməsi.

5. Kütləvi cinayətkar davranış:

 1) azadlıqdan məhrumetmə yerlərində bir qrup şəxs tərəfindən bir sıra cinayətlərin törədilməsi (xuliqanlıq, qaçış, öldürmə və s.);

 2) yalnız çox insan tərəfindən törədilə bilən səciyyəvi kütləvi cinayətkar davranış - məsələn, kütləvi iğtişaşlar;

 v) məhkumların kütləvi surətdə asayişi pozmaları - kütləvi surətdə qida qəbul etməkdən, işə çıxmaqdan imtina.

 Bu hərəkətlərə qarşı profilaktik tədbirlər görülməyəndə onlar xüsusi təhlükəli qrup şəklində törədilən cinayətlərə keçir.

6. Məhkumların cinsi pozğunluqları (zorlamalar, homoseksualizm, uşaqbazlıq, fetişizm, fahişəlik).
7. Narkotik və digər qadağan olunmuş maddələrin və ya əşyaların dövriyyəsi. Onların İƏM keçmə mexanizmi eyni olur.
8. Cinayət cəzasının icrasını yerinə yetirən orqanların əməkdaşlarının cinayətkar davranışı - avtonəqliyyatla bağlı cinayətləri, oğurluqlar, rüşvətxorluq, vəzifədən sui-istifadə və s.

Müxtəlif növ cinayətlərə qiymət verilməsinin öz xüsusiyyətləri var. Məsələn, məhkumların şəxsi əmlakının oğurlanması kriminal mühit tərəfindən mənfi qarşılanır və kriminal ənənələrə görə qəddarcasına cəzalandırılır. Belə ki, təkrar oğurluğa görə "əl qırılır". Buna görə penitensiar cinayətkarlığın strukturunda oğurluqların xüsusi çəkisinin azalması azadlıqdan məhrum etmə yerlərində kriminal dünyanın liderlərinin təsirinin güclənməsinin, kriminal mədəniyyətin rolunun artmasının göstəricisidir.

Azadlıqdan məhrumetmə yerlərində cinayətkarlığın yüksək latentliyi İƏM işinin göstəricilərinin qiymətləndirilməsi sistemində olan nöqsanlarla bağlıdır (nə qədər çox cinayət qeydə alınırsa, o qədər İƏM işi aşağı qiymətləndirilir).

Cinayət statistikasının məlumatlarına görə 70-90-cı illərdə penitensiar cinayətkarlığın strukturunda böyük dəyişikliklər olmuşdur. Buna zorakı və tamah xarakterli cinayətkarlığın meylləri təsir göstərmişdir, Əgər 1985-ci ildə penitensir cinayətkarlığın strukturunda ən böyük xüsusi çəkini xuliqanlıq təşkil edirdisə, 1997-ci ildə o üçüncüyerə düşmüş, birinci yeri isə cəza çəkməkdən boyun qaçırmalar tutmuşdur. Boyun qaçırma kimi məhkumların qaçışları, qısa müddətli məzuniyyətdən qayıtmamaları da ixtisaslaşdırılır. Bədənə ağır xəsarət yetirmələr 1985-ci ildəki 4-cü yerdən 5-ci yerə düşmüş, 4-cü yeri isə 1985-ci ildə 5-ci yerdə olan narkotik maddələrlə qanunsuz əməliyyatlar tutmuşdur. Bu da ölkədə narkotik problemin aktuallaşmasını, digər tərəfdən narkotiklərin qəbulunu dəstəkləyən kriminal ənənələrin təsirinin güclənməsini əks edir.



downloaded from KitabYurdu.az

Qəsdən adam öldürmələr 1985-ci ildə tutulan 5-ci yerdən 1997-ci ildə 6-cı yerə düşmüşdür. Bu da İƏM-də cinayətkar mədəniyyətin göstəricisi kimi qiymətləndirilə bilər, çünki "qocaman" qanunda oğrular kriminal münaqişələrdə ağır zorakılığı istisna hal kimi tətbiq edir, "cavanlar" isə əksinə. Buna görə göstərilən hal təcrid etmə şəraitində "qocaman" qanunda oğruların mövqelərinin güclənməsinin sübutu ola bilər.

Hakimiyyət nümayəndələrinə müqavimət, hədə-qorxu və ya zorakılıq tətbiq etmə halları 1985-ci ildəki 7-ci yerdən 1997-ci ildə 4-cü yerə qalxmış. Oğurluqlar 6-cı yerdən 9-cu yerə, İƏM işini pozan hərəkətlər 7-ci yerdən 6-cı yerə qalxmışlar.

İƏM-də müxtəlif növ cinayətlər arasında sıx əlaqələrin olması araşdırılarkən müəyyən edilmişdir ki, xuliqanlıq və qaçışlar arasında tərs mütənasib asılılıq var. Qaçışlar çoxalanda xuliqanlıq mütləq azalır və əksinə. Göstərilən hal belə izah olunur: Bir tərəfdən, bu təcridetmə, ünsiyyətin sıx çərçivələri ilə razı olmamaq motivləşməsi əsasında şüurlu olaraq çərçivənin genişlənməsinə cəhd etməklə (qaçış və ya boyunqaçırmanın digər formaları) və yaxud onunla razılaşmamaqla (xuliqanlıq, ağır zorakılıq və s.) özünü büruzə verir. Digər tərəfdən azadlıqdan məhrumetmə şəraitində xuliqanlıqla ağır zorakılıq arasında açıq-aşkar görünməyən birbaşa əlaqəni göstərir.

Son 10 il ərzində bir çox ölkələrdə törədilmiş cinayətlərə görə azadlıqdan məhrumedilmə cəzasının müddətinin artması diqqəti cəlb edir. Bir ilə qədər cəza müddəti verilmiş məhbusların sayı Rusiya, Rumıniya, Latviya, Litva, Estoniya kimi ölkələrdə çox azdır və ümumi sayın təxminən 7% təşkil etmişdir. Öz növbəsində İslandiya, Makedoniya və Slovakiyada bu adi hal hesab olunur, ümumi sayın üçdə birini təşkil edir. Beş il cəza müddəti verilmiş məhbuslar Böyük Britaniyada cəza çəkənlərin yarıdan çoxunu (Şimali İrlandiyada 67%), Türkiyədə 50%-ni, Rumıniyada isə 40% təşkil edirlər. Cəza müddəti ən azı 10 il olanlar da az deyildir. Türkiyədə belə məhbuslar cəza çəkənlərin 35%, Şimali İrlandiyada isə 46% təşkil edirlər. Ömürlük həbs cəzası bir çox Avropa ölkələrində tətbiq olunmasa da, bu şəxslərin sayı artmaq üzrədir. Belə ki, ömürlük həbs cəzasına məhkum olunmuşlar Belçikada ümumi cəza çəkənlərin 7%-ni, Böyük Britaniyada (İngiltərə və Uels) 8%-ni, Şimali İrlandiyada 19%-ni, Kanadada isə 9%-ni təşkil edirlər. Bu cəza növü isə sözsüz ki, məhbusların sayının artmasına imkan yaradır.

Təhlil olunan onillik ərzində bir çox ölkələrdə cinayətkarlığın səviyyəsinin artması, bununla əlaqədar mənfi ictimai fikrin formalaşması məhkəmələrin cəza növü təyin edərkən, azadlıqdan məhrumetməyə daha çox üstünlük, birincilik verilməsinə gətirib çıxarmışdır. Bəzi dövlətlərin cinayət qanununda müxtəlif cinayətlərə görə yalnız azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulması da burada az rol oynamır.*

---

* M. Hümbətov. Avropa Şurası məhkumların sayının artmasından narahatdır. Qanunçuluq. № 4, 1997.



downloaded from KitabYurdu.az

Məhkumların sosial mühitinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Azadlıqdan məhrumetmə yerlərində münaqişəli vəziyyət kimi subyektlər arasında uzun müddətli, gərgin və getdikcə kəskinləşən münasibətlərin vəziyyəti başa düşülür. Belə kriminogen münaqişəli vəziyyətin bir birinə qarşı düran aşağıdakı subyektlər daxildir:

a) bir tərəfdən məhkumların qrupu, digər tərəfdən İƏM-nin müdiriyyəti, üçüncü tərəfdən ona düşmən olan məhkumların başqa qrupu - yəni qruplararası vəziyyətlərin müxtəlif növləri;

b) hər tərəfdən bir məhkumdan - şəxsiyyətlərarası vəziyyətlər. Bura məhkumla İƏM-nin əməkdaşı arasında münaqişəli vəziyyət də aiddir;

v) bir tərəfdən - məhkum olunan, digər tərəfdən onların qrupu.

İƏM üçün kütləvi imtina aktlarına gətirib çıxaran qruplararası münaqişəli vəziyyətlər ən çox təhlükə daşıyır.

Münaqişənin obyektlərinə daxildir:

a) ümumi obyektlər - birdəfəlik münaqişələri, problemləri, stresləri yaradan hansısa dəyərli şey;

b) münasibətləri gərginləşdirən, problemi mürəkkəbləşdirən cəmləşdirici obyekt;

v) son həddinə çatdırılmış obyekt - buna görə cinayətlər törədilir.

Kriminal münaqişəli vəziyyətin cəmləşdirici obyekti kimi azadlıqdan məhrumetmə yerlərində aşağıdakılar müşahidə olunur:

a) qruplararası vəziyyətlərdə - əməkdaşlar və fəal-məhbuslar tərəfindən sui-istifadələr və özbaşnalıq, məhkumların hüquqları və s.;

b) məhkumlar arasında şəxsiyyətlərarası vəziyyətlərdə - qumar oyunlarında uduzma və borcun ödənilməsi zərurəti, pozğun hərəkətlərə məcbur etmə, bir-birinə qarşı təhqiredici hərəkətlər.*

İƏM-də kriminogen vəziyyətin məzmunu bir tərəfdən, subyektlər arasında gərgin münasibətlərin yaranması və saxlanmasından, digər tərəfdən isə-münasibətlərin getdikcə kəskinləşməsindən (yaxşılaşması və ya əksinə pisləşməsi) ibarətdir.

Göstərilən vəziyyətin üsulları - subyektlər aralarında olan münasibətlərin idarə olunması, bir-birinə təsir etmə vasitələridir.

Təsir istiqamətlərinə, xarakterinə görə bu üsullar aşağıdakılardır:

a) fəal-neqativ- verbal təcavüz (hədə-qorxu, təhqir, böhtan) və ya fiziki təhlükə (işkəncə, zülmetmə, döymə), şantaj, rüşvət təklif etmə və s;

b) fəal-pozitiv- müdiriyyətə kömək göstərilməsi barədə müraciət, təhlükəyə əks-təsir (zəruri müdafiə);

v) passiv - fəaliyyətsizlik, subyektlər tərəfindən münaqişəli münasibətlərin inkişafına biganə qalma (həm müdiriyyət, həm də məhkumlar tərəfindən).

---

* A.İ.Dolqova. Kriminologiya. M., 1997, s.657



downloaded from KitabYurdu.az

Kriminogen münaqişə vəziyyətinin mərhələləri aşağıdakılardır:

1. Kriminogen vəziyyətdən qabaqcadan yaranması - məsələn, problemli, stres vəziyyət;
2. Kriminogen vəziyyətdən qabaq subyektlər arasında münasibətlərin gərginləşməsi nəticəsində kriminogen vəziyyətə keçməsi;
3. Kriminogen münaqişə vəziyyətinin İƏM-də cinayətin törədilməsi ilə bitməsi.

Kriminogen vəziyyət hadisələrin 60%-dən çoxunda 15 gündən artıq sürür, nisbətən uzunmuddətli olur, yəni inkişafına qarışmaq üçün imkan yaradır.

Azadlıqdan məhrumetmə yerlərində xarici şərait kriminoloji ədəbiyyatda ən çox öyrənilmiş və DİN, Prokurorluğun İƏM-in fəaliyyətinə dair - normativ aktlarda (əmr, arayış) öz əksini tapır. İƏM-in fəaliyyətində nöqsanları yaradan ilk növbədə aşağıdakı texniki və təşkilati idarəetmə şəraitlərini göstərmək olar:

1. Texniki şəraitlər - mühafizə - xəbərdarlıq siqnalizasiyasının, mühəndis-texniki avadanlıqlarının, məhbusların üzərində gecə-gündüzlü müşahidə sisteminin texniki cəhətdən mükəmməl olmaması; göndərişlərin və ötürmələrin tərkibini, avtomaşınları yoxlamaq, şəxsi yoxlamaları, azadlıqdan məhrumetmə yerlərində yaşayış və istehsalat zonalarında yoxlamaları aparmaq üçün müvafiq cihazların olmaması və s.;

2. Təşkilati - idarəetmə çatışmamazlıqları:

a) natamam əmək məşğulluğuna, məişət çətinlikləri ona gətirib çıxarır ki, məhkumların hamısı ilə tərbiyə işini lazımi səviyyədə aparmağa imkan verir. Həm də məhkumların faktiki kontingentinin bəzi koloniyaların doldurma limiti üzərində çoxluğu da buna mane olur;

b) İƏM-in yüksək ixtisaslı kadrlarla komplektləşdirilməməsi, habelə kadrların yerləşdirilməsi və seçilməsi məsələlərində olan nöqsanlar;

v) İƏM-in bəzi işçilərinin aşağı icra intizamı;

q) məhkumların mühitində baş verən neqativ proseslər, xüsusən münaqişəli kriminogen vəziyyət barədə müdiriyyətdə lazımi və daimi informasiyanın olmaması, habelə bu informasiya olduğu halda onun tam uçotunun aparılmaması və qiymətləndirilməməsi;

d) daxildə cinayətlərin qarşısının alınması məqsədilə məhkumlar arasında liderlərin, cinayətkar dünyanın nüfuz sahiblərinin, qanunda oğruların ifşa olunması üçün vaxtında tədbirlərin görülməməsi.



downloaded from KitabYurdu.az

## Penitensiar cinayətlərin səbəbləri .

İƏM-də cinayətkarlığı doğuran proseslərin arasında azadlıqdan məhrumetmə yerlərində cinayətkar davranışın və şəxsiyyətin sosial mühitinin mövcud olan səbəb və şəraitləri seçilir.

İlk növbədə cinayətkar davranışın motivləşməsi diqqəti cəlb edir. Bu ilkin mərhələdə məhkumlar arasında nüfuzun saxlanması və "nüfuzun" qazanılması motivləri, sonradan isə zorakı, tamah motivləri olur. Azadlıqdan məhrumetmə yerlərində və cinayət cəzasının digər növlərinin icrası zamanı cəzadan boyun qaçırma cəhdi xüsusi yer tutur. Bunlardan əlavə, öz gücünü göstərməyə cəhd, təşkilatçı qabiliyyətlərindən istifadə edərək başqalarına öz tələblərini qəbul etdirməklə liderlik qazanmaq arzusu ilə bağlı motivləşmə (zorakı cinayətlərin, xuliqanlığın, iğtişaşların törədilməsinə gətirib çıxara bilər).

Məhkumlar tərəfindən cinayətlərin törədilməsinə əksər hallarda aşağıdakılar səbəb olur:

1. Məhkumların çoxunda nevrotik əyintilərin (yüksək dərəcədə əsəb gərginliyinin, nevrozların) və psixi anomaliyaların (psixi xəstəliklər, yetkinlik yaşına çatmayanlarda nevropatiyalar) olması. Bu əyintilər məhkumlara hərəkətlərini dərk etmək, özlərini idarə etmək imkanlarını çətinləşdirir və onlar tərəfindən cinayətlərin törədilməsinə səbəb olur.

2. İƏM-də cinayət törədən şəxslərin təxminən yarısı artıq müəyyən həyat təcrubəsi, neqativ dəyər səmtləşmələri, iki və çox məhkumluğu və s. olan 30 yaşına qədər şəxslərdir. Lakin eyni zamanda onlarda hələ də infantillik (uşaqlıq dövrünə xas olan xüsusiyyətlərin yaşlı adamlarda qalması), psixikanın ziddiyyətli elementləri qalır ki, onlar törədilən cinayətlərin xarakterində əks olunur.

3. Məhkumların əksər hallarda aşağı təhsil səviyyəsi ( məsələn, qatillər 7-8 sinif oxumuş olur) və müvafiq olaraq mənəvi tələbatlarının səviyyəsi primitiv olur.*

Zehni cəhətdən lazımi qədər inkişaf etməmə, abstrakt düşüncəyə malik olmama isə (İƏM-də qaçış və öldürmə törətmiş şəxslərdə kriminoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur) onlarda emosiyaların üstünlük təşkil etməsində özünü göstərir. Zorakılıqla bağlı cinayətlərin (İƏM-də cinayətlərin 1/4 hissədir) törədilmə motivləşməsində uzun müddət ərzində zərərçəkənə qarşı yığılmış və şüurun müəyyən həddinə kimi darlaşan mənfi-emosional quraşdırma baş verir.

---

* A.İ.Dolqova. Kriminologiya. M., 1997, s.655-656



downloaded from KitabYurdu.az

4. İƏM-də cinayət törətmiş məhkumların çoxu emosional qeyri-sabitlik, özünü saxlamağı bacarmayan, ekstremal şəraitdə məhdud özünüidarəetmə imkanları ilə xarakterizə edilirlər.

5. Sıx ünsiyyət çərçivəsinə görə başqa məhkumlardan asılılıq, münaqişə yarandığı halda mühiti dəyişmənin mümkünsüzlüyü bu bağlı dairədən çıxıb yaxa qurtarmaq arzusunu yaradır və bunun nəticəsi qaçışlar və cəzasının icrasından boyun qaçırmalar olur.

6. Məhkumların özlərninə qapılmaları, ünsiyyətsizlik, pessimizm, gizlilik bir emosional partlayış kimi özünü xuliqanlıq, zorakılıq, qaçışlar və rejim qaydalarının qərəzli pozulması hallarında göstərir.

7. Qorxulu hisslər, ehtiyatlılıq, ünsiyyətləri minimuma endirmək, öz fikirlərinə qapılmaqda yüksək həyəcanlı hisslər. Bütün bunlar emosional boşalmayanda (həmçinin cinayət törətmək yolu ilə, xüsusilə fiziki fəallıq, çox vaxt isə zorakılıqla bağlı olan) sonunda nevrotik və ya psixiki xəstəliyə gətirib çıxarır.

8. Tərslik, inadkarlıq, koloniyada və ya türmədəki xüsusi təhlükəli cinayətkarlarda isə yüksək özünə nəzarət etmə xüsusiyyətləri təşkilatçılıq bacarıqları ilə birgə liderliyin formalaşmasına, bunun nəticəsi kimi də dəqiqliklə hazırlanmış və çətin açılan (bir qayda olaraq ağır) cinayətlərin törədilməsinə gətirib çıxarır.



downloaded from KitabYurdu.az

## Penitensiar cinayətlərin profilaktikası.

1999-cu il martın 12-15-də Avropa Şurası Helsinki şəhərində "Şimali Amerikada və Avropada məhbusların sayı" mövzusuna həsr olunmuş, 36 Avropa ölkəsinin, ABŞ, Kanada dövlətlərinin bu sahə üzrə 100-dən çox ekspertinin, o cümlədən Azərbaycan nümayəndələrinin iştirakı ilə Beynəlxalq seminar keçirmişdir.

Son dövrlərdə bir sıra Avropa ölkələrində cinayətkarlığın artması meyllərinin qarşısını almaq üçün əvvəlki illərdən fərqli olaraq sosial, iqtisadi, tərbiyə, profilaktika tədbirlərinin kompleksini həyata keçirmək, hüquq mühafizə orqanlarının işini təkmilləşdirmək əvəzinə, qanunvericiliyin dəyişdirilməsinə, yəni bir çox cinayətlərə görə məsuliyyətin gücləndirilməsi, ictimai təhlükəli əməl törətmiş şəxslərə qarşı daha ağır cəza növlərinin tətbiq olunmasına üstünlük verilir. Belə praktika cinayət-cəza siyasətinin sərtləşməsini göstərir və məhbusların sayının artmasına qulluq edir.

Seminara hazırlıq ilə əlaqədar məhbusların tərkibi təhlil olunarkən müəyyən edilmişdir ki, haqlarında qəti imkan həbs tədbiri seçilmiş, istintaqdan sonra məhkəmənin hökmünü gözləyənlər Avropanın əksəriyyət ölkələrində məhbusların ümumi sayının dörddə birini təşkil edirlər. Bu rəqəm az deyildir. Bundan əlavə, Bosniya, İtaliya, Malta, Türkiyə, Çex Respublikası kimi ölkələrdə belə şəxslərin sayı məhbusların ümumi sayının təxminən yarısına bərabər olmuşdur. Belə vəziyyət onu göstərir ki, istintaq orqanları cinayət törətmiş şəxslər haqqında qəti-imkan tədbiri seçərkən, həbsə almaya müəyyən qədər üstünlük verirlər. Belə praktika öz növbəsində məhbusların sayının artmasına zəmin yaradır. Məlumat üçün bildirək ki, 1995-ci ilin axırına məhkum olunmamışlar üzrə ən aşağı göstərici İslandiyada (ümumi sayın 5,3 %), İrlandiyada (8,9 %) olmuşdur.

Amnistiya və əfv olunma tədbirləri qısa müddət də olsa, məhbusların sayının müəyyən qədər azalmasına təsir göstərir. Məsələn, Fransada 1991-ci ildən başlayaraq, hər il elan olunan amnistiya məhbusların sayının artmasının qarşısını almışdır. Lakin, əksəriyyət Avropa ölkələrində, ABŞ-da, Kanadada amnistiya, o cümlədən, əfv olunma institutlarından mütəmadi istifadə olunmur.

Təhlil göstərmişdir ki, Avstriya, Albaniya, Danimarka, Hollandiya, Norveç, Estoniya, Rusiya kimi ölkələrdə cəza çəkən məhbusların 70%-dən çoxu, digər bir sıra Avropa ölkələrində məhkumların müəyyən bir hissəsi cəza müddətinin hamısını çəkirlər. Bütün bunlar müəyyən qadağanlar və məhdudiyyətlərlə bağlıdır. Lakin, bir neçə ölkədə bu praktikaya geniş yer verilmiş və Bosniya, İngiltərə, Uels, Kipr, Slovakiya, Finlandiya və Çex Respublikasında heç bir məhkum azadlıqdan məhrumetmə müddətini axıra qədər çəkmir.

Seminarın yekununda qəbul olunmuş sənəddə Avropa qitəsində yerləşən ölkələrə, ABŞ, Kanadaya tövsiyə olunmuşdur ki, son illərdə müşahidə olunan məhbusların sayının artmasını dayandırmaq və bu prosesi əks tərəfə yönəltmək üçün bütün qanuni imkanlardan istifadə etsinlər. Bu istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacib hesab olunmuşdur:



downloaded from KitabYurdu.az

1) cinayət cəza siyasətini humanistləşmə yolu ilə inkişaf etdirmək;
2) həbs olunmuş şəxslərin ibtidai istintaq və məhkəmə baxışı müddətini maksimum azaltmaq, həbs qəti-imkan tədbirinin yalnız təhlükəli, xüsusilə ağır cinayətlərlə əlaqədar tətbiq etmək;
3) hökm çıxarılarkən azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzalara böyük üstünlük vermək;
4) azadlıqdan məhrum etmə cəzasının müddətinin azaldılması və bu cəza növünü illərlə yox, günlərlə, həftələrlə, aylarla təyin etmək;
5) cəzadan vaxtından əvvəl azad olunma praktikasının (amnistiya, əfv etmə, şərti azad edilmə) geniş tətbiq etmək və burada mövcud qadağanları, məhdudiyyətləri götürmək;
6) dövlət strukturlarının, hüquq-mühafizə orqanlarının kütləvi informasiya vasitələri ilə sıx əlaqəsini yaratmaq, onlara cinayətkarlığın vəziyyətini (zərər çəkmişlərin, o cümlədən ictimai təhlükəli əməl törətmiş şəxslərin tərəfində durmamaq şərti ilə) obyektiv, qərəzsiz işıqlandırma, ictimai fikrin düzgün formalaşdırılması üçün əlverişli imkanlar yaratmaq;
7) bu sahədə siyasətçilər, hakimlər və cəmiyyət arasında konsensus (razılıq) əldə etmək. Çünki yalnız bu üç struktur arasında əldə olunan həmrəylik əsasında həlli axtarılan sahədə real nəticəyə ümid bəsləmək olar.*

İƏM-də ümumi profilaktikanın metodları aşağıdakılara bölünür:

A) İƏM-də cinayətlərin xarici şəraitlərinin aşkar edilməsi metodları:

1. İƏM-in müxtəlif bölmələrinin (əməliyyat, təhlükəsizlik, tərbiyə istehsalat, tibbi və s.) fəaliyyətinin yuxarıda duran nəzarətedici orqanlar tərəfindən, habelə prokurorluq, inventarlaşdırma və inspeksiya orqanları tərəfindən yoxlanılması və ona nəzarət edilməsi;
2. Aşağıdakıların kriminoloji tədqiqatının aparılması və araşdırılması:
   1) İƏM-dəki ən çox və müəyyən dövrlər ərzində cinayət və qərəzli hüquqpozuntuları törədilən kriminogen zonaların;
   2) İƏM-nin fəaliyyətinin müxtəlif istiqamətləri üzrə ən spesifik nöqsanların;
   3) məhkumların nəzarətinin, mühafizəsinin, tərbiyəsinin, əməyinin, məişətinin, asudə vaxtının təşkilində texniki çatışmamazlıqların;
   4) məhkumların tərkibində kəmiyyət və keyfiyyət dəyişikliklərin;
   5) hər bir koloniyada və türmədə məhkumların cinayətkar mədəniyyətinin xüsusiyyətlərinin;
   6) İƏM-də kadrların seçilməsində, yerləşdirilməsində, hazırlanmasında, ixtisaslarının artırılmasında olan nöqsanların;
3. Kriminogen zonaların, məhbusların qruplarının liderlərlə, qanunda oğrularla birlikdə aşkar edilməsinə yönəlmiş əməliyyat üsulları.
4. Yerlərə getmə, İƏM-in ərazisində reydlər.

---

* M. Hümbətov. Avropa Şurası məhkumların sayının artmasından narahatdır. Qanunçuluq. № 4, 1997.



downloaded from KitabYurdu.az

Aşkar edilmə üçün istifadə edilən üsullar - sənədlərin təhlili, müşahidə, sorğuların müxtəlif növləri (müsahibə, söhbət, anketləşdirmə), eksperiment, testləşdirmə, sosiometrik ölçülərdir.

B) İƏM-də törədilən cinayətlərin xarici şəraitlərinin aradan qaldırılması, neytrallaşdırılması metodları:

1. İƏM-də, məhkumlar üzərində nəzarət və mühafizə vasitələri, məhkumların, onlara verilən məktubların, avtomaşınların yoxlanmasının texniki vasitələri üzrə texnologiya prinsiplərini tətbiq etməklə informasiyanın kompüter vasitələri ilə yazılması, işlənilməsi və istifadə edilməsi;
2. İƏM-in yüksək ixtisaslı kadrlarla komplektləşdirilməsi, onların düzgün seçilməsi, yerləşdirilməsi və ixtisaslarının artırılması;
3. Koloniyanın qüvvə və vasitələrini, İƏM-in bütün bölmələrini səfərbər etməklə, digər koloniyaların qüvvələrini cəlb etməklə (məsələn, aclıq elan etməklə bağlı olan kütləvi cinayətkar davranışın qarşısının alınması vaxtı; qadağan olunmuş əşyaların keçirilməsi kanallarının bağlanması üçün) İƏM-də kompleks profilaktik əməliyyatların aparılması;
4. İƏM-in bölmələri arasında cinayətkar qruplaşmalar, kriminogen vəziyyətlər, onların kriminallaşmasının göstəriciləri, vəziyyətin subyektlərinin uçota qoyulması barədə informasiya mübadiləsinin təşkili;
5. Koloniyalar arasında məhbusların bölüşdürülməsi, mövcud koloniyaların genişləndirilməsi və yeni müasir İƏM-in tikilməsi yolu ilə bir sıra koloniyaların dolması limitindən məhbusların faktiki kontingentinin üstünlüyünün aradan qaldırılması;
6. Düzgün intizam təcrübəsi, nəzarətin təşkili, əmək haqqının artırılması, mükafatlandırma, işdən çıxarılma, cinayət məsuliyyətinə cəlb etmək yolu ilə İƏM-nin əməkdaşları arasında nizam-intizamın artırılması.*

Cinayətlərin qrup profilaktikası xüsusi məqsədlə və ya təbii surətdə yaranmış qruplarda kriminogen vəziyyətin inkişafını idarə etmək məqsədilə özünü təlqid etmənin aparılmasıdır.

Cinayətlərin qrup profilaktikasının strukturunu subyektlər, obyektlər, fəalliyyətin istiqamətləri, metod və üsulları təşkil edir.

İƏM-də cinayətlərin qrup profilaktikasının aparıcı subyektləri kimi psixoloqlar çıxış edir. Məhz onlar başqa mütəxəssislərin səylərini cəmləşdirməyi bacarırlar.

Azadlıqdan məhrumetmənin icrası zamanı qrup profilaktikasının müxtəlif istiqamətləri - tərbiyə, müalicə, gərginliyin tənzimlənməsi, ixtisas artırma və s., habelə müxtəlif metodlar - qrup psixoterapiyası, sosiogigiyena və psixogigiyena, birgə məşğələlər və s. müxtəlif üsullardan istifadə edilməklə yaradıcı fəaliyyətdə birgə iştirak etmə, idman oyunları, hipnoz, autotreninq, yoqa və s. tətbiq edilir.

---

* A.İ.Dolqova. Kriminologiya. M., 1997, s.661



downloaded from KitabYurdu.az

İƏM-ndə münaqişəli kriminogen vəziyyət aktual olduğuna görə onun aşkar edilməsi, qarşısının alınması, həll olunması metodları daha dərin öyrənilməlidir.

Kriminogen munaqişəli vəziyyətin aşkar edilməsi metodlarına İƏM-də kriminoloji-psixoloji tədqiqat; aşkar edilmənin əməliyyat üsulları; yerlərə getmə, yaşayış və istehsalat zonalarını gəzmə, reydlər və digərləri aiddir.

Bu zaman aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

a) əvvəllər aralarında düşmənçilik olanların qohumlarına və ya dostlarına;

b) qadağan olunmuş fəaliyyətlə məşğul olmağa meyli olanlara (qumar oyunları, qadağan edilmiş əlaqələr və s.)

v) spirtli içkiləri, narkotik maddələri istifadə etməyə meyli olanlara;

q) yüksək təcavüzlüyü olanlara (psixopatlara);

d) məhbusların çoxu tərəfindən sevilməyənlərə (özlərinkini oğurlayanlar və s.);

e) ruhi xəstələrə, psixoloji fəallığı olmayan,başqalarının təsiri altına asanlıqla düşənlərə.

Münaqişəli vəziyyətlərin qarşısının alınması metodları aşağıdakılardır:

1. Məhkumlarda düzgün ünsiyyət, qarşılıqlı əlaqə vərdişlərini formalaşdırmaq.
2. Ayrı-ayrı fəallıq göstərən məhkumları sakitləşdirən, hüquqpozuntularının profilaktikasını aparan briqadaların yaradılması.
3. Fəalların fəaliyyəti üzərində müdiriyyət və başqa məhkumlar tərəfindən nəzarətin təşkil olunması.
4. Məhkumların motivləşmə tipinə görə (təcavüzkar və tamah) bölünməsi.
5. Karantində yeni gəlmiş məhkumların öyrənilməsi və onların briqadalar üzrə bölüşdürülməsi.
6. Məhkumların mənfi qruplaşmalarının dağıdılması.
   Qeyri-sabit qruplaşmaları liderlərdən ayırmaq; məhkumları koloniya daxilində yaxud digər müəssisələrə bölüşdürmək, habelə digər üsulları tətbiq etmək yolu ilə dağıtmaq. Sabit qruplaşmaları qanunda oğruları, liderləri ayrıca kamera tipli yerdə cəmləşdirmək, onların cəza çəkmə yerlərini mütəmadi dəyişmək yolu ilə dağıtmaq olar.
7. Məhkumları idarə etmək, koloniyanın bir sıra problemlərini həll etmək məqsədilə onların qrupları ilə əməliyyat oyunlarının təşkili.
8. Müsbət istiqamətləşməsi olan məhkumlar qruplarını müdafiə, inkişaf etmək və onlardan istifadə etmək.
9. Qərəzli qanunpozucularından “rejim” dəstələrinin yaradılması.
10. Sosiotexnika:
    a) gərginlik mənbəyini yaradan kiçik qrupun dağıdılması;
    b) peyvənd etmə- məhkumların qrupuna onların arasında olan anlaşılmazlıqları aradan qaldıra biləcək məhkumun salınması;
    v) ümumi məqsəd qoymaqla iki qarşı duran qrupun birləşdirilməsi.



downloaded from KitabYurdu.az

11. Nüfuzu olmayan şəxs üçün elə bir vəziyyətin yaradılması ki,o bu vəziyyətdə gələcəkdə ona qarşı hörmət yaradan keyfiyyətini göstərə bilsin.

Münaqişəli kriminogen vəziyyətin həll olunması metodları aşağıdakıları nəzərdə tutur:

1) işin real vəziyyəti barədə subyektləri məlumatlandıraraq, onlarla söhbət apararaq istiqamətləşmələrini dəyişdirmək;
2) hər ikisinə qarşı məcburiyyət tətbiq etməklə hədə-qorxusu altında vəziyyətin subyektlərini hansısa hərəkətdən saxlamaq;
3) vəziyyətin subyektlərini bir-birindən təcrid etmək: a) başqa briqadaya işçi və ya yataq yerlərini keçirmək yolu ilə; b) kamera tipli yerdə və yaxud cərimə təcridxanasında təcrid etmə; v) başqa İƏM-nə keçirmə.

İƏM-də cinayətlərin fərdi profilaktikası metodları:

A) Məhkumları öyrənmə metodu - müxtəlif tədqiqat üsullarının tətbiqini nəzərdə tutur:

a) sənədlərin təhlili- cinayət, şəxsi işlərin, yazışmaların;
b) məhkumları yaxşı tanıyan şəxslərlə sorğular;
v) onun daxil olduğu ətraf mühitin, qrupun müşahidəsi;
q) testləşdirmə;
d) eksperiment;
e) məhkumlarla söhbət və s.

B) "Yoldan çıxan" məhkumların aşkar olunması metodları aşağıdakılara bölünür:

a) əməliyyat;
b) ətraf mühitin öyrənilməsi;
v) kriminal-psixoloji tədqiqat metodları və s.

Bu tədbirlər qaçış və başqa boyun qaçırmalara meylli olan, İƏM-də cinayət törətmiş; cəzaçəkmə rejimini mütəmadi olaraq pozan; inzibati nəzarət altına düşən; psixi anomaliyaları olan; spirtli içkiləri, narkotik, toksikoloji maddələri istifadə etməyə meyli olan; məhkum olunmaqdan əvvəl işləməyən; daimi yaşayış yeri olmayan; İƏM müdiriyyətinə və başqa məhkumlara qarşı aqressivlik göstərən məhkumların aşkar olunmasına, uçota qoyulmasına, onların davranışına nəzarət edilməsinə yönəlir.

V) Normalardan çıxan məhkumların uçot metodları: kartoteka, kompyüter uçotu, perforasiya.

Q) Məhkumların üzərində nəzarət metodları:

1. Əməliyyat üsulları vasitəsilə.
2. Eyni metodlarla uzun müddət ərzində təkrar olunan müayinə.
3. Baxış, axtarış, göndərişlərin yoxlanılması, telefon danışıqlarına qulaq asmaq.
4. Söhbət, başqa məhkumların, əməkdaşların sorğusu, onlarla mübahisə və s.

D) Xarici nəzarətin gücləndirilməsi metodları (kompleks profilaktik əməliyyatlar, müasir texnikanın tətbiq edilməsi və s.) və şəxsi xarakteristikaların



downloaded from KitabYurdu.az

dəyişdirilməsi metodları (istiqamətli özünütərbiyə, məhkuma özü üzərində işləmək üçün audio-videoyazıların verilməsi və s.).



downloaded from KitabYurdu.az

# On yeddinci fəsil

# Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlər və onların qarşısının alınması

**Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin anlayışı, onların vəziyyəti və quruluşu. Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin səbəbləri. Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin qarşısının alınmasının ümümi sosioloji və xüsusi kriminoloji tədbirləri.**

## Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin anlayışı, onların vəziyyəti və quruluşu.

Ekoloji cinayətkarlıq - ekoloji cinayətlərin, yəni qanunla qadağan olunan və cəzalandırılan, insanı əhatə edən təbii mühitin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsi, o cümlədən şəxsiyyətin, əhalinin, cəmiyyətin, millətin ekoloji təhlükəsizliyinin və dövlətin sabit inkişafının təmin edilməsi üzrə ictimai münasibətlərə qəsd edən əməllərin yığımıdır.

Ekoloji cinayətlər demoqrafik, sosial, ekoloji xarakterli mənfi nəticələrin ağırlığına görə indiki zamanda dövlətin təhlükəsizliyi üçün artıq real təhlükə yaratmış və aşağıdakı hallarda ən kəskin surətdə əks olunmuşdur:

1. Həyatın davamlılığının aşağı düşməsinə, xəstəliklərin, ölümlərin çoxalmasına və əhalinin genofondunun pisləşməsinə gətirib çıxaran ətraf mühitin keyfiyyətinin pisləşməsi.
2. Ekoloji fəlakət zonalarının yaranması; bərpa oluna bilən təbii ehtiyatların tənəzzülü (balıq, meşə, əkin ehtiyatlarının).
3. Bərpa oluna bilməyən təbii ehtiyatların tükənməsi (mineral xammalın, enerji daşıyıcılarının).
4. İri texnogen qəzaların riskinin artması.
5. Yerüstü və yeraltı suların, dənizlərin sahilboyu sularının keyfiyyətinin pisləşməsi.
6. Radioaktiv zəhərlənmənin yayılması.
7. Hava məkanının çirklənməsi və iqlimin təhlükəli dərəcədə dəyişməsi.
8. Ərzaq məhsullarının təhlükəli dərəcədə çirklənməsi.

Bazar iqtisadiyyatına keçid dövründə bu növ cinayətlərin nəticələrinin təhlükəliliyi daha da artır. Son dövr ərzində daha böyük ekoloji xarakterli neqativ nəticələrə gətirib çıxaran yeni növ cinayətlər yaranmışdır - bərpa olunmayan (yeri doldurulmayan) təbii ehtiyatların oğurlanması və qeyri-leqal çıxarılması; çıxarılan mineral xammalın qeyri qanuni istifadə olunması; torpaqların qeyri qanuni zəbt edilməsi; zəhərli tullantıların ölkəyə gətirilməsi və basdırılması; insan üçün ziyanedici olan ərzaq məhsullarının və digər istehlak əmtəəsinin ölkəyə gətirilməsi; ölkə ərazisində ətraf mühitə ziyan verən xarici texnologiyaların və istehsalatların yerləşdirilməsi; ekoloji terrorizm.



downloaded from KitabYurdu.az

Xüsusilə ekoloji - sosial təhlükəni ekoloji qaçaqmalçılıq kəsb edir. Onun əsas növlərinə parçalanan radiaktiv maddələrin, nüvə materiallarının qeyri-qanuni sərhəddən keçirilməsi; xarici ölkələrdən təhlükəli tullantıların ölkəyə gətirilməsi; ozondağıdıcı maddələrin və onlardan ibarət məhsulun qeyri-qanuni idxal və ixracı; vəhşi fauna və floranın qeyri-qanuni ölkədən çıxarılması aiddir.

Bu cinayətlərin ən təhlükəli nəticəsi Yer kürəsində insan həyatının bioloji təməlinin məhv edilməsi ola bilər.

Öz xüsusiyyətlərinə görə ekoloji cinayətlər eyni zamanda iqtisadi (təbii ehtiyatların qeyri-qanuni istifadə edilməsi), zorakı (insanın sağlamlığına bilavasitə ziyan vurulması ilə bağlı olan), yaxud tamah xarakterli (qeyri-qanuni ov etmə, balıqçılıq) cinayətlər olsa da, ekologiyaya vurulan ziyana görə ekoloji cinayətlər kimi bu növ cinayətlərdən üstün olur.

Ekoloji səbəblərdən hər il yüz minlərlə insanlar xəstəliklərə düçar olur, on minləri isə ölür. Neft sızmalarından torpaqların və suların çirklənməsinin nəticəsini ekspertlər neçə milyard dollarlarla qiymətləndirirlər. İqtisadi zonadan qeyri-qanuni hasil edilən və ödkədən çıxarılan bioloji ehtiyatların qiyməti daha bir neçə milyard dollarla qiymətləndirilir.

Ekoloji cinayətkarlıq yüksək latentliyi ilə xarakterizə edilir - statistikada törədilən ekoloji cinayətlərin yalnız az bir hissəsi əks olunur. Latentliyi nəzər alınaraq ekoloji cinayətlərin xüsusi çəkisi cinayətkarlığın ümumi strukturunda təxminən 20-30 faiz təşkil edir.

Hüquq tətbiqedici təcrübənin təhlili göstərir ki, əksər hallarda cinayət məsuliyyəti təbii ehtiyatların qeyri-qanuni zəbt edilməsi ilə bağlı cinayətlərə görə tətbiq edilir ( qanunsuz balıqçılıqla məşğul olma, ov etmə, meşədə ağacların kəsilməsi). Ətraf mühitə ziyan vurmağa və əhalinin ekoloji təhlükəsizliyini pozan cinayətlərə görə (su hövzəsinin, atmosfer havasının çirklənməsi) cinayət məsuliyyətini müəyyən edən normalar isə az hallarda tətbiq olunur.

Ətraf mühitin çirklənməsi faktı üzrə cinayət işlərinin az olması ekoloji cinayətlərin məhz bu hissəsinin yüksək latentli olması, habelə tullantıları buraxan istehsalat və kommunal-məişət müəssisələrə qarşı iqtisadi məsuliyyət növlərinin (çirkləndirici maddələr daşıyan tullantılara görə məcburi haqların ödənilməsi, möhkəm tullantıların müəyyən edilmiş hədlərdə basdırılması) tətbiqi ilə bağlıdır. Zərərli maddələri qəza şəraitinə gətirib çıxaran miqdarda və ya külli miqdarda buraxılan tullantılarla bağlı işlərin məhkəməyə verildiyi halda isə, məhkəmə əksər halda mülki-hüquqi məsuliyyət normalarına uyğun vurulan maddi zərərin ödənilməsi barədə qərar çıxarır.


downloaded from KitabYurdu.az

# Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin səbəbləri

Ekoloji cinayətlərin törədilməsinə səbəb olan əsas ziddiyyətlər son illər ölkədə gedən sosial və iqtisadi islahatları müşayiət edən neqativ proseslərin nəticəsində yaranmışdır.

Bazar iqtisadiyyatına keçid müəyyən müsbət nəticələri ilə yanaşı cəmiyyətin, dövlətin və onun vətəndaşlarının iqtisadi və ekoloji maraqlarının toqquşmasına, ətraf mühitin tənəzzülünün sürətlənməsinə gətirib çıxarmış, ekoloji cinayətlərin törədilməsinin yeni real həvəsləndirici amillərin inkişafı üçün şərait yaratmışdır.

Cinayətkarlığa sonrakı təsirini öyrənmək məqsədi ilə ekoloji göstəricilərin araşdırılması Azərbaycan üçün xüsusilə aktualdır. Belə ki, əldə olan məlumatlardan göründüyü kimi zərərli istehsalatların konsentrasiyası, təhlükəsiz texnologiyalara etinasız münasibət, məhsuldarlığı artırmaq məqsədi ilə kənd təsərrüfatının böyük əkin sahələrində zəhərli kimyəvi maddələrdən külli miqdarda istifadə ona gətirib çıxarmışdır ki, insanları əhatə edən ətraf mühit ekoloji cəhətdən hədsiz dərəcədə çirklənmişdir.

Cəmiyyət və biosferanın qarşılıqlı münasibətinin hər bir konkret şəraitində optimal strategiya və taktikanın seçilib müəyyənləşdirilməsində ekoloji modelləşdirmənin praktiki əhəmiyyəti getdikcə artır. Bu zaman ekoloji problemlərin tədqiqində təbiət və texnika elmlərinin fəaliyyətinin müxtəlif növlərinin inteqrasiyası və koordinasiyasına istiqamətlənən, öyrənilən hadisəni tam əhatə etməklə, eyni zamanda onun strukturunun dərin təhlilini, cinayətkarlıqla qarşılıqlı əlaqə və təsirdə olan amillərinin maksimum sayının aşkara çıxarılmasında ekoloji modelləşdirmə və sistemli təhlil mühüm rol oynayır.

Ətraf mühitin vəziyyəti, əhalinin müxtəlif kateqoriyalı qruplarının real əmək və mənzil şəraiti, xidmət sahələrinin inkişaf dərəcəsi, istehsal və istehlak səviyyəsi, real asudə vaxtın ölçüsü, insanların mənəvi və fiziki inkişafı, natamam ailələrin və boşanmaların sayı, istehlak mallarının qiymətlərinin artım sürəti, spirtli içkilərin istehsalı, spirtli içkilərin qiymətləri və adambaşına işlədilməsi və bir çox başqa göstəricilərin öyrənilməsi və onların cinayətkarlığın uyğun göstəriciləri ilə müqayisəsi hər şeydən əvvəl cinayətlərin törədilməsinə gətirib çıxaran səbəb və şəraitlərin daha dərin tədqiqi məqsədinə xidmət göstərir.*

Belə həvəsləndirici amillər istehsalat sahəsində daha çoxdur. Ətraf mühitə ziyanedici təsir göstərən müəssisələrin işi onun mühafizəsi üçün mütəmadi artan xərclərin çəkilməsini tələb edir.

---

* İ.M.Rəhimov, E.H.Həsənov, Y.S.Abdullaev, İ.A.Cavadova. Cinayətkarlıq və kibernetika. B., 1995. Sit: А.Р.Алиев, Т.Х.Шукуров, А.Б.Самедов. Ядохимикаты и сельское хозяйство. Баку, 1982; Экология: пути выживания и развития человечества (позиция ученых). М., 1988.



downloaded from KitabYurdu.az

Bu xərclərin məbləği çox böyükdür, mülkiyyətçilərin imkanları isə məhduddur. Nəticədə belə müəssisələrdə təbiətin mühafizəsi məqsədləri üçün nəzərdə tutulmuş vəsaitlərin qeyri-qanuni qənaət edilməsi geniş yayılır. Sahibkarlar özünə belə bəraət qazandırmağa çalışırlar ki, bu qənaətlər müflis olmamaq, işçi yerlərini saxlamaq, buraxılan məhsulun maya dəyərini aşağı salmaq üçün zəruridir. Çox vaxt isə faktiki olaraq belə qanunazidd hərəkətlərin əsasını iqtisadi səbəblər - nəyin bahasına olursa-olsun, o cümlədən qanunsuz üsullarla varlanmaq məqsədi təşkil edir.

Yeni yaranmış ekoloji cinayətlərin də əsasını iqtisadi səbəblər təşkil edir. Bir sıra xarici firmalar radiaktiv maddələrin və yüksək toksikoloji tullantıların saxlanılması və basdırılması, təhlükəli istehsalatların yaradılması, ekoloji cəhətdən çirkli texnologiyanın tətbiq edilməsi, ətraf mühiti zəhərləyən tullantıların idxalı, habelə öz ölkələrində istifadəyə qadağan edilən və ya keyfiyyətsiz ərzaq məhsullarının və digər istehlak mallarının satışı üçün ölkəyə gəlir və onun ərazisini öyrənirlər.*

Xarici sərmayəçilərin çoxu öz ölkələrində mövcud olan ciddi normativlərin yerinə yetirilməsi üçün tələb olunan əlavə xərclərdən boyun qaçırmaq, istehsal xərclərini aşağı salmaq üçün ekoloji cəhətdən ziyan verən istehsalatların ölkədə yerləşdirilməsinə cəhd edirlər.

Bir sıra xarici dövlətlərin hökumət və işgüzar dairələri ölkənin təbii sərvətlərinə öz milli və yaxud sahibkarlıq məqsədləri üçün istifadə oluna biləcək ehtiyatlar kimi baxır və bu fəaliyyətin neqativ ekoloji nəticələri barədə fikirləşmirlər.

Ətraf mühitin cinayətkarcasına çirklənməsinin davam etmə təhlükəsi tək biznesin ayrı-ayrı nümayəndələrinin yuxarıda qeyd olunan məqsədləri və hərəkətləri ilə deyil, həm də yerli istehsalçıların milli təbiətin mühafizəsi maraqlarına və qanunvericiliyin tələblərinə qarşı göstərdikləri səhlənkarlıqdan yaranmışdır. İstehsal müəssisələrin çoxunun təbiətin mühafizəsi məqsədləri üçün nəzərdə tutulan vəsaitlərin məhsulun maya dəyərinə daxil etmələri və bu cür yolla ekoloji normaların, təbiətin mühafizəsinə dair qanunvericiliyin tələblərinin yerinə yetirilməsindən boyun qaçırmaları məhz bununla izah olunur.

Vətəndaşların vəzifə statusu ilə bağlı olmayan ekoloji cinayətlərin törədilməsinin də iqtisadi səbəbləri müxtəlifdir. Bunların içində həyat səviyyəsinin aşağı düşməsi, işsizlik, maaşların verilməməsi, pulsuz və ya güzəştli müalicə, təhsil almaq imkanının itirilməsi kimi səbəbləri xüsusilə qeyd etmək lazımdır.

Məhz bu səbəblərə görə brakonyerlik, şəxsi məqsəd üçün torpaqların qanunsuz zəbt edilməsi, xüsusi mühafizə altında olan təbii ərazilərin (qoruqların) rejiminin pozulması geniş miqyas almışdır. Leqal dolanma mənbəyini itirən şəxslər belə cinayətləri törətmək üçün məcburiyyət qarşısında qalırlar. Bu şəxslərin içində ekoloji cinayətləri tamah maqsədi ilə törədənlər də (meşədə ağacların qanunsuz kəsilməsi, nadir heyvanların vurulması, qanunsuz balıqçılıq), xuliqanlıq edənlər də olur (meşənin yandırılması).

---

* A.İ.Dolqova. Kriminologiya. M., 1997, s. 523



downloaded from KitabYurdu.az

Ekoloji cinayətkarlığın artması ekoloji hüquqpozuntulara görə məsuliyyəti müəyyən edən qanunvericiliyin çatışmazlıqlarına və bəzi normaların zəifliyinə görə baş verir. Yerli icra hakimiyyəti orqanları çox vaxt təbiətin mühafizəsi orqanları ilə razılaşdırılmadan qərarlar, sərəncamlar verirlər, onları dövlət ekoloji ekspertizasından keçirmirlər. Nəticədə, məsələn, 1-ci qrupa aid olan meşələr başqa qrupa keçir, onların ərazisində, o cumlədən su mühafizə zonalarında kotteclərin, müəssisələrin tikilməsi genişlənir, ölkənin təbii qoruq fondu dağıdılır.

Ekoloji cinayətlərin və digər qanun pozuntularının artması təbiətin mühafizəsinə və təbii ehtiyatların istifadəsinə dair qanunvericiliyin, vətəndaşların konstitusiya ilə təmin edilən ekoloji hüquqlarının qorunmasına, cəmiyyətin sabit inkişafı və ekoloji təhlükəsizliyinin təmin edilməsinə, insanın həyatı üçün əlverişli təbii şəraitin yaradılmasına səmtləşməlidir.

Ekoloji cinayətkarlığın artmasına təbiətin mühafizəsi sahəsində nəzarətedici orqanların və müəssisələrin vəzifəli şəxslərinin fəallığının aşağı düşməsi də ketdikcə böyük təsir göstərir.

Bundan əlavə ekoloji cinayətkarlığın artmasının səbəblərinə son dövr ərzində hüquq-mühafizə və təbiəti-mühafizə orqanlarının ekoloji cinayətlərin və digər hüquqpozuntularının qarşısının alınması və açılması sahəsində birgə fəaliyyətinin səviyyəsinin aşağı düşməsi; göstərilən sahədə nəzarətedici və təsərrüfat-idarəedici funksiyalarının bölüşdürülməsi prinsipinin pozulması; ekoloji cinayətlərlə mübarizənin təşkili üzrə fəaliyyətin zəif informasiya təchizatı; nəzarət-inspeksiya xidmətlərinin zəif maddi-maliyyə bazası; təbiəti-mühafizə orqanları əməkdaşlarının lazımi qədər hüquqi və sosial cəhətdən müdafiə olunmaması; ekoloji cinayətkarlıqla mübarizəyə geniş ictimaiyyətin cəlb olunma mexanizminin olmaması aiddir.



downloaded from KitabYurdu.az

## Ekologiyanın təhlükəsizliyinə qəsd edən cinayətlərin qarşısının alınmasının ümümi sosioloji və xüsusi kriminoloji tədbirləri.

Ekoloji cinayətkarlıqla mübarizənin əsas cəhətləri ekoloji qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi üzrə hüquq-mühafizə, təbiəti-mühafizə və nəzarətedici orqanların fəal və dəqiq koordinasiya olunmuş hərəkətlərinin daimi təmin edilməsindən ibarətdir.

Konkret cinayətlərlə yaranmış ekoloji təhlükəsizliyin pozulması qorxusunun aradan qaldırılması üçün öz səlahiyyətləri çərçivəsində icra hakimiyyəti orqanları da iştirak edir.

Ekoloji cinayətlərlə mübarizə qanunların, onlara uyğun hazırlanmış normativ aktların əsasında və çərçivəsində aparılır. Bunlarda ekoloji cinayətlərin qarşısının alınmasına yönələn hərəkətlərin istiqamətləri göstərilir, hüquq-mühafizə və təbiəti-mühafizə orqanlarına lazımi göstərişlər, birinci növbədə keçiriləcək tədbirlərə dair təlimatlar verilir.

Xüsusilə ekoloji təhlükə kəsb edən cinayətlərin ayrı-ayrı növləri (radiaktiv, yüksək toksikoloji, kimyəvi maddələrin, materialların, tullantıların, patogen mikroorqanizmlərin və s. qeyri-qanuni dövriyyəsi) onlarla mübarizədə əlavə tədbirlərin görülməsini tələb edir.

Bu halda cinayət prosesual izləmə tədbirlərinin tətbiq edilməsindən əvvəl real ekoloji təhlükədən müdafiə tədbirlərinin görülməsinin üstünlük prinsipi təmin edilir.

Ekoloji cinayətlərlə mübarizədə ictimai ekoloji birliklər, yaşılların hərəkəti, yerli və xarici qeyri-hökumət təşkilatları, habelə kütləvi informasiya vasitələri dövlət orqanlarına böyük kömək göstərir, çox vaxt isə belə qanunpozuntularını bilavasitə özləri aşkar edir və yaxud qarşısını alırlar.

Ekoloji cinayətlərlə mübarizənin səmərəliliyinin artırılmasının mühüm şərtlərindən biri də hüquq-mühafizə fəalliyyətinin hüquqi bazasının təkmilləşdirilməsidir. Bu sahədə müvafiq qanunvericilik işi aparılır, yeni normativ aktların qəbul edilməsi üçün qanunverici və icra hakimiyyətlərinin, ictimai birliklərin, alimlərin və sahibkarların təklifləri alınır və ümumiləşdirilir. Cinayət Məcəlləsinə ekoloji cinayətlərə görə məsuliyyət növlərini müəyyən edən yeni normaların salınması indiki dövr üçün çox aktualdır. "Ekoloji ekspertiza haqqında" Qanunun qəbul edilməsi təsərrüfat məsələlərinin həll olunması və hazırlanması mərhələlərində ekoloji cinayətlərin törədilməsinin qarşısını ala bilər.

Cinayətkarlıqla mübarizə üzrə dövlət proqramlarında ekoloji cinayətlərin qarşısının alınması tədbirləri nəzərdə tutulmalı, bu məqsədlər üçün vəsaitlər ayrılmalıdır.

Ekoloji cinayətkarlıqla mübarizənin hüquqi əsasının möhkəmləndirilməsi üçün ekoloji problemlərin həllinə yönələn digər elmi-texniki proqramların, "Əhalinin sağlamlığının qorunması barədə", "Ölkənin ekoloji təhlükəsizliyi barədə" dövlət proqramlarının qəbul edilməsi çox vacibdir.


downloaded from KitabYurdu.az

Ekoloji cinayətlərlə mübarizədə elmi-praktiki konfransların, iclasların,"dairəvi masaların" keçirilməsinin rolu artır. Vacib tədbir kimi yeni ixtisaslaşdırılmış elmi kriminoloji istiqamətin- ekoloji kriminologiyanın inkişaf etdirilməsi qarşıda durur. Ekoloji kriminologiya ekologiya sahəsində ictimai münasibətləri və sosial təcrübəni tədqiq etməli, ekoloji cinayətlərin törədilməsinin səbəb və şəraitlərini öyrənməli, onlarla mübarizə və nəzarət tədbirləri barədə tövsiyyələri işləyib hazırlamalıdır.

İnterpolun 62-ci Baş Assambleyası 1993-cü ildə qəbul etdiyi rezolyusiyasında bu təşkilatın üzvü olan dövlətlərə öz ölkələrində ekologiya sahəsində cinayətlərin təhqiqatı ilə məşğul olan və digər hüquq-mühafizə orqanları ilə əlaqədə olan xüsusiləşdirilmiş polis bölmələrinin yaradılmasını tövsiyyə etmişdir.

Ekologiya polisi ekoloji hüquqpozuntuların qarşısının alınması, aşkar olunması və aradan qaldırılması; onların təhqiqatının aparılması; ekoloji cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin aparılması; ekoloji hüquqpozuntulara görə cərimələrin yığılması; təbii ehtiyatların istifadəsi üçün xüsusi razılıq almış hüquqi və fiziki şəxslər tərəfindən lisenziyada nəzərdə tutulmuş qaydalara riayət olunmasına nəzarət və digər funksiyaları həyata keçirə bilər.

BMT-nin Qahirə şəhərində keçən cinayətkarlığın qarşısının alınması üzrə Konqresdə bu forumun iştirakçılarına xüsusiləşdirilmiş ekologiya məhkəmələrinin yaradılmasını, təbiətin mühafizəsi işləri ilə bağlı and içənlərin siyahılarının tərtib edilməsini tövsiyyə etmişdir. Çox vaxt məhkəmələr cəza təyin edərkən cinayət qanununun müvafiq maddəsində nəzərdə tutulmuş cəzanın ən aşağı dərəcəsini, şərti məhkumetməni, cəzanın təxirə salınmasını tətbiq edirlər. Xüsusiləşdirilmiş ekoloji məhkəmələr isə bu vəziyyəti dəyişdirə bilərlər.

Ekoloji hüquqpozuntuların və ətraf mühitin pozulmasının davam etdiyi bir dövrdə ekoloji sahədə məsuliyyət növlərinin liberallaşması gələcəkdə kəskin mənfi nəticələrə gətirib çıxara bilər. Ekoloji cinayətkarlıqla mübarizədə həmişə bir həqiqət yaddan çıxarılmamalıdır ki, bu cinayətlər həyatın bioloji təməli, insanların sağlamlığı və inkişafı üçün real təhlükə yaradır.



downloaded from KitabYurdu.az